# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.543**

**Cild: 2 Sayı: 5**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.543**

**Volume: 2 Issue: 5**

**Bakı – Baku**
**2022**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

On 01.03.2021, the journal was
included in the register
of Press publications of the
Ministry of Justice of the
Azerbaijan Republic
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Matbuat avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tedqiqat1707@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor:**
**Mübariz HÜSEYİNOV**
tədqiqatçı
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Founder and editor-in-Chief:**
**Mubariz HUSEYINOV**
researcher
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor:**
**Dürdanə HÜMBƏTOVA**
filologiya üzrə fəlsəfə doktoru, dosent
durdanahumbatova@gmail.com

**Editor:**
**Durdana HUMBATOVA**
phd in philology, docent
durdanahumbatova@gmail.com

**Redaktor köməkçisi:**
**Arzu İsgəndərzadə**
arzuferecli.isgenderzadeh@gmail.com

**Assistant editor:**
**Arzu Iskenderzade**
arzuferecli.isgenderzadeh@gmail.com

**Dillər üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV** / Azərbaycan dili
**Prof. Dr. Abbas ABBASOV** / İngilis dili

**Language editors**

**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV** / Azerbaijani language
**Prof. Dr. Abbas ABBASOV** / English language

**Elmi sahələr üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA /** Humanitar və ictimai elmlər
**Prof. Dr. Şəhla SƏMƏDOVA /** Humanitar və ictimai elmlər
**Assoc. Prof. Dr. Elza ORUCOVA /** Təbiət elmləri
**Dr. Fuad RZAYEV /** Təbiət elmləri
**Dr. Əli ZALOV /** Təbiət elmləri
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV /** Təbiət elmləri
**Prof. Dr. Yaşar MEHRƏLİYEV /** Dəqiq elmlər
**Assoc. Prof. Dr. Şahlar BABAYEV /** Texnika elmləri

**Editors in scientific fields**

**Assoc.Prof.Dr.Khatira HUSEYNOVA /** Humanities and social sciences
**Prof. Dr. Shahla SAMADOVA /** Humanities and social sciences
**Assoc. Prof. Dr. Elza ORUJOVA /** Nature sciences
**Dr. Fuad RZAYEV /** Nature sciences
**Dr. Ali ZALOV /** Nature sciences
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV /** Nature sciences
**Prof. Dr. Yashar MEHRALIYEV /** Exact sciences
**Assoc. Prof. Dr. Shahlar BABAYEV /** Technical sciences

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər bölməsi

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK,** Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN,** Monqolustan Dövlət Universiteti/ Monqolustan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJIROVA,** L.N.Qumilyov adına Avrasiya Milli Universiteti/ Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası

**Prof. Dr. Şəhla SƏMƏDOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA,** Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Şikar** QASIMOV, Azərbaycan Texniki Universiteti/ Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN,** Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne American Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖREA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

### Təbiət elmləri bölməsi

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL,** Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnklişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tedqiqat institutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Unversiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
Dr. **Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

### Dəqiq elmlər bölməsi

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV,** Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç

### Texnika elmləri bölməsi

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti / Azərbaycan

## EDITORIAL STAFF

### Humanities and social sciences section

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden Kajibek,** Kazakh Language Academy/ Kazakhstan
**Prof. Dr. Irina KREIDYCH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan

**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uugunbayar MYAGMARSUREN, Mongolian State University / Mongolia**
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr.Svetlana KOJİROVA,** L.N. Gumilyov Eurasian National University/ Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA,** Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN,** Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the Uzbekistan Academy of Sciences / Uzbekistan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGLU**, Seljuk University / Turkey

## Natural sciences section

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Nikolai BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duygu KILIC**, Amasya University / Turkey
**Prof.Dr.Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Cattle-breeding Scientific research institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA,** Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

## Exact sciences section

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal İnstitute of Technology / Sweden

## Technical sciences section

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan State University of Architecture and Construction / Azerbaijan

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/7-10

**Ülkər Yaşar qızı Allahverdiyeva**
Azərbaycan Dövlət İqtisad Universiteti
müəllim
ulker.allahverdiyeva.96@bk.ru

# TƏLƏBƏLƏRDƏ SÖZ EHTİYATININ ZƏNGİNLƏŞDİRİLMƏSİ ÜÇÜN ŞİFAHİ XALQ YARADICILIĞI NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Xülasə**

Xarici dillərin tədrisində lüğət bazasını inkişaf etdirmək çox vacibdir. Bədii mətnlər ingilis dilinin öyrənilməsində, xüsusilə ünsiyyət bacarıqlarının artırılmasında, mədəni şüurun artırılmasında və tələbələr arasında motivasiyanın yaradılmasında mühüm rol oynayır. Aparılan tədqiqatlar orijinal materialların istifadə olunduğu EFL siniflərində ədəbi mətnlərdən istifadənin potensial üstünlüklərini göstərir. Bu tədqiqatlar geniş şəkildə göstərir ki, bədii mətn dil bacarıqlarını artırmağa kömək edə bilər və linqvistik bilikləri genişləndirə bilər. Bu məqalə ingilis dilini öyrənən zaman bədii mətnlərdən istifadənin faydalarını tədqiq edir. Bədii mətnlərdən istifadə edərək lüğətin necə uğurla öyrədilə biləcəyi izah edilir..Məqalədə leksik bazasının uzun müddət yaddaşda saxlanılması üçün ədəbi əsərlərdən istifadənin vacibliyi, ədəbi əsərlərin dərs prosesində rolu vurğulanır.Eyni zamanda bədii mətnlər seçilərkən nələrə diqqət edilməsi vacib olduğu geniş şəkildə izah olunur.
***Açar sözlər:*** *xalq yaradıcılığı , lüğət , söz ehtiyyatı, dil, kontekst*

**Ulkar Yashar Allahverdiyeva**

## The importance of using examples of folklore to enrich students' vocabulary

**Abstract**

Developing vocabulary database is very important in teaching foreign languages. Literary texts play an important role in learning English language, especially enhancing communication competence, raising cultural awareness, and generating motivation among students. Research studies have shown the potential advantages of using literary texts in the EFL classrooms, which promote authentic materials. It broadly indicates that literary text can help to increase language skills, and extends linguistic knowledge. This paper shows comprehensive literature on the application and benefits of literary texts in learning and teaching English language to EFL learners. It explains how vocabulary can be learnt successfully using literary texts. This paper shows the significance of literary texts in English language teaching program. The article is emphasized the importance of using literary works to ensure that the lexical base is lasting for a long time , the role of literary works in the lesson process. At the same time, it is widely explained what to pay attention to when choosing literary texts.
***Key words:*** *folklore , vocabulary , word stock , language, context*

## Giriş

Dil özlüyündə mürəkkəb quruluşa malikdir. Hər bir dil hər şeydən öncə özünün müəyyən mənalı səs və söz sistemi ilə digərlərindən fərqlənir. Dilin malik olduğu söz sistemi birlikdə dilin lüğət fondunu təşkil edir.

Dünya ədəbiyyatında dilin sahib olduğu lüğət tərkibi ilə bağlı müxtəlif fikirlər mövcuddur. L.Daymond və L.Gutlona görə lüğət söz və onun mənası haqqında olan bilikdir ( Nation, 1990:50). Bu fikrin altında yatan ana məna bundan ibarətdir ki, güclü lüğət bazası olmadan dili anlamaq və istifadə etmək mümkün deyildir. Yəni, tələbənin müəyyən söz bazası varsa o dili anlayacaq və sözləri müxtəlif

kontekstlərdə, danışıqda, yazıda istifadə edə biləcək və bununla bərabər sözün düzgün şəkildə tələffüzünə nail olacaqdır.

Metodiki ədəbiyyatda mövcud olan fikirlərin təhlili göstərir ki, ədəbiyyat dil tədrisinin vacib elementlərindən biridir. Dil tədrisində mədəniyyətin bir hissəsi olan ədəbi nümunələrin istifadəsi tələbələrin inkişafına müsbət təsir göstərir.

Tədqiqatlar dil və mədəniyyət arasında əlaqənin olduğunu göstərir. Dil ilə mədəniyyətin əlaqəli şəkildə tədqiq edilməsində C.Kramşın fikirləri diqqəti çəkir.Onun düşüncəsinə görə, dil xalqın özünəməxsusluğunu, milli ruhunu əks etdirir (Kramsch, 1998: 65).

C.Kramş haqlı olaraq yazır ki, dil millətin xarakterini əks etdirir və dil sadəcə, qarşılıqlı anlaşma vasitəsi olmayıb, eyni zamanda danışanın dünyagörüşünün, eləcə də ruhunun qəlibidir (Kramsch, 2000: 29).

Mükəmməl ədəbiyyat mümkün ola biləcək dərəcədə ən yüksək məna daşıyan bir dildir (Taylor, 2000: 13).

Qeyd edilən səbəbə görə xarici dili öyrənmək və həmin dilin daşıyıcıları ilə ünsiyyət qurmaq üçün onun aid olduğu xalqın mədəni nümunələri ilə tanış olmaq olduqca önəmlidir.Bunun üçündə xarici dilin öyrədilməsində xüsusilə də lüğət ehtiyatının zənginləşməsində etnopedaqoji materiallara yer verilməsi zəruri hesab edilməlidir.

Öyrənin nitqini düzgün inkişaf etdirmək üçün ona leksik materialı öyrətmək lazımdır. Leksika dilin əsasıdır, onsuz nitqi təsəvvür etmək olmaz (Povey, 1967:40).

Nəzərə çatdırmaq istədiyimiz fikir budur ki, sözü bilməklə kifayətlənmək olmaz. Həmçinin həmin leksik vahidin müəyyən kontekstdə nə mənaya gəldiyini bilmək və düzgün istifadə etmək lazımdır. Buna görə də müəllim, sözün mənasını cümlə daxilində öyrətmək və tələbənin malik olduğu lüğət bazası ilə öyrənmiş olduğu yeni sözlər arasında əlaqə yaratmaqda, leksik vahidi xatırlamaqda öyrənənə kömək etmək üçün müxtəlif üsullardan istifadə etməlidir.

Şübhəsiz ki, xarici dilin tədrisində dilin özündə ehtiva etdiyi lüğət bazasının öyrədilməsi mühüm əhəmiyyət kəsb edir. Bu gün leksik materialların tələbələrə intensiv öyrədilməsi hələ də axtarışa ehtiyacı olan problemlərdəndir. Lüğətin tədrisinin darıxdırıcı bir proses olduğunu nəzərə alsaq bu işdə daha maraqlı üsullardan istifadə olunması hər zaman diqqətdə saxlanılmalıdır. Fikrimcə, bu prosesdə xalq yaradıcılığı nümunələrindən istifadə müəllimə dərsi uğurlu təşkil etməsində kömək etməklə yanaşı öyrənin inkişafına müəyyən mənada təkan verə bilər.

Bədii mətnlər ingilis dilinin öyrənilməsində, xüsusən də təkmilləşdirilməsində, kommunikasiya səriştəsinin, mədəni şüurun artırılmasında və tələbələr arasında motivasiya yaratmaqda mühüm rol oynayır (Brown, 2001:37). Tədqiqatlar EFL sinif otaqlarında ədəbi mətnlərdən istifadənin dil bacarıqlarını artırmaq və linqvistik bilikləri genişləndirmək kimi potensial üstünlüklərə malik olduğunu göstərir.

İlk növbədə ingilis dili tədris edilən sinif otağında şifahi xalq yaradıcılığı nümunələri ilə işləmək, tələbələri kontekstdə istifadə olunmuş aydın, başa düşülən, onlara şəxsi həyatlarında baş verən hadisələri, keçirdikləri emosional hisləri təsvir etməyə kömək edəcək məna yükünə malik olan dil ilə təmin edir.

Bir dərsdə tədris ediləcək sözlərin sayını müəyyənləşdirərkən öyrənənlərin lüğət biliyinə diqqət yetirilməlidir. Başqa sözlə, öyrənənlərə məlum olan köhnə sözləri nəzərdə saxlayaraq onlara yeni sözlər öyrədilməlidir. S.Kraşen bunu "1 + 1" düsturu ilə izah edir. S.Kraşenin irəli sürdüyü düsturda, 1 şəxsdə mövcud olan linqvistik bacarıqlara, +1 isə şagirdin qəbul edəcəyi yeni məlumata işarə edir. Müvafiq olaraq, öyrədən şifahi xalq ədəbiyyatı nümunələrindən istifadə etməzdən əvvəl, tələbənin mövcud linqvistik strukturlar haqqında olan biliyini diqqətdə saxlamalıdır (Krashen,2004:19).

Sözləri öyrədərkən mətn-cümlə-söz üçlüyü arasında əlaqə nəzərə alınmalıdır (Showalter,2003: 5). Hər bir söz müxtəlif mənalar ifadə etdiyinə görə bir məfhumun hansı mənada istifadə olunması yalnız mətn və cümlə daxilində başa düşülə bilər.

Leksik bazanın inkişaf etdirilməsində ən faydalı üsul kontekstə əsaslanan tədris üsuludur (Christopher, 1997:24). Bu üsulu həyata keçirmək üçün ikinci dilin tədrisində ədəbi mətnlərə yer verilir.

Xarici dil tədrisində ədəbiyyatın istifadəsi hər keçən gün inkişaf edən bir sahə olmaqla bərabər, bütün dünyada tətbiq olunan bir üsuldur. Ədəbiyyat oxu, yazma, dinləmə, danışma kimi 4 əsas dil bacarığının

inkişafı ilə məhdudlaşmır, həm də lüğətin tədrisi, tələffüz və qrammatika kimi alt bacarıqların inkişafında mühüm rol oynayır. Bu fikrə istinadən deyilə bilər ki, ədəbi nümunələr bir dilin sahib olduğu anlayışlar toplusunu şəxsə öyrətməkdə əvəzsiz vasitədir.

Ədəbiyyat xarici dil bacarıqlarının inkişafına kömək edir çünki sözlərin kontekstdə istifadəsi və kompleks cümlə quruluşları öyrənənlərə zəngin istifadə imkanlar verir (Nation, 2001:10).

Tələbə yalnız sözün ifadə etdiyi mənanı əzbərləməklə yadında saxlamamalı, onu leksikonunda özününkü etməyi bacarmalıdır. O, bildiyi sözü, cümlənin, mətnin daxilində hər hansı bir məqamda istifadə etmək bacarığına nail olmalıdır.Fikrimcə, ədəbi mətnlərin dil öyrədilməsi prosesində bu mənada istifadəsi müəllimə geniş imkanlar verir.

Folklor nümunələri müəllimlərə sözü kontekstləşdirməyə və sözün öyrədilməsi, qavranılması prosesini sadələşdirməyə kömək edir. Bunun sayəsində tələbələr yeni sözləri asanlıqla öyrənə bilirlər. Blur iddia edir ki, öyrənənlər dilin özündən çox onun mənasına fokuslanan materiallar vasitəsilə dili daha yaxşı öyrənirlər (Nation, 1990: 31).

Qeyd edilməsi zəruri olan digər diqqət çəkən məqam bundan ibarətdir ki, tədqiqatçılar maraqlı hekayələr oxumağın təsadüfi söz öyrənilməsinə müsbət təsir göstərdiyini vurğulayırlar. Öyrənənlər yeni sözlərin mənasını kontekstdə anlaya və onları daha uzun müddət ərzində yadda saxlaya bilirlər (McKay, 2001:67 ).

Mckay ədəbiyyatdan istifadənin 2 əsas faydasını qeyd etmişdir:

-Bu nümunələr özündə müəyyən dil strukturlarını ehtiva edir.

-Xalq yaradıcılığı nümunələrinin başqa bir xüsusiyyəti onun konkret lüğət tərkibinə malik olmasıdır.Yəni bunlar terminlərdən, abstrakt sözlərdən tam azad olmuş nümunələrdir.Bu nümunələr tələbənin diqqətini kontekstdə istifadə olunmuş sözlərə yönəltmək gücünə malikdir.

Ədəbiyyat yaradıcı təfəkkürünü inkişaf etdirən və öyrənənlərin kommunikativ səriştəsini artıran ideal bir vasitədir (Babaee, 2014:80).

Şifahi xalq yaradıcılıq nümunələrinin dili akademik yazı dilinə nisbətən daha sadədir. Çox nadir hallarda şifahi ədəbi nümunələr içərisində “notwithstanding the fact that” (baxmayaraq ki) frazasına rast gəlinə bilər (Mccarten, 2007:11).

Şübhəsiz ki, şifahi xalq yaradıcılıq nümunələri yeni leksik və qrammatik strukturlar üçün də əsas mənbə hesab edilə bilər . Dil materialları canlı, fərdin inkişaf səviyyəsinə uyğun olduqda onlar, "qeyri-ixtiyari" olaraq sözləri kontekstdən mənimsəyə bilirlər (Collie, 1990:3).

Karter qeyd edir ki, müxtəlif mədəniyyətlərdən gələn folklor nümunələrindəki əsas hadisənin ardıcıllığının universallığı və ya bənzərliyi bu hekayələri " dil öyrənmək üçün ən əlverişli vasitələrdən biri edir ". İngilis dili siniflərində ədəbi nümunələrdən istifadə, hədəf dili yeni öyrənənlərə indiki və keçmiş zaman kimi qrammatik strukturları kontekstdə göstərir. Ədəbi nümunələrin altında yatan əsas məna və mətn strukturu tələbələrə dilin bütün strukturlarına diqqət yetirmək üçün öz idrak sahələrindən daha çox istifadə etmələrinə şərait yaradır (Carter, 2007: 13).

## Nəticə

Qeyd edilən fikirlərin təhlili onu göstərir ki, xarici dilin öyrənilməsində əsas “material” olan zəngin lüğət ehtiyatı olmadan həmin dildə sərbəst ünsiyyət qurmaq mümkünsüz kimi görünür. Bu səbəbdən dil dərslərində lüğət ehtiyatının zənginləşdirilməsi təxirəsalınmaz mərhələlərdən hesab edilir.Ədəbi mətnlərdən istifadə etməklə aparılan dərs prosesi tələbələrin marağını mövzuya cəlb edir, həmçinin diqqətin uzunmüddətli olmasına, təfəkkürün inkişafına şərait yaradır. Fikrimcə, xalq yaradıcılıq nümunələrindən tədris prosesində istifadə etməklə “əzbərçilik məktəbindən ” “ təfəkkür məktəbinə ” keçidin əsası qoyulur.

## Ədəbiyyat

1. Babaee, B. & Yahya, W. R. W. (2014), Significance of Literature in Foreign Language Teaching. International Education Studies.
2. Brown, H.D. (2001), Teaching by Principles: An Interactive Approach to Language Pedagogy, 2nd ed. White Plains, NJ: Pearson Education.

3. Carter, R. (2007), Literature and Language Teaching 1986-2006: A Review. International Journal of Applied Linguistics.
4. Christopher, B, Ronald. (1997), C.Literature and Language Teaching, Oxford University Press.
5. Collie J, Slater S. (1990), Literature in the Language Classroom: A Resource Book of Ideas and Activities. Cambridge: Cambridge University Press
6. Kramsch, C. (1998), Language and Culture. Oxford: Oxford University Press.
7. Kramsch, C. (2000), The avatars of literature in language study//Modern Language Journal, № 2
8. Krashen, S. (2004), The Power of Reading. 2nd edition. Portsmouth, NH: Heinemann Publishing Company
9. Mccarten, J. (2007), Teaching Vocabulary Lessons From the Corpus Lessons for the Classroom. Cambridge University Press
10. McKay, S.L. (2001), Literature as content for ESL/EFL. New York: Heinle and Heinle.
11. Nation I.S.P. (1990), Teaching and Learning Vocabulary. Boston: Heinle & Heinle Publishers,
12. Nation I.S.P. (2001), Learning vocabulary in another language. Cambridge: Cambridge University Press.
13. Povey, J.F. (1990), Literature in TESOL Programs: The Language and the Culture. TESOL Quarterly, 1(2).
14. Showalter, E. (2003), Teaching Literature. Oxford, UK: Wiley Blackwell.
15. Taylor, E. K. (2000), Using folktales. Cambridge: Cambridge University Press.

**Rəyçi: fil.e.d. Qəzənfər Kazımov**

Göndərilib: 29.03.2022 Qəbul edilib: 04.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/11-16

**Arzu Tofiq qızı İsgəndərzadə**
AMEA Nəsimi adına Dilçilik İnstitutu
dissertant
arzuferecli.isgenderzadeh@gmail.com

# "HƏQİQƏT" QƏZETİNİN AZƏRBAYCAN MƏTBUATINDAKI YERİ

**Xülasə**

XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan mətbuatının inkişafı baxımından çox əhəmiyyətlidir. Mətbuatın sürətli inkişaf etdiyi bir dövrdə Üzeyir bəy Hacıbəyovun redaktorluğu ilə nəşr edilən "Həqiqət" qəzeti də dövrün siyasi, sosial, mədəni həyatının aynası idi və həyatın müxtəlif sahələrini özündə əks etdirirdi. Qəzetin yazıçı heyətini dövrün Əhməd bəy Ağayev, Əli Abbas Müznib, Abdulla bəy Divanbəyoğlu, Üzeyir Hacıbəyov, Hüseyn Cavid, Şuşi İbrahim Tahir Musayev, Həsən bəy Ağayev kimi tanınmış ziyalıları təşkil edirdi. "Həqiqət" qəzeti heç bir şeydən xəbəri olmayan bir xalqın nə maarif, nə ədəbiyyat, nə mədəniyyət, nə də təhsil sahəsində inkişaf edə bilməyəcəyi fikrini müdafiə etmişdir. Buna görə də qəzetin səhifələrində daha çox yerli və xarici ölkələrdə baş verən xəbərlərə üstünlük verilmişdir. Xəbərlərin müəyyən başlıqlar altında sistemləşdirilərək verilməsi dövrün ziyalılarının diqqətini daha çox ictimai və siyasi xəbərlərin çəkdiyinin göstəricisidir. Qəzet dövrün tələblərinə uyğun olaraq ərəb əlifbası ilə nəşr edilirdi. Ərəb, fars, osmanlı (türk) sözlərinin çox işlənməsinə baxmayaraq qəzetin dili anlaşılandır. "Həqiqət" qəzeti Azərbaycan demokratik mətbuatında öz mövqeyi olan mətbu orqanlarından biri idi.

***Açar sözlər:*** *Həqiqət qəzeti, mətbuat, Azərbaycan mətbuatı, XX əsr, milli mətbuat*

**Arzu Tofig Iskenderzade**

## The place of "Haqiqat" newspaper in Azerbaijan press

**Abstract**

The end of the 19th and early 20th centuries is very important for the development of the Azerbaijani press. The "Khagigat"(Truth) newspaper, published by Uzeyir Hajibeyov's editorial office, was a mirror of the political, social and cultural life of the period and reflected in different spheres of life. Writers of the newspaper were famous intellectuals such as Ahmed bey Agayev, Ali Abbas Muznib, Abdulla bey Divanbayoglu, Uzeyir Hajibeyov, Hussein Javid, Shushi Ibrahim Tahir Musayev, Hasan bey Agayev. The newspaper "Khagigat"(Truth) argued that a nation that was unaware of anything could not develop in education, literature, culture, or education. For this reason, the pages of the newspaper have been predominantly favored by local and foreign news. Systematization of news under certain headings is an indication of the fact that the attention of the intellectuals of the period attracted more public and political news. The newspaper was published in Arabic alphabet according to the requirements of the period. Although the Arabic, Persian and Ottoman words are widely used, the language of the newspaper is understandable. The "Khagigat"(Truth) newspaper was one of the distinguished press organs in Azerbaijan's democratic media.

***Key words:*** *Haqiqat newspaper, press, Azerbaijani press, XX century, national press*

## Giriş

Qəzet və jurnallar aid olduqları dövrü, o dövrün ictimai həyatını, siyasi hadisələrini, ədəbiyyatını, tarixini güzgü kimi əks etdirən zəngin mənbələrdir. XIX əsr – XX əsrin əvvəllərində həm Azərbaycanda, həm də dünyanın bir çox ölkəsində ziyalılarımızın düşüncə tərzini, hadisələrə verdiyi reaksiyalarını məhz qəzet və jurnallar sayəsində öyrənmək mümkündür. XVII əsrdə ortaya çıxan mətbuat anlayışı, xüsusilə Fransız İnqilabından sonra 18-ci əsrdə öz xüsusiyyətlərini qazandı. L. Blanc, "İnqilab Tarixi" kitabında "Kitab dövrü bitir, qazet dövrü başlayır. Bu dövr qəzetin ən parlaq dövrüdür" deyərək jurnalistika anlayışını istifadə edən ilk şəxs oldu. XIX əsrin ortalarından bəri dünyada və Rusiyadakı inkişaflar Azərbaycandan da yan keçmir. Şimali Azərbaycan Rusiyanın tərkibində idi və çar

hakimiyyəti onun müstəmləkəçi siyasətini yaymaq üçün vasitələr axtarırdı. Bunun üçün qəzet və jurnaldan daha yaxşı bir vasitə ola bilməz idi. Uzun müddət Qafqazın inzibati və mədəni mərkəzi Tiflis olduğundan, Bakıda ilk rus qəzetinin nəşrinə qədər rus dilində qəzetlər nəşr olunmağa başladı (Aşırlı, 2009:6).

XIX əsrin sonu XX əsrin əvvələri ölkəmizin maarifpərvər ziyalıları tərəfindən Azərbaycan dilinin saflığı və ədəbi dilinin statusu uğrunda gərgin mübarizələrin getdiyi tarixi bir dövrdür. Bəhs etdiyimiz dövr eyni zamanda Azərbaycan mətbuatının inkişafı baxımından da çox əhəmiyyətlidir. Belə ki, bu dövrdə yeni mətbəələr qurulur, qəzet və jurnallar nəşr edilir, fikri fəaliyyətin inkişafı milli şüurun oyanmasına da təkan verirdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində ədəbi dilin milli dövrü başlayır. Bu dövr tarixi şəraitlə əlaqədar neft şəraitinin meydana çıxması, kapitalizmin sürətlə inkişafı, iqtisadi əlaqələrin genişlənməsi, təhsilin güclənməsi ədəbi dilin ictimai funksiyasının daha da genişlənməsinə səbəb oldu. Belə bir şəraitdə publisistik üslub da inkişaf etməyə başladı (Kazımov, 2008: 57).

1905- ci ilə qədər Azərbaycanda nəşr edilən qəzetlərə baxdığımızda rus idarəsinin və senzurasının Azərbaycan türkcəsiylə qəzet və jurnal nəşrinə icazə vermədiyini, bu dövrdə nəşr edilən qəzetlərin əksəriyyətinin rus senzurasının təsiri altında olduğunu və senzura tərəfindən ciddi nəzarət altında saxlanıldığını görürük. Buna görə də Azərbaycan-türk mətbuatı əsas inkişafını 1905-ci il rus inqilabından sonra göstərir. Y.Akpınar mövzu ilə bağlı danışarkın yazır: “1875-1905-ci ilə qədər Azərbaycanda ancaq 5 qəzet nəşr edilirdisə, 1905-1920-ci illər arasında bu qəzetlərin sayı 86-nı keçmişdir” (Akpınar, 1994: 70).

Azərbaycanda ilk qəzet olan Əkinçinin nəşri dayandırıldıqdan sonra ana dilimizə qəzetlərin nəşr edilməsi məsələsi gündəmə gəldi. Bunun üçün ilk olaraq Mirzə Məhəmməd bəyin “Cam hacannüma ve ayişəyi bədennüma” adlı qazeti nəşr etdirmə arzusu reallaşmadı. Milli mətbuatdakı boşluğu Ziya qəzeti ilə Səid Ünsizadə doldurdu.

Əkinçinin nəşrinə son verildikdən sonra Səid və Cəlal Ünsizadə qardaşları 1879cu ildə Tiflisdə “Ziya”, “Ziya-yı Qafqaziyyə” və “Kəşkül” adlı qazetlərin nəşrinə başlayırlar.

14 oktyabr 1879-cu ildə "Ziya" qəzetinin ilk sayı nəşr olunmuşdur. Qəzet litoqrafiya metodu ilə həftədə bir dəfə nəşr olunurdu. Azərbaycan mətbuat tarixində ilk şəxsi mətbəə olan “Ziya” Tiflisdə Zailovun evində nəşr olunmağa başladı. Azərbaycan dilini bilən mütəxəssislərin, mətbəə işçilərinin yoxluğu qəzetin nəşrində ciddi problemlərin yaranmasına yol açırdı.

Xatırladaq ki, XIX əsrdən başlayaraq Azərbaycandakı siyasi hadisələrlə bağlı olaraq inkişaf etməyə başlayan mədəni fəaliyyətlər Avropadakı alimlərin fikirlərini, məqsəd və ideyalarını yaxından izləyən ziyalıların səyi nəticəsində yeni bir görünüş qazanmaqda idi. Bu ziyalıların əsas məqsədi xalq mədəniyyətinin səviyyəsini inkişaf etdirən və müasir dünya ilə tanış edən ədəbiyyat yaratmaq idi. Mirzə Cəfər Topçubaşov, Mirzə Kazım Bəy, Abbasqulu ağa Bakıxanov, Kazım bəy Zakir, İsmail bəy Qutqaşınlı ilk ağıla gələn adlardır. Ədəbiyyat sahəsində bu inkişaflar təbii ki, mətbuat sahəsində də öz əksini tapacaqdı. Sonrakı illərdə Əkinçidən sonra türk dilində çap və milli mətbuat adına daha aktiv işlər başlanacaqdı. Bunlar arasında ortaq türkçə yazmaq cəhdi xüsusilə diqqətəlayiqdir. “Sırat-ı Müstəqim”, “Türk Yurdu”, “İqdam”, Baxçasarayda “Tərcüman”, Bakıda “Yaşam”, “Füyüzat”, “Şəlalə”, “İrşad” və “Açıqsöz” kimi nəşrlər bu tendensiyanı açıq şəkildə dəstəkləmişdir. 1875-1905-ci illərə qədər Azərbaycanda yalnız 5 qəzet nəşr olunmuşdur. Bu rəqəmlər 1905-1920-ci illər arasında 86 dan çox olmuşdur. XIX əsrin sonunda və XX əsrin əvvəllərində mətbuatda, nəşr həyatında böyük bir artım və canlanma baş vermişdir. Ruslar, Qafqaz və Azərbaycanın işğalından sonra həyata keçirdikləri müstəmləkəçilik siyasətinə əsasən xalqla münasibət qura bilmək, hökümətin qərarlarını və qanunlarını onlara çatdırmaq məqsədiylə 1828-ci ildə Tiflisdə “Tifliskiy Vedomosti” (Tiflis Xəbərləri) adıyla bir qazet nəşr etdirirlər. Bu rus qəzetində Azərbaycan haqqında müxtəlif məqalələr var idi. 1829-cu ildə gürcü, 1830-cu ildə erməni, 1832-ci ildə isə Azərbaycan türkcəsiylə əlavələr nəşr edən bu qəzetin “Tiflis Əxbarı” adını daşıyan Azərbaycan dilindəki əlavəsi bu günə qədər aşkar edilməmişdir. Mənbələrə əsasən “Tiflis Əxbarı” qısa bir müddət nəşr edildikdən sonra bağlanır. Yenə Tiflisdə, 1838-1864 cü illərdə rus dilində nəşr olunan “Zaqavkaskiy Vestnik” qəzeti 1845ci ildən etibarən Azərbaycan türkcəsiylə də “Qafqazın bu tərəfinin xəbəri” adıyla nəşr olunur. Bu əlavənin nəşri 1849cu ildən dayandırılır. Bu dərgi də rus senzurası tərəfindən dayandırıldıqdan sonra 1903cü ilə qədər Azərbaycan

türkcəsiylə qazet və jurnal nəşr olunmasına icazə verilməmişdir. 1905ci ilə qədər Azərbaycanda nəşr olunan qəzetlərə baxdıqda rus idarəsinin və senzurasının, Azərbaycan türkcəsiylə qəzet nəşrinə icazə vermədiyini və bu dövrdə nəşrinə icazə verilən gəzetlərin böyük qisminin rus senzurasının təsiri altında olduğunu və senzura tərəfindən ciddi nəzarət altında saxlanıldığını görürük.

Azərbaycanda ilk qəzet olan Əkinçinin nəşri dayandırıldıqdan sonra ana dilimizə qəzetlərin nəşr edilməsi məsələsi gündəmə gəldi. Bunun üçün ilk olaraq Mirzə Məhəmməd bəyin "Cam hacannüma ve ayişəyi bədennüma" adlı qazeti nəşr etdirmə arzusu reallaşmadı. Milli mətbuatdakı boşluğu Ziya qəzeti ilə Səid Ünsizadə doldurdu.

Azərbaycanda türk mətbuatı əsas inkişafını 1905ci il rus inqilabından sonra göstərir (Zeynalzadə, 2006:276-291). 1905-1920-ci illər arasında Azərbaycanda altmışa qədər qəzet və jurnal nəşr olunur. Bunların arasında siyasi və mədəni sahədə önəmli yer tutan başlıca qəzet və jurnalları sayacaq olsaq: Həyat (1905-1906), İrşad (1905-1908), Təkamül (1906-1907), Yeni Həyat (1907-1908), Burhan-Tərəqqi (1906-1911), İttifaq (1908-1909), Mazhar/Məzhər (1908-1917), Tərəqqi (1908-1909), Həqiqət (1909-1910), Nicat (1910-1912), Səda (1909-1911), Hilal (1910-1911), Əsar-Haqiqət (1911-1912), Yeni İrşad (1911-1912), Səda-yı Vətən (1911-1912), Bəsirət (1914-1920), Açıq Söz (1915-1918), Yeni İqdam (1915), Seda-yi Qafkaz (1915-1916), Son Xəbər (1915-1916), Doğru Söz (1916-1917), İttihad (1917-1920), Millət (Ağməscid 1917, Bakı 1918-1920), Müsavat (1917), Azərbaycan (Gəncə 1918, Bakı 1918-1920), İstiqlal (1918-1920), Dəvət-Qoç (1906), Debistan (1906-1908), Molla Nəsrəddin (1906-1931), Himmət/Hümmət (1904-19059, Rəhbər (1906-1907), Behlül (1907), Füyuzat (1906-1907), Yeni Füyuzat (1910-1911), Günəş (1910-1911 ), İşıq (1911-1912), Məktəb (1911-1920), Hak Yolu (1911-1912), Kəl Niyyət (1912-1913), Şəlalə (1913-1914), Dirilik (1914-1916), Tuti (1914-1917), Baba-yı Əmir (1915-1916), Qurtuluş (1915-1920), Şeypur (1918-1919), Zənbur (1918-1920), Jurnallar: Zənbur, Hilal, Məzəli, Şibah-i Sakıb, Necat, Yeni Füyuzat, Əsar-i Həqiqət, Hak Yolu, İşıq, Mirat, Kəl Niyət, Məktəb, Şəlalə, Dirilik, Tuti, Baba-yi Əmir, Qurtuluş, Əvrak-i Nəfisə, Mədəniyyət, Əl Həyat, Zəhmet Həyatı, Gənclər sədası, Qurtuluş yolu qazet və jurnallarını görəbilərik.

Azərbaycan uzun müddət siyasi çaxnaşmaların və beynəlxalq oyunların səhnəsi kimi qeyri-sabitlik nümayiş etdirsə də, həmişə mədəniyyət və incəsənət baxımından inkişaf etmiş bir coğrafiya olmuşdur. Ədəbiyyatda, musiqidə müşahidə etdiyimiz bu inkişaf XX əsrin ilk dövründə Azərbaycanın geniş bir mətbuata sahib olmasında da özünü göstərmişdir. Azərbaycanın ziyalı mütəfəkkirləri, klassik nümunələrimizin yazıçıları mətbuata mənasız yerə "xalqın görən gözü, eşidən qulağı, danışan dili" deməmişdilər. Azərbaycan xalqının milli oyanış yoluna girməsində, dövlət və idarəçilik düşüncələrinin formalaşmasında, ictimaiyyətlə əlaqələrin yaradılmasında milli mətbuatın rolu böyükdür və onun yeri heç bir şeylə doldurula bilməz.

**Həqiqət qəzetinin yaradılması**

"Həqiqət" qəzeti də 1909-1910-cu illərdə Bakıda ərəb əlifbası ilə çap olunan ictimai, siyasi, eyni zamanda ədəbi özəllik daşıyan önəmli bir gəzetdir. Qəzetin baş redaktoru Üzeyir Hacıbəyov idi, Orucovların mətbəəsində çap olunurdu. Bu qəzetin vasitəsilə dönəmin bir çox problemləri, xalqın bu problemlərə qarşı axtardığı çıxış yollarını görmək mümkündür. "Gündəlik çıqan siyasi, ədəbi, iqtisadi türk dilində müsəlman gazetəsidir" şüarıyla nəşr olunan "Həqiqət" qəzeti aid olduğu dövrün siyasi, sosyal və ədəbi həyatına ayna tutmaqda ve bizi keçmişimizdən xəbardar etməkdədir. Xüsusilə də, Azərbaycan sahəsində çalışan bir tədqiqatçı üçün bu məqalələri oxumaq və qiymətləndirmək, 1910-cu ili əhatə edən dönəmi başa düşməsi və rəy bildirməsi baxımından önəmlidir.

Qəzeti nəzərdən keçirdikdə milli kimlik, müasirləşmə, təhsil problemləri, siyasətə dair məqalələr, daxili və xarici xəbərlərin üstünlük təşkil etdiyini görürük. O dövrdə ictimai - iqtisadi həyatda baş verən bütün yeniliklər, siyasi hadisələr, ədəbi proseslər "Həqiqət" qəzetinin səhifələrində işıqlandırılırdı. Qəzetin yazıçı heyətini dövrün Əhməd bəy Ağayev, Əli Abbas Müznib, Abdulla bəy Divanbəyoğlu, Üzeyir Hacıbəyov, Hüseyn Cavid, Şuşi İbrahim Tahir Musayev, Həsən bəy Ağayev kimi ziyalıları təşkil edirdi. Qəzetin aktiv üzvlərindən olan Əhməd bəy Ağaoğlu Bakıda yaşadığı on il ərzində, Azərbaycan türklərində milliyyətçilik və türkçülük şüurunun inkişaf etməsinə çalışmış, bu müddət ərzində "Həyat", "İrşad", "Tərəqqi"qəzetlərini nəşr etdirmiş, "Həqiqət" qəzetində də Əhməd Ağayev imzası ilə məqalələr yazmışdır.

"Həqiqət" qəzeti heç bir şeydən xəbəri olmayan bir xalqın nə maarif, nə ədəbiyyat, nə mədəniyyət, nə də təhsil sahəsində inkişaf edə bilməyəcəyi fikrini müdafiə etmiş, buna görə də qəzetin səhifələrində daha çox yerli və xarici ölkələrdə baş verən xəbərlərə üstünlük verilmişdir. Qəzetdə yer alan xəbərlər aşağıdakı başlıqlar altında sistemləşdirilmişdir:

1. Bakı xəbərləri;
2. Qafqaz xəbərləri;
3. Osmanlı işləri;
4. İran işləri;
5. Teleqraf xəbərləri;
6. Xarici xəbərlər;
7. Daxili xəbərlər.

**Bakı xəbərləri:** Bu başlıq altında Bakı şəhərində gündəlik baş verən ictimai hadisələr (soyğun, qəza, ölüm və s.) barəsində məlumat verilmişdir. Bununla yanaşı şəhər idarəsində olan iclaslar, vəzifəyə yeni təyin olunanlar və ya vəzifədən uzaqlaşdırılanlar barəsində xəbər verilmişdir. *Şollar su yollarının inşası içün şəhər idarə məclisi şəhər idarə azalarından ikisinin təht-i idarəsində iki inşaiyə qamisiyəsinin təşkilini təklif etmişdir*; *Sırağagün Bakü müsəlmanlarının füqəra və duəfa qismi Bakü şəhər idarə məclisinə aşağıdakı məzmunda bir ərizə vermişlərdir:*

*Cənablar! Siz cəmaətin vəkili olduğunuz haldə bir deyin görək cəmaətə nə xeyriniz dəgibdir? Biz sizdən bunu sual ediyoruz ki, aya, siz nə iş görürsünüz ? Ətin bahalanmasına səbəb nədir? Qəssablar öylə bir ədəbanə, zalimanə hərəkət edirlər və ətin qiymətini o dərəcəyə qaldırıblar ki, fəqirlər içün ət yemək müəssər olmuyor.*

*Biz sizdən sual ediyoruz ki, aya, sizin bundan xəbəriniz varmı? Yoxsa qəssablar ilə dost və aşna olduğunuz içün bu işlərinə barmaq arasından mı baqıyorsunuz? Bu işə bir sərəncam edin biz fuqərayı bu bəladan qurtarın* (1).

**Qafqaz xəbərləri:** Bu başlıqda Qafqazda baş verən ictimai və siyasi hadisələr işıqlandırılmışdır. *Tiflis oyizdində havalar yazı andıracaq dərəcədə isti olduğundan əhali düçar-i əndişə olmuşdur. Ağaclar indidən çiçəkləməgə başlamışdır* (6).

**Osmanlı işləri:** Bu başlıq altında Osmanlı ilə digər ölkələr arasındakı əlaqələr, Osmanlı ordusunun son vəziyyəti barəsində xəbərlərə yer verilmişdir. Bu xəbərlər arasında diqqət çəkən "Novaya Vremya" adlı rus qəzetinin Osmanlı ordusunu "türk təhlükəsi" deyə adlandırması, Çırağan sarayının yanması xəbəri, Osmanlı və Almaniya əlaqələri, Osmanlı və İtaliya əlaqələri, Osmanlı və Yunanıstan əlaqələrinə dair xəbərlərdir (11).

**İran işləri:** Adından da bəlli olduğu kimi bu başlıqda İranda baş verən hadisələr işıqlandırılırdı. Bu xəbərlər arasında Tehran və Təbrizlə bağlı xəbərlərə daha geniş yer ayrılırdı. Bundan başqa, İranın digər dövlətlərlə olan əlaqələri barədə xəbərlərə yer verilirdi. Bu xəbərlər arasında İngiltərə və Rusiyanın İrana borc pul verməsi ilə bağlı xəbər, hökümət əsgərləri ilə Rəhim xan arasında yaşanan hadisələr, İranda baş verən ayaqlanma ilə bağlı xəbərlər xüsusi ilə diqqət çəkir.

**Teleqraf xəbərləri:** Bu başlıq altında yazılan xəbərlərdə əvvəlcə hadisələrin baş verdiyi gün və ay qeyd edilmişdir. Daha sonra fərqli şəhərlərdə baş verən ictimai, siyasi, mədəni hadisələr barəsində məlumat verilmişdir. Bu başlıq altında toplanan yazıları oxuyaraq, o illərdə İstanbul, Urmiya, Peterburq, Paris, London, Berlin, Vyana, Madrid, Tehran, İsfahan və s. kimi şəhərlərdə baş verən hadisələr haqqında məlumat əldə edə bilərik.

**Daxili xəbərlər:** Bu bölmədə Rusiyanın fərqli şəhərlərində baş verən ictimai və siyasi hadisələr barəsində xəbərlər yer alırdı. *Bu günlərdə Peterburğ notariyuslarından birində qayət qəribə bir müqavilənamə akd olunduğunu paytaxt qazətələri yazırlar*, *Kiyef, 9 yanvar – şəkərin qiyməti günbəgün tərəqqi etməkdədir. Bu günlərdə dördüncü dəfə olaraq hökümətə məxsus şəkər anbarlarından satılmaq üzrə bazara külliyyətli şəkər çıqarılacaqdır* (12).

**Xarici xəbərlər:** İngiltərə, Almaniya, Fransa, İtaliya və s. ölkələrdə baş verən ictimai və siyasi hadisələrin yer aldığı bu xəbərlərdə, eyni zamanda ölkələr arasında əlaqələr və anlaşmalar da işıqlandırılırdı. *Roma – İtaliyanın bir çoq tərəflərində şiddətli boran hökmfərmadır. Gecə-gündüz bərk yağış yağır. (Napoli) körfəzində balıqçılar böyük həsarata düçar olmuşlardır* (10), *Paris, 9 yanvar – sular məşhur (Eyfel) qülləsinin bünövrəsinə hücum etdigi içün məzkur qalanın yıxılacağından qorqulur* (14).

Xəbərlərə bu şəkildə geniş yer verilməsi və müəyyən başlıqlar altında sistemləşdirilməsi dövrün ziyalılarının diqqətini daha çox siyasi və ictimai hadisələrin çəkdiyinin göstəricisidir. Qəzetin səhifələrindən bir neçəsini oxuduqdan sonra bunu anlamaq elə də çətin deyil. Ancaq "Həqiqət" qəzetinin sadəcə ictimai və siyasi hadisələri işıqlandırdığını söyləmək doğru olmazdı. Qəzetin hər nömrəsinin ilk səhifəsində yazıldığı kimi "gündəlik çıxan siyasi, ədəbi, iqtisadi türk dilində müsəlman qəzetidir" və az da olsa ədəbi mövzulara yer verilmişdir. Qəzetdə yer alan felyeton və şeirlərə nümunə olaraq Həsən bəy Ağayevin "Şeyda-i elm (Vamberi)", Əli Abbas Müznibin "Ədəbiyyat yaxud İhtisas", "Şəhadət-i Hüseyniyyə", Şuşi İbrahim Tahir Musayevin "İran əhlinə", "Get yalancı", "Molla Nəsrəddinə", Hüseyn Cavidin "Necmi Gisudar" əsərlərini göstərmək olar. "Həqiqət"dəki məqalə və yazıların bəziləri bəlli imzalarla, böyük çoxluğu isə imzasız olaraq yazılmışdır. Gəzetdə dönəmin çox önəmli isimlərinin məqalə və yazıları çap olunmuşdur. Bu məqalələrdə fərqli mövzular ələ alınmışdır. Bu mövzular içində təhsil, mədəniyyət, ədəbiyyat, din, cinayət mövzuları da yer almışdır. Gəzetdə yazı yazan yazıçıların çoxu öz adlarını yox, yazının məzmunu ilə uyğun məxləs, ya da davamlı istifadə etdikləri adlarla yazmışlar. Yazının məzmunu ilə bağlı məxləslər olduqca azdır. Qəzetin fəal üzvlərindən olan Əhməd Bəy Ağayev Bakıda yaşadığı on illik bir müddət ərzində Azərbaycan türklərində milliyyətçilik və türkçülük şüurunun formalaşmasına çalışmışdır. Bakıda olduğu müddət ərzində "Həyat", "İrşad", "Tərəqqi" qəzetlərini nəşr etdirmiş, Həqiqət qəzetində də Əhməd Ağayev imzasıyla "Osmanlı əhvalı" adlı məqaləsini nəşr etdirmişdir. O, məqalədə Türkiyə- Rusiya münasibətlərindən bəhs etmiş, Rusiyanın Türkiyənin milli məsələlərinə qarışmağa haqqı olmadığını açıq şəkildə dilə gətirmişdir. Yazıçının eyni zamanda "Şeyda-i Elm" adlı ədəbi məqaləsi çap olunmuşdur. Məqalədə zəyif və yetim bir yəhudi uşağının çətin və iztirablarla keçən həyatından, çəkdiyi sıxıntılardan, həyatla mübarizəsindən və sonunda elm sahəsində əldə etdiyi uğurlardan bəhs olunmuşdur.

Məqsədlərindən biri də əhalini təhsilə yönəltmək olan "Həqiqət" qəzeti, ölkə ərazisində bir çox məktəblərdə təhsilin səviyyəsinə dair yazılara geniş yer ayıraraq, təhsilin önəmini dönə-dönə vurğulamış və bu məqsədinə layiqincə xidmət etmişdir.

"Həqiqət" qəzeti 1909-1910-cu illərdə fəaliyyət gösdərdiyi üçün ərəb əlifbası ilə nəşr edilmişdir. Qəzetin leksikasına nəzər yetirdikdə rus, ərəb və fars sözlərinə rast gəlsək də, "Həqiqət" qəzetinin dili Azərbaycan türkcəsidir. "Həqiqət" qəzeti XX əsrin əvvəllərində qısa müddət nəşr edilməsinə baxmayaraq, Azərbaycan ədəbi dilinin mətbuatda təsbit olunmasını təmin edən önəmli qəzetlərdən biri idi. XIX əsrdə nəşr edilən, mətbuat tariximizin başlanğıcı olan "Əkinçi" qəzeti bu yolda özündən sonra nəşr edilən qəzetlər üçün çox dəyərli bir nümunə idi. "Azərbaycan ədəbi dili XIX əsrdə milli əsaslarla yenidən qurularkən, istər tarixən ilkinliyinə, istərsə mütərəqqi qayə və amalına görə, "Əkinçi" qəzetinin rol və əhəmiyyəti daha böyük, daha faydalı olmuş; ümumxalq dilinin milli dövri ədəbi dil haqqında proqram mahiyyətli ilk mütəşəkkil təsbitləyicisi kimi çox böyük tarixi vəzifəni layiqincə yerinə yetirə bilmişdir (Cahangirov, 1989: 242 ).

XX əsrin əvvəllərində xalqın mədəni inkişafında mətbuatın rolu əvəzsiz idi. Üstəlik dövrün şərtlərini nəzərə alsaq, belə bir dönəmdə qəzet və jurnal nəşr etdirməkdə qərarlı olan ziyalılarımızın, xalqın maariflənməsi, elm və təhsilə maraq göstərməsi üçün hansı çətinlikləri gözə aldığını görmüş olarıq. Bu dövrdə Azərbaycan türkcəsi ilə nəşr olunan mətbuat orqanlarının vəziyyəti "Molla Nəsrəddin" jurnalının 1909-cu il, 43-cü nömrəsində çap edilən "Vağzalda" başlıqlı yazıda belə təsvir olunurdu: "Qafqaz dəmir yollarının vağzallarında hər bir qəzetə istəsən tapa bilərsən; rus dilində, erməni dilində, gürcü dilində, firəng və nemis dilində. Amma bir dənə müsəlman qəzetəsi heç bir yanda görə bilməzsən və tapa bilməzsən.

Nə qədər mən səy elədim, Culfadan Biləcəriyə kimi bir nüsxə, məsələn, "Tərəqqi" qəzeti, ya bir nüsxə jurnal tapa bilmədim. Səbəbi?

Səbəbi budur ki, hər bir vağzalda maşın dayanan kimi cavanlarımız məşğul olurlar bufetə gedib və bir vodka vurub rus xanımlarına göz-qaş eləməyə. Ağsaqqal möminlərimiz də məşğul olurlar vaqonun içində dəstəmaz alıb namaz qılmağa. Qalanları da Culfadan Biləcəriyə kimi yatırlar ki, gözləri murdar ruslara sataşmasın" (Molla Nəsrəddin, 1996: 234).

Bu dövrdə Azərbaycan türkcəsində nəşr olunan mətbuat orqanlarının dili əsasən iki istiqamətdə inkişaf edirdi. Bir qrup mətbuat orqanlarının dilində sadə xalq danışıq dilinin elementləri üstünlük təşkil

edirdisə, digər qrup qəzet və jurnallar osmanlı türkcəsində yazmağa üstünlük verirdilər. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, XX əsrin əvvəlləri Azərbaycanda ədəbi dil əsas problemlərdən biri idi. Bu problem isə milli mətbuatda geniş diskusiyalar şəklində özünü biruzə verirdi. Milli şüurun yeni oyandığı bir mərhələdə mətbuatda dil məsələsinin müzakirə edilməsi ədəbi dilimizin təşəkkülü baxımından çox vacib idi. Dövrün ziyalıları başa düşürdülər ki, ədəbi dil sadələşməli, əcnəbi dillərin yad ünsürlərindən təmizlənməlidir. Tofiq Hacıyev "Azərbaycan ədəbi dil tarixi" kitabında yazır: "Dili xalq yaradır, xalq yaşadır. Ancaq ədəbi dili kütlə yox, xalqın elitası seçmə zəka sahibləri yaradır (Hacıyev, 2012: 245).

## Nəticə

"Həqiqət" qəzetində "Füyuzat", "Şəlalə" jurnalı qədər olmasa da, bir çox məqalələrdə osmanlı dil elemetləri bariz şəkildə özünü əks etdirirdi. N. Xudiyev yazır ki, Azərbaycan mətbuatında işlənən türk dili elementlərini xaraktercə iki qrupa bölmək olar:

1. Ümumxalq Azərbaycan dilində leksik və ya semantik paralelləri olan türk dili sözləri.
2.Türk dili vasitəsilə alınıb işlədilən Avropa mənşəli sözlər (Xudiyev, 1986: 20).

"Həqiqət" qəzetinin üslubunu ağırlaşdıran faktlardan birincisi qəzetdə ərəb-fars sözlərindən və tərkiblərindən istifadə edilməsi idi. Ancaq bu faktlar dövrün digər qəzet və jurnalları ilə müqayisədə çox azdır. Qəzetin dili o dövrün şərtlərində digər qəzetlərə nəzərən daha sadə və anlaşılandır.

"Həqiqət" qəzeti XX əsrin əvvəllərində, Azərbaycanda ictimi-siyasi, ədəbi-bədii məzmun daşıyan mətbu orqanlar arasında mühüm yer təşkil edirdi. "Həqiqət" qəzeti Azərbaycan demokratik mətbuatında öz mövqeyi olan mətbu orqanlarından idi. Azərbaycan xalqının milli oyanış yoluna girdiyi, dövlət və idarəçilik fikirlərinin yarandığı bir vaxtda, xalqa elm və təhsilin önəmini xatırladan, dünyada baş verən hadisələri isti-isti çatdıran bir qəzetin əhəmiyyəti əlbəttə ki, inkar edilə bilməz . Radio və televizorun olmadığı bir dövrdə doğru, düzgün, sürətli işləyən mətbuat orqanlarının yeri heç bir şeylə doldurula bilməzdi. Belə ki, milli şüuru doğuran, onun təməli olan bu milli mətbuat orqanlarından başqası deyildir.

## Ədəbiyyat

1. "Həqiqət" qəzeti, (1910), Bakı xəbərləri, №8.
2. Aşırlı, A. (2009), Azərbaycan Mətbuatı Tarixi, Bakı: Elm və Təhsil.
3. Cahangirov, M. (1989). Milli təşəkkül mərhələsində Azərbaycan ədəbi dilinin aparıcı üslubları. Bakı: Elm.
4. Akpınar, Y. (1994). Azeri edebiyatı araştırmaları. İstanbul: Dergah yayınları.
5. Hacıyev, T. (2012). Azərbaycan ədəbi dilin tarixi, II hissə. Bakı: Elm.
6. "Həqiqət" qəzeti, 1910, Qafqaz xəbərləri, №13..
7. Kazımov, Q. (2008). Seçilmiş əsərləri, X cilddə, I cild. Baki: Nurlan.
8. Molla Nəsrəddin jurnalı. On cilddə. I cild (1906-1907-ci illər). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.
9. Xudiyev, N. (1986). Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı, Bakı: APİ-nin nəşri.
10. "Həqiqət" qəzeti, 1910, Qafqaz xəbərləri, №14.
11. "Həqiqət" qəzeti, 1910, Osmanlı işləri, №8.
12. "Həqiqət" qəzeti, 1910, Daxili xəbərlər, №11.
13. Zéynalzade, A. (2006), Azerbaycan Metbuatı ve Çar Sénzurası, Bakı.
14. Həqiqət qəzeti, (1910), Xarici xəbərlər, №11.

**Rəyçi: fil.ü.f.d. Qətibə Quliyeva**

Göndərilib: 02.04.2022 Qəbul edilib: 07.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/17-21

**Vəfa Həsən qızı Məmmədova**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
vafa.mammad93@gmail.com

# AZƏRBAYCANIN SƏRHƏDYANI BÖLGƏLƏRİNDƏ MƏŞĞULLUĞUN VƏ REGİONAL İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ DAĞ TURİZMİNİN ROLU (ŞƏKİ-ZAQATALA TURİZM BÖLGƏSİNDƏ)

**Xülasə**

Dağ turizmi dağın təbii sərvətlərindən istifadə edən turizm növüdür. Çox vaxt dağ turizmi ekoturizmin bir forması olaraq adlandırılır. Dağ turizminin müsbət iqtisadi faydalrı çoxdur. Xüsusilə məşğulluğa və regional inkişafa təsiri dağlıq bölgələrdə bu turizm növnün inkişaf etdirilməsini zəruri edir. Azərbaycanın sərhədyanı bölgələrindən olan Şəki-Zaqatala turizm bölgəsində də dağ turizminin bir sıra növləri ilə məşğul olmaq imkanı vardır. Xüsusilə dağ-xizək turizm növü bölgə iqtisadiyyatı üçün gəlir gətirən sahədir. Bu məqalədə Şəki-Zaqatala turizm bölgəsində dağ turizmi ehtiyatları, dağ turizminin mövcud vəziyyəti, dağ turizminin iqtisadi faydaları, məşğulluğa təsiri təhlil olunmuşdur.

***Açar sözlər:*** *turizm, turizm sənayesi, dağ turizmi, dağ-xizək turizmi, məşğulluq, regional inkişaf, Şəki-Zaqatala turizm bölgəsi, Tufandağ xizək kompleksi*

**Vafa Hasan Mammadova**

## The role of mountain tourism in employment and regional development in the border regions of Azerbaijan (Sheki – Zaqatala tourism region)

**Abstract**

Mountain tourism is a type of tourism that uses the natural resources of the mountain. Mountain tourism is often referred to as a form of ecotourism. There are many positive economic benefits of mountain tourism. The impact on employment and regional development, especially in mountainous areas, makes it necessary to develop this type of tourism. The Sheki-Zagatala tourist region, one of the border regions of Azerbaijan, also has the opportunity to engage in a number of types of mountain tourism. In particular, skiing is a lucrative industry for the regional economy. This article analyzes the resources of mountain tourism in the Sheki-Zagatala tourism region, the current state of mountain tourism, the economic benefits of mountain tourism, the impact on employment.

***Key words:*** *tourism, tourism industry, mountain tourism, mountain-skiing tourism, employment, regional development, Sheki-Zagatala tourism region, Tufandag ski complex*

## Giriş

Turizm insanların daimi yaşadıqları mühitdən uzaqlaşaraq istirahət etmə ehtiyacından meydana gəlmişdir. Zaman keçdikcə turizm ehtiyacı kütləvi hal almağa başladı. Kütləvi turizmin geniş vüsət alması ilə turizm sektoru dünya iqtisadiyyatında əsas gəlir gətirən sahələrdən birinə çevrildi. Təbii olaraq turistlərin sayı ilə turizm xidməti göstərən müəssisələrin sayı düz mütənasib formada artır. Bazarda məhsulun çoxalması rəqabəti gücləndirdi. Turizm müəssisələri və destinasiyaları daha çox turist cəlb etmək üçün öz məhsullarını (xidmətlərini) daim yeniləyirlər. Bu prosesin nəticəsi olaraq yeni turizm növləri meydana gəlir.

Dağlar turizm məqsədilə istifadə edilən ən məşhur yerlərdəndir. Dağlıq ərazilər məşhur turizm destinasiyası kimi sahillərdən sonra ikinci sırada qərarlaşıb. Onun qlobal turizm bazarında payı 15-20% təşkil edir (Harold, Hull, 2016: 2).

Dağ turizmi əsasən İnkişaf Etmiş Ölkələrdə rast gəlinən turizm növüdür. Lakin dağ turzminin iqtisadi əhəmiyyətinə baxmayaraq onun beynəlxalq səviyyədə qəbul edilmiş tərifi, bu turizm növünü müəyyən edəcək normalar yoxdur. Milli iqtisadiyyatlarında dağ turizminin mühüm rol oynadığı ölkələr belə, ümumi qəbul edilmiş standartlar olmadığından dəqiqi statistik məlumat verməkdə çətinlik çəkirlər

(UNWTO, 2018: 17). Dağ turizmi eyni dağdan istifadə edən turizm növlərinin ümumi adı kimi müəyən edilir. Dağ turizmi çox vaxt ekoturizmin bir forması olaraq izah olunur.

Xarici ədəbiyyatlarda dağ turizminə "dağ turizmi", "qar və dağ turizmi", "alp turizmi", "dağ əsaslı macəra", bəzi hallarda isə "aspen turizmi" deyilir.

Ümumdünya Turizm Təşkilatına (ÜTT) görə dağ turizmi "müəyyən landşafta, topoqrafiyaya, iqlim şəraitinə, biomüxtəlifliyə və fərqli xüsusiyyətləri olan yerli icmalara malik təpələr və ya dağlar kimi məhdud coğrafi məkanda baş verən turizm fəaliyyətinin bir növüdür. Bu turizm növü açıq havada istirahət və idman fəaliyyətinin geniş spektrini əhatə edir (6).

Azərbaycan Respublikasının 27 dekabr 2021-ci il tarixli turizm haqqında qanununda dağ turizminə "özünəməxsus landşaft, topoqrafiya, iqlim, bioloji müxtəliflik (flora və fauna) xüsusiyyətləri olan dağlıq ərazilərdə həyata keçirilən turizm" növü kimi tərif verilmişdir (1).

Dağ turizmi digər iqtisadi fəaliyyətlərlə əlaqəli olması, Ümumi Daxili Məhsula (ÜDM) və iş yerlərinin yaradılmasına töhfəsi, turizm tələbini geniş zaman aralığına və məkana yaymaq qabiliyyətinə görə yerli iqtisadiyyatlar üçün perspektiv turizm sahələrindəndir. Dağ turizmi iqtisadiyyata, cəmiyyətə və ətraf mühitə müsbət təsirləri danılmazdır. Dağ turizminin yerli iqtisadiyyatı gücləndirmək üçün böyük potensialı var. O, kənd və regional bizneslərə fəaliyyət dairəsini genişləndirmək, xidmət çeşidlərini şaxələndirmək imkanı verir. Dağ turizmi birbaşa və dolayı məşğulluğu təmin edir. Dağın əzəməti və nəcibliyi həm cazibədar, həm də qorxulu olmaq xüsusiyyətinə malikdir. Onun zənginliyi əsasən biomüxtəlifliyi və insanın onu mükəmməl bilmək iddiasını həmişə üstələyən relyefləri ilə özünü göstərir. Dağlarda səyahət etmək, sərvətlərini kəşf etmək və ekosistemini anlamaq turistlərin davranışlarından asılı olaraq həm müsbət, həm də mənfi təsir göstərə bilər. Buna görə də, əməliyyat təcrübələri təbii olaraq nisbətən aşağı karbon izi üçün optimallaşdırılmış dağ turizmi ilə məşğul olmaq vacibdir. Təbii mühitin hökm sürdüyü bir yer olan dağ həm də mövcud ekoloji problemlər, onların dərk edilməsi və həlli barədə məlumatlı olmağa kömək edir. Turistlərin hiss etdikləri bu ekoloji məsuliyyət sonradan onların hərəkətlərində və istehlak davranışlarında əks olunur və destinasiyanın davamlılığına töhfə verir. Dağ turizmi dağ ərazisinin tarazlı və davamlı inkişafına töhfə vermək üçün lazım olan bütün imkanlara malikdir. Dağ turizmi sosial, iqtisadi, ekoloji və fərdi ölçülərdə müsbət təsirlər yaratmağı bacararaq, sənayenin çağırışlarına cavab verməyə hazırdır və beləliklə, inkişaf baxımından nümunəyə çevrilir.

Şəki-Zaqatala turizm bölgəsi sahəsi 8,84 min km2olan Şəki-Zaqatala iqtisadi rayonunu əhatə edir. İqtisadi rayonun tərkibinə Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ inzibati ərazi vahidləri daxildir. Əhalisinin sayı 630,4 min nəfərdir. İqtisadi rayonda iqtisadiyyatın aparıcı sahələri kənd təsərrüfatı, yüngül və qida sənayesi və turizmdir (8).

Şəki-Zaqatala turizm bölgəsinin ərazisinin bir hissəsinin Böyük Qafqaz dağlarının cənub yamacında yerləşməsi dağ turizminin müxtəlif növlərinin təşkilinə şərait yaradır. Dağ turizminin geniş fəaliyyət spektrinə daxil olan aktiv fəaliyyət növləri regionda inkişaf etmiş turizm növlərindəndir. Haykinq, off-road və cip-safari turları, raftinq kimi turizm fəaliyyətləri Qəbələ, Şəki, Zaqatala, Qax rayonlarının dağlıq ərazilərində həyata keçirilir.

Şəki-Zaqatala turizm bölgəsində əhali düzən və dağətəyi ərazilərlə yanaşı dağ yamaclarında da məskunlaşmışdır. Dəniz səviyyəsindən belə yüksək ərazilərdə yaşayan icmalar müxtəlif iqtisadi-sosial problemlərlə qarşı-qarşıyadırlar. Zəif infrastruktur, kənd təsərrüfatı ilə məşğulluğu çətinləşdirən sərt iqlim və relyef bu ərazilərdə məşğulluq indeksinin aşağı göstəricisi ilə xarakterizə olunur. Nəticədə əhalinin miqrasiyası sürətlənir, ucqar dağ kəndlərində yalnızca az sayda yaşlı əhali məskunlaşır. Problemin həlli üçün görüləcək tədbirlər sırasında dağlıq ərazilərdə turizmin inkişafı ilk sıralarda yer alır.

Dağ turizminin ən gəlirli sahələrindən biri də dağ-qış turizm növüdür. Şəki-Zaqatala turizm bölgəsində yaradılan dağ turizmi müəssisələri regional inkişafa nail olunmasında böyük rol oynayır. 2014-cü ildə Tufan dağ-xizək yay-qış istirahət kompleksinin açılışından sonra Şəki-Zaqatala turizm bölgəsində yerləşən mehmanxana və mehmanxana tipli müəssisələrdə keçirilmiş gecələmələrin sayı 5 dəfəyə qədər artmışdır (Cədvəl 1).

*Cədvəl 1*

**Şəki-Zaqatala iqtisadi rayonu üzrə mehmanxana və mehmanxana tipli müsəssisələrdə keçirilmiş gecələmələrin sayı**

| İqtisadi rayonlar | Gecələmələrin sayı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **İllər** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | **62,874** | **48,677** | **62,751** | **64,871** | **60,136** | **51,064** | **334,704** | **247,793** | **368,205** | **372,402** | **118,540** |
| o cümlədən: | | | | | | | | | | | |
| Balakən rayonu | 582 | 8,319 | 14,330 | 16,346 | 6,772 | 6,544 | 2,045 | 2,515 | 2,156 | 3 969 | 1,083 |
| Zaqatala rayonu | 5,293 | 5,737 | 6,960 | 6,792 | 6,693 | 6,798 | 6,113 | 7,062 | 8,399 | 9 599 | 6,663 |
| Qax rayonu | 21,194 | 9,518 | 11,204 | 11,107 | 13,587 | 13,582 | 13,678 | 13,719 | 28,410 | 33 909 | 8,844 |
| Şəki rayonu | 7,471 | 9,407 | 10,142 | 11,786 | 14,612 | 15,293 | 10,883 | 11,822 | 15,942 | 21 127 | 4,122 |
| Oğuz rayonu | 2,668 | 2,601 | 2,939 | 1,820 | 808 | 1,194 | 1,650 | 2,772 | 1,707 | 2 287 | 1,085 |
| Qəbələ rayonu | 25,666 | 13,095 | 17,176 | 17,020 | 17,664 | 7,653 | 300,335 | 209,903 | 311,591 | 301 511 | 96,743 |

Mənbə: Dövlət Statistika Komitəsi

Müvafiq olaraq çalışanların sayında da artım nəzərə çarpır. İqtisadi rayonda Tufan dağ-xizək yay-qış istirahət kompleksinin istifadəyə verilməsindən sonra (2014) mehmanxana və mehmanxana tipli müəssisələrdə çalışanların sayında 4 dəfəyə qədər artım müşahidə edilir. Mehmanxana mehmanxana tipli müəssisələrin sayına görə ölkədə lider olan Bakı şəhəri ilə müqayisə etsək görərik ki, paytaxtda bu illər ərzində işçilərin sayında cəmi 1,8 dəfə artım olmuşdur (5).

Kompleksin fəaliyyətə başlaması ilə ərazidə yeni otel kompleksləri istifadəyə verilmişdir. Tufandağ xizək mərkəzi həmçinin bölgədə turizm fəaiyyətinin bütün il boyuna yayılmasına, müvafiq olaraq gəlirlərin miqdarının da ilboyu demək olar ki bərabər paylanmasına müsbət təsir göstərmişdir.

Tufan dağ-xizək yay-qış kompleksinin regional inkişafa təsirini daha aydın görmək üçün ərazinin iqtisadi inkişaf indeksini təhlil etmək faydalı olacaqdır. D.L.Lopatnikovun ərazi iqtisadi inkişaf indeksindən istifadə edərək ümumi Şəki-Zaqatala iqtisadi rayonunun və onun tərkibinə daxil olan hər bir inzibati ərazi vahidinin turizm baxımından inkişaf indeksi hesablanmışdır (Zeynalova, 2020: 73-78). İndeksin hesablanması üçün aşağıdakı düsturdan istifadə edilmişdir:

$$I = 0.1\sqrt{\frac{V^2}{NS}}$$

Burada: V- mehmanxana və mehmanxan tipli müəssisələrin gəlirləri, min manat; N- əhalinin sayı, min nəfər; S- sahə, kv.km (7).

*Cədvəl 2*

**Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan inzibati rayonların turizm baxımından ərazi iqtisadi inkişaf indeksi (2019-cu il göstəriciləri əsasında)**

| İnzibati ərazi vahidləri | Ərazi (min km$^2$) | Əhali (min nəfər) | Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri (min manat) | Turizm baxımından Ərazi İqtisadi İnkişaf İndeksi |
|---|---|---|---|---|
| Balakən rayonu | 0,94 | 98.3 | 342,3 | 3,6 |
| Zaqatala rayonu | 1,35 | 128,7 | 491,3 | 3,7 |
| Qax rayonu | 1,49 | 56,9 | 1 261,6 | 13,7 |
| Şəki rayonu | 2,43 | 186,6 | 1 621,2 | 7,61 |
| Oğuz rayonu | 1,08 | 44,3 | 250,4 | 3,6 |
| Qəbələ rayonu | 1,55 | 106,6 | 30 919,1 | 240,61 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | **8,84** | **621,4** | **34 885,9** | **47,07** |
| **Ümumi ölkə üzrə** | **86,6** | **9981,5** | **450188,5** | **48,4** |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib və təhlil edilmişdir.

Cədvələ nəzər saldıqda görürük ki, Şəki-Zaqatala iqtisadi rayonun turizm baxımından Ərazi İnkişaf İndeksi (47,07) ümumi ölkə üzrə göstəriciyə (48,4) yaxındır. Cədvəldə diqqət çəkən əsas məqam Qəbələ rayonu ilə digər inzibati rayonların indeksləri arasındakı kəskin fərqdir. Göstəricilər arasında belə kəskin fərqlərin yaranmasında Qəbələdə dağ-xizək turizm kompleksinin olması xüsusi rol oynayır. Digər rayonlarda turizm fəaliyyəti bir mövsümlə məhdudlaşdığı halda, Qəbələ ilboyu turist cəlb etmə qabiliyyətinə malikdir. Turizm baxımından Ərazi İqtisadi İnkişaf İndeksi dağ turizminin, xüsusilə qış turizm növlərinin region üçün əhəmiyyət dərəcəsini bir daha gözlər önünə sərir. Şəki-Zaqatala iqtisadi rayonunua daxil olan digər rayonlarda da belə komplekslərin inşası regioun inkişafına böyük töhfə vermək gücünə malikdir. Turizm bölgəsinin digər ərazilərində də qış turizm komplekslərinin inşası üçün

ilk növbədə ərazinin dağ-qış turizm potensialı tam öyrənilməli, müvafiq layihələr hazırlanmalı və investisiyaların cəlb edilməsi yönündə işlər görülməlidir.

## Nəticə

Dağ turizmi planetimizin ən dəyərli sərvətlərindən olan dağların təsərrüfata cəlb edilməsinə şərait yaradır. Sosial cəhətdən həssas olan dağ icmaları turizm vasitəsilə öz gəlirlərini artırmaq imkanı əldə edirlər. Şəki-Zaqatala turizm bölgəsində məskunlaşmış əhali üçün də dağ turizminin müsbət faydaları danılmazdır. Xüsusilə bölgədə inkişaf etmiş dağ-xizək turizmi məşğulluq kimi ciddi problemin həllinə kömək edir. Şəki-Zaqatala turizm bölgəsinə turistlər əsasən ilin isti dövrlərində üz tuturlar. Dağ-xizək turizm fəaliyyəti ilin soyuq dövrünü əhatə etdiyindən, bu turizm növü turizm fəaliyyətlərini bütün il boyuna yaymağa imkan verir. Dağ-xizək turizmi məşğulluğa müsbət təsir göstərir. Yeni mehmanxanalar, iaşə müəssisələri, xizək komplekslərinin yaradılması iş yerlərinin sayını artırır. Dağ-xizək kompleksləri yüksək relyef şəraitinə malik yerlərdə inşa edilir və güclü infrastruktur tələb edir. Dağlıq bölgələr düzənlik bölgələrlə müqayisədə infrastruktur cəhətdən zəif təmin olunmuşlar. Bölgədə dağ turizminin inkişafı infrastrukturun da inkişafına təkan verərək yerli əhalinin həyat səviyyəsinin komfortluluğunun artmasına xidmət edir. Dağ-xizək kurortlarının yaradılması ilə ətrafdakı mülklərin dəyəri artır, əhalinin sosial vəziyyəti yaxşılaşır

## Ədəbiyyat

1. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanunu. (2021), № 448-VIQ, Bakı.
2. Harold, R, Hull J, eds. (2016), Mountain tourism: Experiences, communities, environments and sustainable futures,Boston.
3. UNWTO (2018), Sustainable Mountain Tourism – Opportunities for Local Communities, Spain
4. Zeynalova, K.Z. (2020), Tourism potential of Sheki-Zagatala economic-geographical region and ways of using them, Coğrafiya və təbii resurslar, №2 (12), Bakı
5. https://www.stat.gov.az/
6. https://www.unwto.org/mountain-tourism
7. http://www.m-economy.ru/art.php?nArtId=3636
8. https://www.economy.gov.az/article/sheki-zaqatala-iqtisadi-rayonu/31895

**Rəyçi: s.e.ü.f.d. Rəcəb Rəhimli**

Göndərilib: 04.04.2022 Qəbul edilib: 07.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/22-26

**Kənan Sadiq oğlu Orucov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
kanan7737@gmail.com

# AZƏRBAYCANIN REGİONLARINDA TURİZM İNFRASTRUKTURUNUN FORMALAŞMASI VƏ İNKİŞAFI

**Xülasə**

Müasir şəraitdə turizm sənayesi dünya təsərrüfatının ən dinamik inkişaf edən sahələrindən biridir. Turizm infrastrukturunun inkişafına investisiyaların cəlb edilməsi üçün bu sahənin xüsusiyyətlərini nəzərə alaraq, turizm sənayesinin fəaliyyətini stimullaşdıran təşkilati-iqtisadi mexanizmləri işə salmaq lazımdır.

Məqalədə Azərbaycanın regionlarında turizm infrastrukturunun inkişafı məsələri açıqlanır.

***Açar sözlər:*** *turizm resursları, turizm infrastrukturu, turizm sahəsi, turizm infrastrukturunun elementləri,turizm*

**Kanan Sadig Orujov**

## Formation and development of tourism infranstructure in the regions of Azerbaijan

**Abstract**

In modern conditions, the tourism industry is one of the most dynamically developing sectors of the world economy. In order to attract investments in the development of tourism infrastructure, taking into account the specifics of this area, it is necessary to launch organizational and economic mechanisms that stimulate the activities of the tourism industry.

The article discusses the development of tourism infrastructure in the regions of Azerbaijan.

***Key words:*** *tourism infrastructure, tourism resources, tourism area, elements of tourism infrastructure, tourism*

## Giriş

Turizmin səmərəli inkişafı bilavasitə bütün mərhələlərdə planlaşdırmanın, təşkilatın və idarəetmənin kompleks yanaşmasının təmin edilməsindən asılıdır. Bundan əlavə, sahənin ümumi səmərəliliyinin təmin edilməsi üçün turizm məhsulları və xidmətlərinin, həmçinin təşkilati-iqtisadi mexanizmlərin formalaşdırılması və fəaliyyətin idarə edilməsi metod və üsullarının istehsala cəlb edilməsi üçün yararlı resursların potensialını nəzərə almaq vacibdir. Bu mühüm amillərin nəzərə alınması və resurslardan səmərəli istifadə edilməsi nəticəsində turizm fəaliyyətinin sosial-iqtisadi səmərəliliyi təmin edilir. Turizm fəaliyyətinin səmərəliliyinin təmin edilməsi üçün digər vacib amil lazımi infrastrukturun, xüsusilə də ixtisaslaşmış turizm infrastrukturunun mövcudluğudur.

Turizm sahəsində infrastrukturun yaranması və inkişafı iqtisadiyyatın sosial sahəsində iqtisadi münasibətlərin təsiri altında olmuş, qismən kortəbii, sonra isə tənzimləyici normativ aktlarla inkişaf etmişdir. Azərbaycanda belə normativ sənədlər yalnız mövcud layihələrə, konsepsiyalara və proqramlara uyğun olaraq formalaşmağa başlayır.

Azərbaycan regionları təbii turizm ehtiyatları ilə zəngindir ki, bu da öz unikallığı ilə tanınır, bəzi ehtiyatlarda isə (məs. Naftalan nefti) dünyada analoqu yoxdur. Qeyri-adi relyefi, unikal landşaftı, zəngin biomüxtəlifliyi, qısa müddət ərzində bir iqlim tipindən digərinə keçid imkanı, ekoloji cəhətdən təmiz geniş ərazilər, meşə massivləri, mədəni, tarixi və təbii abidələr, sıx çay şəbəkəsi, müalicəvi mineral və termal bulaqlar, Kür çaylarına tikilmiş sututarların qumlu sahilləri, dini komplekslər və ziyarətgah obyektləri və s.turizmin davamlı inkişafı üçün dəyərli resurslar kimi qiymətləndirilə bilər (Eminov, 2018:35).

Turizmin inkişafı zəruri turizm infrastrukturunun, xüsusilə də turizm strukturunun formalaşdırılmasından birbaşa asılıdır. Zəngin təbii turizm resurslarının olmasına baxmayaraq, lazımi səviyyədə

olmayan turizm infrastrukturunun inkişafı yerli, regional və milli səviyyədə turizmin inkişafının əsas problemlərindən biridir.

Turizm resurslarının istehlakının mümkünlüyü əsasən turistlərin nəqliyyat xidmətlərinin keyfiyyətindən asılıdır. Bu gün ölkədə turizmə xidmət edən vahid əlaqələndirilmiş nəqliyyat sistemi yoxdur, daşınmaya ehtiyac nəqliyyat müəssisələrinin və şirkətlərin rəqabəti nəzərə alınmaqla nəqliyyatın konkret növü üzrə nəqliyyat xidmətlərinə olan tələbatla tənzimlənir. Turizm səfərlərində nəqliyyat vasitələrindən istifadə dərəcəsi onların populyarlığının reytinqi, nəqliyyat sisteminin inkişafı, səfərin növü və marşrutun uzunluğu, əhalinin rifahı, milli ənənələr və s. ilə müəyyən edilir (11).

Keyfiyyətli informasiya infrastrukturunun formalaşdırılması mühüm vəzifədir. İnformasiya xidmətləri həm turistə, həm də turizm təşkilatçılarına lazımdır. Müasir elektron informasiya vasitələri, ilk növbədə, regionların öz saytlarında istifadəçilərə turizm mərkəzlərinin, turizm xidmətlərinin, görməli yerlərin müfəssəl təsvirini təklif edə biləcək internet şəbəkəsi böyük rol oynayır. Regional turizmin yeni inkişaf forması - turistlərə müxtəlif səyahət məlumatları verən və turizm bazarı ilə əks əlaqə formalaşdıran informasiya turizm mərkəzlərinin yaradılmasıdır.Regional turizmin inkişafında KİV mühüm rol oynayır.

Regionda turizmin inkişafına reklam-informasiya dəstəyi məqsədilə tələb olunur (Voskresensky, 2007:63).

•regionun turizm resursları haqqında informasiya və reklam materiallarının baza paketinin hazırlanması və yaradılması;

•təşkilatların beynəlxalq turizm sərgilərində iştirakı;

•regionun müsbət imicinin yaradılması məqsədilə mətbuatda reklam kampaniyalarının keçirilməsi;

• regionda vahid turizm informasiya şəbəkəsinin yaradılması, onun analoji beynəlxalq şəbəkələrlə inteqrasiyası.

Qeyd etmək lazımdır ki, ÜTT tövsiyələrinə uyğun olaraq turizm bölgələrin preferensial idarə edilməsi kimi təsnif edilir. Regional Turizm Təşkilatının prinsiplərindən biri yanaşılmalıdır ki, burada turizm gəlirlərinin böyük hissəsi turistlərə baş çəkən regionlarda qalmalıdır. Dünya təcrübəsi göstərir ki, turizmin sosial-iqtisadi səmərəliliyi çox vaxt yerli və regional səviyyədə ən yüksək səviyyədədir (Zaid, 2018:96).

Turizm sənayesinin bütün sahələrində (yaşayış, nəqliyyat, yemək, ekskursiyalar, suvenir məhsulları) turistlərlə işləmək üçün yerli əhalini cəlb etmək lazımdır. Beləliklə, turizm bu regionun iqtisadiyyatının artmasına real kömək edə bilər. Lakin turizm nəinki yerli əhalini dəstəkləməyə, yerli iqtisadiyyatı inkişaf etdirməyə, həm də bir çox sosial-mədəni problemləri həll etməyə imkan verə bilər.

Regionun sosial-iqtisadi inkişafının daxili və beynəlxalq, giriş və çıxış turizminə təsiri bir-biri ilə bağlıdır. Bir tərəfdən, bölgənin sakinlərinin maddi rifahı onların səyahət qabiliyyətini müəyyənləşdirir. Digər tərəfdən, regionun turizm infrastrukturu əsasən xarici və yerli turistlərin marağını müəyyən edir. Turizmin inkişafı bölgəyə investisiyaların cəlb olunmasına kömək edir və bu da öz növbəsində turizmin əhəmiyyətini artırır.

Azərbaycanın bir çox bölgələrində turizm çoxdan iqtisadiyyatın ən mühüm sektorlarından birinə çevrilmişdir. Ziyarətçilərin böyük axını sayəsində inkişaf etmiş turizm regionu pul gəlirləri və əlavə dövriyyə ilə təmin edir (Eminov, 2018:30).`

Ancaq lazımi potensiala malik olan bir çox regionlarda ondan səmərəli istifadə olunmur. Çox vaxt inkişaf etməmiş turizm infrastrukturu və kompleks turizm təklifinin olmaması səbəbindən xeyli sayda ziyarətçi olsa belə, turizm regiona nəzərəçarpacaq fayda gətirmir.

Turizm müştərinin, ilk növbədə, muzeylərə və digər mədəniyyət müəssisələrinə, suvenirlərə və alış-verişə, nəqliyyata, yaşayış yerlərinə giriş biletlərini ödəmək xərclərini nəzərdə tutur. Beləliklə, turizmin inkişafı turistlərə bu tələbatın ödənilməsinə imkan vermək deməkdir. Regionun hüdudlarından kənarda məşhur olan və reklam strategiyasının tam mərkəzində yerləşən turizm "maqnit" in köməyi ilə turistləri müəyyən yerə cəlb edə bilərlər.

Regionlarda turizmin inkişafı bank fəaliyyətinin genişlənməsini stimullaşdırır. Turizm üçün çox vacib amil bankların regional bölmələrinə beynəlxalq valyuta əməliyyatları üzrə hüquqların və aparıcı ödəniş sistemlərinin plastik kartları ilə müştərilərə xidmət imkanlarının təqdim edilməsidir. İlk növbədə bu, rayon mərkəzləri üçün aktualdır, çünki turizm obyektləri heç də həmişə regionların inzibati və

maliyyə mərkəzlərində yerləşmir. Turizm öz təbiətinə görə müəyyən resursla, təbii-coğrafi amillə, ərazi xüsusiyyətləri ilə bağlıdır.Məhz buna görə də turizm sahəsində istənilən islahat hər bir regionun spesifikasını nəzərə alan çevik regional siyasətin gerçəkləşdirilməsinə ehtiyac duyur.

Turizm infrastrukturunun inkişafı depresif regionlara dəstək, kiçik və orta şəhərlərin "canlanma" üçün ciddi bir amil ola bilər. Bununla yanaşı, yerli əhali ilə turistlər arasında sosial əməkdaşlığın mümkün problemlərini də unutmaq olmaz. Hər iki qrup tez-tez müxtəlif mədəniyyətlərin daşıyıcıları; bundan başqa, yerli sakinlər işlə və vacib problemlərin həlli ilə məşğul olduqları halda turistlərin istirahət etməsi, əylənməsi və israfçılıq yolu ilə pul xərcləməsi faktını mənfi qarşılaya bilərlər.

Regional turizm klasterinin savadlı inkişaf siyasəti istənilən fəaliyyət və tədbirlərin keçirilməsinə ilkin hazırlıq və dəqiq nəzarət, turizm biznesinin özbaşına həyata keçirdiyi təsərrüfat fəaliyyətinin olmaması, yerli əhalinin baş verən dəyişikliklərə uyğunlaşdırılması üçün imkanlar yaratmasını nəzərdə tutur. Giriş və daxili regional turizmin inkişafı yerli istehsalın genişlənməsi və ya turistlərə baş çəkən yerlərin istiqamətlənmiş təchizatı ilə müşayiət olunmalıdır. Yerli sənayenin istehlak mallarının və xidmətlərinin satışı turist xidmətlərinin ən çox dəyəri ilə müqayisə edilən mənfəət gətirə bilər (Kvartalnov və b.2002:44).

Turizm infrastrukturunun yeni obyektlərinin işə salınması zamanı onların düzgün yerləşdirilməsi məsələsi həmişə aktual məsələdir. Digər bir problem (fikrimizcə, iqtisadi cəhətdən daha firavan olan regionlara xasdır) – mövcud infrastruktur obyektlərindən istifadə edərək biznesi inkişaf etdirmək (çox vaxt bərbad vəziyyətdə olan) və ya yenilərini tikmək lazımdırmı? İnfrastruktur obyektlərinin kəmiyyət xarakteristikalarının, gözlənilən tələbatın ödənilməsi imkanlarının qiymətləndirilməsi də mühüm vəzifədir. Təşkilati-idarəetmə xarakterli məsələlərə xüsusi diqqət yetirilməlidir. Əhalinin turizm-ekskursiya fəallığının inkişafına, yeni turizm məkanlarının mənimsənilməsinə, turizm və istirahət məqsədilə tarix, mədəniyyət, memarlıq abidələrindən istifadə edilməsinə yönəlmiş istənilən tədbirlər yalnız regional hakimiyyətin, mədəniyyət, təhsil və s. bu və ya digər strukturlarının marağının və dəstəyinin olması ilə arzuolunan effektə nail olunmuşdur.

Beləliklə, yuxarıda nəzərdən keçirilmiş problemlərin dairəsi bütün elementlərin qarşılıqlı əlaqəsi nəzərə alınmaqla, turizm infrastrukturunun öyrənilməsinə kompleks yanaşmanın, onun təhlilinə yeni metod və yanaşmaların işlənib hazırlanmasının zəruriliyindən xəbər verir.

Turizm sahəsində bütün mütəxəssislər yekdil fikirdədirlər ki, turizm klasterinin inkişafının əsasında iqtisadi və sosial tərəqqi dayanır (Bilalov, 2017:37).

Daha ətraflı təhlil bizə turizm klasteri infrastrukturunun inkişafına təsir edən çoxsaylı amillər arasında başlıca siyasi, iqtisadi, sosial-demoqrafik, mədəni-idrak, elmi-texniki məqamları vurğulamaq imkanı verir.

Turizmin inkişafına dövlətlərin xarici iqtisadi fəaliyyəti, dünya iqtisadiyyatının bütün sahələrində baş verən inteqrasiya və qloballaşma prosesləri əhəmiyyətli təsir göstərir, bu da dünya əhalisinin işgüzar fəallığının artmasına və işgüzar turizmin yeni növlərinin yaranmasına səbəb olur.

Lakin iqtisadiyyatda gömrük rəsmiləşdirilməsi, maliyyə qeyri-sabitliyi (inflyasiya, staqnasiya), iqtisadi tətillər kimi hallar turizm sənayesi təşkilatlarının fəaliyyətini əhəmiyyətli dərəcədə məhdudlaşdıra bilər.

Regionlarda turizm infrastruktur elementlərinin tərkibi, ilk növbədə, turizm fəallığından asılıdır. Buraya iki qrup faktor təsir edir ki, onlardan biri birbaşa turizmlə bağlı olan, digəri isə bilavasitə turizmlə bağlı olmayan, lakin turizm məhsuluna tələbatın həcminə və formasına təsir edən amilləri birləşdirir.

Turizmlə birbaşa bağlı olan və turizm fəallığına təsir edən amillər: (Voskresensky,2007:49).

- Turizm resurslarının strukturu və tərkibi;
- Səfərlərin motivləri və məqsədi;
- Əhalinin həyat səviyyəsi və onun gəlirlərinin strukturu;
- Əmək qabiliyyətli əhalinin asudə vaxtının strukturu və əmək gərginliyi (əmək resurslarının təkrarlanmasına ehtiyac vasitəsilə).

Dolayı amillər, ilk qrupdan fərqli olaraq, daha çoxdur: (Peter, 2020:106).

- Demoqrafik və sosial dəyişikliklər;

- İqtisadi və maliyyə dəyişikliklər;
- Nəqliyyat inkişafı;
- İnformasiya təminatı və rabitə sahəsinin inkişafı;
- Siyasət, qanunvericilik və tənzimləyici sahələrdə dəyişikliklər;
- Ticarətin inkişafı;
- Səyahət təhlükəsizliyi.

Həm birinci, həm də ikinci qrup amilləri Turizm fəallığına kompleks təsir göstərir, bu zaman mürəkkəb, xarici məcburi dəyişikliyə məruz qalan və regionun (ölkənin, cəmiyyətin) iqtisadiyyatına müstəqil təsir göstərən amillərdir. Müxtəlif amillərin Turizm fəallığına təsiri aşağıdakı amillərlə xarakterizə olunur.

Sosial-demoqrafik amillər. Turizmin inkişafına əhalinin, xüsusilə də şəhər əhalisinin artması təsir göstərir. Şəhər həyat tərzi, psixoloqların fikrincə, stressi, anonimliyi insanlarla ünsiyyətin olmaması, təbiətdən ayrılma ilə fərqləndirir. Bununla əlaqədar olaraq, şəhər sakinləri üçün turizm ruhi tarazlığın axtarışıdır. Son zamanlarda kütləvi informasiya vasitələrinin (KİV) sürətli inkişafı da turizmə müsbət təsir göstərir. Kütləvi informasiya vasitələrinin inkişafı nəticəsində qonaqpərvərlik resurslarının, istirahət yerlərinin infrastrukturunun və digər turizm sənayesi komponentlərinin tanıdılması sürətlənir. Turizmin populyarlığının səbəblərindən biri də şəhər əhalisinin daim artmasıdır. Yalnız urbanizasiya (şəhərləşmə) müəyyən dərəcədə turizm xidmətlərinə olan tələbatın artmasına səbəb olur. Turist axınının formalaşması əsasən iri sənaye və inzibati mərkəzlərdə baş verir ki, bunlar arasında Bakı şəhərinin də adını çəkmək olar.

Mədəniyyət, fərdin tələbatının yaranmasına təsir edən birinci dərəcəli amil kimi, sosial fəaliyyət obrazları və turizm fəaliyyətinin inkişafının sağlamlığa meyilli vektoru əsasında, dövlətin düzgün sosial siyasətinin sübutu kimi, əhalinin qorunmasına və bərpasına yönəlmiş, iqlim şəraitinin dəyişməsinə dair tövsiyələr əsasında formalaşır.Turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya, səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadənin gücləndirilməsinə təkan verir. Turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nətijəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmununu müəyyənləşdirən milli iqtisadiyyatın müstəqil sahəsidir. Turizmdə əmək məhsuldarlığının artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stimullaşdırılmasının forma və üsullarının təkmilləşdirilməsi, turizm və sosial-mədəni servis xidmətlərinin təşkilinin yenidən qurulması zəruridir.Ölkəmizin dünyada turizm ölkəsi kimi tanınması üçün geniş imkanlar mövcuddur (Kvartalnov və b. 2002:25).

Elmi-texniki tərəqqi. Hazırda elmi-texniki tərəqqi sayəsində uzaq məsafələrə səyahət zamanı yolda olma vaxtı azalır. Nəqliyyatda servis xidməti standartları təkmilləşdirilir və bu standart sərnişinlər üçün daha da rahatlaşır, yeni birbaşa aviareyslər, sürətli magistrallar (avtomobil, dəmir yolu) və s. meydana çıxır. Elmi-texniki tərəqqi elm və texnikanın mütərəqqi inkişafı, elmin cəmiyyətin birbaşa məhsuldar qüvvəsinə çevrilməsidir, yəni. texnologiyanın və istehsal texnologiyasının təkmilləşdirilməsi məqsədilə elmin nailiyyətlərindən sistemli istifadə, onları öyrənmək. Nəticə etibarı ilə elmi-texniki tərəqqi məhsuldar qüvvələrin maddi elementinin inkişafında, əmək məhsuldarlığını artırmaq üçün insan tərəfindən getdikcə daha güclü təbiət qüvvələrini əlavə etməklə texnologiyanın və istehsal texnologiyasının mürəkkəbləşməsində ifadə olunur..Elmi-texniki tərəqqinin inkişafının əsas mənbəyi özündə deyil, insanın əsas güclərindədir. Elmi-texniki tərəqqinin zərurəti texnika və texnikanın öz ehtiyacları ilə bağlı deyil, o, insan təbiətinə, insan varlığının mahiyyətinə xasdır. Məhz insanlar məhsuldar qüvvələri inkişaf etdirərək, onların təsiri altında dəyişərək, son nəticədə elmi-texniki tərəqqinin əsas prinsiplərini və istiqamətlərini müəyyən edirlər.

Turistlərə xidmət zamanı kompüter idarəçiliyinin müasir texnologiyalarından, qlobal kompüter şəbəkələrinin imkanlarından istifadə edilir ki, bu da qısa müddət ərzində müştərilər üçün müxtəlif tariflər və daimi müştərilər üçün stimullaşdırma sistemləri nəzərə alınmaqla turizm məhsulu formalaşdırmağa imkan verir. Turizmin daha da inkişaf etdirilməsi elm və texnikanın ən yeni nailiyyətləri nəzərə alınmaqla, yeni turizm obyektlərinin tikintisi və mövcud turizm obyektlərinin yenidən qurulması turizm sənayesinin sənayeləşməsi, texnologiyalaşdırılması və kompüterləşdirilməsi

əsasında mədəniyyətin və xidmətin keyfiyyətinin yüksəldilməsi, mövcud maddi resurslardan səmərəli istifadə edilməsi, turizm xidmətləri üçün müasir texnologiyaların tətbiqi olmadan mümkün deyil.Hazırda ölkəmizdə turizm sənayesinə daha çox yerli investisiyalar yatırılır və bu invetisiyalar daha çox paytaxt Bakıda və ona yaxın ərazilərdə həyata keçirilir. Həmçinin, yatırılan investisiyalar daha çox yeni turizm müəssisələrinin, obyektlərinin tikilməsi ilə bağlıdır. Artıq fəaliyyət göstərən obyektlərin bərpasına çox az hallarda investisiyalar yönəldilir. İstənilən halda ölkəmizdə fəaliyyət göstərən müəssisə və təşkilatlarda mühasibatlıq və uçot sahəsində kütləvi şəkildə Beynəlxalq Standartların tətbiq olunması turizm sənayesi üçün də çox faydalı olacaqdır.

## Nəticə

Beləliklə, turizm sahəsi öz tərkib hissələri ilə Azərbaycanın regional iqtisadiyyatının sosial və istehsal infrastrukturuna daxil olan sosial və istehsal infrastrukturlarından ibarətdir. Turizm infrastrukturunun bütün obyektləri sosial sahənin sosial və istehsal infrastrukturunun bir hissəsidir. Demək olar ki, turizm sahəsi sosial sahə sisteminin alt sistemidir.

## Ədəbiyyat

1. Bilalov, B.Ə. (2017), Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı: “Mütərcim”
2. Eminov, A.Z. (2018), Azərbaycanın fiziki və iqtisadi coğrafiyası. Bakı: “Azərbaycan Elmlər Akademiyası nəşri”.
3. Həsənov, Ə. N. (2012), Azərbaycanın təbii Turizm resursları. Bakı.
4. Zaid, W.R. (2018), Tourism industry and its effect to economy. Lol press, Birmingham, Peter A.S. Tourism industry. London: London publishing.
5. http://tourlib.net/statti_tourism/zaliznyak.htm. 14.0
6. Turizmin idarə edilməsi: Turizm və sənaye sistemləri, (2007),- M: Maliyyə və statistika,.
7. Zorin, I. V., Kvartalnov V. A., İrisova T. A. və b. (2002), Turizmin idarə edilməsi: Turizm və sektor sistemləri: dərslik. M.: Maliyyə və statistika.
8. Mazaeva, N.P. Vinogradova, M. V., Drozd V. V., və s., (2006), Regional turizm kompleksinin infrastrukturunun inkişafının strateji planlaşdırılmasının əsasları, M.: IVTs Marketing.
9. Voskresensky, V. Yuri Valerievich. (2007), Beynəlxalq turizm: Dərslik.
10. https://natalibrilenova.ru/razvitie-turizma-na-regionalnom-munitsipalnom-urovne

**Rəyçi: i.ü.f.d. İsfəndiyarov Ağamirzə**

Göndərilib: 02.04.2022 Qəbul edilib: 07.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/27-30

**Nigar Arif qızı Qurbanova**
Bakı Dövlət Universiteti
magistrant
nigargurbanova99@gmail.com

# İNZİBATİ İCRAATDA MARAQLI ŞƏXSLƏRİN İŞTİRAKI VƏ İŞİN HALLARININ OBYEKTİV ARAŞDIRILMASI

**Xülasə**

Məqalədə inzibati icraatda prosedur prinsip və təminatların növləri nəzərdən keçirilir. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci və 24-cü maddələri ətraflı şərh edilir. Habelə inzibati icraatda maraqlı şəxslərin iştirakı və işin hallarının obyektiv araşdırılması prosedur prinsip və təminatlarının xüsusiyyətləri izah edilir. Belə ki, qanunda başqa qayda nəzərdə tutulmamışdırsa, inzibati orqan inzibati icraat barədə maraqlı şəxsə və ya onun nümayəndəsinə məlumat verməli və işdə onun iştirakını təmin etməlidir. İnzibati orqan qanunla müəyyən edilmiş hallarda maraqlı şəxsləri və ya onların nümayəndələrini dinləməkdən imtina edə bilər. Habelə, inzibati orqan inzibati icraat zamanı işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırmağa borcludur. Bundan əlavə maraqlı şəxslərin xeyrinə olan halların araşdırılmasından və nəzərə alınmasından imtina edə bilməz.

***Açar*** *sözlər:inzibati icraat, prosedur prinsiplər və təminatlar, maraqlı şəxslər, inzibati akt, sübutlar, işin halları, ərizə, məsuliyyət*

**Nigar Arif Gurbanova**

## Participation of interested persons in administrative proceedings and objective investigation of the case

**Abstract**

The article considers the procedural principles and types of guarantees in administrative proceedings. Articles 21 and 24 of the Law of the Republic of Azerbaijan "On Administrative Proceedings" are explained in detail. It also explains the features of the procedural principles and guarantees of the participation of interested persons in the administrative proceedings and the objective investigation of the case. Thus, unless otherwise provided by law, the administrative body must inform the interested person or his representative about the administrative proceedings and ensure his participation in the case. The administrative body may refuse to listen to interested persons or their representatives in cases provided by law. In addition, the administrative body is obliged to thoroughly, completely and objectively investigate all the facts that are important for the proper resolution of the case during the administrative proceedings. In addition, it cannot refuse to investigate and take into account the circumstances in favor of interested parties.

***Key words***: *administrative proceedings, procedural principles and guarantees, interested persons, administrative act, evidence, circumstances of the case, application, responsibility*

## Giriş

"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.6-cı maddəsinə əsasən inzibati icraat fiziki və ya hüquqi şəxslərin müraciəti əsasında və ya inzibati orqanların öz təşəbbüsü ilə inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən bu Qanunla müəyyən olunmuş prosedur qaydalar daxilində həyata keçirilən fəaliyyətdir. İnzibati icraat insan hüquq və azadlıqlarının mühüm hüquqi təminatlarından biridir. Bu baxımdan inzibati orqanlar inzibati icraatı həyata keçirərkən inzibati icraatın ümumi prinsiplərinə və prosedur prinsip və təminatlara riayət etməlidirlər.

İnzibati icraat predmet ümumiliyinə malik olan fərdi inzibati məsələlərin qanuni və obyektiv baxılaraq həll olunmasını təmin edən prosessual hərəkətlərin normativ cəhətdən nizamlanmış

qaydasıdır. Məhkəmə icraatından fərqli olaraq inzibati icraat sadə prosessual formada həyata keçirilir. Qüvvədə olan qanunvericilik inzibati icraatın sadə, məqsədəuyğun və tez həyata keçirilməsini təmin edən ümumi tələbləri və prinsipləri nəzərdə tutur.

İnzibati icraat inzibati prosesin bir növüdür və bu baxımdan hər bir prosessual fəaliyyət kimi inzibati icraat da bir sıra mərhələlərdə həyata keçirilir. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, inzibati icraat aşağıdakı əsas mərhələlərdə həyata keçirilir: 1. İnzibati icraatın başlanılması; 2. işin faktiki hallarının araşdırılması; 3. inzibati aktın qəbul olunması; 4. inzibati aktın icra olunması; 5. inzibati akta yenidən baxılması.

İnzibati icraatın ilk mərhələsi inzibati icraatın başlanmasıdır. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 28-ci maddəsinə əsasən fiziki və ya hüquqi şəxsin ərizəsi, inzibati orqanın təşəbbüsü və ya qanunla nəzərdə tutulmuş hallarda inzibati orqanın inzibati aktı qəbul etmək vəzifəsi və inzibati aktdan şikayət verildiyi halda, inzibati şikayət inzibati icraatın başlanılması üçün əsaslardır.

Müraciətdə irəli sürülən məsələlərin həlli müraciətə baxan inzibati orqanın səlahiyyətlərinə aid olduqda isə fiziki və ya hüquqi şəxsin ərizəsi və ya inzibati şikayət qeydiyyata alındığı andan inzibati icraat başlanır.İnzibati orqanın təşəbbüsü və ya qanunla nəzərdə tutulmuş hallarda inzibati orqanın inzibati aktı qəbul etmək vəzifəsi əsas kimi olduqda isə inzibati icraat maraqlı şəxsə icraat haqqında məlumat verildiyi və ya maraqlı şəxsə münasibətdə ilk prosessual hərəkətin həyata keçirildiyi andan başlanır. İnzibati icraat başladıqdan sonra inzibati orqan qüvvədə olan qanunvericilikdə müəyyən edilmiş tələblərə və prinsiplərə uyğun inzibati icraatı həyata keçirməlidir.

“İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun III fəslində prosedur prinsiplər və təminatlar müəyyən edilmişdir.

Prosedur prinsiplər və təminatlar aşağıdakılardır: İnzibati orqana müraciət etmək hüququ, inzibati icraatda maraqlı şəxslərin iştirakı, işə baxılmasında qərəzsizlik, inzibati orqan tərəfindən məsləhətlərin və zəruri məlumatların verilməsi, işin hallarının obyektiv araşdırılması, inzibati icraat materialları ilə tanış olmaq hüququ, məzmununda qanunla qorunan hər hansı sirr olan sənədlərin və ya məlumatların məxfiliyinin təmin olunması və inzibati icraatın aparıldığı dil.

“İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 21-ci maddəsi inzibati icraatda maraqlı şəxslərin iştirakını müəyyən edir. Həmin maddəyə uyğun olaraq qanunda başqa qayda nəzərdə tutulmamışdırsa, inzibati orqan inzibati icraat barədə maraqlı şəxsə və ya onun nümayəndəsinə məlumat verməli və işdə onun iştirakını təmin etməlidir. Maraqlı şəxs dedikdə, inzibati aktın qəbul edilməsi və ya müvafiq hərəkətin edilməsi ilə bağlı inzibati orqana müraciət etmiş və ya barəsində inzibati akt qəbul edilmiş və ya müvafiq hərəkət (hərəkətsizlik) edilmiş şəxs və yaxud inzibati orqan tərəfindən qəbul edilməsi nəzərdə tutulan və ya qəbul edilmiş inzibati aktın və ya inzibati orqanın hərəkətinin hüquqlarına və ya qanunla qorunan maraqlarına birbaşa təsir etdiyi və ya təsir edə biləcəyi və öz vəsatətinə əsasən və ya xidməti vəzifəsindən irəli gələn hallarda inzibati orqanın təşəbbüsü ilə inzibati icraata cəlb edilən hər hansı fiziki və ya hüquqi şəxs nəzərdə tutulur.

Maraqlı şəxs anlayışı inzibati orqan istisna olmaqla icraatda iştirak edən bütün digər iştirakçıları özündə əks etdirir. Maraqlı şəxs inzibati icraatda şəxsən iştirak edə bilər və yaxud nümayəndə vasitəsilə təmsil oluna bilər, lakin həmin şəxsin inzibati icraatda şəxsən iştirakı onu həmin iş üzrə nümayəndə ilə təmsil olunmaq hüququndan məhrum etmir (İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun kommentariyası, 2006: 167).

Qanunda başqa hallar nəzərdə tutulmamışdırsa, inzibati aktı qəbul etməzdən əvvəl inzibati orqan onun məzmunu, xüsusilə işin müəyyən edilmiş faktiki halları və həmin işlə bağlı nəzərdə tutulan tədbirlər haqqında maraqlı şəxslərə və ya onların nümayəndələrinə məlumat verməyə və bu barədə onların mülahizələrini dinləməlidir.Göstərilən prosedur qaydalara riayət edilməsi inzibati orqan tərəfindən inzibati icraatla bağlı ədalətli və düzgün qərar qəbul edilməsinə kömək edir (Abdullayev, 2001: 124).

Qanunvericilikdə qeyd olunan müddəaya istisna hallar müəyyən edilmişdir. Belə ki, “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 21.3-cü maddəsinə əsasən inzibati orqan aşağıdakı hallarda maraqlı şəxsləri və ya onların nümayəndələrini dinləməkdən imtina edə bilər:

1. maraqlı şəxslərin tələblərinin tam təmin olunduğu inzibati aktın qəbul edilməsi nəzərdə tutulduqda. İnzibati orqan maraqlı şəxsin müraciətində göstərilən bütün halları tam, hərtərəfli və obyektiv şəkildə araşdırır. Qanunla müəyyən edilmiş qaydada həmin şəxsin tələblərinin tam təmin

olunduğu inzibati akt qəbul edir. Bu halda maraqlı şəxsin müraciətində göstərilən bütün tələblər tam təmin olunduğu üçün maraqlı şəxsi və ya onların nümayəndəsini dinləməyə ehtiyac qalmır;

2. ictimai və ya dövlət maraqlarına ziyan vura biləcək təhlükənin qarşısının alınması və ya aradan qaldırılması ilə əlaqədar inzibati aktın dərhal qəbul olunması zərurəti yarandıqda;

3. dinləmənin keçirilməsi inzibati aktın qəbul edilməsi ilə bağlı müddətin buraxılmasına səbəb ola biləcəyi halda. Belə ki, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 52.1-ci maddəsinə əsasən səlahiyyətli inzibati orqanda ərizənin və ya müraciətin qeydiyyata alındığı vaxtdan ən geci 30 gün müddətində həmin inzibati orqan inzibati aktın qəbul edilməsi və ya onun qəbul edilməsindən imtina olunması haqqında qərar qəbul edir;

4. ümumi xarakterli sərəncamın və ya çoxlu sayda identik məzmunlu inzibati aktların və ya avtomatik qurğular vasitəsilə inzibati aktların qəbul edilməsi nəzərdə tutulduqda. Şəxsin müraciətində ümumi xarakterli hallarla bağlı məsələlər qaldırılırsa, inzibati orqan həmin şəxsi və ya onun nümayəndəsini dinləməkdən imtina edə bilər;

5. barəsində müstəqil şəkildə şikayət verilə bilməyən aralıq inzibati aktın qəbul edilməsi nəzərdə tutulduqda. Aralıq inzibati akt dedikdə, konkret icraatın təşkili və həyata keçirilməsi ilə bağlı inzibati orqan tərəfindən qəbul edilən akt nəzərdə tutulur. Belə akt konkret icraatın təşkili və həyata keçirilməsi ilə bağlı olduğundan maraqlı şəxsin və ya onun nümayəndəsinin dindirilməsi əhəmiyyət kəsb etmədiyindən inzibati orqan onların mülahizələrini dinləməkdən imtina edə bilər;

6. inzibati aktların məcburi qaydada icrası ilə bağlı tədbirlərin tətbiqi nəzərdə tutulduqda. Belə ki, inzibati aktların məcburi qaydada icrası ilə bağlı tədbirlərin tətbiqi bilavasitəinzibati orqanların səlahiyyətli şəxslərinin vəzifə borcu olduğundan və bu zaman qanunla müəyyən edilən vasitələr tətbiq edildiyindən maraqlı şəxsin və ya onun nümayəndəsinin dinlənilməsinə ehtiyac qalmır. Qeyd olunanlara əsasən yuxarıda göstərilən hallarda inzibati orqanın maraqlı şəxsin və ya onun nümayəndəsinin mülahizələrini dinləməkdən imtina etmək hüququ vardır (Əliyev, 2016: 447).

"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 24-cü maddəsi işin hallarının obyektiv araşdırılması prinsipini müəyyən edir. Həmin maddədə işin hallarının obyektiv araşdırılması qaydaları və bu zaman inzibati orqan qarşısında duran vəzifələr göstərilmişdir.

Adıçəkilən prinsipə görə inzibati orqan inzibati icraat zamanı işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırmağa borcludur. Habelə inzibati orqan maraqlı şəxslərin xeyrinə olan halların araşdırılmasından və nəzərə alınmasından imtina edə bilməz.

Yuxarıda qeyd etdiyimiz kimi inzibati icraat bir neçə bir neçə mərhələdən ibarətdir. İşin faktiki hallarının araşdırılması inzibati icraatın əsas mərhələlərindən biridir. Bu mərhələdə inzibati orqan işə mahiyyəti üzrə və tam həcmdə baxır və ərizəçinin tələbinin və ya şikayət olunan aktın (hərəkət və ya hərəkətsizliyin) qanunauyğunluğu və məqsədəmüvafiqliyi araşdırılır. İnzibati orqan ərizə və şikayət üzrə qərarını işdə olan, əlavə təqdim olunmuş, o cümlədən özü tərəfindən müəyyən olunmuş sübutlarla əsaslandırmalıdır.

İnzibati orqan maraqlı şəxslərin işdə iştirakını təmin edərək mülahizələrini dinlədikdən sonra onların xeyrinə olan halların araşdırılmasını və nəzərə alınmasını təmin edir.İşin hallarının obyektiv araşdırılması prinsipinin tələbi kimi inzibati icraat zamanı işin hallarının hərtərəfli, tam və obyektiv araşdırılması inzibati orqanın xidməti vəzifəsindən irəli gəlir. Araşdırmanın üsulu və həcmi inzibati orqan tərəfindən hər bir konkret hala münasibətə müəyyən olunur. İşin hallarının obyektiv araşdırılması prinsipinə əsasən inzibati orqan maraqlı şəxslərin izahatları ilə və təqdim etdiyi sübutlarla bağlı deyildir. Belə ki, təqdim olunmuş sübutlar yetərli olmadıqda, inzibati orqan öz təşəbbüsü ilə əlavə sübutlar toplamağa borcludur.Bundan əlavə inzibati orqan inzibati icraatda iştirak edən şəxslər tərəfindən təqdim olunmuş və baxılması qanunvericiliyə uyğun olaraq onun səlahiyyət dairəsinə aid olan ərizə, şikayət və ya vəsatətləri işə aid olmaması və ya əsassız olması səbəbindən qəbul etməkdən imtina edə bilməz.

İnzibati orqan inzibati icraat zamanı işin faktiki hallarının hərtərəfli, tam və obyektiv şəkildə müəyyən edilməsi üçün yararlı və zəruri hesab etdiyi sübutları müstəqil şəkildə toplayır və nəzərə alır. İnzibati icraat zamanı inzibati orqan sənədlərdən, tərəflərin və işdə iştirak edən üçüncü şəxslərin izahatlarından, şahid ifadələrindən, müvafiq müayinələrin aparılmasından, ekspert rəylərindən, hüquqi yardım qaydasında digər inzibati orqanlar tərəfindən təqdim olunmuş arayışlardan, işin düzgün həlli üçün əhəmiyyət kəsb edən digər sübutlardan istifadə edə bilər. Bu zaman qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə olunmasına yol verilmir.

İnzibati icraatda iştirak edən şəxslər işin faktiki hallarının müəyyən edilməsinə kömək etməyə, iş üçün əhəmiyyət kəsb edən və onlara məlum olan faktlar barədə məlumat verməyə, habelə özlərində olan zəruri sübutları təqdim etməyə borcludurlar. İşdə iştirak edən şəxsin zəruri sübutları müstəqil şəkildə əldə etmək imkanı olmadıqda, o, həmin sübutları tələb etmək barədə vəsatətlə inzibati orqana müraciət edir. Vəsatətdə sübutların iş üçün əhəmiyyəti, əlamətləri və olduğu yer göstərilməlidir. İnzibati orqan həmin sübutları tələb etməyə və onların təqdim olunmasını təmin etməyə borcludur. Qanunvericiliyə uuyğun olaraq maraqlı şəxsdən işdə olan sənədin məzmununun həqiqiliyi barədə sübut tələb olunması qadağandır (Əliyev, 2016: 459).

"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 47.1-ci maddəsinə əsasən inzibati orqan sübutlara iş üçün əhəmiyyət kəsb edən bütün faktiki və hüquqi hallara müvafiq olaraq qiymət verir. Maraqlı şəxslərin arzusu ilə inzibati orqan qəbul edəcəyi inzibati aktı əsaslandırmaq istədiyi bütün faktlar, dəlillər və ya sübutlar barədə, habelə inzibati aktın qəbulu üçün təklif etdiyi hüquqi əsas barədə onlara izahat və ya şərh verməyə borcludur.

In our opinion, the main reference point for the registration of a mark as a trademark should be Article 1 of the Law. If the mark has a distinctive feature on the goods or services and can be graphically described in the register, it must be registered as a trademark. When examining the distinctiveness, “forms reflecting the nature of the goods, giving them significant value and necessary for technical achievement” regulated in Article 5, paragraph d) of the Law, which prohibits the registration of a trademark, must be carefully examined and the registration of trademarks consisting of these forms refused. This is because the registration of functional marks can lead to disproportionate damage to competing firms by giving the badge owner exclusive rights over the shape, color and other markings that constitute a technical necessity. The application of Article 5 (d) of the Law is very important from the point of view of the purposes of trademark law. However, in the same article of the Law, it is an important mistake to count the signs in paragraph d) among the signs that may be distinguishable when used. Thus, the EU Trademark Directive 2015/2436 does not include functional markings between distinguishing marks when used. Such marks referred to in subparagraph (e) of paragraph 1 of Article 4 of the Directive may not be registered as a trademark, even if they acquire distinguishing marks. Otherwise, the rectangular shape of the phone, the registration of white as a trademark for dairy products, may force competing entrepreneurs to incur additional costs and think

about other forms, avoiding technical necessity. This contradicts the conditions of a free competitive environment.

Although many non-traditional symbols can be used on goods or services to distinguish them, graphic representation is an objective condition, ie symbols such as sound, smell and taste are not suitable for graphical representation in the register. The graphical description condition, described as a fixed reference point in the register, has been replaced by Article 3 of the Trademark Directive 2015/2436, which stipulates that "the subject of protection may be indicated in the register provided it is clearly understood by the authorities and the public." Although this Directive simplifies the legal framework for the registration of non-traditional signs consisting of sound and independent colors, the national legislation of the Republic of Azerbaijan continues to have a conservative approach to the registration of such signs (William, 2019, 9:1).

## Conclusion

The distinctiveness and function of a trademark play a crucial role in the study of whether non-traditional trademarks can be trademarks. The marks listed in Article 4 of the Law on Trademarks and Geographical Indications are not the only signs that can be registered as a trademark. If the conditions of Article 1 of the Law are met, other marks must also be protected as trademarks. In order to be registered as a trademark, a conventional mark must be distinctive and must be graphically represented in the register.

We believe that the consensus in the European Union on the ability of symbols, such as independent colors, sounds and symbols, to be trademarks, should be reflected in the definition of national legislation, although not for all types of non-traditional symbols. At the same time, the definition set forth in Article 3 of the EU Trademark Directive 2015/2436 should be included in national legislation, in particular in terms of replacing the condition of graphic representation. The current regulations are positive about the form and packaging of goods from non-traditional labels, as well as the registration of color combinations. Today, it is almost impossible to record signs such as smell and taste, in terms of both graphic description and the condition that they can be clearly and accurately displayed in the register.

## References

1. Adolf, H. (2011), The Trade-related Aspects of Intellectual Property Rights and Developing Countries, The Developing Economies.
2. Carti, A. (2012), Müəssisələr üçün brendinq və brendinq qərarlarının əhəmiyyəti.
3. Carapeto, R. (2016), About the Introduction of Non-Conventional Trademarks, Waseda Bulletin of Comparative Law.
4. Durmaz, Y. ve Ertürk S. (2016), Brend Tətbiqləri və əhəmiyyəti, Uluslararası Akademik Değer Çalışmaları Dergisi.
5. Karadenizli, H.T. (2018), Yeni əmtəə nişanlarının növləri və onların qeydiyyatı (İxtisas tezisi, Türk Patent İnstitutu, Ticarət Nişanları Bölməsi).
6. Martin, C. (2018), Meaning of Distinctiveness in Trademark Law, Northwestern University Illinois Law Review.
7. Schmidt-Szalewski, J. (2018), The International Protection of Trademarks after the TRIPs Agreement, Duke Journal of Comparative & International Law.
8. William, M., Richard A. (2017), Trademark Law: An Economic Perspective, The Journal of Law and Economics.
9. William, J. (2019), Development of Evidence to Support Color-Based Trademarks, Journal of Law and Commerce.

**Rəyçi: h.ü.e.n. Aydan Məmmədova**

Göndərilib: 06.04.2022 Qəbul edilib: 12.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/44-47

**Şəhla Balakişi qızı Məmmədova**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
sehlam85@gmail.com

# LƏNKƏRAN İQTİSADİ-COĞRAFİ RAYONUNDA TARİXİ-MƏDƏNİ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ VƏ TURİZM OBYEKTLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏNİN YOLLARI

**Xülasə**

Tarixi-mədəni turizm fiziki şəxslərin daimi yaşayış yerindən kənarda tamamilə və ya qismən mədəni görməli yerlərə, o cümlədən mədəni tədbirlərə, muzeylərə və tarixi yerlərə, incəsənət qalereyalarına və s. tarixi irsi, innovativ bədii yaradıcılığı, ənənəvi dəyərləri, sakinlərin fəaliyyətini əks etdirən, onların mədəni tələbatlarını ödəmək üçün ən son məlumat, təcrübə və təəssüratları əldə etmək məqsədi ilə yerli əhalinin adi əyləncə yerlərinə səyahətlərini özündə əks etdirir. Bu məqalədə Lənkəran iqtisadi coğrafi rayonunda mövcud olan tarixi mədəni turizmin inkişafından, regionda olan tarixi mədəni obyektlər haqqında məlumat verilmişdir. Məqalədə həmçinin, regionda mövcud olan tarixi-mədəni turizm marşrutları haqqında da məlumat verilmişdir.
***Açar sözlər:*** *tarixi-mədəni turizm obyektləri, turizm üzrə dövlət proqramları, turizm marşrutu*

**Shahla Balakishi Mammadova**

## Development perspectives of historical and cultural tourism and ways of effective use of tourism objects in Lankaran economic and geographical district

**Abstract**

Historical and cultural tourism includes cultural places of interest outside or permanent residence of individuals, additional cultural facilities, museums and places, art galleries, etc. reflects the historical heritage, innovative creativity, values, repair activities, provides the latest information, experience and economic activities to meet their cultural needs. This article provides information about the development of historical and cultural tourism in the Lankaran economic and geographical region and the cultural facilities in the region. The article also provides information on the existing historical and cultural tourism routes in the region.
***Key words:*** *historical and cultural tourism facilities, state tourism programs, tourism route*

## Giriş

Ölkəni, regionu turistlər üçün cəlbedici edən, turizmin inkişafı üçün əhəmiyyət kəsb edən mühüm səbəblərdən biri tarixi və mədəni abidələrdir. Bildiyimiz kimi məkandan asılı olmayaraq istənilən bir ölkəyə səfər edən turist getdiyi ölkənin yaşam tərzini, tarixini özündə birləşdirən mədəniyyət abidələrinə daha çox maraq göstərir. Hər bir ölkə öz sərhədləri daxilində turizmi inkişaf etdirmək üçün ıık öncə öz tarixini, mədəniyyətininəks etdirən irsi nümunələrlə çıxış edir. Bununla da deyə bilərik ki, turizm vasitəsilə istənilən bir ölkə öz tarixi-mədəni irsini bütün dünyaya tanıdır.

Ölkəmiz qədimliyi ilə tanınan yaşayış yerlərinin, abidələrin, digər mədəni irs nümunələrinin bolluğu ilə seçilir. Buna görə də ölkəmizdə turizmin digər növləri ilə yanaşı, tarixi-mədəni turizmin inkişaf etməsinə daha çox qayğı göstərilir. Buna baris nümunə olaraq Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksini qeyd edə bilərik. Bu muzey 2008-ci ildə Heydər Əliyev Fondu tərəfindən yenidən bərpa olunub istifadəyə verilmişdir. Bu məkan minlərlə yerli və xarici turistlərin axışdığı yerlərdən biridir. Ölkəmizdə daima bu cür tədbirlər görülərək tarixi-mədəni turizmin inkişaf etməsinə zəmin yaradılmışdır. Bu cür tədbirlər sayəsində həmin məkanlara gələn, axışan turistlərin sayı da getdikcə artmışdır. Ölkəmizə turistlərin axışmağı beynəlxalq aləmdə ölkəmizin reytinqinin də artmasına səbəb olur (7).

Ölkəmizin ən gözəl bölgələrindən biri olan cənub bölgəsi - Lənkəran iqtisadi rayonu turizmin inkişafı ilə seçilir. Lənkəran gözəl iqlim şəraitinə, zəngin təbii sərvətlərə və nadir tarix və mədəniyyət abidələrinə malikdir. Şərqdən Xəzər dənizi, qərbdən Talış dağları ilə əhatə olunub.

Ölkəmizdə 2002-2005-ci illərdə turizmin inkişafı üçün Dövlət proqramı təsdiq olunmuşdur. Bu dövlət proqramı təsdiq olunduqdan sonra ölkəmizdə mövcud olan turizm resurslarından səmərəli şəkildə istifadə edilir. Dövlət proqramının təsdiq olunmasından sonra Azərbaycan dövləti ərazisində turizmin inkişafına nail olmaq üçün 2002-ci ildə beynəlxalq standartlara uyğun olan yeddi istiqamətdə turist marşrutu müəyyənləşdirilmişdir. Bu istiqamətlərdən biri də Bakı-Astara turist marşrutudur (8).

Azərbaycanda həyata keçirilən turizmin inkişafı üzrə birinci Dövlət proqramının davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2010-cu il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında 2010-2014-cü illər üzrə turizmin inkişafı üçün Dövlət proqramı təsdiq olunmuşdur (9). Bu dövlət proqramı Azərbaycanda yüksək sosial, iqtisadi, ekoloji tələblərə cavab olan müasir turizmin yaradılması və turizmin ölkə iqtisadiyyatında həlledici inkişaf istiqamətlərindən biri olmasının təmin olunması məqsədi ilə yaradılmışdır.

Ölkəmizdə mədəni turizmin inkişaf dərəcəsi mədəni tərəqqinin göstəricisidir. 2010-2014-cü illərdə təsdiq olunmuş Dövlət proqramında mədəniyyət abidələri və tarixi-memarlıq abidələri ərazisində müasir turizmin inkişafı üçün daha çox yer ayrılmışdır. Müasir dövrdə respublikamızın ayrı-ayrı bölgələri getdikcə abadlaşıb, regionlara yeni yollar çəkilib və yeni, rahat mehmanxana və otellər tikilib. Buna görə də artıq bölgələrimizdə də turizmin inkişafı üçün şərait vardır.

İstər yerli turistlər, istərsə də xarici turistlər son dövrlərdə tarixi-mədəni abidələrə daha çox maraq göstərirlər. Lənkəran-Astara iqtisadi rayonunda da bir çox belə abidələr vardır. Bu abidələrdən bir çoxu yenidən bərpa edilərək turistlərin xidmətinə verilmişdir. Lənkəranın tarixi turizm marşrutlarına Şeyx Zahid türbəsi, tarix diyarşünaslıq muzeyi, xalq sənıtkarlığı şəhərciyi, Xəlifə türbəsi və s. aiddir. Bu tarixi-mədəni obyektlərdə təmir-bərpa işləri yüksək səviyyədə edilmişdir (10).

Ölkəmizdə beynəlxalq standartlara uyğun olan turizm fəaliyyətinin həyata keçirilməsi, həmçinin turizm infrastrukturunun inkişafı turizm sahəsi üzrə qanunvericilik sisteminin və dövlət tənzimləmə strukturunun təkmilləşməsini zəruri edir. Ölkəmizdə turizmin inkişafı, həmçinin turizm potensialından istifadənin genişləndirilməsini, regionlarda turizm fəaliyyətinin inkişafını, yeni turizm marşrutlarının təşkil edilməsini zəruri edir. Bu sadalanan məqsədlərə nail olmaq üçün Azərbaycanda turizmin inkişaf etməsi ilə bağlı əlavə tədbirlər haqqında Prezidentin 1 sentyabr 2016-cı il tarixli sərəncamında turizm üzrə dövlət qurumlarına tapşırıqlar verilmişdir (1).

Qeyd edək ki, 2018-2019-cu illərdə Lənkəran rayonuna vauçerlərin artımı baş vermişdi. Lakin sərhədlərin bağlanması ilə İrandan gələn turistlərin əsas axını Azərbaycana turist səfərlərini bərpa edə bilmədi və bu, Lənkəran rayonunun iqtisadi göstəricilərinə təsir etdi (2).

Azərbaycanın ölkə və dünya əhəmiyyətli 430-dan çox mədəniyyət və tarix abidəsi vardır. Bu abidələrin xronologiyasının təhlili və hazırlanması onların tarixi dövrlə əlaqəsini aydın şəkildə göstərir. Qız Qalası və Şirvanşahlar sarayı ilə birlikdə İçərişəhər kompleksi, Qobustan tarixi-bədii qoruğu, Xan sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya irsi nümunələri siyahısına daxil olunub (6).

Regionlarda turizm üzrə marşrutların təşkil olunması problemi turizmin inkişaf etməsində qarşıda duran əsas məsələlərdəndir. Turizm marşrutları dedikdə, turistlərin regiona daxil olduqda hava limanlarından, yaxud sərhəd keçid məntəqələrindən başlayıb onların ən son gedəcəkləri yerə qədər nəzərdə tutulmuş istiqamətlər başa düşülür. Turizm marşrutlarının uğurlu təşkili turizmin inkişafına əsaslı şəkildə təsir göstərir. Bu da öz növbəsində turizmdən əldə olunan gəlirlərin miqdarının artmasına səbəb olur. Buna görə də turizmin inkişafı üçün potensial olan hər bir regionda ilkin şərtlərdən biri turizm marşrutlarının işlənib hazırlanmasıdır. Təşkil olunacaq marşrutların davamlı olması, onların turistlərin tələblərinə, mənafelərinə uyğun olması, turizm səyahəti zamanı təhlükəsizlik məsələlərinin həll edilməsi kimi faktorlar turizm marşrutlarının üzərinə düşən əsas öhdəliklərdir.

Respublikamızda yeni turizm marşrutları fealiyyət göstərir. Lakin bu marşrutlar əsas etibarilə respublika əhəmiyyətli turizm obyektləri üzərində yaradılmışdır (İmrani, Bədəlova, 2017: 434). Lənkəran-Astara iqtisadi-coğrafi rayonu üzrə turist marşrutları kimi Cənub marşrutunu, Bakı-Astara xəttini, həmçinin onun Cəlilabad, Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara istiqamətlərini qeyd etmək

olar. Lakin bu marşrutlar yerli potensialı tam biruzə etməyə imkan vermir. Bu baxımdan Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda yerli turizm marşrutlarının təşkili üçün zəmin yaranmışdır.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda yeni turist marşrutlarının yaradılması ilə regiona turistləri cəlb etmək və turxidmətlərin səviyyəsinin yüksəldilməsinə nail olmaq olar. Bunun üçün iqtisadi-coğrafi rayonda aşağıdakı yeni marşrutlar təklif olunur (Talıbov, 2018: 12):

1-ci istiqamət ənənəvi irs nümunələri turları: Lənkəran - Separadi Şağlaser Vilvan - Veravul - Kənarmeşə. Boladi Dülgərlik, dulusçuluq, dəmirçilik, xalçaçılıq kimi sənətlərlə bərabər, bəzi nadir sənət növlərinin də inkişaf etdiyi həsirçilik, zənbilçilik, sandıqçılıq, kənəfçilik, camçılıq və s. nümunələrə səfər.

2-ci istiqamət - təbii-ekoloji turlar: Masallı-Lənkəran-Lerik Astara. Masallıda Viləş su anbarının, Lənkəran-Astara yolunun kənarında Xanbulan və Lovain su anbarlarının, Lerikdə Zuvand yasaqlığı, Astarada Hirkan Milli Parkının bu əraziyə düşməsi, dağlıq ərazilərdə təbiət abidələrinin olmasını, təbiət turları və foto-safarinin təşkili.

3-cü istiqamət - folklor turları: Masallı - Lənkəran - Lerik. 2010-2014-cü illər üçün xalq yaradıcılığı paytaxtları proqramının tərkib hissəsi olaraq 2011-ci ildə Lənkəranın, 2013-cü ildə isə Masallının Folklor paytaxti statusu qazanması xüsusi bir hal olaraq region turistlərin diqqət mərkəzində olmuşdur.

4-cü istiqamət - qurman turları: Masallı - Təzə Alvadı - Böyük Xocavar - Kosagül - Lənkəran Liman Digah Sutəmurdov - Astara - Təngərüd - Maşxan - Ərçivan. Bölgədə 21 növ düyü, 23 növ ət, 7 növ quş əti, 20 növ un məmulatı, 9 növ balıqdan bişirilən yeməklər mövcuddur.

5-ci istiqamət kombinə turları: Calilabad - Masallı - - Lənkəran Astara. Tarixi-memarlıq, istirahət, - Yardımlı - Lerik ekoloji tur, kənd və müalicəvi turizm. Cəlilabadda tarixi yaşayış məntəqələri və kurqanlar, Masallı rayonunda Masallı"şəlaləsi, tarix abidələr və bir çox müalicəvi əhəmiyyəti olan mineral sular, Yardımlı rayonunun Nisəqala kəndində Yardımlı (Tək Dam) şəlaləsi, Lerik rayonunun Qələbin kəndində şəlalə, Büzeyir kəndində Büzeyir mağarası və gözəl meşələri, Lənkəranda bir çox tarixi memarlıq abidələri və müalicəvi bulaqlar, Astara rayonunda Zəngulaş istisu, Yanar Bulaq kompleksi vardır.

Ümumiyyətlə, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda təbiət abidələrinə (çaylar, su anbarları, şəlalələr, termal sular, mineral bulaqlar və s.) və tarixi-mədəni obyektlərə (tarixi-memarlıq, dini, arxeloji və s.) əsaslanan turizm marşrutlarının təşkili üçün imkanlar yüksək qiymətləndirilir. Bu turizm marşrutlarının təşkili həm inzibati rayonlar, həm də iqtisadi-coğrafi rayon səviyyəsində mümkündür. Turizm fəaliyyətini genişləndirmək üçün yuxarıda qeyd olunan cəhətlər nəzərə alınmaqla, gələcəkdə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizm təsərrüfatını inkişaf etdirmək mümkün olacaqş (4).

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun turizm potensialı və ondan səmərəli istifadə yollarının təhlili zamanı görünür ki, mövcud turizm potensialına əsaslanan yerli turist marşrutlarının təşkili üçün potensial imkanların olmasına baxmayaraq, onlardan çox az istifadə edilir.

Lənkəran regionu tarixi abidələrlə zəngin bir regiondur. Burada hətta bir çox din mərkəzləri də vardır. Bu dini mərkəzlər dindarlar tərəfindən daima ziyarət olunur. Burada yaşayan xalq dini adətlərə bağlı yaşayırlar. Dini mərkəzlərə xaricdən gələn turistlər də maraq göstərir və bu beynəlxalq təcrübədə sübut olunub.

## Nəticə

Respublikamızın tarixi-mədəni irsi zəngin olduğundan, turistlərin diqqətini çəkmək üçün tarixi-mədəni abidələrdə təmir-bərpa işləri, yenidənqurma işləri görülür. Buna görə də tarixi turizm üzrə marşrutlar xüsusilə qiymətləndirilməlidir. Bu marşrutlar Azərbaycan Respublikası üçün potensial turizm məhsulu kimi götürülə bilər (1). Nəticədə Azərbaycan Respublikası, ölkə ərazisində tarixi və mədəni irsin təşviq olunması, həmçinin regional və yerli səviyyədə tarixi-mədəni turizm marşrutlarının işlənib hazırlanması nəticəsində qonşu dövlətlərlə turizm sferasında əməkdaşlıq üçün geniş imkanlara malik olacaq. Bunun nəticəsində isə bölgəyə turist axınının çoxalması,turist gecələmələrinin sayının artması halları müşahidə olunacaqdır.

Lənkəran – Astara iqtisadi regionu tarixi abidələrlə zəngin bir region olmasına baxmayaraq, hələ bir çox abidələr nəinki xaricilər tərəfindən, həmçinin yerli sakinlər tərəfindən də tanınmır. Tarixi turizmin regionda inkişaf etdirilməsi nəinki regiona, həm də yerli sakinlərin həyat tərzinə də müsbət təsir göstərə

bilər. Tarixi turizmin inkişaf etdirilməsi nəticəsində ilk növbədə region daxilində işsizlik problemini aradan qaldırar, yeni iş yerləri açılar, sakinlərin işləmək üçün rayondan kənara getməsinin qarşısı alınar.

Müasir dövrdə tarixi – mədəni abidələrə olan maraq artmaqda davam edir. Çünki bir ölkənin və ya regionun tarixi, mədəniyyəti, irsi, dini daima maraq dairəsində olan ünsürlərdir. Turizm siatemində fəaliyyət göstərən sahibkarların düzgün turizm infrastrukturunun seçilməsi və yaradılmasına aid müəyyən layihələr təqdim edirlər. Bu layihələrin nəzərdə tutulan çərçivədə maliyyələşdirilməsinə üstünlük verilir. Bu da regionun sürətli iqtisadi-sosial inkişafının həyata keçirilməsində mühüm rol oynayır. Bu cür lahiyələrə müəyyən qurumlar, orqanlar tərəfindən dəstək verilməsi regionlarda turizmin inkişafına təsir edərək burada yeni turist xidmətlərinin formalaşmasına gətirib çıxarır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş – Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi.
2. Abbasova, S. H. (2022) , Pandemiya şəraitində Azərbaycanın Lənkəran İqtisadi Rayonunda İnnovasiyalar və Turizm Sektorunun İnkişafı mövzusunda məqalə / ISPC-CPSLR 2021, Bakı: Atlantis Press SARL nəşriyyatı.
3. İmrani, Z.T., Bədəlova X.A. (2017), Azərbaycan regionlarının dayanıqlı inkişafında turizm təsərrüfatının əmək ehtiyatlarının formalaşmasına təsiri // Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali məskunlaşmasının perspektivləri və regional problemləri mövzusunda elmi konfrans. Şəki: Avropa nəşriyyatı.
4. Lənkəran – Astara iqtisadi – coğrafi rayonunda demoqrafik inkişaf problemləri və əhalinin məskunlaşması, (2019) Bakı: Avropa nəşriyyatı.
5. Talıbov, S. Ə. (2018), Lənkəran – Astara iqtisadi coğrafi rayonunda turizmin inkişaf perspektivləri. Dissertasiya.avtoreferatı. Bakı.
6. https://xalqqazeti.com/az/news/93378
7. http://www.anl.az/down/meqale/medeniyyet/2010/may/120240.htm
8. https://republic.preslib.az/az_c7-5.html
9. https://azertag.az/xeber/Azerbaycan_Milli_Kulinariya_Merkezi_novbeti_ugura_imza_atib-1945928
10. http://www.anl.az/down/meqale/medeniyyet/medeniyyet_may2009/77670.htm


**Rəyçi: c.ü.f.d. Zaur İmrani**

Göndərilib: 06.04.2022 Qəbul edilib: 13.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/48-52

**Gulandam Gunduz Guliyeva**
Baku State University
master
gulndamquliyeva@gmail.com

# LEGAL LIABILITY AND LOSSES ARISING FROM POLLUTION RESULTING FROM THE ACTIVITIES OF COASTAL FACILITIES: IN TURKEY SAMPLE

**Abstract**

The seas are the common heritage of humanity in terms of social, cultural, economic and biological aspects. Pollution is the biggest and imminent threat to this heritage. Although shipborne pollution has been the subject of many academic studies, the importance of coastal pollution has been overlooked for years.

In this study, first of all, the technical dimension of the subject was discussed and the concept of coastal facility was examined. The pollution caused by the pollutants originating from the coastal facilities has been put forward and the damage caused by the pollution has been tried to be determined.

Afterwards, the nature and basis of the legal liability for the damages arising from the pollution originating from the coastal facilities were examined within the scope of the Law No. 5312 of 3.3.2005 on the Principles of Intervention in Emergency Situations in the Pollution of the Marine Environment with Petroleum and Other Harmful Substances and the applicability of this law. As a result, it has been proposed to find a solution to the damage caused by pollution caused by coastal facilities, all of which carry out dangerous activities, within the framework of the general provisions of the Environmental Law and the Law of Obligations regulating the liability of danger.

***Key words:*** *Coastal Pollution, Marine Pollution, Responsibility, Coastal Facility, Marine Environment*

**Güləndam Gündüz qızı Quliyeva**

## Sahil obyektlərinin fəaliyyəti nəticəsində çirklənməylə bağli hüquqi məsuliyyət və itkilər: Türkiyə nümunəsi

**Xülasə**

Dənizlər sosial, mədəni, iqtisadi və bioloji aspektlər baxımından bəşəriyyətin ümumi irsidir. Çirklənmə bu irs üçün ən böyük və qaçılmaz təhlükədir. Gəmilərlə çirklənmə bir çox akademik araşdırmanın mövzusu olsa da, sahil çirklənməsinin əhəmiyyəti illərdir diqqətdən kənarda qalmışdır.

Bu işdə, ilk növbədə, mövzunun texniki ölçüsü müzakirə edilmiş və sahil obyekti anlayışı araşdırılmışdır. Sahil obyektlərindən əmələ gələn çirkləndiricilərin törətdiyi çirklənmələr ortaya qoyulmuş və çirklənmənin vurduğu ziyan müəyyən edilməyə çalışılmışdır.

Daha sonra "Sahil ərazilərinin çirklənməsi zamanı fövqəladə hallara müdaxilənin prinsipləri haqqında" 3.3.2005-ci il tarixli 5312 nömrəli Qanun çərçivəsində sahilboyu obyektlərdən yaranan çirklənmə nəticəsində dəyən zərərə görə hüquqi məsuliyyətin mahiyyəti və əsasları araşdırılmışdır. Nəticədə, araşdırmada bütün təhlükəli fəaliyyətlə məşğul olan sahilyanı obyektlərin çirklənməsi nəticəsində dəymiş ziyanın Ekoloji Qanunun və məsuliyyəti tənzimləyən Öhdəliklər Qanununun ümumi müddəaları çərçivəsində həllinin tapılması təklif olunub.

***Açar sözlər:*** *Sahil çirklənməsi, dəniz çirklənməsi, məsuliyyət, sahil obyekti, dəniz mühiti*

## Introduction

Marine pollution is an international issue that concerns all humanity due to its social, economic, environmental and legal dimensions. The issue of sea pollution is also of vital importance for Turkey, which is surrounded by the sea on three sides and benefits from this relationship on a commercial and cultural level.

As it is known, the issue of pollution caused by the operation of the ships used in maritime transportation and the accidents involved in the pollution of the marine environment has been discussed

at the international level since the beginning of the 20th century, and the need for joint action has emerged.

As a result of these discussions, a legal regime has been established by regulating the principles of liability and compensation for pollution damages, which are becoming increasingly heavy with multilateral and bilateral agreements, especially for the elimination of marine pollution damages caused by oil.

On the other hand, although the pollution caused by oil and other harmful substances that may arise from the activities of coastal facilities is another important source of marine pollution and causes increasing damage day by day, it has not attracted the attention of the international community as much as oil pollution from ships (Ağsakal, 2019:56).

In the last 10 years, the urbanization concentrated in coastal areas with the rapidly increasing population all over the world, on the other hand, due to the economic advantages it provides, due to the industrial facilities established close to the coasts for industrial activities, land-based sea pollution has increased tremendously, and it has started to attract attention besides ship-borne pollution.

Although the subject is expressed with an umbrella concept as land-based marine pollution, the pollution caused by industrial and industrial activities in the coastal areas or the pollution from domestic, agricultural and similar sources are very different, so it needs to be examined separately.

In this direction, coastal facilities, which are in the industrial and industrial activities branch and have a typical hazard potential, are considered as the main source of pollution due to the size and number of the activities carried out (Güneyli 2020:125).

**Definition and Legal Character of the Coast**

In order to be able to define the pollution caused by coastal facilities, we must first reveal the legal nature of the coast and then the content of the concept of coastal facility in accordance with national and international legislation. In general terms, the coast is defined as the piece of land surrounding any natural body of water. (2) For a more technical definition, the legal regulation that should be looked at is the Coastal Law.

**Coastal Facility Concept**

Coastal facility, on the other hand, is a pier, port, shelter, berthing place, which can be built on the coasts and on the areas gained through filling and drying -in cases where the public interest requires- in Article 6 of the Coastal Law, titled "Coastal Protection, Construction Prohibition, Structures to be Built on the Coast and the Sea".

Based on this definition, the basic elements of the coastal establishment are; first of all, these facilities should be located only on the coasts or on the areas recovered by filling and drying. Secondly, it is not possible for some of these facilities to be constructed offshore, for example the pier or shipbreaking site, etc.

This obligation is the result of the act performed during the realization of the activity or the fact that the work performed as a result of the activity requires direct contact with the sea. Finally, it has been regulated that the permanently constructed structures adjacent to the structures mentioned in the first two elements will also be included in the coastal facility (Yıldırım, 2020 :109).

**Coastal Facilities as Pollutant**

A wide variety of activity types can be considered for such facilities. In our world, where technology is advancing very rapidly, it cannot be expected to be practical since a list of activities prepared to name the facilities must be constantly renewed (Atamer, 2019:187). For this reason, it is necessary to determine these facilities, which carry out activities that carry a risk of danger above the normal, by limiting them to certain legal criteria due to the damage caused by the pollution they will expose to the environment.

The Intervention and Damage Compensation Law has put forward a very general expression as a criterion to limit these types of activities. As determined in the law, the criterion for coastal facilities is to carry out activities that will cause pollution in the seas by oil and other harmful substances.

A definition that makes this scope more concrete is given in the 'Coastal Facilities Marine Pollution Compulsory Liability Insurance Tariff and Instruction Communiqué ("Liability Insurance Communiqué") published pursuant to the Law on Intervention and Damage Compensation.

According to the Communiqué, coastal facilities, as businesses that are required to take out compulsory liability insurance; refineries, ports and stations where petroleum and petroleum products are loaded or unloaded, filling facilities, storage facilities, gas terminals, power plants, industrial production facilities, ports and piers where loading or unloading are made, terminals, shipyards, shipbreaking facilities, shipbuilding and repair are the facilities where such activities are carried out.

**Pollutants That Cause Pollution in the Sea**

It must be admitted that the pollution caused by these facilities, which carry out activities that are considered dangerous, and the resulting damages are large and serious. Therefore, it is necessary to define the environmental pollution that may be caused in a way that is not open to discussion, and based on these definitions, the technical equipment and international standards that the coastal facilities should have should be inspected and recorded throughout their activities (Başpınar, 2018:44).

This is the subject of domestic law regulations. We need to know the characteristics of the pollutants created by the activities in order to understand the pollution phenomenon and more importantly, to remove the pollution. Pollutants; garbage, sewage, chemicals, industrial wastes, toxic pesticides, petroleum and its derivatives and similar substances.

Therefore, different intervention and control techniques should be applied to pollutants in the form of liquid, solid, radiation, dust or vapor that will cause different effects in marine areas.

It will be tried to determine the general characteristics of the pollutants to be produced by the coastal facilities, based on the distinctions regarding the pollutants reflected in various legislations related to pollution.

First of all, in determining the limit values of pollutants in national legislation and international conventions, there is a distinction between "low and high concentration pollutants". Pollutants evaluated in high concentration levels are generally considered as very dangerous pollutants and require urgent intervention in their spread to the environment (Çağa, 2018:111–112).

The environmental impact of pollutants with low concentrations is either unknown or minimal. This is why they are often referred to as "contaminants". On the other hand, in the distinction of fixed or variable source pollutants, it is clear that the source of the fixed source pollutant has a physical connection with a structure or place.

Tanker leaks are the best example of variable source pollutants unrelated to a specific geography. Finally, when the separation of toxic and non-toxic pollutants is simplified, it can be evaluated as a very dangerous and less dangerous / non-hazardous pollutant distinction (Atamer, 2019:145–146).

**Marine Pollution Caused by Coastal Facilities**

In the 4th article of the Regulation on the Control of Pollution Caused by Pollution, Hazardous Substances in Water and its Environment, "Natural or as a result of human activity, direct or indirect substances or discharge of energy to the aquatic environment".

Again, in the 3rd Article of the Water Pollution Control Regulation, water pollution is defined as "A negative change in the chemical, physical, bacteriological, radioactive and ecological characteristics of the water source and is observed directly or indirectly in biological resources, human health, fisheries, water quality and other water quality. It is defined as the discharge of material or energy wastes that will cause preventive deterioration when used for other purposes.

The focus of these definitions is the introduction of substances and/or energies into the environment, which have the ability to endanger the ecological system and damage the health of living organisms, mostly by human hands, which adversely change the aquatic ecosystem or deteriorate the characteristics and structure of the water source (Başpınar, 2018:32).

**Mandatory Liability Insurance**

In cases where the legislator envisages danger liability, it generally obliges the operators to provide liability insurance as an obligation. Although, theoretically, insurance cannot be made in cases of unlimited liability because the amount covered must be shown in the insurance contract. In practice, however, since such an upper limit cannot be known for pollution damages, insurance will only be made by showing a high limit. From this sentence, as the premium amount to be paid by the insurance increases, the cost of the operator will also increase and this cost will spread to all steps of the process as a chain.

In this respect, Intervention and Damage Compensation Law m. 8/3 et al. Articles of "Coastal facilities are obliged to take out financial liability insurance against damages under this law." brought the ruling. The law also envisages a sanction restricting the granting of an operating license to the operators who do not comply with this requirement (Demir, 2019:18).

In fact, the strict liability cases regulated by the Law and which do not allow any proof of salvation are foreign to the maritime law, which regulates the pollution damages caused by ships as well as coastal facilities is happening.

In view of the magnitude of environmental pollution damages, the Legislator has regulated the minimum coverage amounts that will affect the insurance premium burden to be imposed on the coastal facility owner/operator within the scope of the Liability Insurance Communiqué pursuant to the Intervention and Damage Compensation Law.

## Conclusion

The sources of pollution in marine areas are not only from ships, but also from coastal facilities, many of which operate in industrial activities, pollution occurs due to the mixing of land-based oil and other harmful substances into the sea, and the damage arising from this pollution occurs. This situation has increased the importance of the regulations on the measures to be taken at the international and local level for the protection of the marine environment from pollution.

The regulation on the compensation and compensation of the damage caused by the pollution of the seas by oil and other harmful substances originating from the coastal facilities has been set forth with the provisions of the Intervention and Damage Compensation Law, which is a special law.

This study, which evaluates the Law in terms of coastal facilities, shows that liability arising from marine pollution arising from both ship-based and coastal facilities and compensation for these damages are included in the same articles.

However, although marine pollution and other harmful results, both from ships and from coastal facilities through pollutants, seem to be of similar nature and the victim is not allowed to bear the damage as per the general principles, it is aimed to compensate and compensate all the damage suffered.

As a result, the Intervention and Damage Compensation Law, based on the typical dangerousness of the activities, according to our assessment, does not allow the owner or operator to be liable for pollution losses originating from coastal facilities. It has been regulated as a special hazard liability provision in accordance with 6/1.

Here, the legislator wanted to base the responsibility of the operator of the facility on the liability of the facility for the damage caused by pollution originating from coastal facilities, by making a special regulation, to the extent that it can be "sufficiently" based on the typical danger of the facility.

However, this type of responsibility cannot be clearly understood from the wording of Article 6. Another shortcoming of our study is that the legislator should have defined in this special law the scope of the typical hazard specific to coastal facilities in such a way as to ensure that the coastal facility as a dangerous phenomenon is evaluated within the scope of hazard liability, which it did not do.

## References

1. Güneyli, Y. (2020), 5312 saylı Qanun Çərçivəsində Sahil Obyektlərinin Fəaliyyətləri Nəticəsində Çirklənmədən Çıxan Zərərin və Hüquqi Məsuliyyətin Araşdırılması, Ankara: Ankara Barosu Jurnalı.
2. https://tr.wikipedia.org/wiki/K%C4%B1y%C4%B1
3. Ağsakal, İ. (2019), Dənizin Çirklənməsinə görə Sahibkarın Hüquqi Məsuliyyətinə Tətbiq Edilən Müddəaların Müəyyən edilməsi, Ankara: Ankara Barosu Jurnalı.
4. Akkayan Yıldırım, A. (2020), 6098 saylı Türk Borclar Məcəlləsi çərçivəsində ciddi öhdəliyin xüsusi bir növü olaraq təhlükə məsuliyyəti, İstanbul: İstanbul Universiteti Hüquq Fakültəsi Jurnalı.
5. Atamer, M.Y. (2019), Hüquq pozuntularından irəli gələn məsuliyyətin məhdudlaşdırılması, İstanbul : Beta

6. Başpınar, V. və Yıldırım, M.F., (2018), Türk İsveçrə Hüququnda Doktrina və Təcrübə Aspektində Birbaşa və Dolayı Zərərin Fərqi, Prof.Dr.Bilge Öztana Hədiyyə, Ankara: Ankara Barolar Birliyinin jurnalı.
7. Çağa, T., (2020), Xüsusi Müddəa Həmişə Ümumi Müddəanı ləğv edirmi?, Ankara: Ankara Barosu jurnalı.
8. Dəmir, İ., (2019) Dəniz Mühitinin Neft və Digər Zərərli Maddələrlə Çirklənməsi zamanı Fövqəladə Hallara Müdaxilə və Zərərlərin ödənilməsi haqqında Qanunun Hüquqi Məsuliyyət və Kompensasiya Prinsipləri Aspektində Qiymətləndirilməsi, Malatya: İnönü Universiteti Hüquq Fakültəsi Jurnalı.

**Rəyçi: h.e.ü.f.d. Samirə Eyvazova**

Göndərilib: 08.04.2022 Qəbul edilib: 15.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/53-56

**Rahid Vahid oğlu Bağırzadə**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
rahidbaghirovich@gmail.com

# OTELÇİLİK FƏALİYYƏTİNDƏ GÖSTƏRİLƏN XİDMƏTLƏR

**Xülasə**

Turizmin mühüm formalarından biri olan otellər, qonaqların qəbulu, yerləşdirmə və onlara xidməti yerinə yetirir. Otelçilik fəalliyyətindən yararlanan insanların ehtiyaclarının müxtəlif olması, bu ehtiyacları qarşılayan müəssilərin də inkişaf istiqamətinə çox təsir etmişdir. Gecələməkdən əlavə insanların digər ehtiyaclarının zövqlərinə və sosial-mədəni vəziyyətilərinə görə dəyişməsi bir-birindən fərqli xidmətlər təklif edən müəssisələrin yaranmasına səbəb olmuşdur.

***Açar sözlər:*** *turizm, otel, ehtiyac, xidmət, biznes*

**Rahid Vahid Baghirzade**

## Hospitality Services

**Abstract**

Hotels, which are one of the most important forms of tourism, receive, accommodate and serve guests. The diversity of needs of people benefiting from the hotel business has greatly influenced the development of businesses that meet these needs. In addition to overnight stays, changes in people's other needs to suit their tastes and socio-cultural backgrounds have led to the creation of businesses that offer different services.

***Key words***: *tourism, hotel, need, service, business*

## Giriş

Mehmanxana – ən azı 10 otaqlı, insanların müvəqqəti gecələmələrini və müəyyən ödəniş qarşılığında qida, içki, sosial-mədəni ehtiyaclarını qismən ödəməyi peşəyə çevirmiş sosial-iqtisadi obyekt sayılır (Bilalov, 2006: 12).

Otelçilik fəaliyyətində göstərilən xidmətlər mahiyyət etibarı ilə digər xidmət sektorlarından fərqlənir. Bunun başlıca səbəbi təklif olunan xidmətdən yalnız otel ərazisində istifadə edilə bilməsidir. İstehlakçı xidməti qabaqcadan görmür və ona toxuna bilmir. Məhz bu səbəbdən, mütəxəssislər otelçilik fəaliyyətində göstərilən xidmətləri digəri xidmət sənayesi məhsullarından fərqləndirirlər.

Xidmətin başqa bir xüsusiyyəti isə tez xarab olmasıdır. Tez xarab olma, xidmətin məhsul kimi saxlanıla bilməməsi deməkdir. Xidmət istehsalın və istehlakın eyni vaxtda həyata keçirilməsi, başqa sözlə, "vaxtın" satışıdır. Məsələn, iki yüz otağı olan bir mehmanxana bir gecə üçün onlardan cəmi yüz əllisini satırsa, satılmayan əlli otağı ertəsi axşam iki yüz əlli otaq kimi sata bilməz. Bu halda gəlir itkisi satılmayan əlli otaqdan deyil; xidmətin tez xarab olması ilə bağlıdır. Buna müxtəlif misallar gətirmək olar. Otelin restoranında satıla bilməyən örtük; avtobusda, qatarda və ya təyyarədə satıla bilməyən oturacaq; Basketbol oyununda boş oturacaq və ya konsertdə boş oturacaq buna tipik misaldır. Lakin sənaye malları üçün bu vəziyyət fərqlidir. Çünki tələb olmayanda sənaye məhsullarını ehtiyatda saxlamaq olar.

Xidmətin başqa bir xüsusiyyəti isə dəyişkənliyidir. Məlum olduğu kimi, xidmət istehsalında əsas faktorun insan olması dəyişkənliyin əsas amilidir. Dəyişkənlik xidmətin təcrübə kimi subyektivliyi nəticəsində də baş verə bilər. Hər bir müştərinin gözləntiləri və xidmət təcrübəsi fərqlidir. Məsələn, eyni otelin restoranında yemək yeyən iki müştəri restoranda göstərilən xidmət ilə bağlı fərqli təsəvvürlərə malik ola bilər. Bu vəziyyət mənfi düşünən müştəri baxımından baxsaq yediyi yemək və ya xidmət təklif edən xidmət işçisi ilə bağlı mənfi nüans və ya daha əvvəl qonaq olduğu başqa bir otelin restoranı ilə etdiyi müqayisə ilə bağlı ola bilər.

Otel müəssisələrinin ən mühüm xidmət xüsusiyyətlərindən biri onların vaxta qarşı həssas olması və "vaxt" satmasıdır. Otel biznesində müştərilərə təklif olunan xidmətlər və imkanlar tələbatın formalaşması ilə ortaya çıxır. Otelin bir otağı 24 saat ərzində satılmalıdır. Şübhəsiz ki, o gün üçün satılmayan otaq biznes üçün iqtisadi itkidir. Otel otağının satılmaması halında həmin günün satışını başqa günə keçirmək və ya təxirə salmaq mümkün deyil.

Mehmanxana müəssisələrində istehsal olunan xidmətin istehsalı ilə müştəri tərəfindən xidmətin istehlakı eyni vaxtda baş verir. İstehsal və istehlak eyni vaxtda baş verdiyi üçün müştəriyə tam və mükəmməl məhsul təklif etmək mümkün deyil. Çünki müştəri xidmətlərin "istehsal prosesində" şəxsən iştirak edir. Otel müəssisələrinin bu xüsusiyyəti ilk anda xidmət istehsalının tam və qüsursuz həyata keçirilməsinin zəruriliyini ortaya qoyur.

Sənaye müəssisələrindən fərqli olaraq mehmanxana müəssisələri əmək tutumlu xidmət istehsal edən müəssisələrdir. Başqa sözlə, mehmanxana biznesi öz funksiyalarını yerinə yetirərkən intensiv olaraq insan əməyinə ehtiyacı olan müəssisələrdir. Otaqların təmizlənməsi, çarpayıların düzülməsi, restoranların xidmətə hazır vəziyyətə gətirilməsi, otaq xidmətlərinin göstərilməsi, müştərilərin qarşılanması, müştərilərin otaqlarına aparılması və yola salınması kimi xidmətlər işçi qüvvəsindən asılı olaraq təklif olunan xidmətlərdir (Yeganlı, 2006: 135).

Otel idarəçiliyi dinamik struktura malikdir. Çünki otel idarəçiliyi sağlam və müasir həyat fəlsəfəsini mənimsəyən, müasir texnologiyalarla və idarəetmə yanaşması ilə daim fərqlənən fəaliyyət sahəsidir. Otel müəssisələrinin müştəriləri biznesdə dəyişən komfort ehtiyaclarını və xidmət fəaliyyətlərini daim izləyirlər. Otel biznesinin müştəriləri biznesdə edilən hər bir yeniliyin onlar üçün edildiyini düşünür və bundan məmnunluq duyurlar (8).

Otel biznesində risk faktoru da kifayət qədər yüksəkdir. Bu müəssisələrin göstərdiyi xidmətlərə tələbi dəqiq proqnozlaşdırmaq çox çətindir və həm də iqtisadi və siyasi şəraitdən asılıdır. Bu səbəbdən otel biznesi tələb dalğalanmalarından dərhal təsirlənir. Mehmanxana biznesində tələbin dəyişməsinə səbəb olan digər amil otel idarəçiliyinin mövsümi iş olmasıdır. Bu səbəbdən otel müəssisələri mövsümdən mövsümə fərqli planlar qurmalı olurlar. Bu, otel biznesində risk faktorunu vacib edir (Hüseynov, 2006: 120).

Otel müəssisələri görünüşü, rahatlığı və texniki təchizatı ilə müasir texnologiyalara uyğun olmalıdır. Eyni zamanda, personalın xidmət keyfiyyəti hər zaman yüksək səviyyədə olmalıdır. Otel müəssisələri öz məqsədlərinə uyğun olaraq qonaqların ehtiyaclarını ödəmək üçün müxtəlif xidmətlər göstərirlər. Hər cür lüks və rahatlıq bütün otel müəssisələrində olmaya bilər. Ümumiyyətlə, beşulduzlu turistik otellər çağın şərtlərinə uyğun xidmət göstərir. Mehmanxana biznesində bu xidmətlər üç əsas başlıq altında cəmlənməlidir. Bunlar:

- Yerləşdirmə xidmətləri
- Qida və içki xidmətləri
- Köməkçi-dəstək xidmətləri

Otel biznesinin təşkilində əsas şöbələr otaqlar, qida və içkilər və digər köməkçi xidmət şöbələridir. Bu seqmentlərə birbaşa gəlir gətirən seqmentlər və ya əməliyyat seqmentləri də deyilir, çünki onlar otelin mənfəət gətirən seqmentləridir. Köməkçi şöbələr otel biznesində birbaşa gəlir gətirən rol oynamır. Bununla belə, həyata keçirdikləri fəaliyyətlərlə otel biznesinin gəlir gətirən hissələrinə lazımi dəstəyi verirlər. Gəlin bu xidmətləri gəlir gətirən seqmentlər və gəlir gətirməyən seqmentlər kimi təsnif etməklə nəzərdən keçirək.

Gəlir gətirən bölmələr və onların funksiyaları. Bu bölmələrin sayı otelin növünə və ölçüsünə görə dəyişir. Otaqlar, yemək və içki bölməsi ən əsas bölmədir. Otelin köməkçi seqmentləri qonaqlara pul müqabilində telefon, camaşırxana, bərbər və suvenir hədiyyələr kimi xidmətlərin təklif olunduğu bölmələrdir. Camaşırxana şöbəsi gəlir gətirən qonaq camaşırxanası və gəlir gətirməyən biznes camaşırxanası kimi iki hissəyə bölünə bilər. Əməliyyat seqmentləri də adlandırılan bu bölmələr həm gəlirin təmin olunduğu, həm də xərclərin təmin olunduğu mərkəzlərdir. Bu şöbələrdə gəlir və xərcləri görmək, planlaşdırma və nəzarət onlardan faydalanmaq üçün müvəffəqiyyətin (fəaliyyətin) qiymətləndirilməsi üçün bu şöbələr üçün müvafiq gəlir hesabatı hazırlamaq faydalıdır (7).

Yerləşdirmə xidmətləri. Yerləşdirmə, qonaqların gecələməsi və yerləşdirmə ehtiyaclarının ödənildiyi xidmət sahəsidir. Eyni zamanda otaqlar bölməsi də adlanır. Otaqlar bölməsi ön ofis və təsərrüfat kimi iki yerə bölünür. Yerləşdirmə bölməsi ön ofis, otaq xidmətləri və uniforma xidmətlərindən ibarətdir.

Otel biznesinin beyin mərkəzi olan ön ofis təşkilatın təşkilati strukturunun hər səviyyəsində baş verənlərdən xəbərdar olmalıdır. Otel otaqlarının satışı, qonaqların hesablarının aparılması, hesab-fakturaların verilməsi və debitor borclarının yığılması, xarici valyutanın dəyişdirilməsi və s. kimi xidmətləri ön ofisdə yerinə yetirir.

Otaq xidmətləri otel otaqlarının satışa hazır vəziyyətə gətirilməsinə cavabdehdir. Baş təsərrüfat müdirinin rəhbərliyi altında mehmanxananın bütün təmizliyi, yararsız əşyaların təmiri və ya dəyişdirilməsi, istifadə olunmayan otaqların rezervasiyası təsərrüfat işçiləri tərəfindən həyata keçirilir. Bundan əlavə, satışa hazır olan otaqlar üçün qəbula (resepşna) məlumat verir, təmir və texniki xidmət işlərinə dair texniki şöbələrə hesabat verir. Camaşırxana otaq xidmətlərinin alt bölməsi olaraq qonaqların paltar və əşyalarının təmizlənməsi və ütülənməsini ödənişli həyata keçirir (Abdulov. 2015: 45-46).

Uniformalı xidmətlər. Əsas vəzifələri qonaqları qarşılamaq və onları resepşna aparmaq, qonaqlara otaqlarını göstərmək və onların baqajlarını daşımaq, qonaqlara məsləhətləşmə prosesində kömək etmək, qonağın adından sifarişlər vermək və bu sifarişləri resepşnda qonağın adına yazdırmaqdır.

Qida və içki xidmətləri. Bu, qonaqların qida və içki ehtiyaclarının ödənilməsinə cavabdeh olan şöbədir. Müəssisələrin ölçüsünə görə mətbəx, restoran, bar, anbar və s. kimi bölmələrə bölünür. Bəzi kiçik şəhər otelləri bu xidmətləri təqdim etməyə bilər. Bunlara garni otelləri deyilir. Qida və içki bölməsi yemək və içkinin qəbulundan, saxlanmasından, bişirilməsindən və xidmətinə qədər bir çox funksiyanın təmin edilərək qonaqların yemək və içki ehtiyaclarının qarşılandığı bölmədir. Bu bölmədə yerinə yetirilən funksiyalar aşağıdakılardır:

- Satınalma və saxlama: Daha əvvəl müəyyən edilmiş menyularda qidaların hazırlanması üçün lazım olan məhsulların sifarişi, qəbulu və saxlanması. Saxlanılan məhsulların paylanması da eyni bölmə tərəfindən həyata keçirilir.
- Mətbəx: Anbardan götürülmüş məhsullardan istifadə edərək yeməkləri hazırlayan və qonaqların istifadəsinə verən bölmədir. Qida və içki şöbəsinin ən mühüm funksiyalarını bu şöbə yerinə yetirir.
- Servis: Mətbəxdə yeməklər hazırlandıqdan sonra onu qonaqlara təqdim etmək bu xidmət şöbəsinin işidir.
- Bar: Anbarlardan götürülən içkilərin qonaqlara təqdim edilməsi ilə bağlı xidmətlərin həyata keçirildiyi bölmədir.

Bu bölmələrdən ilk üçü qida ilə, sonuncusu isə içkilərlə yanaşı yüngül yeməklərin də təqdim olunduğu içki xidmətlərinin göstərilməsi ilə bağlıdır.

Köməkçi xidmətlər. Qonaqların yatmaq və qidalanmaq ehtiyaclarından başqa, otelin növünə və ölçüsünə görə qonaqların müxtəlif ehtiyaclarını qarşılayan və biznesə gəlir gətirən vahidlərdir. Bu xidmətlərin çeşidi xidmətlərin ölçüsünə görə dəyişir. Diskoteka, çimərlik, hovuz, alış-veriş mağazaları, avtomobil icarəsi, müxtəlif idman meydançaları, bərbər, türk hamamı, sauna, həkim, internet, animasiya və s. kimi müxtəlif əlavə xidmətlər bura daxildir. Böyük otel müəssisələri, satış mağazaları, çiçəkçilər, avtomobil icarəsi və başqa icarəyə götürmə kimi xidmətlər də həyata keçirilə bilər. Orta ölçülü otel biznesində də bu cür xidmətləri görə bilərik. Bu xidmətlərin çoxu kiçik mehmanxana biznesində göstərilmir.

Gəlir gətirməyən şöbələr və onların funksiyaları. Bunlar birbaşa gəlir gətirməyən, lakin gəlir vahidlərini idarə edən bu bölmələrə kömək edən şöbələrdir. Xidmət bölmələrinə daxildir. Bunlar qonağa birbaşa aidiyyatı olmayan bölmələrdir.

Müasir dövrdə otelçilik fəaliyyətində informasiya texnologiyalarının yeri danılmazdır. İT müəssisənin rəqabət qabiliyyətini artırmaqla bərabər, həmçinin müəssisənin gələcəkdə varlığı üçün də zəmin yaradır. Otelçilik sektorunu İT-siz təsəvvür etmək mümkün deyildir. İT-nin mehmanxana müəssislərində istifadə olunduğu sahələrə nəzər yetirdikdə onun daha çox qeydiyyat və ofis əməliyyatlarında istifadə olunduğunu görərik. Günümzdə avtomatlaşdırma proqramlarının xidmət sektorunda istifadəsinin çox geniş yayıldığı müşahidə olunur. Böyük otellərdə enerjiyə qənaət,

təhlükəsizlik, POS, rabitə, onlayn bronlaşdırma və satış, mini bara nəzarət və kartlı qapı sistemləri kimi bir çox avtomatlaşdırma proqramlarından geniş istifadə olunur (Çakmakçı, 2012).

İnternet, səsli mesaj, e-poçt, otaqların onlayn rezervasiyası, kompüterləşdirilmiş mühasibatlıq və maliyyə hesabatları sistemləri, qida və içki sifarişlərinin avtomatlaşdırılması, telekonfrans, müştərilər üçün interaktiv bələdçilər, mobil telefonlar, elektron kredit kartı təminatı və qrafik hesabatları İT-nin otellərdə istifadə olunan bəzi nümunələridir. Araşdırmalar göstərir ki, bu informasiya texnologiyalarının mühüm rolu biznesin effektivliyini artırmaq və müştəri məmnuniyyətini təmin etməkdir (6).

## Nəticə

Xidmət sənayesinin bir hissəsi olan turizm sektoru 21-ci əsrdə mühüm biznes növünə çevrilmişdir. Qloballaşma fenomeni, dünya əhalisinin artması və sərvətlərin nisbi olaraq bütün dünya ölkələrinə yayılması turizm sektoruna yeni müştərilər gətirir. Bütün bunların nəticəsində ortaya çıxan dəyişikliklər insanların daha asan və daha tez-tez səyahət etmələri üçün mühit hazırlayır.

Otel müəssisələri regional xüsusiyyətlərdən və müştərilərin tətil vərdişlərindən asılı olaraq müxtəlif siniflərdə fəaliyyət göstərirlər. Otel müəssisələrini müxtəlif siniflərdə fəaliyyət göstərməyə sövq edən səbəblər arasında müştəri gözləntilərindəki fərqlər mühüm yer tutur. Müştəri gözləntilərindəki fərqləri izləyən otel müəssisələri zamanla sahil, sağlamlıq, idman, tətil və əyləncə kimi otel idarəçiliyi sahələrində ixtisaslaşmağa üstünlük verib.

## Ədəbiyyat

1. Hüseynov, İ., Əfəndiyeva N. (2007), Turizmin Əsasları. Bakı: Mars-Print
2. Yeganlı, S. T., Hacıyev E. M. (2006), Turizm. Bakı: ABU
3. Bilalov, B. Ə. (2006), Turizm Fəaliyyətinin Tənzimlənməsi. Bakı: Mütərcim
4. Abdulov, A. V. (2015), Tələbə və Aspirantların XIII Universitetlərarası Elmi-Praktik Konfransının məqalələr toplusu. Omsk Dövlət İnstitutu, 2-ci hissə. səh. 45-46.
5. Çakmakçı, E. (2012), İnformasiya Texnologiyalarından istifadənin otel fəaliyyəti və səmərəliliyinə təsiri. Məhsuldarlıq jurnalı.
6. https://www.russiatourism.ru/operators/elektronnaya-putevka/
7. https://tourism-book.com/pbooks/book-62/ru/chapter-2398/
8. https://dergipark.org.tr/en/download/article-file/1145138

**Rəyçi: ped.e.d. Müseyib İlyasov**

Göndərilib: 08.04.2022 Qəbul edilib: 16.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/57-61

**Hüseyn İlqar oğlu Hüseynli**
Bakı Mühəndislik Universiteti
magistrant
huseynli_00@mail.ru

# İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRDƏ VALYUTA MƏZƏNNƏSİ REJİMİ ÜSTÜNLÜYÜNÜN MAKROİQTİSADİ PERFORMANSLARA TƏSİRLƏRİ

**Xülasə**

Bu araşdırmada inkişaf etməkdə olan ölkələrdə (inkişaf etməkdə olan bazarlarda) Bretton Woods sistemindən sonra məzənnə rejiminə üstünlük verilməsinin makroiqtisadi performansa təsiri araşdırılacaqdır. Araşdırmada xüsusilə inflyasiya, inkişaf və maliyyə böhranı mövzuları müzakirə edilir.

Araşdırma nəticəsində müəyyən edilib ki, inkişaf etməkdə olan ölkələrdə sabit valyuta məzənnələri üzən məzənnələrlə müqayisədə inflyasiyanın aşağı düşməsinə səbəb olur. Valyuta məzənnələrinin artıma təsiri alt dövrlərdə fərqlənir. 1990-cı ildən əvvəlki dövrdə sabit valyuta məzənnələri ilə daha yüksək artım templəri həyata keçirildiyi halda, 1990-cı ildən sonra sabit valyuta məzənnələrində artım templəri azalmışdır. Bundan əlavə, sabit valyuta məzənnələrinin 1990-cı ildən sonra inkişaf etməkdə olan ölkələrdə maliyyə kövrəkliyini artırdığı müəyyən edilmişdir.

***Açar sözlər:*** *valyuta məzənnəsi rejimləri, inflyasiya, artım, inkişaf etməkdə olan ölkələr, iqtisadi inkişaf*

**Huseyn Ilgar Huseynli**

## Effects of currency exchange rate preference on macroeconomic performances in developing countries

**Abstract**

This study will examine the impact of exchange rate preferences on macroeconomic performance in developing countries (emerging markets) after the Bretton Woods system. The study focuses on inflation, development and the financial crisis.

The study found that fixed exchange rates in developing countries lead to lower inflation than floating rates. The effect of exchange rates on growth varies in the lower periods. While higher growth rates were achieved with fixed exchange rates in the pre-1990 period, growth rates in stable exchange rates decreased after 1990. In addition, stable exchange rates have been found to increase financial fragility in developing countries since the 1990s.

***Key words:*** *exchange rate regimes, inflation, growth, developing countries, economic development*

## Giriş

Valyuta məzənnəsi rejiminin seçilməsi hər bir siyasət aləti kimi iqtisadi təsirlərə malik olacaqdır. Rasional məzənnə rejiminin seçimi təbii olaraq rejimin xüsusiyyətlərindən irəli gələn gözləntiləri əhatə edəcəkdir. Nəzəri baxımdan görünə bilər ki, məzənnə rejimlərinin makroiqtisadi təsirləri olduqca mübahisəli məsələdir. Sabit valyuta məzənnəsi pul siyasətinə məhdudiyyətlər qoymaqla inflyasiya gözləntilərini azaltmağa kömək edə bilər. Eyni zamanda, cari əməliyyatlar hesabının kəsiri dayanıqsız hala düşərsə, bu, hökumətə devalvasiya yolu ilə məzənnələrə müdaxilə etmək imkanı verir. Digər tərəfdən, çevik məzənnə ticarət balanssızlığının daha yumşaq keçidini təmin edir və ya spekulyativ kapital hərəkətlərinin təsirini artırmaqla dəyişkənliyi artırır (Bailliu, 2013: 35).

Kapitalın hərəkətliliyi çox yüksək olduqda, çevik məzənnə rejimləri hasilatı real şoklardan təcrid etməkdə daha uğurlu olsa da kapitalın aşağı hərəkətliliyi hallarında sabit valyuta məzənnələrinə üstünlük verilə bilər. Bu araşdırma inkişaf etməkdə olan ölkələr üçün üstünlük verilən məzənnə rejiminin makroiqtisadi nəticələrini müzakirə edəcək. Makroiqtisadi təsirlərin tədqiqi məzənnə rejiminə üstünlüklərin iqtisadi artıma və inflyasiyaya təsirini araşdıracaq. Bundan əlavə, bu ölkələrdə məzənnə rejimlərinin maliyyə böhranlarına səbəb olma potensialı qiymətləndiriləcək (Baxter, 2019:111).

**Məzənnələrin təsnifatı**

Sabit məzənnə sistemləri iki başlıq altında araşdırıla bilər: məzənnənin xarici valyutada sabit olduğu sabit tənzimlənən məzənnə (ənənəvi məzənnə) və məzənnə düzəlişlərinin tamamilə aradan qaldırıldığı sabit məzənnə. Bu sistemlər pul siyasətinin etibarlılığı baxımından sərfəli olsa da, məzənnə dəyişikliyi baha başa gəlir (David, 2018: 90).

Aralıq rejimlərdə məzənnə müəyyən bir dəyərə indeksləşdirilmir. Bununla belə, mərkəzi bank məzənnəni müəyyən etdiyi diapazonda və ya dəyərdə saxlamaq üçün müdaxilə edir. Belə rejimlərə müdaxilənin iki növü var.

Birincisi, əvvəlcədən müəyyən edilmiş qayda ətrafında strukturlaşdırılmış müdaxilədir (Sürünən Parite və Hədəf zonası və Aralığı), digəri isə hər hansı bir qaydanın olmadığı halda müdaxilədir (İdarə olunan Dəyişmə) (Caramazza, 2018: 78 - 79).

Sərbəst üzən məzənnə sistemində məzənnəni bazar müəyyən edir. Mərkəzi Bankın məzənnəyə müdaxiləsi yoxdur. Bu sistemdə mərkəzi bankın ehtiyat saxlamaq ehtiyacı minimuma endirilir. Bundan əlavə, bu sistemdə pul siyasətinin səmərəliliyi tam təmin edilir. Valyuta məzənnələrində düzəlişlər yolu ilə real şoklar qarşısında daha təsirli olan bu sistem, məzənnə qeyri-müəyyənlikləri səbəbindən iqtisadiyyata mənfi təsir göstərə bilər.

**Rejim seçiminin makroiqtisadi təsirləri**

Beynəlxalq iqtisadi ədəbiyyatda məzənnə rejiminin seçilməsinin makroiqtisadi göstəricilərə necə və hansı istiqamətdə təsir etməsi ilə bağlı konsensusun olduğunu söyləmək olmaz.

Nəzəri cəhətdən, sabit məzənnənin məzənnə dəyişkənliyini minimuma endirməklə artıma müsbət təsir etdiyi fikri üstünlük təşkil edir. Digər tərəfdən, üzən məzənnədə pul siyasətinin effektivliyi artımı sürətləndirən amildir. Başqa bir arqument ondan ibarətdir ki, sabit məzənnə pul siyasətinin etibarlılığını artırmaqla inflyasiyaya müsbət təsir göstərəcək.

Valyuta məzənnəsi rejimlərinin makroiqtisadi təsirləri sabit və çevik valyuta məzənnələrinin nəzəri xüsusiyyətlərindən irəli gəlir. Frankel iddia edir ki, sabit dərəcələrə qarşı çevik dərəcələr "etibarlılıq" alətidir, çünki onlar pul siyasətində nominal lövbər kimi istifadə olunur; məzənnə sabitliyi və gözləntilərdəki qeyri-müəyyənliyi aradan qaldırmaqla ticarət və investisiyaları artırmaq imkanı verir (Edison, 2020:77).

Sabit valyuta məzənnələrinin çevik məzənnələrə nisbətən dörd fərqli üstünlüyə malik olduğunu, yəni qısamüddətli və nominal şokların iqtisadiyyata təsirinin qarşısını aldığını vurğulayır. Eynilə, üzən məzənnənin dörd üstünlüyü var: müstəqil pul siyasətini təyin etmək gücü, real şoklara qarşı avtomatik tənzimləmə mexanizmi, mərkəzi bankın senyoraj gəlirləri və son instansiya kreditoru rolunu yerinə yetirmək.

**Valyuta məzənnəsi rejimi üstünlüyünün makro-iqtisadi təsirləri üzrə tətbiqi tədqiqatlar**

Valyuta məzənnəsi rejimlərinin makroiqtisadi təsirləri ilə bağlı tətbiqi tədqiqatları iki başlıq altında toplaya bilərik. Baxter və Stokman və Edison və Melvin da daxil olmaqla Birinci Nəsil adlandıra biləcəyimiz tədqiqatlarda onlar belə nəticəyə gəldilər ki, Bretton Woods sistemindən sonra sabit və çevik valyuta məzənnələri arasında iqtisadi nəticələrdə böyük fərq yoxdur.

Ghosh, Ghosh, Wolf və Levy-Yeyati və Sturzenegger kimi İkinci Nəsil tədqiqatlarında məzənnə rejimlərinin makroiqtisadi göstəricilərə təsir etdiyi aşkar edilmişdir. Bu tədqiqatların əvvəlki tədqiqatlardan fərqi ondadır ki, onlar təsirləri faktiki təsnifata uyğun olaraq araşdırırlar.

Baxter və Stockman ilk nəsil tədqiqatları arasında yer alan araşdırmada Bretton Woods dövrü və sonrakı dövrlərin iqtisadi məlumatlarını müqayisə edərək, məzənnə sistemlərinin böyük dalğalanmalar xaricində makroiqtisadiyyat baxımından fərq yaratmadığını aşkar etmişlər.

Levy-Yeyati və Sturzenegger tərəfindən aparılan araşdırmada məzənnə rejiminin inkişaf etməkdə olan ölkələr baxımından artım üzərində təsirli olduğu müəyyən edilmişdir. Bu araşdırmaya görə, inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrdə sabit valyuta məzənnəsində daha aşağı artım tempinin və daha yüksək məhsul hərəkətliliyinin olduğu müşahidə edilmişdir. İnkişaf etmiş ölkələr baxımından belə bir əlaqənin mövcudluğunu qeyd etmək olmaz.

Levy-Yeyati və Sturzenegger inflyasiya ilə valyuta məzənnəsi rejimi arasındakı əlaqəni araşdırdıqları araşdırmada, sabit məzənnənin inkişaf etməkdə olan ölkələr üçün aşağı inflyasiyaya səbəb olduğu qənaətinə gəldilər (Dubas, 2015: 91).

İnkişaf etmiş ölkələr üçün əhəmiyyətli əlaqəni müəyyən etmək mümkün olmasa da, inkişaf etməkdə olan ölkələr üçün uzunmüddətli sabit məzənnə rejimləri aşağı inflyasiyanın yaranmasına səbəb olur. Ghosh və digərləri müəyyən etmişlər ki, sabit valyuta məzənnəsində inflyasiyanın aşağı olduğu, lakin artım və məzənnə arasında heç bir əhəmiyyətli əlaqə tapılmamışdır.

Frankel və Rose tərəfindən aparılan araşdırmada məzənnə rejiminin (xüsusilə də pul ittifaqı) ticarətə və buna görə də artıma müsbət təsir göstərdiyi müəyyən edilmişdir.

Rogoff və başqalarının araşdırmasında vurğulanmışdır ki, məzənnə rejimləri makroiqtisadi göstəricilərə təsir edir, lakin bu təsirlər ölkələrin makroiqtisadi strukturları və inkişaf səviyyələri ilə müəyyən edilir.

Bu araşdırmaya görə, inkişaf etməmiş ölkələr aşağı səviyyədə kapital hərəkətinə məruz qaldıqları üçün sabit məzənnə rejimi siyasətlərin etibarlılığını artırır və artım riski olmadan aşağı inflyasiyaya imkan verir, eyni zamanda hasilatın yüksək dalğalanması və daha tez-tez böhran təhlükəsi yaradır.

Sabit valyuta məzənnələri makroiqtisadi siyasətlər baxımından daha əvvəl elan edilmiş bir öhdəlik olduğundan, rejimin davamlılığı makroiqtisadi hədəflərin valyuta məzənnələri ilə uyğunluğundan asılıdır.

İnkişaf etməkdə olan ölkələr isə daha yüksək beynəlxalq kapital axınına məruz qalırlar və sərt rejimlər xüsusilə 1990-cı ildən sonra tez-tez maliyyə böhranlarına və tədiyyə balansının kəsirlərinə səbəb olur (Frankel, 2012: 27).

Bundan əlavə, sərt rejimlər bu ölkələrdə aşağı inflyasiya və ya yüksək artım tempi kimi müsbət nəticələr verməyib. Eyni zamanda məzənnənin dəyişməsi böyük dalğalanmalara səbəb olub və mənfi təsirlər göstərib.

Husain və başqalarının araşdırmasında ölkələrin inkişaf fərqləri nəzərə alınmaqla məzənnə rejimlərinin fəaliyyəti sınaqdan keçirilmişdir. Bu araşdırmaya görə, ölkələr maliyyə inkişaf səviyyəsini artırdıqca, üzən məzənnədən daha çox fayda əldə edirlər. Xarici kapitalın az hərəkətinə məruz qalan az inkişaf etmiş ölkələrdə sabit məzənnə nisbətən aşağı inflyasiya və daha yüksək məzənnə davamlılığını təmin edir (Mishkin, 2017: 43).

İnkişaf etmiş ölkələr üçün üzən məzənnənin davamlılığı daha yüksəkdir və bu sistemdə inflyasiya yaratmadan yüksək artım tempinə nail olmaq olar. Lakin inkişaf etməkdə olan ölkələr üçün məzənnə rejiminin nə inflyasiyaya, nə də artıma sistemli təsir göstərmədiyi müşahidə edilmişdir. Sabit məzənnənin bu ölkələr üçün yüksək bankçılıq və məzənnə böhranı riskləri olduğu müəyyən edilmişdir (Robert, 2015: 97 - 98).

İnkişaf etmiş ölkələrdə digər rejimlərlə müqayisədə sərbəst üzən məzənnə inflyasiya yaratmadan yüksək artıma imkan verirmişdir. Çevik valyuta məzənnələri inkişaf etmiş ölkələrdə real şokların udulmasında mühüm rol oynayır.

Bundan əlavə, həddindən artıq xarici borc yükünün yaratdığı maliyyə infrastrukturunun inkişafı, ödəmə müddətlərinin uyğunsuzluğu və valyuta məzənnəsinin dəyişməsi mənfi təsirlərin yaranmasının qarşısını alır (Michael, 2013: 121).

Nəhayət, Dubas, Lee və Mark öz tədqiqatlarında sabit valyuta məzənnələri ilə yüksək artım arasında müsbət əlaqə tapmış və onlar valyuta məzənnələrini "effektiv" kimi yenidən təsnif etmişdirlər. Bu əlaqənin daha çox inkişaf etməkdə olan ölkələr üçün keçərli olduğu və inkişaf etmiş ölkələrdə valyuta məzənnəsi rejimi ilə artım templəri arasında əhəmiyyətli əlaqənin olmadığı qənaətinə gəlinmişdir.

Valyuta məzənnəsi rejiminin makroiqtisadi təsirləri ilə bağlı tədqiqatların nəticələri uyğun gəlmir. Bu tədqiqatlarda əldə edilən nəticələrin fərqli olmasının əsas səbəblərindən biri, yuxarıda qeyd edildiyi kimi, ölkələrin makroiqtisadi strukturları və inkişaf səviyyələri ilə sıx bağlıdır. Valyuta məzənnəsinin mümkün təsirləri də gözləniləndən fərqlidir, çünki inkişaf etməkdə olan ölkələr zəif maliyyə infrastrukturuna malik olsalar da, yüksək kapital axınına məruz qalırlar və nəticədə xarici borc yükü kimi makroiqtisadi sabitliyi pozan problemlərlə üzləşməli olurlar (Ghosh, 2018: 135).

**Valyuta məzənnələri və makroiqtisadi göstəricilər**

Valyuta məzənnələrinin makroiqtisadi göstəricilərə təsiri müxtəlif səviyyələrdə təhlil edilə bilər. Burada makroiqtisadi göstəricilər kimi inflyasiya və artıma təsirləri müzakirə olunacaq. Bundan əlavə, ədəbiyyatda tez-tez bəhs edilən böhranlar və məzənnə rejimləri arasındakı əlaqə də vurğulanacaqdır. Orta inflyasiya səviyyəsinə nəzər saldıqda ən yüksək ehtimalın ara rejimlərdə olduğu görülür.

Müvəqqəti rejimlər inflyasiyanın daha çox yaşandığı və inflyasiyanın ən yüksək olduğu rejimlər olmuşdur.

Nəzəri gözləntilərin əksinə olaraq, orta inflyasiya səviyyəsi nisbətən aşağı olsa da, vahid valyutaya indeksləşdirilən sabit məzənnə ilə inflyasiyanın baş vermə ehtimalı yüksəkdir.

Bununla belə, səbətə indeksləşdirilmiş sabit məzənnə inflyasiyanın nisbətən aşağı düşməsinə səbəb olmuşdur. Bu nəticə, ölkələr öz valyuta məzənnələrini vahid valyutaya indeksləşdirərkən müxtəlif valyutalardan asılı olaraq xarici borc və kommersiya əməliyyatları nəticəsində yaranan qiymətləndirmə fərqlərindən irəli gəlir. Bu vəziyyətin ən tipik nümunəsi 2017-ci ildə Cənub-Şərqi Asiya ölkələrində yaşanmışdır.

Aşağı inflyasiya ilə məzənnə rejimi arasındakı əlaqəyə nəzər saldıqda vəziyyətin bir az da bulanıq olduğunu müşahidə etmək olar. Ən aşağı orta səviyyəyə malik sərt sabit məzənnə rejimlərində aşağı inflyasiyanın ehtimalı 0,73 təşkil edir. Bu nəticə nəzəri gözləntiləri təsdiqləyir.

Bununla belə, sərbəst üzən məzənnənin 0,62 ehtimalının yüksək olması, orta inflyasiya səviyyəsi aşağı olsa da, nəzəri gözləntilərə uyğun gəlmir. Demək olar ki, bu vəziyyət son illərdə, xüsusən də nümunə götürdüyümüz inkişaf etməkdə olan ölkələrdə üzən məzənnəyə üstünlük verilməsinə baxmayaraq, inflyasiyanın idarə olunmasında əldə edilən uğurdan qaynaqlanır. Tipik olaraq, müvəqqəti rejimlər ən az aşağı inflyasiya və ən yüksək orta inflyasiya ehtimalı olan rejimlər kimi görünür (Ghosh, 2018: 19).

Məzənnə ilə artım arasındakı əlaqəyə nəzər saldıqda, sərt sabit məzənnələrin gözlənilən istiqamətdə təsirinin olmadığı görülür. Yuxarıda qeyd edildiyi kimi, bu rejim yalnız Argentinada tətbiq olunduğundan nəticələri ümumiləşdirmək mümkün deyil. Bu rejimin ilk illərində 13% və 12% kimi yüksək artım templəri reallaşsa da, sonrakı illərdə artımın -4 faizə qədər azaldığı müşahidə edilir. Vahid valyutaya və səbətə indeksləşdirilmiş sabit məzənnələrin artıma təsiri digər rejimlərlə müqayisədə daha yüksəkdir. Sabit valyuta məzənnələrinin artıma təsiri 1970-1990-cı illərdə daha yüksək olduğu halda, 2015-2018-ci illərdə daha aşağı səviyyədə qalmışdır. Bu vəziyyətin rejimə üstünlük vermə prosesində baş verən dəyişikliklərdən qaynaqlandığını söyləmək olar (13).

Demək olar ki, ölkələr 2017-ci ildən əvvəl sabit məzənnə rejiminə üstünlük verirdilərsə, 2018-ci ildən sonra daha çevik məzənnələrə üstünlük verməyə başladılar, bu da sabit məzənnə ilə artım arasındakı əlaqəni zəiflətdi. Bu dövrdə inkişaf etməkdə olan ölkələrdə ardıcıl böhranları nəzərə alsaq, gözlənilən istiqamətdə olmasa da, aşağı artım tempi təəccüblü deyil. Sabit valyuta məzənnələrində olduğu kimi, aralıq rejimlərdə də oxşar nəticəyə rast gəlinmişdir. Bu rejimdə sabit valyuta məzənnələri ilə müqayisədə daha aşağı artım tempi reallaşıb. Sabit valyuta məzənnələrinin inkişaf etməkdə olan ölkələrdə bank böhranlarına səbəb olması qənaəti Ghosh və digərlərinin nəticələri ilə ziddiyyət təşkil edir. Bu araşdırmaya görə, üzən məzənnələr bank böhranına daha çox meyllidir. Bunun səbəbinin məzənnə təsnifatı fərqindən qaynaqlandığını söyləmək olar.

Ödəniş balansı böhranları baxımından hədəf diapazonu və idarə olunan dalğalanma kimi ara rejimlərin bütün ölkələr üçün daha çox böhrana meylli olduğunu söyləmək olar. Ancaq 1990-cı ildən sonra inkişaf etməkdə olan ölkələr baxımından sabit valyuta məzənnələrinin daha çox böhran riski daşıdığı görülür (Frankel, 2018: 187).

Sabit məzənnələrdə belə böhranların baş vermə ehtimalı yüksək olduğu halda, məzənnənin dəyişməsi artdıqca ehtimal azalır. Nəticə etibarı ilə, xüsusilə 1990-cı ildən sonrakı dövrdə inkişaf etməkdə olan ölkələr üçün sabit valyuta məzənnələrində həm bank, həm tədiyə balansı, həm də əkiz böhranların daha çox yaşandığı görülür.

## Nəticə

Valyuta məzənnəsi rejimlərinin makroiqtisadi təsirləri sabit və çevik valyuta məzənnələrinin nəzəri xüsusiyyətlərindən irəli gəlir. Sabit məzənnə-aşağı inflyasiya əlaqəsinin 1970-2005-ci illərdə valyuta məzənnələrindəki çeviklik səviyyəsinin artmasının inflyasiya sürətini artırdığı irəli sürülür. Sərbəst üzən məzənnə inflyasiyaya təkanverici təsir göstərmişdir. Lakin 1970-1990-cı illərdə bu təsir daha yüksək olduğu halda, 2015-2018-ci illərdə azalmışdır.

İnflyasiya rəqəmlərini "yüksək inflyasiya", "mülayim" və "aşağı" kimi üçlü təsnifata məruz qoyaraq məzənnələrin inflyasiyanın şiddətinə təsirini göstərməyə çalışılmışdır. Əldə edilən nəticələr qiymətləndirildikdə demək olar ki, sərt sabit məzənnə inflyasiyanın aşağı düşməsinə səbəb olur. Rejimlərin çevikliyinin artması ilə yüksək inflyasiya səviyyəsinin də artdığı müşahidə edilmişdir.

Xüsusilə sürünən diapazon və paritet kimi ara rejimlərdə və idarə olunan dalğalanmalarda yüksək inflyasiya ehtimalı artır. Sərbəst üzən məzənnədə ehtimal azdır, lakin orta inflyasiyanın kifayət qədər yüksək olması dalğalanmanın inflyasiyaya təkan verməsi fikrini təsdiqləyir. Məzənnə rejimlərinin inflyasiyaya təsiri haqqında qəti ümumiləşdirmə aparmaq mümkün olmasa da, məzənnənin çeviklik dərəcəsi artdıqca inflyasiya dərəcələrinin də artdığını söyləmək olar.

Sabit məzənnələrin gözlənilən istiqamətdə məzənnə ilə artım arasındakı əlaqəyə təsir göstərmədiyi də görünür. Bu rejimin ilk illərində 13% və 12% kimi yüksək artım templəri reallaşsa da, sonrakı illərdə artımın -4 faizə qədər azaldığı müşahidə edilir. Vahid valyutaya və səbətə indeksləşdirilmiş sabit məzənnələrin artıma təsiri digər rejimlərlə müqayisədə daha yüksəkdir.

İdarə olunan volatillik və sərbəst dəyişkənlik baxımından vəziyyət əvvəlki rejimlərin əksinədir. Bununla belə, idarə olunan dəyişkənlik sərbəst dəyişkənliyə nisbətən daha yüksək artım performansına malikdir. Bu nəticələrə əsasən demək olar ki, sabit məzənnə sistemləri ümumilikdə nisbətən daha yüksək artım göstəricilərinə malikdir. Alt dövrlər üzrə 1990-cı ildən sonra sabit məzənnə ilə yüksək artım göstəricilərində azalma müşahidə edilmişdir.

Eyni dövrdə idarə olunan və sərbəst dalğalanmalarda artım göstəricilərində artım müşahidə edilmişdir. Valyuta məzənnələri ilə maliyyə böhranları arasındakı əlaqə ondan ibarətdir ki, sabit məzənnələr inkişaf etməkdə olan ölkələrdə ən çox maliyyə böhranının yaşandığı rejimlərdir. Xüsusilə 1990-cı ildən sonrakı dövrdə həm bank, həm tədiyə balansı, həm də ikiqat böhranlar sabit valyuta məzənnələrində daha çox baş verir.

## Ədəbiyyat


1. Bailliu, P. (2013), "Does Exchange Rate Policy Matter for Growth?" International Finance, Vol.6, 414 p.
2. Baxter, M. (2019), "Business Cycles and the Exchange-Rate Regime: Some International Evidence," Journal of Monetary Economics, Vol. 23, No. 3, 400 p.
3. Caramazza, A. (2018), "Fixed or Flexible? Getting the Exchange Rate Right in the 1990s" Economic Issues, 348 p.
4. David, B. (2018), "Rules, Discretion, and Reputation in a Model of Monetary Policy," Journal of Monetary Economics, Vol.12, 121 p.
5. Dubas, C., Mark F. (2015), "Effective Exchange Rate Classifications and Growth" NBER Working Paper, No: 11272, April, 651 p.
6. Edison, H. (2020), The Determinants and Implications of the Chocie of an Exchange Rate System Monetary policy for a Volatile Global Economy, Washington: The AEI Press, Flood, 345 p.
7. Frankel, H., Jeffry A. (2018), Experience of and Lessons from Exchange Rate Regimes in Emerging Economies, NBER Working Paper, No: 245 p.
8. Frankel, J. (2012), An Estimate of The Effect of Common Currencies On Trade And Income, The Quarterly Journal of Economics, Vol. 117, Iss. 2, May, 466 p.
9. Ghosh, L., Holger C. (2018), Exchange Rate Regime, Choice and Consequences, The MIT Press, 327 p.
10. Michael, D. (2013), Exchange Rate Regime Choice in Historical Perspective, NBER Working Paper Series, No: 9654, April, 500 p.
11. Mishkin, S. (2017), The Mirage of Exchange Rate Regimes for Emerging Market Countries, Journal of Economic Perspectives, Vol. 17, 528 p.
12. Robert, P. (2015), Fixing exchange rates A virtual quest for Fundamentals, Journal of Monetary Economics, Vol. 36, Is. 1, August, 337 p.
13. https://dergipark.org.tr/tr/download/article-file/223484


**Rəyçi: i.ü.f.d. Xətai Əliyev**

Göndərilib: 09.04.2022 Qəbul edilib: 15. 05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/62-67

**Gülanə Elçin qızı Muradzadə-Abdullayeva**
Baku State University
magistrant
gulana.muradzada@gmail.com

## İNSAN RESURSUNUN STRATEJI İDARƏEDILMƏSININ ƏHƏMIYYƏTI

**Xülasə**

İnsan resursunun strateji idarə edilməsi termini 1990-cı illərdən geniş istifadə edilməyə başlayıb. İnsan resursunun strateji idarə edilməsi insan resursunun idarə edilməsi ilə strateji idarəetmə arasında interfeysdir. Başqa sözlə, o, təşkilatın gələcək inkişafının və məqsədlərinə nail olunmasının onun insan resursları siyasətləri və təcrübələri ilə necə dəstəklənəcəyini təsvir edir. Bacarıqlı, qabiliyyətli və motivasiyalı işçi qüvvəsinin olması rəqabət üstünlüyü üçün əsas kimi qəbul edilir və insan resurslarının strateji idarə edilməsi yüksək keyfiyyətli işçilərin işə götürülməsinə, dəstəklənməsinə və inkişaf etdirilməsinə yönəldilmişdir.

Bu məqalədə strateji insan resurslarının idarə edilməsinin mahiyyəti, əsas xüsusiyyətləri, modelləri, alətləri araşdırılır və bu anlayışın əhəmiyyətindən bəhs edilir.

***Açar sözlər:*** *insan resursları, insan resursunun idarəedilməsi, insan resurslarının strateji idarəedilməsi, strategiya, təşkilat, idarəetmə*

**Gulana Elchin Muradzade-Abdullayeva**

## Importance of Strategic Human Resource Management

**Abstract**

The term strategic human resource management have widely been used since the 1990s. Strategic human resource management is the interface between human resource management and strategic management. In other words, it describes how the future development of the organisation and the achievement of its objectives can be supported by its human resources policies and practices. Having a skilled, capable and motivated workforce is perceived as fundamental to competitive advantage and strategic human resource management is oriented towards recruiting, supporting and developing high-quality employees.

This article researches the essence, main characteristics, models, tools of strategic human resource management and importance of this notion is discussed.

***Key words:*** *human resources, human resource management, strategic human resource management, strategy, organization, management*

### Introduction

The fact that human resource management is strategic is an essential distinguishing feature. To comprehend the idea of strategic human resource management, one must first comprehend the concept of strategy on which it is built (Greer, 2001: 105); (O'riordan, 2017: 22).

The strategy of an organization sets its direction in respect to its surroundings. It refers to the process of formulating goals, also known as strategic intent, and allocating or matching resources to opportunities and requirements, also known as resource-based strategy. The goal of business strategy is to gain a competitive edge. Through the strategic management process, strategy is articulated in strategic goals and created and implemented in strategic plans. Strategy is about implementation, which involves change management and planning. The necessity to attain strategic fit is a key part of strategy. This term has three meanings:

1. Aligning the organization's strengths and resources with external opportunities;
2. Aligning one area of strategy, such as human resource management, with the business strategy; and
3. Ensuring that diverse components of a strategy area cohere and are mutually helpful.

Tyson (1997) agrees that strategy has always been emergent and adaptable. It is realized not just via formal utterances, but also through actions and emotions. Strategy is a description of a forward-thinking action that is constantly geared toward change.

The fundamental concept of strategic human resource management is as follows: The manager should try to design policies that produce the employee abilities and behaviors that the organization need to fulfill its strategic goals while developing human resource management policies and activities. First, the manager develops strategic plans and objectives. Following that, he or she inquires, "What staff abilities and behaviors will we require to achieve these objectives and goals?" Finally, he or she inquires, "Exactly what recruiting, selection, training, and other HR policies and procedures should we use in order to achieve the needed employee abilities and behaviours?" (Dessler, 2016: 73).

Strategic human resource management is a method of making decisions on the organization's objectives and goals in the form of policies, programs, and practices pertaining to the employment relationship, resourcing, learning and development, performance management, reward, and employee relations. Human resource management and strategy are combined to form the notion of strategic human resource management. It uses the human resource management paradigm, with its emphasis on strategy, integration, and coherence, and adds essential concepts of strategy, such as strategic intent, resource-based strategy, competitive advantage, strategic capability, and strategic fit (Armstrong, 2006: 88).

Strategic human resource management is a method of managing human resources in accordance with the organization's aspirations for the future path it wishes to pursue. This process results in a series of decisions that, over time, constitute the pattern selected by the organization for managing its human resources and specify the areas in which specialized human resource strategies must be developed. These are decisions made by the organization about what needs to be done and what needs to be altered in certain areas of people management (Armstrong, 2006:90).

According to Hendry and Pettigrew (1986), strategic human resources management has four meanings:

- the use of planning;
- a coherent approach to the design and management of personnel systems based on an employment policy and manpower strategy and often underpinned by a "philosophy";
- matching human resources management activities and policies to some explicit business strategy;
- seeing the people of the organization as a "strategic resource" for the achievement of "competitive advantage" (Armstrong, 2006:150).

Strategic human resource management is simply a unified approach aimed at achieving "strategic fit." A strategic human resource management method generates human resource plans that are vertically integrated with the business strategy and, ideally, are an intrinsic component of that strategy, contributing to the business planning process as it occurs. Walker (1992) defines strategic human resource management as "the process of aligning human resource management with the business's strategic content." Vertical integration is required to provide alignment between business and human resource strategies, such that the latter supports and even defines the former. Strategic human resource management is also concerned with horizontal integration, which tries to guarantee that the various components of the human resource strategy fit together and complement one another (Armstrong, 2006: 151).

The primary goal of strategic human resource management is to create a viewpoint on how significant issues concerning people may be solved. It enables strategic decisions to be taken that will have a significant and long-term influence on the company's behavior and performance by ensuring that the organization has the talented, dedicated, and well-motivated workers required to achieve sustainable competitive advantage. Its logic is the benefit of having an agreed-upon and recognized foundation for establishing long-term approaches to people management by offering a sense of direction in a sometimes tumultuous environment. According to Dyer and Holder (1998), strategic human resource management should provide "unifying frameworks that are wide, contingency-based, and integrative". When assessing the goals of strategic human resource management, it is vital to evaluate the necessity

for human resource strategy to include the interests of all stakeholders in the business, including employees in general, as well as owners and management. According to Storey (1989), "soft strategic human resource management" would place a larger focus on the human relations part of people management, emphasizing continuous growth, communication, engagement, job security, working life quality, and work-life balance. Ethical concerns will be paramount. "Hard strategic human resource management", on the other hand, will emphasis the return on investment in human resources for the benefit of the business. This is also the human capital management philosophy. Strategic human resource management should strive for a good mix of hard and soft factors. All organizations exist to achieve a goal, and they must guarantee that they have the necessary resources and that they are used properly. However, they must also address the human factors outlined in the idea of soft strategic human resource management. According to Quinn Mills (1983), they should plan with people in mind, taking into account the needs and goals of all organization members (Armstrong, 2006: 151).

The issue is that in many firms, hard concerns take precedence over soft issues. As detailed below, strategic human resource management follows an overall resource-based concept. There are three alternative techniques under this framework: high-performance management (high-performance working), high-commitment management, and high-involvement management (Armstrong, 2006:151).

A resource-based approach to strategic human resource management focuses on meeting the organization's human capital requirements. The concept of resource-based strategic human resource management is based on Penrose's (1959) notions that the company is "an administrative organization and a collection of productive resources." It was coined by Hamel and Prahalad (1989), who stated that a corporation has a competitive edge if it can access and develop human resources that allow it to learn quicker and apply its learning more effectively than its competitors. According to Barney (1991), sustainable competitive advantage results from the acquisition and successful utilization of unique resource bundles that competitors cannot copy (Armstrong, 2006: 152).

A resource-based strategy seeks to increase resource capabilities by ensuring strategic fit between resources and opportunities and gaining added value from resource deployment. Resource-based theory, like human capital theory, stresses that investing in people increases their worth to the organization. According to Barney (1991), resource-based strategy may enhance strategic competency and provide what Boxall and Purcell (2003) describe to as "human resource advantage" (Armstrong, 2006: 152).

High-performance working entails the development of a number of interconnected processes that, when combined, have an impact on the firm's performance through its people in areas such as productivity, quality, customer service levels, growth, profit, and, ultimately, the delivery of increased shareholder value. This is accomplished by "improving staff abilities and increasing employee passion" (Stevens, 1998). According to Stevens, creating a feeling of momentum and direction begins with leadership, vision, and benchmarking. Progress must be monitored on a regular basis (Armstrong, 2006: 152).

Extensive and relevant learning and development activities, incentive pay schemes, and performance monitoring methods are all part of high-performance management techniques (Armstrong, 2006:152-153).

The plan should address the underlying business necessity of developing and maintaining a high performance culture. The characteristics of such a culture are:

- ✓ a clear line of sight exists between the strategic aims of the authority and those of its departments and its staff at all levels;
- ✓ management defines what it requires in the shape of performance improvements, sets goals for success and monitors performance to ensure that the goals are achieved;
- ✓ leadership from the top, which engenders a shared belief in the importance of continuing improvement;
- ✓ focus on promoting positive attitudes that result in a committed and motivated workforce;
- ✓ performance management processes aligned to the authority's objectives to ensure that people are engaged in achieving agreed goals and standards;
- ✓ capacities of people developed through learning at all levels to support performance improvement;

- ✓ people provided with opportunities to make full use of their skills and abilities;
- ✓ people valued and rewarded according to their contribution (Armstrong, 2006: 153).

One of the underlying features of human resource management is the emphasis on the significance of increasing mutual commitment (Walton, 1985b). Wood (1996) defines high-commitment management as “a type of management aiming at eliciting a commitment such that behavior is essentially self-regulated rather than controlled by punishments and pressures external to the individual, and interactions within the company are built on high levels of trust” (Armstrong M. 2006: 153).

Employees are treated as partners in the company, with their interests recognized and a voice on issues that concern them. It is focused with communication and participation. The goal is to foster an environment in which managers and members of their teams may engage in ongoing discourse to establish expectations and exchange information about the organization's mission, values, and objectives. This creates a shared understanding of what needs to be accomplished as well as a structure for managing and developing people to guarantee that it is accomplished (Armstrong, 2006: 153).

The following high-involvement work practices have been identified by Pil and McDuffie (1999):

- “on-line” work teams;
- “off-line” employee involvement activities and problem-solving groups;
- job rotation;
- suggestion programmes;
- decentralization of quality efforts (Armstrong, 2006: 154)

Strategic human resource management is implemented within the scope of the methodologies indicated above. The main objective will be to gain a competitive edge in human resources. A high-performance strategy will highlight the necessity of developing and sustaining a performance culture, and both high-commitment and high-involvement management will help to establish a dedicated and engaged staff. (Armstrong, 2006: 154); (8).

The current emphasis on sustainability has significant implications for human resource management. Strategic human resource management entails having human resource policies and procedures in place that develop the employee skills and behaviors required to meet the company's strategic goals, which include sustainability goals (Dessler, 2016: 74); (Byars L.L. and Williams, 1997: 8).

Managers employ a variety of techniques to transform the company's strategic goals into human resource policies and procedures. The strategy map, the HR scorecard, and the digital dashboard are examples of these tools (Dessler, 2016: 74); (9).

The strategy map shows how each department's performance contributes to the overarching strategic goals of the firm. It assists the management and each employee in seeing and comprehending the role of his or her department in attaining the company's strategic goal. According to management gurus, the map defines employees' "line of sight." It accomplishes this by visibly connecting their activities to the overall goals of the firm (Dessler, 2016: 75-76); (9).

Many employers quantify and computerize the actions of the strategy map. The HR scorecard assists them in doing so. The human resources scorecard is not a scorecard. It is a procedure for assigning financial and nonfinancial goals or metrics to the human resource management–related strategy-map chain of activities necessary for the company's strategic goals. The goal is to quantify the strategy map. Managers enable this by using customized scorecard software. The computerized scorecard approach assists managers in quantifying the linkages between (1) HR operations (such as testing and training), (2) resultant employee behaviors (such as customer service), and (3) resulting firm-wide strategic outcomes and performance (such as customer satisfaction and profitability). The HR scorecard is based on the "balanced scorecard" planning technique, which seeks to combine hard data such as financial indicators with soft data such as customer happiness when evaluating a company's success (Dessler, 2016: 78); (9).

The digital dashboard's function is best described by the adage "a picture is worth a thousand words." A digital dashboard displays desktop graphs and charts to the manager, providing a computerized image of how the organization is performing across all HR scorecard measures (Dessler, 2016: 78); (9).

Regarding human resource management in organizations, there are two basic types of strategy:

a) Competitive business strategy, which involves choice making and how to serve their customers better; and

b) Human resource strategy that involve choice making regarding the management of people within the organization (Osibanjo A.O. & Adeniji, 2012: 90).

Furthermore, there is a need to align the two goals in order to assure excellent organizational performance, since much emphasis has been placed on human resources becoming a strategic partner. This notion has resulted in the development of Strategic Human Resource Management, which combines strategic management with human resource management. Strategic human resource management emphasizes the contribution of human resource management to organizational performance; clearly, organizations adopting a specific strategy require human resource practices that differ from those required by organizations adopting alternative strategies (Delery and Doty, 1996), implying that there is an important link between organizational strategy and human resource practices implemented in that organization (Osibanjo A.O. & Adeniji, 2012: 91).

If a company's competitiveness is dependent on its workers, the business function in charge of hiring, training, evaluating, and rewarding those individuals must play a larger role in the company's success. As a result of the concept of employees as a competitive advantage, a new field of study known as strategic human resource management has emerged, which is defined as "the linking of human resource management with strategic goals and objectives in order to improve business performance and develop organizational cultures that foster innovation and flexibility." Ideally, human resources and senior management collaborate to develop the company's business plan. This strategy then serves as the foundation for the design of specific human resources operations such as hiring and training. This should result in staff competences and behaviors that will assist the company implement its business plan and achieve its goals. Human resources strategies are the actions taken by human resources to assist the firm in achieving its strategic goals (Lall M. & Zaidi, 2012: 16).

Three key concepts underpin strategic human resource management. A company's human resources are "a primary source of competitive advantage; people may make or ruin a business." A close match between business and human resource strategy is required for successful organizational performance (vertical fit). Individual HR strategies should be linked to one other to provide mutual assistance (horizontal fit) (Lall M. & Zaidi, 2012: 20).

## Conclusion

Strategic human resource management is the combination of human resource management and strategy. It is a way of managing human resources in accordance with the organization's goals for the future. When evaluating strategic human resource management goals, it is critical to review the need for human resource strategy to encompass the interests of all stakeholders in the firm, including employees in general, as well as owners and management. Depending on the nature of strategy, soft and hard strategic human resource management is distinguished.

In the end, every organization should note that, There is no single HRM strategy that can guarantee success in every situation. Organizations must develop their own distinct approach based on their own setting, culture, and goals. People professionals play an important role in understanding organizational situations and building human capital value chains that meet stakeholder needs.

## References

1. Armstrong, M. (2006), “Human Resource Management Practice”, London: Kogan Page Publishers;
2. Byars, L.L. and Williams L. R. (1997), “Human Resource Management”, Boston: The McGraw-Hill Companies;
3. Dessler, G. (2016), “Human Resource Management”, Florida: Pearson;
4. Greer, C. R. (2001), “Strategic Human Resource Management”, New Jersey: Prentice-Hall, Inc.;
5. Lall, M. & Zaidi Q. S. (2012), “Human Resource Management DMGT208”, New Delhi: Excel Books Private Limited;

6. O'riordan, J. "The Practice Of Human Resource Management" / An Foras Riaracháin Institute Of Public Administration: State of the public service series, 2017;
7. Osibanjo, A. O. & Adeniji A. A. (2012), "Human Resource Management: Theory & Practice", Ota: Pumark Nigeria Limited
8. Links
9. https://www.cipd.co.uk/knowledge/strategy/hr/strategic-hrm-factsheet#gref (18.05.2022)
10. https://www.shrm.org/resourcesandtools/tools-an samples/toolkits/pages/practicingstrategichumanresources.aspx (19.05.2022)

**Rəyçi: h.ü.f.d. Səbinə Əzizova**

Göndərilib: 09. 04.2022 Qəbul edilib: 16. 05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/68-71

**Mələkxanım Niyazi qızı Səfərli**
Bakı Mühəndislik Universiteti
magistrant
melekseferli79@gmail.com

# RUSİYA-UKRAYNA MÜHARİBƏSİNDƏ RUSİYA-ABŞ RƏQABƏTİ

**Xülasə**

Dünyada gedən geosiyasi proseslər yeni dünya nizamının yaradılmasının göstəricisidir. Təkqütblü sistemin lideri olan Amerika Birləşmiş Ştatları yüksələn güc olan Rusiya və Çinə qarşı yenidən müttəfiqlərini səfərbər etmək istəyir. Qərb və Rusiya arasında bufer zona olan Ukraynanın geosiyasi, geoiqtisadi, geostrateji önəmi qlobal güclərin maraqlarının toqquşmasına səbəb olur. Geosiyasi şəraitin uyğunluğundan istifadə edən Rusiya həm imperialist maraqlarını reallaşdırır, həm də Qərbə tələblərinin yerinə yetirilməsi üçün təzyiq göstərir. Və bu məqalə tərəflərin maraq və gələcək planlarının nə olduğundan bəhs edir. Həmçinin müharibə sonrası bütün dünyada qida qıtlığı və iqtisadi durğunluğun da olacağını proqnozlaşdırır.

***Açar sözlər:*** *Rusiya, ABŞ, Ukrayna, NATO, Çin, Qərb dünyası, Co Bayden, Putin, geosiyasi mübarizə, milli maraq*

**Melekkhanım Niyazi Safarli**

## Russia-USA competition in Russia-Ukraine war

**Abstract**

Geopolitical processes in the world are an indicator of the creation of a new world order. The United States, the leader of the unipolar system, wants to re-mobilize its allies against the rising power of Russia and China. The geopolitical, geoeconomic and geostrategic importance of Ukraine, which is a buffer zone between the West and Russia, is causing a conflict of interests between global powers. Taking advantage of the geopolitical situation, Russia is both pursuing its imperialist interests and exerting pressure on the West to comply with its demands. And this article is about the interests and future plans of the parties. It also predicts food shortages and economic stagnation around the world after the war.

***Key words:*** *Russia, USA, Ukraine, NATO, China, Western world, Co Biden, Putin, geopolitical struggle, national interest*

## Giriş

Siyasi coğrafiyanın banisi kimi qəbul edilən Ratselin irəli sürdüyü həyati-məkan nəzəriyyəsi sonralar Qərb müstəmləkəçi düvlətlərin eksponsionist siyasətinin elmi əsaslandırılması üçün istifadə edilmişdir. Dəniz hökümranlığının dünya hakimiyyətinə apardığını deyən Ratselin ideologiyası ilə çıxış edən hegemon dövlətlər dənizlərin əhəmiyyətinin daha da artması ilə geosiyasi mübarizələri daha da şiddətlənmişdir. Qara dəniz bölgəsi ABŞ və Aİ üçün Avrasiyaya keçid qapısıdır. Bu bölgəni yeni istehsal sahəsi kimi pazara çevirmək cəzbedicidir. Avropanı nəzarətdə saxlamaq üçün onun asılı olduğu enerji yataqlarına çıxış və nəqliyyat güzərgahlarının nəzarətdə saxlanılması ABŞ üçün əsas məqsəd idi.

Qərbin Rusiyanı çevrələmə siyasətinə qarşı çıxan Rusiya isə tarixən gələn imperialist politikasını davam etdirmək üçün NATO-nun Şərqə doğru genişləməsini özünün milli təhlükəsizliyi üçün təhdid olaraq qiymətləndirərək 2014-cü ildə Kırımı işğal edərək Qara dənizdə SSRİ-nin dağılmasından sonra zəifləyən varlığını yenidən gücləndirməklə yanaşı, Ukraynanın NATO-a daxil olmamasına yazılı zəmanət verilməsinin rədd edilməsi ilə Ukrayna ərazisinə daxil oldu. Buradakı uğursuzluq ABŞ və Qərbə olan inamın sorğulanmasına və Çinin növbəti addımlarına səbəbiyyət verəcəyindən olduqca çətin geosiyasi mübarizədir.Həmçinin bu proseslərin dünyada qurulan yeni dünya nizamı və pandemiya sonrası dünyada gözlənilən qlobal qida qıtlığı və iqtisadi böhranın da xəbərçisi olduğunu da deyə bilərik.

## 1. Rusiya-Ukrayna müharibəsində Rusiyanın prioritetləri

Rusiya və Ukrayna arasındakı müharibə həm ikili, həm də qlobal güclərin fəaliyyətinin nəticəsidir. Rusiya-Ukrayna gərginliyinin kökü tarixə söykənsə də Qərb dəstəkli qüvvələrin köməyi ilə Ukraynada "rəngli inqilab" baş verəndən dərhal sonra Rusiya hərbi birləşmələri Kırıma daxil oldu. Rusiyanın Kırımı ilhaqı ilə 1991-ci ildən sonra Qara dənizdə zəifləyən mövqeyini yenidən gücləndirdi. Qara dəniz filosu və Sivastapol limanı vasitəsilə Ukraynanı nəzarətdə saxladı, Qara dənizdə ən güclü donanmaya sahib oldu, Qərbdən gələ biləcək Şimali Qafqaz istiqamətindəki təhlükələrin də qarşısını aldı və Yaxın və Orta Şərqdəki hərbi fəaliyyətlərinə də nəzarət etmə imkanını gücləndirmiş oldu (11).

Rusiyanın Ukraynaya hücumuna aparan yolu müəyyənləşdirsək həm Ukrayna daxilindəki proseslər, həm Rusiya-Ukrayna, həm də qlobal güclər arasındakı münasibətlərin nəticəsidir. Rusiya Prezidenti Putin 10 fevral 2007-ci il Münhen Təhlükəsizlik Konfransında ABŞ və NATO-nu tənqid edərək rus qüvvələrinin Gürcistandan çıxarıldığını, amma ABŞ raketlərinin Rumıniya və Bolqarıstanda yerləşdirildiyini və bunun regiondakı sülh danışıqlarını blokladığını bildirdi. ABŞ-ın NATO fəaliyyəti nəticəsində birlik xaricindəki digər heç bir dövlətin özünü təhlükəsiz hiss etmədiyini və məcburi silahlanmanın artmasına təkan verdiyini bildirərək mövqeyini ortaya qoymuşdur (8). Bu konfransda Almaniya Müdafiyə naziri Frans Cozef Yunq heç bir təşkilatın təkbaşına dünya polisi rolunu oynaya bilməyəcəyini, NATO-nun müdafiyə ittifaqından təhlükəsizlik ittifaqına transformasiya etdiyini və Avropada ortaq təhlükəsizlik maraqlarının olduğunu və NATO-Rusiya əlaqələrinin gücləndirilməsindən yana olduğunu bildirməklə Rusiyaya qarşı təhlükə deyil də, əməkdaşlıq mevqeyi bəslədiklərini göstərməyə çalışdı.

Putini Ukrayna ilə müharibəyə başlamağa cəsarətləndirən situasiyalar nələrdir? ABŞ-n diqqətini Çinə yönəltməsi və bir çox bölgələrdəki stratejik yüklərini azaltmaq ehtiyacı duyması və Rusiyanın Çin faktorundan istifadə edərək Qərb dünyasından hərbi qarşılıq almayacağını planlayaraq maksimum Ukrayna üzərindən məqsədlərini reallaşdırmaq istəməsi, Türkiyə və Qərb arasındakı əlaqələrin yenidən canlandırılmasına baxmayaraq hələ də bir-birlərinə uzaq olması, Avropanın artan enerji ehtiyacı və artan neft qiymətləri, qlobal inflyasiyanın gücləndiyi bir dövrdə Rusiyaya qarşı embarqoların uzun müddət davam etməsinin Qərb üçün daha ciddi nəticələrinin olması ehtimalı və s. bu kimi məsələlər müharibə üçün uyğun şərait yaratmışdı (7). Bununla yanaşı enerji bazarları gərgin, istehlakçılar narahatkən enerji də daxil embarqolar qoymaq, ona tərəfdarlar tapmaq və bunu uzun müddət davam etdirmək asan deyil və Rusiyanın da enerjini azaltmaq və ya kəsməklə qarşılıq veriləcəyi də məlumdur.

Rusiyanın bu müharibədə ilk strateji hədəfi nədir? Ən böyük strateji hədəflərdən bir də təbii ki də Ukraynanın nüvə silahı imkanlarını nəzarət altına almaqdır. Rusiyanın Ukraynada əsas hərbi hədəfləri nələrdir? Birincisi , Ukraynanın Qaradəniz və Azov sahillərinin tutulması, Kırıma quru yolunun açılması, Kırımın içməli su ilə təmin edilməsi, Odessadakı Ukrayna hərbi dəniz qüvvələrinin dağıdılması (6). İkincisi, geniş perspektivdən baxdıqda strateji maraqlarından biri Qaradənizdəki üstünlüyünü gücləndirmək və Ukraynanı güc balansı prosesindən uzaqlaşdırmaq, Ukraynanı dənizdən(cənub) çevrələməkdir. Üçüncusu, Ukraynanın nüvə santrallarının ələ keçirilməsi (5).

## 2. Rusiya-Ukrayna müharibəsində ABŞ-ın maraqları və Çin faktoru

Önəmli məsələlərdən biri də " Rusiyaya qarşı nə edilə bilər?" sualına cavab tapmaqdır. Buna cavab tapılması üçün də ABŞ-ın Rusiyanın Şərqi Avropadakı təhlükəsizliklə bağlı məsələlərində ABŞ-ın beynəlxalq imicinə zərər vurmayacaq şəkildə bəzi güzəştlərə getməklə Çindən uzaqlaşdırılmasının mümkünlüyünü müəyyən etməkdir. Rusiya və Çinin strateji müttəfiq kimi çıxış etməsinə baxmayaraq maraq fərqlilikləri və fikir ayrılıqlarının da olduğunu unutmamaqla yanaşı gələcəkdə strateji addımlarını birlikdə koordinasiya etmə səviyyəsinə qədər yaxınlaşmasına icazə verilməsi Qərb dünyasını çətin situasiyaya sala bilər (4);(3).

"Münasibətləri kim şiddətləndirməyə meyillidir?" sualına cavab versək ABŞ və İngiltərənin bunda maraqlı olduğunu çəkinmədən demək mümkündür. Ingiltərənin rəhbərliyi ilə AUKUS birliyini yaratmalarına baxmayaraq indilik uğurlu olduqları deyilə bilməz ki, belə olan halda Rusiyanı məşğul edərək Çin, Rusiya, İran üçlüsünü ayrılıqda zəiflətmə planlarınının da olduğunu deyə bilərik (2). Və hətta İran ilə münasibətlərin yumuşadılması və Vyana görüşündən sonra müsbət mesajların verilməsini həm bununla, həm də enerji asılılığının aradan qaldırılmasında İran neft və qazından istifadə edilməsi

istəyi ilə bağlıdır. ABŞ Çinə qarşı onsuz da Avropanın dəstəyini ala bilmir və Rusiyaya qarşı münasibətdə də " təhlükəli düşmən" obrazının şişirdilməsinə baxmayaraq yenə də NATO daxilində parçalanmalar var (1). Və Rusiyanın da Qərb dünyası ilə SSRİ-də olduğu kimi iqtisadi izolyasiyası yoxdur, enerji ilə yanaşı qarşılıqlı iqtisadi, ticari bağları və asılılıqları güclüdür və müharibə olacağı təqdirdə əsas zərbənin Avropaya dəyəcəyi də məlumdur.

ABŞ-ın bu savaşda maraqlı olmasını qısaca olaraq belə ifadə edə bilərik: Birincisi, dünyada çoxqütblü sistemin yaranmasına baxmayaraq dünya hegemonluğunu əlindən vermək istəməyən ABŞ tərəfdaşlarını daha güclü ətrafında birləşdirmək istəyir. Və bunun üçün də Soyuq müharibə dövründə olduğu kimi rus təhlükəsini yenidən Avropaya xatırlatmaq istəyir. Özü başda olmaqla NATO-nun fəaliyyətinin təkmilləşdirmək istəyi var və 24 mart 2022 NATO Sammiti qərarları Rusiya üçün çox da çəkindirici rol oynamasa da NATO-nun möhkəmlənməsini göstərmək və Avropa Birliyində fikir ayrılıqlarının aradan qaldırılması baxımından əhəmiyyətlidir (10). ABŞ prezidenti Co Bayden ölkənin başlıca şirkət rəhbərləri ilə görüşdə səsləndirdiyi "yeni dünya nizamı qurulacaq və biz buna liderlik etməliyik" sözlərindən sonra yeni "demokratiya platforması" yaratmaq istəyini vurğulamışdır.

22 mart 2022 İslam Əməkdaşlıq Təşkilatının İslamabaddakı sammitinə dəvət edilən Çin Xarici İşlər Naziri Vanq Yi çıxışında bir neçə müzakirəyə açıq ana maddəyə toxunmuşdur: birincisi, İslam dünyası ilə əməkdalıq etmək istədiyini və ortaq tarixi kök və missiyalara sahib olan iki mədəniyyətin də ortaq gəmidə olduqlarını vurğulayaraq problemlərin həllində koordinasiyalı hərəkət etməyi təklif etdi. Bu ABŞ-ın "demokratiya platforması"na qarşı birlikdə hərəkət etməyə bir çağırış idi. Ikinci, Qərb-mədəniyyətlərin toqquşmasından danışır, amma biz-mədəniyyətlərin əməkdaşlığına baxaq, mədəniyyətlərimizi tanıyaq, bunun üçün də bir qurum yaradaq və təhlükəsizlik konsepsiyası formalaşdıraq (9). Sanki burada ABŞ-ın qurduğu platformanın bizi, sizi hədəf alacağını vurğulayır. Və Çinin bu mesajları bir növ yeni qütblənmənin mesajları kimi səslənir.

Qərbin tətbiq etdiyi embarqoların geosiyasi təsiri İran, Venesuela. Şimali Koreya kimi dövlətlərə illərdir edilən embarqoların nəticəsiz qalmasından da qısamüddətli təsirinin az olacağını demək mümkündür. Sanksiyalarda Rusiyanın Kvant texnologiyası, rabitə və kosmik texnologiyaya çıxışının bağlanmasına da vurğular edilir. Ancaq Çinin də bu sahələrdə Qərbdən geri qalmadığını unutmaq olmaz. Belə olan halda, Qərb sanksiyalarla Rusiyanın iqtisadiyyatını zəiflədəcəyini, daxili istiqrarsızlıq çıxacağını, Putinin də iqtidardan gedəcəyini güman etsə də, Rusiyaya qarşı sanksiyalar özü ilə bərabər Qərb qaynaqlı dünya maliyyə sistemi və korporativ strukturların sorğulanmasını da gətirəcəkdir. Hətta müharibə daha uzun davam edərsə milli valyutalarla ticarət təşəbbüsləri artacaq. Sanksiyaların təsirini azaltmaq üçün Putinin rubl ilə ödənişi artırmağa çalışması da dollara meydan oxumaq hesab edilə bilər. BƏƏ-nin Çinə satdığı neftin qiymətini yuanla ödəməyə hazır olduğunu deməsi bu istiqamətli müzakirələri daha da genişləndirəcək. Rubl və yuanın dollara qarşı ödəniş vasitəsi olması dollar əsaslı iqtisadi dünya nizamının dağılmasına səbəb ola bilər (3).

Müharibə dövründə neft və qazın qiymətinin kəskin artması ən çox Avropanı narahat edir, çünki rus qazının əsas alıcısı Avropadı və dolayısı ilə enerji alaraq Rusiyanın apardığı müharibəni də maliyyələşdirmiş olur. Buna görə də Aİ-nın qarşısında duran növbəti addım 2050-ci ilə qədər yaşıl iqtisadiyyat qurmaqdır. Iqlim dəyişikliklərinə qarşı mübariz ilə yanaşı müharibə ilə Avropa dövlətlərinin təhlükəsizlik amili də yaşıl iqtisadiyyata keçmənin vacibliyini göstərdi. Avropanın Rusiya iqtisadiyyatını hədəf alan sanksiyalarında maksimum qlobal iqtisadi və ticari sistemin təsirlənməməsi hədəflənir.

## Nəticə

Nəticə olaraq deyə bilərəm ki, müharibənin başında Qərb NATO-nun Ukraynaya hərbi dəstək olmayacağını bildirməsinə baxmayaraq artıq ağır silahlarla kömək ediyini görürük. Hətta Lavrov İngiltərə xüsusi təyinatlılarının Ukraynada görüldüyünü və onlara müdaxilə ediləcəyini dedi. M.Çavuşoğlu isə "Ukrayna müharibəsini bitirmək istəməyən qüvvələr var" deyərək Qərbi nəzərdə tutmuşdu. Lavrovun davamlı Zelenskini aktyor adlandırması və "Zelenski Rusiya ilə görüşmə və danışıqları sadəcə aparırmış kimi edir" deyərək bir növ onun Qərbdən yönləndirildiyinə diqqət çəkir. Bu da onu göstərir ki, Ukraynada razılıq Rusiya-Ukrayna arasında deyil, Qərb-Rusiya arasında olacaq. Müharibənin rusların tam da "nüvə silahı" dediyi yerdə dayandırılacağını düşünürəm, həmin ana qədər Rusiyaya nə qədər zərər verilsə Qərbin xeyirinədir. Məhz Qərbin Türkiyənin sanksiyalara

qoşulmamasına baxmayaraq Türkiyəyə təzyiq göstərməməsinin səbəblərindən biri də NATO üzü dövlətlərdən birinin Rusiya ilə danışıqlar masasına oturması qapısının açıq olmasını istəmələridir. Çünki, Rusiyanın da dərhal Qərblə masaya oturmayacağını və Türkiyənin vasitəçi olacağını bilirlər. Son olaraq "III Dünya müharibəsi ola bilər mi", " Nüvə müharibəsi olar mı" kimi suallara cavab olaraq Ukrayna problemi üzərindən deyil, gələcəkdə bəlkə Uzaq Şərqin də içərisində olduğu qarşıdurma halında qarşılaşa bilərik. İndilik bu kimi xaos yaradan populist çıxışların sadəcə formalaşdırılmaqda olan yeni dünya nizamından diqqəti yayındırmaq üçün istifadə edildiyini düşünürəm.

## Ədəbiyyat


1. NATO və Yeni Dünya Nizamı, Tarık Oğuzlu, 2019 https://www.researchgate.net
2. Həsən Əbu Talib, AUKUS ittifaqı: Çini mühasirəyə almaq üçün daha bir addım https://www.indyturk.com/node/414581
3. ABŞ 3-cü Dünya Müharibəsinə səbəb olmadan Ukraynaya necə kömək edə bilər? 2022 https://tr.euronews.com/2022/03/08/abd-3-dunya-savas-na-neden-olmadan-ukrayna-ya-nas-l-yard-m-edecek
4. Rusiya-Ukrayna Müharibəsində Yeni Dövr Başlayır?, Mustafa Zəfər Soydan, 2022https://turkmer.sakarya.edu.tr/sites/turkmer.sakarya.edu.tr/file/Russia_Ukayna_Savasinda_Yeni_Bir_Donem_Mi_Baslenen.pdf
5. Rusiya-Ukrayna Böhranının Sahədə Müharibə Vəziyyətinə çevrilməsi Prosesi və Mümkün Ssenarilər Mehmet Çağatay Gülər, 2022https://setav.org/assets/uploads/2022/02/P331.pdf
6. Rusiyanın Ukraynaya Hücumunun Siyasi və Hərbi Qiymətləndirilməsi, Murat Aslan 2022, 14s https://setav.org/assets/uploads/2022/02/P332.pdf
7. Mehmet Ali Güllür, Ukraynada 'Yeni Dünya Nizamı' Toqquşması 2022-https://www.cumhuriyet.com.tr/yazarlar/mehmet-ali-guller/ukraynada-yeni-dunya-duzeni-carpismasi-1918821
8. Putinin 2007 Münhen çıxışı, 2018 https://www.youtube.com/watch?v=WAavE0GQWG4
9. Çin İslam Əməkdaşlıq Təşkilatının 2022-ci il iclasına dəvət olunub, https://www.criturk.com/cin-islam-isbirligi-teskilati-toplantisina-davet-edildi/
10. Yıldız Deveci Bozkuş, NATO Sammiti: Yeni Avropa Təhlükəsizlik Arxitekturasından Qlobal Təhlükəsizliyə, 2022, https://www.aa.com.tr/tr/analiz/nato-zirvesi-yeni-avrupa-security-architecture-kuresel-trust/ 2545530
11. Ukrayna böhranından sonra Avropa İttifaqı-Rusiya Münasibətləri dəyişdi, Cihan Kalın, İstanbul, http://nek.istanbul.edu.tr:4444/ekos/TEZ/58097.pdf


**Rəyçi: fil.ü.f.d. Rəşad Hüseynov**

Göndərilib: 10.04.2022 Qəbul edilib: 15. 05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/72-77

**Fuad Azar Osmanov**
Baku State University
master
fuadosmanov96@gmail.com

# CONCEPT OF ARBITRATION AGREEMENT AND DOCTRINE OF SEPARABILITY

**Abstract**

International trade is one of the factors of economic welfare in the world. In order to preserve this welfare, it is important to effectively resolute disputes in foreign economic relations. One of the most common methods of resolving international commercial disputes is international arbitration. The starting point of the arbitration process is an arbitration agreement concluded by the parties to a commercial contract. Thus, the general practice is that the arbitration agreement is a refusal from the national court. The following article will discuss the concept and doctrine of separability arbitration agreement. At the same time, both the theoretical foundations and the practical meaning of these categories will be noted.

***Key words:*** *arbitration agreement, arbitration clause, autonomy of arbitration agreement, doctrine, national courts, jurisdiction*

**Fuad Azər oğlu Osmanov**

**Arbitraj sazişin anlayışı və müstəqillik doktrinası**

**Xülasə**

Beynəlxalq ticarət dünyada iqtisadi rifah amillərindən biridir. Bu rifahın qorunması üçün xarici iqtisadi əlaqələrdə mübahisələrin səmərəli həlli vacibdir. Beynəlxalq kommersiya mübahisələrinin həlli üçün ən geniş yayılmış üsullardan biri beynəlxalq arbitrajdır. Arbitraj prosesinin başlanğıc nöqtəsi kommersiya müqaviləsinin tərəfləri arasında bağlanmış arbitraj razılaşmasıdır. Beləliklə, geniş yayılmış təcrübə ondan ibarətdir ki, arbitraj sazişi kommersiya müvaviləsinin tərəflərinin milli məhkəmələrin yurisdiksiyasından imtinasını müəyyən edir. Məqalədə arbitraj sazişinin anlayışı və müstəqillik doktrinası nəzərdən keçiriləcəkdir. Eyni zamanda, bu kateqoriyaların həm nəzəri əsasları, həm də praktiki mənası qeyd olunacaq.

***Açar sözlər:*** *arbitarj sazişi, arbitarj qeyd-şərti, müqavilələr, arbitarj sazişin müstəqilliyi, doktrina, milli məhkəmələr, yurisdiksiya*

## Introduction

Arbitration agreements are essentially the procedural basis of International Commercial Arbitration. The arbitration takes the case into production only if there is a certain agreement of the parties that has a form that meets the requirements of the arbitration legislation. Unlike state courts, where it is possible to apply for the protection of a violated or disputed right at almost any time, without any preliminary procedure (except in cases of mandatory pre-trial mediation proceedings), in order for the emergence of the right to appeal to international commercial arbitration and transfer the dispute for resolution, the parties must agree on this in advance, that is to conclude an arbitration agreement on the transfer of a particular dispute to the international commercial arbitration court for settlement. Doctrine of separability on other hand defines the independence of the arbitration agreement from the main contract. In other words, the fate of the arbitration agreement is essentially unrelated to the fate of the main contract, even if this agreement is drawn up in the form of an arbitration clause. Doctrine of separability is the principle on which the legal force of the arbitration agreement is generally based.

## Concept of arbitration agreement

If we try to give the most general definition of international arbitration, we will get the following statement - this is an institution of private law specifically designed for resolution of the certain category of civil law disputes (international commercial disputes) between parties of different nationalities in non-state arbitration courts. The main feature of arbitration agreements is their binding nature for the

parties who are not able to avoid submitting the dispute to arbitration. According to the established practice in international private legal relations, a court of general jurisdiction has no right to cancel an arbitration agreement, nor can it review the merits of an arbitration award. "At the same time, sometimes the jurisdiction of arbitration is based on the rules of an international treaty - an arbitration agreement between States. Such an interstate agreement is mandatory both for the parties to a commercial dispute and for the arbitration body specified in the contract. If there is a contract, the parties cannot avoid submitting the dispute to arbitration, and precisely to the arbitration specified in the contract; on the other hand, the arbitration cannot refuse to consider the dispute, citing the lack of private agreement of the parties to the commercial contract" (Dmitriyeva, 2017: 630). Before giving a comprehensive definition of an arbitration agreement, it is necessary to understand the origins of this legal phenomen. In fact, the arbitration agreement, so widely used by the parties to international commercial relations, originates from the case of Scott v. Avery.

The circumstances were as follows: respondent Avery was dissatisfied with the award, remunerated to him by the other party. At the same time, the contract contained the following clause: in case of any dispute about remuneration, the issue must first be submitted to arbitration. Despite this, the respondent refused to refer the case to arbitration and instead referred it directly to the court. At the same time, the House of Lords supported the concept of submitting to arbitration in the presence of a corresponding clause and in 1856 adopted the respective decision. The Scott v. Avery clause was explained as follows: "While the parties cannot contractually override the jurisdiction of the courts, they can agree that no right of action will arise in respect of any differences that may arise between them until such differences are resolved by an arbitrator." This provision is often referred to as the Scott vs. Avery Clause. The most popular is the statement of Lord Cranworth: "I can see not the slightest ill consequences that can flow from such an agreement, and I see great advantage that may arise from it" (5). "All contracts concluded with the Grain and Feed Trade Association (GAFTA) include the "Scott-Avery clause", which states: neither party shall bring any claims or other legal proceedings against the other in respect of any such dispute until such dispute is first considered and determined by an arbitrator in accordance with the Arbitration Rules, and the decision of the arbitrator(s) is a condition preceding any claim or other legal proceedings"(6). "The case of Scott v Avery involved a clause which was drafted to overcome the objection to ousting the court's jurisdiction" (13).

Thus, the general definition of an arbitration agreement can be formulated as it follows from the Uncitral Model Law on International Commercial Arbitration (the Model Law): "Arbitration agreement" — is an agreement by the parties to submit to arbitration all or certain disputes which have arisen or which may arise between them in respect of a defined legal with any particular legal relationship, whether contractual or not"(14). It should be noted that the definition of the concept of an arbitration agreement in Azerbaijani legislation fully coincides with that given in the Model Law.

The arbitration agreement is the cornerstone of the entire arbitration process as a whole. "The essence of the arbitration agreement in the international private law is expressed in the fact that it fixes the mutually agreed will of the parties to an international commercial contract to transfer the dispute that has arisen or may arise between them to international commercial arbitration for resolution" (Yerpylyova, 2004: 6). As we know, international commercial arbitration – doesn't matter if it is the institutional arbitration ("proceeding where the parties designate an institution to administer the arbitral process in accordance with its arbitration rules" (4) ) or ad hoc arbitration ("a proceeding that requires the parties to select the arbitrator(s), and the rules and procedures" (4) - is an alternative to judicial settlement of foreign economic disputes. Accordingly, we can conclude that the object of arbitration agreement is directly a dispute between the parties to the contract, and the subject of arbitration agreement is the terms of the arbitration itself, such as the language, place, applicable law and the procedure of the arbitration process. "Arbitration begins with the mutual will of the parties to transfer their dispute to a special non-governmental body for consideration. This is its positive (or prorogative) effect. A properly fixed expression of the will of the parties has another effect — negative (or derogatory), because it entails the withdrawal of the dispute from the jurisdiction of the general courts" (Shelkoplyas, 2016: 1). By virtue of the New York Convention on the Recognition and Enforcement of Foreign Arbitral Awards of 1958, in which more than 110 States participate, the court of a contracting State is obliged, at the request of one of the parties, to refer the parties to arbitration. Thus, the Convention establishes guarantees for the execution of the arbitration agreement as a special agreement

with procedural effect (since it establishes the procedure for dispute resolution) and establishes the private rights and obligations of the parties to the agreement. The Republic of Azerbaijan has been adopted to convention on 29 february 2000 year.

The consensus of the parties to choose a private method of dispute settlement is fixed in the arbitration agreement. Only if there is an agreement between the parties to submit the dispute to arbitration, the state court gives way to the arbitration court. The arbitration agreement is the basis and source from which arbitrators derive their competence and authority to resolve a dispute. The parties themselves determine the limits of the competence of the arbitration court both in relation to the range of disputes that it is authorized to consider, and in relation to the functions and methods to which arbitrators can resort when considering a dispute. Taking into account the foreign economic nature of the relations amenable to arbitration, the requirements concerning its subject matter must be applied to the arbitration agreement: for example, one of the parties or both parties must be complicated by a foreign element (an enterprise with foreign investments, an international association or organization), that is, a controversial or potentially controversial agreement must be related to the implementation of foreign trade or other types of international economic relations. Such an arbitration agreement is a direct provision for the transfer of the dispute to arbitration.

From the point of view of the definition of an arbitration agreement, the question of its legal nature is quite controversial. Studying the specific features of the arbitration agreement and the limits of its impact, at the moment it can be concluded that “the nature of the arbitration agreement is actually mixed (sui generis): “this is a substantive contract with procedural content and procedural legal consequences” (Getman-Pavlova, 2017:163). The arbitration agreement is undoubtedly a civil contract, despite the fact that it concerns procedural issues. Let's look at the definition of the contract in the Civil Code of the Republic of Azerbaijan: “A contract shall mean an agreement between two or several parties on the establishment, modification or termination of the civil rights and obligations” (12). The dual nature of the arbitration agreement is expressed in the fact that, on the one hand, it is a legal fact, on the basis of which the parties who concluded it have the obligation to submit the dispute to arbitration for resolution, as well as the obligation to voluntarily execute the decision that will be made by such a court. On the other hand, it regulates the procedural issues of dispute resolution: types of arbitration the place and language of dispute resolution, the procedure for the formation of the arbitral tribunal.

## Doctrine of separability

The doctrine of separability of the arbitration agreement is one of the key principles in relation to arbitration agreements and all international commercial arbitration. The name "doctrine of separability (severability)" is most common in the anglo-american legal system. At the same time, the continental legal system of Europe gives this principle the name "autonomy of the arbitration agreement". In fact, both of these expressions are identical. The nature of the autonomy of the arbitration agreement mainly comes from its recognition within the framework of the main arbitration rules, most arbitration laws, arbitration case law and early decisions of international courts. Moreover, the fact that an arbitration agreement can be formalized not only in the form of a separate document, but also in the form of a so-called arbitration clause in a commercial contract does not affect the legal regime of such an arbitration agreement, since we are talking about the formal documentationing of the agreement. However, it should be noted that the principle of autonomy of the will of the parties is seriously tested when concluding an arbitration agreement in the form of an accession agreement.

It should be noted that despite the fact that opinions on the legal force of the autonomy of the arbitration agreement mostly coincide, many scientists interpret it in completely different ways and there is no consensus on the nature of this doctrine to this day. The doctrine of separability itself states that an arbitration agreement, regardless of the form of conclusion in the form of an arbitration clause or a separate contract, remains in force after the termination of the main contract. There are different views regarding the theoretical explanation of the legal nature of the doctrine of separability. Thus, there is an opinion that “the main contract mediates the economic essence of the legal relations of the parties, determines the content and scope of their substantive rights and obligations, while the arbitration agreement is aimed at establishing a method of dispute resolution and therefore does not concern the material rights and obligations of the parties. So by signing a foreign trade contract containing an arbitration clause, the parties seem to sign two separate contracts, each of which has its own legal

regime" (Yuryev, 2006: 237). In my opinion, this interpretation of the doctrine of separability is fundamentally wrong, because the arbitration agreement, on the one hand, ensures the right of the parties to consider their disputes in an arbitration court, on the other hand, obliges them to apply to this court when a relevant dispute arises. Thus, the materiality of the arbitration agreement is justified. On the other hand, almost all countries recognize the arbitration clause as part of the main contract. Accordingly, the arbitration clause should be considered as a condition of the contract, which has a special status and legal force relative to the rest of the content of the contract. The situation is different when it is claimed that "the arbitration clause itself arose as a result of fraud or error, or when it is stated that the parties did not agree at all on the inclusion of an arbitration clause in the main contract. The final decision on the validity of the arbitration clause itself, from which the arbitrator draws his jurisdiction, can only be made by the court. Entrusting his decision to an arbitrator means giving him the opportunity to decide on his own jurisdiction" (Schmithoff, 1993: 344). This interpretation also seems to be incorrect, because firstly, the uncitral arbitration act directly indicates that the arbitration court has the right to make a decision on the existence and validity of the arbitration agreement, and secondly, if a state court makes a decision on the validity of the arbitration agreement, the whole meaning of the independence of commercial disputes from judicial jurisdiction is lost. The explanation of doctrine of separability from "the point of view of the provisions of the Civil Code of Azerbaijan is very interesting: "Invalidity of one part of agreement shall not result in invalidity of the rest of agreement only in the event if agreement could have been concluded without inclusion of its invalid part" (Mustafayeva, 2015: 97). Apparently, the author implies that if the main contract is declared invalid, the arbitration clause initially may be signed in the form of a separate agreement in principle. This point of view is insufficiently substantiated, since the arbitration clause itself is intended to resolve disputes regarding the contract in the content of which it is included. In other words, without the main contract, the conclusion of an arbitration agreement is meaningless. As we can see, "the meaning of the principle of autonomy of the arbitration agreement is not that the arbitration agreement is interpreted as a kind of legal phenomenon that is absolutely unrelated to the fate and form of fixing the main contract, but that it has additional "survivability" aimed at limiting the ability of an unscrupulous party to create obstacles to arbitration proceedings" (Rashidovna, 2015: 521). "The development by one party of the conditions that make up the content of the future contract, obviously puts it in a more advantageous position compared to the contracting party, and as we know, recourse to international commercial arbitration is possible if there is a corresponding agreement" (Anurov, 2015: 105). The doctrine of separability should be understood to mean that an arbitration agreement in itself is a provision for the parties to apply to arbitration without the need for the assistance of any additional legal mechanisms.

The practical significance of the autonomy of the arbitration agreement is clear: the arbitration agreement, including the arbitration clause included in the text of the international commercial contract, is considered independently of the main contract, and the recognition of the contract as invalid does not lead to the cancellation of the arbitration agreement and does not deprive the arbitrator of the right to consider all disputed issues related to the invalidity of the contract and the consequences resulting from this. Regarding the theoretical component of this legal mechanism, it should be recognized that the independent status of the arbitration agreement is most clearly manifested in the context of disagreements between the contractual parties. Being connected with the main agreement, the arbitration agreement in this case acts as a guarantor of the parties appeal to arbitration and, consequently, independent out-of-court consideration of the dispute that has arisen. Due to this, it is the arbitration that gives a legal assessment of the validity of the arbitration agreement itself. Based on this, in exceptional cases, the reverse effect of the doctrine of separability is also possible, when the main contract is valid, but the arbitration agreement is separately invalidated. So, there is a case when "an english judge, despite the jurisdictional objections of the defendant, refused to send the parties to arbitration, and considered the case on the merits, referring to the fact that sending the parties to arbitration would infringe on the interests of the plaintiff individual. Such a decision of the english judge was based on the provisions of the Arbitration Act of England of 1996 and Unfair Terms in Consumer Contracts Regulations of 1994" (Kotelnikov, 2008: 110).

"The issue of the legal formalization of the doctrine of separability was so important for the developers of the Model Law that they considered it necessary to fix this principle in law" (Kotelnikov, 2008: 108), which they did in article 16. Accordingly, the purpose of the doctrine of separability is to

guarantee the jurisdiction of the arbitral tribunal by ensuring that the parties comply with the agreement to apply to arbitration, and not to fundamentally consider the arbitration agreement separately from the main agreement, because this does not make practical sense. The laws of some countries directly point to this purpose of the autonomy of the arbitration agreement. Thus, article 7 of the Arbitration Act of England states: Unless otherwise agreed by the parties, an arbitration agreement which forms or was intended to form part of another agreement (whether or not in writing) shall not be regarded as invalid, non-existent or ineffective because that other agreement is invalid, or did not come into existence or has become ineffective, and it shall for that purpose be treated as a distinct agreement.. In addition, the autonomy of the arbitration agreement is not limited only to the role of an independent guide of the parties to arbitration. Many legal scholars, including Gary Born, Boguslavsky and Dmitrieva, point out that "the autonomy of the arbitration agreement plays an exceptional role in determining the law applicable to the arbitration agreement itself regarding the determination of the number of arbitrators, the procedure for their selection, the place of the language and the nature of the arbitration proceedings. "Most often, a reference is provided either to the law that regulates the main contract, or to the law that the parties have chosen, or to the law of the State in whichs territory the decision was made" (Dmitriyeva, 2017: 635).

## Conclusion

Summing up all of the above, we can come to the final practical designation of an arbitration agreement: a civil contract concluded between the parties to a foreign economic transaction on the establishment of procedural rights and obligations aimed at transferring possible or already arisen disputes to the non-governmental arbitration institution or ad hoc arbitration chosen by mutual consent, consisting in the intention of the parties to subordinate the resolution of disagreements it is the arbitration court, excluding the competence of other judicial bodies. This statement is further reinforced by the fact that doctrine of separability gives the arbitration agreement a special status, which determines the legal force of the arbitration agreement and gives it freedom from the consequences of the invalidity of the main contract. In the absence of doctrine of separability, there was a clear risk of circumvention of the arbitration agreement in favor of the consideration of commercial disputes in national courts. Thus, if an arbitration agreement is a guide to international arbitration, then the doctrine of separation is a necessary barrier in the way of applying to State courts in the presence of this arbitration agreement.

## References

1. Anurov, V. (2015), Proyavleniye printzipa avtonomii voli storon v arbitrajnom soqlashenii (pravovoy analiz nekotorix del iz arbitrajnoy i sudebnoy praktiki) / Vestnik Universiteta, Moskva, №2
2. Dmitriyeva, G. (2017), Mejdunarodnoye chastnoye pravo, Moskva: Prospekt
3. Getman-Pavlova, I. (2017), Mejdunarodnoye chastnoye pravo, Moskva: Yurayt
4. Hartnett, W., QC, Schafler, M. (2017), Ad Hoc v. Institutional Arbitration – Advantages and Disadvantages / ADR Perspectives, http://adric.ca/wp-content/uploads/2017/09/Hartnett-and-Shafler.pdf
5. https://www.lawteacher.net/cases/scott-v-avery.php
6. https://www.lawteacher.net/free-law-essays/contract-law/scott-v-avery-clause-an-introduction-contract-law-essay.php
7. Kotelnikov, A. (2008), Dissertasiya na soiskaniye uchonoy stepeni kandidata yuridicheskix nauk na temu «Pravovaya priroda arbitrajnova soqlasheniya i poskledstviya yevo zaklyucheniya», Yekaterinburq: «Uralskaya qosudarstvennaya yuridicheskaya akademiya».
8. Mustafayeva, A. (2015), Doctrine of separability in International Commercial Arbitration / Baku State University Law Review, Baku, №1
9. Rashidovna, L. (2015), Ponyatiye I pravovaya priroda mejdunarodnova kommercheskova arbitraja / Science time, p. 519-525
10. Schmithoff, K. (1993), Export: International trade law and practice, Moskva: Yurid. lit.
11. Shelkoplyas, N. (2016), Arbitrajnoye soqlasheniye: teoreticheskiye voprosi, imeyushiye prakticheskoye znacheniye / Belorusskiy jurnal mejdunarodnova prava i mejdunarodnıx otnosheniy, Minsk, № 3, 98

12. The Civil Code of the Republic of Azerbaijan, adopted in 28.12.1999 year, entered into force 01.09.2000 year, https://www.e-qanun.az/framework/46944
13. Tweeddale A., Tweeddale K., Scott v Avery Clauses: O'er Judges' Fingers, Who Straight Dream on Fees, https://www.corbett.co.uk/wp-content/uploads/Arbitration-article-Scott-v-Avery.pdf
14. Uncitral Model law on International Commercial arbitration of 1985, https://uncitral.un.org/sites/uncitral.un.org/files/media-documents/uncitral/en/06-54671_ebook.pdf
15. Yerpylyova, N. (2004), Mejdunarodniy kommercheskiy arbitraj kak otrasl mejdunarodnova chastnova prava: sovremenniye tendentzii v razvitii / Zakonodatelstvo i ekonomika, Moskva, № 4 i 5
16. Yuryev, Y. (2006), Usloviya deystvitelnosti arbitrajnova soqlasheniya / Arbitrajnıy i qrajdanskiy protzes, Moskva, № 6.

**Rəyçi: h.ü.e.d. Şəhla Səmədova**

Göndərilib: 10.04.2022 Qəbul edilib: 15. 05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/78-81

**Müsəlləf Aydın oğlu Səməndərov**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
samandarov.musallaf.2001@atmu.edu.az

# BEYNƏLXALQ İDMAN OYUNLARININ BEYNƏLXALQ TURİZMƏ TƏSİRLƏRİ

**Xülasə**

İdman turizmi istər beynəlxalq,istərsə də milli idman fəaliyyətləri də daxil olmaqla yarışma və çempionatlar kimi fəaliyyətlərdə iştirak edənlərin asudə vaxtlarını keçirməyi hədəfləyən turizm hərəkatıdır.İdman turizmi iqtisadi cəhətdən əhəmiyyətli bir sektorun yaranmasına və beləliklə,ölkələr arasında insan və mədəniyyət mübadiləsinin sürətlənməsinə səbəb olmuşdur.Ölkələr arasında mədəni yaxınlaşma,təhsil,tanıtım kampaniyaları,idman görüşləri və bu istiqamətdə atılan addımlar turizmin inkişafı ilə yanaşı, cəlbediciliyini də artırır.Məsələn,böyük turist auditoriyasının Olimpiya Oyunlarının keçirildiyi bölgəni ziyarət etmək və görmək istəyi turizm hərəkatının inkişafını və inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə doğru gəlir axınının reallaşdığını ortaya qoyur

***Açar sözlər:*** *idman turizmi, beynəlxalq idman oyunları, beynəlxalq turizm,turizmin iqtisadiyyata təsirləri*

**Musallaf Aydin Samandarov**

## The impact of international sports games on international tourism

**Abstract**

Sports tourism is a tourism movement aimed at leisure activities of participants in activities such as competitions and championships, including both international and national sports activities. Sports tourism has led to the emergence of an economically important sector and thus accelerated human and cultural exchange between countries. Cultural rapprochement, education, promotional campaigns, sports meetings and steps taken in this direction, along with the development of tourism, also increase its attractiveness. For example, the desire of a large tourist audience to visit and see the region where the Olympic Games are held indicates the development of the tourism movement and the inflow of income to developed and developing countries.

***Key words:*** *sport tourism, international sports games , internationat tourism , effects of tourism on the economy*

## Giriş

İdman turizmi idman və turizm qavramlarının biləşməsindən yaranan, ümumi anlamda idman etmək məqsədilə edilən səyahətlər olaraq tanımlanmaya çalışılmışdır. Turizm və İdman dediyimiz bu iki fenomen öz inkişaf proseslərində bir-biri ilə qarşılıqlı əlaqədə olmuş və funksiyalarına görə insan həyatında ehtiyacların ödənilməsi baxımından oxşarlıqlar göstərmişdir.Bu,birtərəfli münasibət deyil, qarşılıqlı əlaqədir. İdmanın turizmə təsirinin bu gün daha intensiv olduğunu söyləmək mümkündür, xüsusilə turizm tələbatının transformasiyası və turizmin insani elementlərindən biri olan turistlərin struktur xüsusiyyətləri bu diferensiasiyanı əks etdirir.İdman xarakterli turizm zonalarının yaradılması çox həssas məsələdir.

Turizmin inkişafı yönündə önəmli addımlardan biri olan beynəlxalq idman yarışları bir iqtisadi layihə olaraq qiymətləndirilir.Bildiyimiz kimi beynəlxalq idman yarışları yalnız bir idman hadisəsi deyil, o həmdə bir iqtisadi inkişaf modeli və gələcəyə atılan bir addımdır. Beynəlxalq idman oyunlarının turizmə təsirini araşdıran mütəxəssislər həmin oyunların təsirləriniölkələr və regionlar üçün müxtəlif olaraq qiymətləndirilər. Ümilikdə isə bu təsirlər 3 başlıq altında qiymətləndirilir. Bunlar iqtisadi,sosial-mədəni və ekoloji təsirlərdir.

***İqtisadi təsirlər:*** İdman turizminin ən əhəmiyyətli təsirləri iqtisadi təsirlər olaraq ortaya çıxır. TÜRSAB İdman Turizmi Hesabatına görə (2014) idman turizmin qlobal miqyasda 180 milyard dollarlıq, Türkiyədə isə 900 milyon dollarlıq iqtisadi böyüklüyə malikdir.İdman turizmində iqtisadi

təsirlər ümumiyyətlə turizmin iqtisadi təsirləri ilə paraleldir.İdman turizminin müsbət iqtisadi təsirlərindən bəziləri; Turizm və qeyri-turizm sahələri üçün gəlir təmin etmək, cari açığı bağlamaq, məşğulluğu təmin etmək, regional və milli inkişafa töhfə vermək kimi sıralana bilər.Ətraflı olaraq onun ölkə turizminə verdiyi gəlir töhfəsi və cari hesab kəsirinin bağlanmasında payı önəmlidir, çünki idman turisti orta turistdən iki dəfə çox pul xərcləyir.İdman turizminin destinasiyalara iqtisadi töhfəsi ilə izah edilirsə. kiçik bir misal, 2019 UEFA Super Kubokunun final matçı İstanbulda keçirildi və cəmi 90 dəqiqə. Bir matç üçün İstanbul təxminən 100 milyon avro qazandı.1993-2006-cı illər arasında keçirilən Olimpiya Oyunlarının ümumi gəliri 32 milyard dollar civarındadır. 2012-ci il London Olimpiadasını izləmək üçün bölgəyə 420.000 turist gəlib və adambaşına təxminən 1300 funt-sterlinq xərclənib.

Mənfi təsirlər xüsusilə meqamiqyaslı idman təşkilatlarında özünü göstərir. Buna görə də, xüsusilə meqa idman tədbirlərinə investisiyalarda xərclər yaxşı hesablanmalıdır. Əks halda, ölkə qazancdan daha çox zərər edəcək, məsələn,Monreal (1972),Seul (1988),Atlanta (1996),Sidney (2000),Afina (2004) və Pekin (2008) Olimpiadalarının zərərləri iqtisadi qazancından qat-qat artıq olmuşdur. 2004-cü ildə Yunanıstanda keçirilən Afina Olimpiadası ölkəni daha sonra dərin iqtisadi depressiyaya sürükləyən bir yükə çevrildi.Olimpiya xərclərinin yaratdığı büdcə kəsiri 2004-cü ildə ölkənin ümumi məhsulunun 6,1 faizinə çatdı. Yunanıstanın xərclərini maliyyələşdirmək üçün dövlət borclanması da 2004-cü il üçün nəzərdə tutulan 35 milyard dolları ötərək 43 milyard dollara yüksəldi.Ölkənin dövlət borcu 2004-cü ildən eksponent surətdə artaraq 2010-cu ildə 469,8 milyard dollara çatıb (2013-cü ildə ÜDM-in 165%-i) (Kozak, 2013:24-25).

***Sosial-mədəni təsirlər:***Sevimli komandalarını dəstəkləmək üçün bir yerə səyahət edən turistlərin davranışını, təcrübəsini və motivasiyasını başa düşmək yerli idarəçilər üçün çox vacibdir.Azarkeşlərin davranışları idmanın keçirildiyi yerli insanlara əhəmiyyətli fayda gətirə bilər, həm də əhəmiyyətli zərər verə bilər ( İngilis xuliqanları nümunəsi).İdman turizmi tədbirlərinə ev sahibliyi edən ölkələr; Onlar öz obyektlərini, personalını, yaşayış yerlərini və alış-veriş sahələrini gələn insanların xidmətinə təqdim edir və buna görə də qarşılıqlı olaraq müəyyən səviyyələrdə mədəniyyət mübadiləsinə səbəb olurlar. İdman tədbirləri keçirildiyi şəhərin və ya ölkənin imicinin möhkəmlənməsinə və dəyişməsinə töhfə verir və ev sahibi şəhər və ya ölkədə yaşayan icmaya mənəvi ruh verir.Sosial dəyişiklik, icma ilə inteqrasiya və ölkə üçün sosial könüllülük hissi. idman tədbirlərinin digər sosial faydaları arasındadır (Metin Arqa.2014:159-160).

***Ətraf mühitə təsirlər:*** Məlumdur ki, təbiətlə bağlı formasiyalar həmişə turizmin gəlir gətirən məhsulları kimi istifadə olunur. Xüsusilə idman mövzulu turizm fəaliyyətlərində təbiətdən birbaşa istifadə sual altındadır. Bu səbəbdən idman turistlərinin idmanla əlaqəli fəaliyyətlərdə ətraf mühitə mənfi təsir göstərmə ehtimalının müsbət təsir ehtimalından daha yüksək olduğunu təxmin etmək olar. Ona görə də turistlərin, ev sahibliyi edən cəmiyyətlərin təbiətinə vurduğu zərərin minimuma endirilməsi vacibdir. İdman hadisələri və idman turizmi sektorunun ətraf mühitə mənfi təsirinin azaldılması və müsbətyönümlü işlərin görülməsi nəzərə alınmalı və yöndə addımlar atılmalıdır (Ören, 2018:17).

İdman turizminin ətraf mühitə təsirlərinə nəzər saldıqda daha çox (açıq sahə) açıq idman növlərinin təbii mühitlərə müsbət və mənfi təsirləri var.Açıq idman fəaliyyətlərinin inkişafı istifadəyə yararlılıq, səmərəlilik və təbii mühitlərin daha uyğun qurulması baxımından faydalı ola bilər. Bu mühitdə yaşayan canlıları da zərərdən qoruyur.Ətraf mühitə tullantıların atılmasıilə yanaşı yarışların keçirilməsi üçün meşəlik ərazilərdən yolların çəkilməsi,qurğuların quraşdırılması kimi hallar da baş verir ki buda təbii mühit amillərinə ziyan vuraraq vəhşi heyvanların təbbi yaşayış yerlərindən uzaqlaşmasına səbəb ola bilir ( Pamuçu 2017:17-22).

Səyahətlərinin əsas məqsədi olub-olmamasından asılı olmayaraq, getdikcə daha çox turist səyahətləri zamanı idman fəaliyyətlərinə maraq göstərir. Olimpiya Oyunları və Dünya Kuboku kimi böyük idman tədbirləri təyinat markası, infrastrukturun inkişafı və digər iqtisadi və sosial faydalar üçün uğurla istifadə olunarsa, turizmin inkişafı üçün katalizator ola bilər. Plunkett Araşdırma Qrupuna görə, qlobal idman sənayesinin təxmin edilən böyüklüyü 1,7 trilyon dollardır və 2016-cı ilin dünya turizm məlumatlarına nəzər saldıqda idman turizminin ölkələrə verdiyi gəlirin 800 milyon dollar civarında olduğu görülür.

Milli nöqteyi-nəzərdən ABŞ uzun müddətdir ki, Olimpiya Oyunları və ya FIFA Dünya Kuboku kimi böyük idman tədbirlərinə ev sahibliyi etməsə də, idman turizmində aparıcı ölkələrdən biridir.Ənənəvi olaraq təşkil edilən təşkilatlar (ABŞ Açıq Tennis Turniri, Beynəlxalq Boston Marafonu və s.) sayəsində

ölkə mühüm idman turizmi brendidir. Florida İdman Fondunun (2017) məlumatlarına görə, Amerika Birləşmiş Ştatlarının Florida ştatı 2017-ci ildə 16 milyon idman turistini qəbul edib.Bu rəqəm Florida turizminin 15%-ni təşkil edir (Yağcı, 2003.47-49).

Olimpiya Oyunları, Dünya Kuboku kimi irimiqyaslı idman oyunlarına ev sahibliyi etmək üçün hər il müxtəlif ölkələr yüksək xərclər çəkərək bir-biri ilə şiddətli rəqabətə girirlər. Bu investisiyaların dəyəri, məsələn, Yay Olimpiya Oyunları üçün orta hesabla 5,2 milyard dollar, Qış Olimpiya Oyunları üçün isə təxminən 3,1 milyard dollardır (Yeşil, 2015:33-34).

Son illərdə dünyada idman turizminin mərkəzi Asiya-Sakit Okean regionuna keçib.Bu regiona sponsorluq investisiyaları dünyanın hər hansı digər regionundan çoxdur və orta illik artım tempi 5,7% təşkil edir(8). Şübhəsiz ki, bu vəziyyətin səbəbləri arasında 2008-ci il Pekin Olimpiya Oyunları (Çin), 2015-ci il Kriket Dünya Kuboku (Avstraliya və Yeni Zelandiyanın birgə ev sahibliyi), 2018 Pxenyan Qış Olimpiya Oyunları (Şimali Koreya), 2018-ci il Qızıl Sahil Birlik Oyunları,2019 Reqbi Dünya Kuboku (Yaponiya), 2020 Tokio Olimpiya Oyunları (Yaponiya) və 2021 Amerika Kuboku (Yeni Zelandiya) kimi idman hadisələrini qeyd edə bilərik. Bunun digər səbəblərindən biri isə bu regionun turizminin bütün sahələrdə inkişafı üçün atılan addımlardır ki, bunun sayəsində son dönəmlər əsas turizm regionlarından birinə çevrilmişdir.Təsadüfi deyilki ən çox turist qəbul edən ölkələr siyahısında Çin ilk beşlikdə Tailand isə ilk onluqda yer almağı başarıb.Bəs,sponsorlardan,investorlardan və idman turistlərindən o bölgəyə gəlmək üçün gözlənilən gəlir bu qədər iqtisadi yükü daşımağa dəyərmi? Məlumatlar buna dəyər olduğunu göstərir.Asiya-Sakit Okean regionu ölkələri dünya turizm gəlirlərindən ən yüksək pay alan 14 ölkənin yarısını təşkil edir.

Görünür, idman fəaliyyətləri biznes və əlaqələr yaratdıqları turizm və media fəaliyyəti ilə ölkə iqtisadiyyatına böyük töhfə verir. 2014-cü il Soçi oyunlarından rekord qiymətə və yaxın keçmişə görə nümunə götürməyə davam etsək, Rusiyaya gələn turistlərin sayı oyunlar zamanı 30%, növbəti yay mövsümündə isə 22% artıb (9). Beynəlxalq idman yarışları və onkarın təsirləri barədə araşdırma aparan mütəxxəssislərin fikrincə Olimpiya və digər meqa oyunların xərcləri üç əsas kateqoriyaya bölür:

**Əməliyyat xərcləri:** Tədbirin özünün aparılması xərcləri. Ən böyük maddələr adətən işçi heyəti və İT avadanlığı üçün maaşlardır,lakin xərclərə nəqliyyat, müvəqqəti məkanın örtülməsi, nümayəndə heyətlərinin yerləşdirilməsi, mərasimlər və s. kimi şeylər də daxildir. Tədbirin fəaliyyətinə Olimpiya Oyunlarının təşkilat komitəsi cavabdehdir, lakin bütün xərclər təşkilat komitəsinin büdcəsində nəzərdə tutulmur.Məsələn,təhlükəsizlik xərcləri çox vaxt ayrıdır, bu, Soçi üçün də belə idi.

**İdmanla bağlı kapital məsrəfləri:** Beynəlxalq Olimpiya Komitəsinin tələb etdiyi hadisə ilə bağlı bütün binaların tikinti dəyəri,yəni,yerlər, Olimpiya kəndləri və media mərkəzləri,həm də dəstəkləyici infrastruktur (elektrik təchizatı, telekommunikasiya, yola çıxış, su və kanalizasiya və s.).

**İdmanla əlaqəli olmayan əsaslı xərclər:** İdmanla əlaqəli obyektlərin dərhal tikintisi və istismarı üçün tələb olunmayan bütün infrastrukturlar,məs.otellər,elektrik stansiyaları,yeni yollar və dəmir yolu əlaqələri,hava limanının genişləndirilməsi, yeni qatar stansiyaları və s.Bu bölgü birbaşa məsrəflər (yəni, əməliyyat və idmanla bağlı əsaslı xərclər) və dolayı məsrəflər (idmanla əlaqəli olmayan kapital dəyəri) arasında fərq qoymağa imkan verir.

Some scholars warn that the strategy can be a justification for liberal states to distance themselves from taking responsibility on themselves. The rhetoric of the EU foreign policy has before been to promote democratic values, economic and individual freedoms through universal conditions. Through these conditions for economic support and trade opportunities, the EU used its economic and diplomatic power to incentivize reforms in the neighboring countries. The overt correlation between democratic transformation and external aid has guided the EU`s actions in its foreign policy. It is alarmed that the EU may overlook reforms-resisting states by concentrating on resilience and stability (Wagner and Anholt, 2016:4-7).

Some researchers are questioning the occurrence of a paradigm shift and argue that the concept of resilience is just a renaming of strategy. Skeptics are convinced that due to the wide context of the

EUGS, the EU will probably not manage to achieve all of its goals and consequently the strategy will be deemed as an ordinary document (Smith, 2016). The ubiquitous use of the concept in the EUGS is explained by the fact that it is too vague and includes a great deal of situations. The term has intrinsically ambiguous meaning and implies several responsible actors (Juncos, 2017:7-9). The disadvantage of the concept of resilience is that its implications are not straightforward and the mechanisms and objects of resilience-building are also ambiguous. All this ambiguity can be detrimental for the EU itself, because its significance relies on the efficiency and consistency of its actions. Another argument is that vagueness about reliable EU potential and the great number of goals mentioned in the context of resilience is not practically relevant and the overall goal of resilience-building in the interest areas is too optimistic. Critics also mention that the EU does not point out how it is going to balance assistance to undemocratic regimes with its goal to spread democratic values and human rights that such governments dislike (Cavelty and others, 2015:3-14).

## Conclusion

We observe two approaches in the previous research. Some academics argue that increased focus on the concept of resilience points to a new approach in foreign policy while others claim that the change only consists of a new style of wording. In any case, one thing is clear that the unprecedented focus on the resilience-building by the EUGS is a phenomenon that was absent in the older strategies and it might possibly imply a change of foreign policy of the EU. However, the thing is that there is a lack of clarity as to which degree any practical shifts have been observed in the EU policy-making. I argue that additional empirical research is needed on this issue.

## References

1. Chandler, D. (2013). International Statebuilding and the Ideology of Resilience. Politics 33, 276-286
2. Cross, M.K.D. (2016). The EU Global Strategy and diplomacy. Contemporary Security Policy 13
3. Dunn Cavelty, M., Kaufmann, M., Soby Kristensen, K. (2015). Resilience and (in)security: Practices, subjects, temporalities. Security Dialogue 46.
4. EUGS, (2016). A Global Strategy for the European Union’s Foreign And Security Policy. EEAS, European Commission, Bruxelles.
5. Finkenbusch, P. (2017). The demise of the intervention paradigm—resilience thinking in the Merida Initiative. Conflict, Security & Development.
6. Jonathan Joseph & Ana E. Juncos, (2020). A promise not fulfilled: The (non) implementation of the resilience turn in EU peacebuilding, Contemporary Security Policy.
7. Juncos, A.E. (2017). Resilience as the new EU foreign policy paradigm: a pragmatist turn? European Security. 41:2.
8. Paris, R. (2014). The ‘Responsibility to Protect’ and the Structural Problems of Preventive Humanitarian Intervention. International Peacekeeping.
9. Smith, M.E. (2016). Implementing the Global Strategy where it matters most: the EU’s credibility deficit and the European neighbourhood. Contemporary Security Policy 16.
10. The White House, (2002). The National Security Strategy of the United States of America. The White House, Washington.
11. Wagner, W., Anholt, R. (2016). Resilience as the EU Global Strategy’s new leitmotif: pragmatic, problematic or promising? Contemporary Security Policy.

**Rəyçi: s.e.f.d. Vasif Huseynov**

Göndərilib: 12.04.2022 Qəbul edilib: 16. 05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/94-99

**Nazrin Namig Taghiyeva**
Istanbul Aydin University
master
ms.gulnar_babayeva@mail.ru

# INVESTIGATION OF THE DESIGN OF VERTICAL CIRCULATION ELEMENTS IN BUILDINGS WITHIN THE CONTEXT OF COVID-19 CONTAMINATION AND DETERMINATION OF NEW DESIGN PRINCIPLES

## Abstract

It is necessary to emphasize the preventive feature of the elevator design and manufacturing concept on the spread of infectious diseases. Because the size and volume of the elevator cabin must also have limits. It is obvious that the rate of people residing in high-rise buildings will use elevators. We have limited our work to certain buildings in order to find out to what extent people who have to use elevators during pandemic periods are under threat in terms of health.

For this reason, it is important that materials and equipment are placed in accordance with all safety rules in order to minimize the risk of contagion in the elevator cabin and to provide a healthy and safe environment. Here, the "AODS" project, which can minimize the risk of people catching the virus in elevator cabins during a pandemic, is a new design that can be applied to elevators in hospitals or residences. In the drawings prepared, the main elements that should be placed in certain areas in the elevator car are shown.

***Key words:*** *levators cabin, weather analysis, Covid-19, building, installation, project*

**Nəzrin Namiq qızı Tağıyeva**

## COVID-19 çirklənməsi şərtində binalarda qurğu elmentləri layihəsinin tədqiqi və yeni layihə prinsiplərinin müəyyənləşdirilməsi

## Xülasə

Yoluxucu xəstəliklərin yayılmasında liftin dizaynı və istehsal konsepsiyasının profilaktik xüsusiyyətini vurğulamaq lazımdır. Çünki lift kabinəsinin ölçüsü və həcminin də həddi olmalıdır. Aydındır ki, çoxmərtəbəli binalarda yaşayanların nisbəti liftlərdən istifadə edəcək. Pandemiya dövründə liftdən istifadə etməli olan insanların sağlamlıq baxımından nə dərəcədə təhlükə altında olduğunu öyrənmək üçün işimizi müəyyən binalarla məhdudlaşdırdıq.

Bu səbəbdən lift kabinəsində yoluxma riskini minimuma endirmək, sağlam və təhlükəsiz mühiti təmin etmək üçün material və avadanlıqların bütün təhlükəsizlik qaydalarına uyğun yerləşdirilməsi vacibdir. Burada pandemiya zamanı insanların lift kabinələrində virusa yoluxma riskini minimuma endirə bilən “AODS” layihəsi xəstəxana və ya yaşayış yerlərində liftlərə tətbiq oluna bilən yeni dizayndır. Hazırlanmış çertyojlarda lift vaqonunda müəyyən sahələrdə yerləşdirilməli olan əsas elementlər göstərilir.

***Açar sözlər:*** *lift kabinəsi, hava analizi, COVİD-19 bina, qurğu, layihə*

## Introduction

As time passes, technology develops and we know that more than 50% of the world's population, which is increasing with it, has started to live in cities (since 1980). Since the housing needs of the population concentrated in cities cannot be met in flats spread out horizontally, it is possible to meet in high-rise buildings and will continue in this way. In order to maintain the normal rhythm of life in high-rise buildings, it is inevitable that the vertical circulation problem of high-rise buildings will only be solved by the elevator system. Due to the structure of the elevators, it will require more people to be together in a narrow volume, even for a short time. The main problem with elevators in the age of coronaviruses is that they are almost all small enclosed spaces. These are ideal conditions for the spread of coronavirus, as it is transmitted through droplets produced when an infected person coughs, sneezes

or speaks. In addition, the ventilation in the elevators is insufficient. The lack of strong airflow means that COVID-19 carriers can leave some viral particles behind in the cabin (Arat,Ercan, və b. 2021:56). It is most likely to become infected after touching a surface or object with bacteria on it and then touching the mouth, nose or eyes. The lifetime of the virus on different surfaces depends on ambient temperature, humidity, surface type and other factors.

How can an elderly person go to higher floors in a 9-storey or higher-floor building with elevators used by the society, including public buildings? This should not be expected to have an impact. The necessity of a disinfection system without permanent contact for elevators is considered.

Bacteria are a large group of microorganisms. Bacteria are primitive on the one hand and advanced organisms on the other. Bacteria live in all environments of life, both in air, in water and in soil, degraded products, outside and inside living things (9).

Air is an environment that contains a large number of bacteria. Unlike soil and water where bacteria live, they settle only with the help of air.

Bacteriological analyzes of the air revealed the presence of bacteria in the atmospheric air and in the air of enclosed spaces, namely elevator cabins.

Especially when there is a crowd of people, indoor air has more bacteria. In indoor air, the number of microorganisms is higher in winter than in summer.

Bacteria can worsen the sanitary conditions of people's lives and harm health. The problem, therefore, is that the presence of a large number of bacteria in the air environment in elevators increases the risk of airborne diseases in humans.

## Indoor microflora

Indoor air microflora is more homogeneous and relatively stable compared to outdoor air. Among the microorganisms, the inhabitants of the human nasopharynx predominate, including pathogenic species that enter the air when coughing, sneezing or talking.

## Air analysis method

The sanitary condition of the air is assessed by the total microbial number (the number of all microorganisms present in 1 m3 of air) and the presence of sanitary indicator microorganisms (hemolytic streptococci and Staphylococcus aureus). Cultivation by the Koch method (sedimentation method), one of the main methods of determining the bacterial state of air, is based on the ability of microorganisms to settle on the surface of the nutrient medium together with dust particles and water droplets due to gravity and under the influence of air movement.

Sedimentation method for studying air (Koch's method). It is often used to determine the composition of the microflora in indoor areas. Petri dishes with media are placed in various places and opened for a certain period of time; It is then incubated and identifies the microorganism species. Most often, TMC is determined in air (plates with MPA are used; exposure time is 10-30 minutes), staphylococcal content [plates with yolk-salt agar (JSA) are used); exposure time 15 minutes), the streptococcal content is determined according to the symptoms of the epidemic (containers with CA are used; exposure time is 10-15 minutes) (Demirbaş, 2020:58).

$$X = \frac{n \times 10^4}{75 \text{ cm } 2 \times t}$$

In addition: 1. The microflora of the indoor air is homogeneous and stable. Self-cleaning of indoor air does not occur. 2. Bacteria are a group of unicellular microorganisms that are grouped according to the shape of the cells.

The main forms of bacterial cells are cocci. Among the bacteria are pathogenic species. 3. There are two methods of determining bacterial air pollution: sedimentation and aspiration method. In this study, results were obtained by using the sedimentation method.

Sedimentation method calculation:

X – is the total microbial number of the indoor air studied (SME – colony forming unit)

n - the number of colonies in a Petri dish (COB)

t – Petri dish exposure time (min)

Pr2 – Petri dish area (cm2) = 75 cm2

104 – 1 m2 area (in cm2) (Demirbaş, 2020:109).

For inoculation, the Petri dish is opened indoors for 5 - 30 minutes. The Petri dishes are then sealed, signed and placed in a thermostat for 48 hours for sowing.

First of all, the places to be researched were determined. Samples were taken from vertical circulation elements such as elevator cabin and entrance floor stairs.

The sedimentation method was used on the recommendation of laboratory doctors to determine the total bacterial contamination of the air.

Petri dishes were used for sampling. One day, in the morning, when people do not go out and on the contrary, at the time of going to school, air sampling was carried out before any cleaning process is carried out inside the building (Sarven, 2010:107).

Air sampling from elevator car and stairs:

EPA – Must be held at hand breathing altitude for 15 minutes (various bacteria)

MS – Should be held at hand breathing height for 30 minutes (agar, staphylococcus)

SABURO – Should be held at hand breathing height for 30 minutes (mildew)

cocci are pathogenic dormant bacteria. Staphylococci - Their cells are spread in a similar way to a bunch of grapes. Staphylococci are a genus of anaerobic spherical bacteria that cause pneumonia, endocarditis, a number of skin infections, osteomyelitis, meningitis, septic arthritis, toxic shock syndrome and other diseases. Bacteria constantly live on the skin of a healthy person, in the nasopharynx and oropharynx.

***Petri Kabı No:1***



The Petri dish containing the food medium was kept open in the hands for 15 minutes in the elevator cabin in the building, where the cleaning work was done meticulously during the day from the elevator and stairs in the newly built building. With the Petri dish open, microorganisms in the air of the ladder settled on it



| Petri dishes | Opened | Closed |
|---|---|---|
| 1 EPA | 05:00 | 05:15 |
| 2 MS | 05:00 | 05:30 |
| 3 SABURO (Sab) | 05:00 | 05:30 |
| Stairs: (new building) | Location: Azerbaijan, Baku, Zabrat, new building. | |

***Petri Dishes No:2***



The Petri dish containing the food medium was kept open in the hands for 30 minutes in the elevator cabin in the building, where the cleaning work was done meticulously during the day from the elevator and stairs in the newly built building. With the Petri dish open, microorganisms in the air of the room settled on it.

| Petri dishes | Opened | Closed |
|---|---|---|
| 1 EPA | 07:10 | 07:25 |
| 2 MS | 07:10 | 07:40 |
| 3 SABURO | 07:10 | 07:40 |
| Stairs: (new building) | Location: Azerbaijan, Baku, Zabrat, new building | |

***Petri dishes No:3***

In the basement of the old building, where the humidity level is high and the old elevators and stairs in the building were not cleaned during the day, the Petri dish containing the nutrient medium was kept open in the hands for 15, 30, 30 minutes in the elevator cabin of the building. With the Petri dish open, microorganisms in the air of the stairs settled on it (Onat, & Kabul, 2007:76). This building is one of the old buildings and just before reaching the entrance of the building, it was felt that there was an intolerable bad smell on the ground floor because of the high humidity level in the basement. Air samples were taken from this building at the time of going to school.

| Petri dishes | Opened | Closed |
|---|---|---|
| 1 EPA | 11:51 | 12:06 |
| 2 MS | 11:51 | 12:21 |
| 3 SABURO | 11:51 | 12:21 |
| | | |
| Stairs: (new building) | Location: Azerbaijan, Baku, Ahmedli, Babek prospect 93, 9-storey old house. | |

In the basement of the old building, where the humidity level is high and the old elevators and stairs in the building were not cleaned during the day, the Petri dish containing the nutrient medium was kept open in the hands for 15, 30, 30 minutes in the elevator cabin of the building. When the Petri dish was open, microorganisms in the air in the elevator cabin settled on it (Küçükçalık, 2014: 83). This building is one of the old buildings and just before reaching the entrance of the building, it was felt that there was an intolerable bad smell in the ground floor and elevators, so the inside of the elevator cabin was full of mosquitoes, because the humidity level was high in the basement. Air samples were taken from this building at the time of going to school (Atasoy, 2009:87).

| Petri dishes | Opened | Closed |
|---|---|---|
| 1 EPA | 11:53 | 12:08 |
| 2 MS | 11:53 | 12:23 |
| 3 SABURO | 11:53 | 12:23 |
| Stairs: (new building) | Location: Azerbaijan, Baku, Ahmedli, Babek prospect 93, 9-storey old house. | |

***Petri No:5***

The old elevator and stairs in the old 20-year-old building are not cleaned during the day, but only on their own floors are cleaned on demand by the residents. When the Petri dish was open, microorganisms in the air inside the elevator cabin settled on it. Air samples were taken from this building at the time of going to school and work.

| Petri dishes | Opened | Closed |
|---|---|---|
| 1 EPA | 11:14 | 11:29 |
| 2 MS | 11:14 | 11:45 |
| 3 SABURO | 11:14 | 11:45 |
| Stairs: (new building) | Location: Azerbaijan, Baku, Inqilab, Hasan Aliyev 33, 9-storey old building. | |

Elevator interior elements:

I. The lighting system works in two different regimes. After motion sensors detect that there is no passenger in the cabin, it works with the UV light system. The UV light system exposes the air to radiation and neutralizes all airborne microbes, including the Covid-19 virus.

II. As soon as the motion sensors detect that there are people in the cabin, no exposure to radiation, the disinfection system is blocked instantly and the elevator continues to operate normally. As soon as the elevator operates normally, the lighting normally illuminates the cabin interior without the UV light system.

A. When the UV radiation disinfection system, which is one of the two air purification regimes in the cabin, is deactivated, the filtering system is only sterilized by the air cleaning filter and the air in the cabin is partially sterilized. These air cleaning filters can work comfortably when there are passengers in the cabin because they do not pose a danger to human health like the ultraviolet system (Araz,Güngör, və b. 2014: 56).

B. The task of the motion sensor, located on the edge of the lighting system inside the area where the cabin doors meet, is to detect whether there is a passenger in the cabin when the air purification regime with ultraviolet is started. If there are passengers in the cabin, the disinfection process is immediately canceled and the elevator continues to operate normally thanks to filtering. If there are no passengers in the cabin, then the ultraviolet air cleaning system is activated.

C. It is the indicator inside the elevator cabin. Thanks to the display, it is possible to see the floor on which the person is during the cabin journey. Thanks to the indicator, you can see where the elevator is and which floor it is moving to, thanks to this system. Unlike the ones inside the normal elevator cabin, the indicator shows not only the floor number but also how clean the air inside the cabin is, with interest. In this way, the passenger gets fresh air in the cabin and feels safe and comfortable (Gungor, 2020:98).

E. The second is the motion sensor, which determines the number of kilos on the floor of the elevator car. If it detects that there is additional weight outside the weight standard specified in the system, it sends a signal to the other sensor that there is a passenger in the cabin. It is a motion sensor that can detect auxiliary weight as a backup if there is a possibility that there may be a problem with the sensor located on the lighting edge.

## Conclusıon

The study experimentally proved that:

1. The air in the elevator cabins and stairs in their buildings does not meet the recommended standards for hygienic air assessment; The air is cleaner before the morning hours go to school.

According to the results of the air pollution analysis, the air in the elevator cabin contains different types of bacteria. Determination of total bacterial air pollution; Based on the results of the study, it is impossible to unequivocally assess the presence of pathogenic bacteria in the air of the elevator cabin. However, due to the lack of air and the high humidity on the ground floor in the buildings, the presence of various types of bacteria and mold that can be harmful to human health is high in the air inside an elevator cabin (9).

As a result of the air samples taken, Staphylococcus was detected from the air sample taken into the No: 2 MS and No: 5 MS Petri dishes. The interesting thing about the results obtained is that Staphylococcus (completely present, but not exceeding the norm for human health) was detected in the new building, but the molds were very few. In the old buildings, on the contrary, it was determined that there was a large number of mold, not Staphylococcus. The result we have come up with from all this is that even if the building is new, no matter how meticulously cleaned, bacteria that are harmful to human health maintain their position and this is not good at all. Therefore, the necessity of applying the new "AODS" system that I have made in the elevator design is taken into consideration.

1)-UV light system, 2)-Circulation of the air cleaned with the ultraviolet method, 3)-Normal air filtration system, 4)-periodical cleaning of the cabin with chemical disinfectant, 5)-Activating the operation of the filters by means of the motion sensor (ultraviolet disinfection systems It has been concluded that the new design system working with these different methods should be applied in future elevator designs.

## References

1. Arat, A., Ercan, H. B., Doğan, A., Turan, S., & Kütük, H. (2021). Surface Disinfection of Elevator Car and Escalator Hand Belts; Ultraviolet Rays. Engineer & the Machinery Magazine, 62(703).
2. Demirbaş, Ü. How Do We Destroy Microbes with Ultraviolet Rays? (2020). Center for Free-Electron Laser Science, Deutsches Elektronen-Synchrotron DESY, Notkestraße 85, 22607 Hamburg, Germany: April 5.
3. Onat, A., & Kabul, E. (2007). Characteristics of Viruses and Evaluation of Air Conditioning System Parameters in the Pandemic Process.

4. Dogan, H. (2006). Hydraulic elevators and their design (Master's thesis, Sakarya University).
5. Sarven, C. (2010). Indoor Air Quality.
6. Araz, M. Güngör, A., Hepbaşlı, A., & Yaldırak, H. (2014). Design Principles of Elevator Air Conditioning Units. Engineer & the Machinery Magazine, (658).
7. Gungor, B. (2020). Evaluation of Measures Taken During the Covid-19 Pandemic in Turkey from the Perspective of Crisis Management. Journal of the International Academy of Social Sciences(4), 818-851.
8. Küçükçalık, M. M. (2014). Additional Safety Precautions to be Taken for Insufficient Well Bottom and/or Top Spaces While New Elevators Are Constructed in Existing Buildings, Elevator Symposium, İzmir.
9. Ministry of Health. (2020). General Directorate of Public Health. COVID-19 Sars-CoV-2 Infection, Infection Control and Isolation.
10. Demiröz, R., Saroğlu, S. and Yaprak, H. (2014). Design and Application of Belt Driven Elevator System, Elevator Symposium, İzmir.
11. Atasoy, A. (2009). Examination of Intelligent Building Technology in Terms of Structural Properties, Master Thesis, Dokuz Eylül University, Institute of Science and Technology, İzmir.
12. April 2020 : Covid-19 nozzles / disinfection / d-fection cabin - ftr machinery chemical metallurgy a.s.
13. Saos technology, (2019). Human Centric Motion and Presence Detection Sensors.

**Rəyçi: Prof. Dr. Zülküf Güneli**

Göndərilib: 12.04.2022 Qəbul edilib: 17.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/100-105

**Semral Bilal oğlu İbadov**
Bakı Dövlət Universiteti
magistrant
ibadovsemral02@yandex.com

# BEYNƏLXALQ HÜQUQDA VƏ DÖVLƏTDAXİLİ QANUNVERİCİLİKLƏ TƏCAVÜZ CİNAYƏTİNİN TÖVSİFİ PROBLEMİ

**Xülasə**

Məqalə təcavüzün cinayətinin mahiyyəti və məzmunu, habelə tərkib elementlərinə dair elmi-nəzəri müddəalar, beynəlxalq sənədlər və beynəlxalq məhkəmə təsisatlarının təsis sənədləri və presedent hüququ əsasında hazırlanmışdır. Bununla yanaşı, silahlı münaqişə çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzü və post-işğal dövründə vəziyyətin beynəlxalq hüquqi baxımdan qiymətləndirilməsi də həyata keçirilmişdir. Həmçinin, bununla bağlı qəbul olunan beynəlxalq sənədlərin və beynəlxalq təşkilatların qərarlarının təhlili və ümumiləşdirilməsi də aparılmışdır.

***Açar sözlər:*** *təcavüz, beynəlxalq təşkilatların sənədləri, Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Ermənistan-Azərbaycan silahlı münaqişəsi, Hərbi doktrina, beynəlxalq cinayətlər*

**Semral Bilal Ibadov**

## The problem of definition of aggression crime in international and domestic law

**Abstract**

The article is prepared on scientific and theoretical provisions on the nature and content of the crime of aggression, as well as its constituent elements, international documents and the founding documents and case law of international courts. At the same time, Armenia's aggression against Azerbaijan and the situation in the post-occupation period were assessed from the point of view of international law within the framework of the armed conflict. Also, the analysis and generalization of international documents and decisions of international organizations adopted in this regard were carried out.

***Key words:*** *aggression, documents of international organizations, United Nations, European Union, Council of Europe, Organization of Islamic Cooperation, Armenian-Azerbaijani armed conflict, Military doctrine, international crimes*

## Giriş

Qeyd edilən məsələlərin təhlili ilə əlaqədar, ilk növbədə, “təcavüz” cinayətinin beynəlxalq-hüquqi tövsifilə bağlı məsələlərə diqqət yetirmək lazımdır. Belə ki, BMT Baş Assambleyasının 1974-cü il tarixli “Təcavüzün tərifi haqqında” 3314 nömrəli Qətnaməsinin 1-ci maddəsinə uyğun olaraq, təcavüz dedikdə, bir dövlət tərəfindən digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı, yaxud BMT Nizamnaməsi ilə bir araya sığmayan istənilən digər şəkildə silahlı gücün istifadəsi başa düşülür. Bundan əlavə, Qətnamənin 3-cü maddəsinə uyğun olaraq, aşağıdakı aktlardan biri təcavüz hesab olunur:

a) Bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisinə soxulması və ya basqın etməsi, yaxud hər hansı hərbi işğal;
b) Bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisini bombardman etməsi və ya onun ərazisinə qarşı hər hansı silah tətbiq etməsi;
c) Bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin liman və ya sahillərini blokadaya alması;
d) Bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin quru, dəniz və ya hava qüvvələrinə, yaxud dəniz və hava donanmasına basqın etməsi;
e) Bir dövlətin, başqa bir dövlətin ərazisində onunla razılaşma əsasında yerləşən silahlı qüvvələrinin bu razılaşmanın şərtlərini pozmaqla istifadə edilməsi, habelə həmin silahlı

qüvvələrin bu razılaşmanın xitam olunmasından sonra göstərilən ərazidə qalmaqda hər hansı formada davam etməsi;

f) Dövlətin öz ərazisini, həmin ərazini üçüncü bir dövlətə qarşı təcavüz aktı törətmək üçün istifadə edən başqa bir dövlətin sərəncamına verməsi;

g) Bir dövlət tərəfindən və ya həmin dövlətin adından başqa bir dövlətə qarşı hərbi əməliyyatlar həyata keçirən silahlı bandaların, qrupların, qeyri-nizami qüvvələrin və ya muzdluların göndərilməsi.

Onu da qeyd etmək lazımdır ki, bir sıra hallarda təcavüzün əlamətləri ilə yanaşı, onun "düzünə" və "yanakı" istiqamətlər üzrə növlərə ayrılması da irəli sürülür. Düzünə təcavüzlə yanakı təcavüzün fərqi ondadır ki, əgər düzünə təcavüz zamanı silahlı qüvvə tətbiq edilməsinin subyekti kimi özünün nizami silahlı qüvvələri qismində dövlət çıxış edirsə, yanakı təcavüz zamanı dövlət silahlı bandalar, muzdlular və ya qeyri-nizami hərbi birləşmələrdən gizli yolla istifadə edir (İbayev, 2001:48-49). Lakin təcavüzün əlamətlərinin düzünə və ya yanakı növlərə ayrılması heç də onların təcrid olunmuş vəziyyətdə nəzərdən keçirilməsini şərtləndirmir. Çünki əksər hallarda, o cümlədən Ermənistanın Azərbaycana qarşı yol verdiyi təcavüz cinayətində düzünə və ya yanakı olmasından asılı olmayaraq, 1974-cü il Qətnaməsində nəzərdə tutulan bütün əlamətlərin özünü açıq-aşkar büruzə verməsi faktı dəfələrlə təkrarlanmışdır.

Müəyyən regional beynəlxalq sənədlərdə də "təcavüz" anlayışı öz əksini tapmışdır. Müharibəni qəti şəkildə pisləyən, habelə beynəlxalq münasibətlərdə BMT Nizamnaməsi ilə hər hansı şəkildə bir araya sığmayan təhdidə və ya gücün tətbiqinə əl atılmayacağı barədə öhdəliyi müəyyən edən 1947-ci il tarixli "Qarşılıqlı yardım haqqında" Amerikaarası Konvensiyanın 9-cu maddəsinə əsasən, "təcavüz" kimi xarakterizə olunan əməllərin siyahısı müəyyən olunmuşdur: dövlət tərəfindən digər dövlətin xalqına, quru ərazisinə, dəniz və ya hava qüvvələrinə əsassız silahlı hücum edilməsi; müqaviləyə, məhkəmə və ya arbitraj qərarına uyğun olaraq demarkasiya edilmiş sərhədləri keçməklə, dövlətin silahlı qüvvələri tərəfindən Amerikaya mənsub dövlətin ərazisinin zəbt edilməsi, yaxud sərhədlərin belə demarkasiyası mövcud olmadığı təqdirdə, digər dövlətin effektiv yurisdiksiyası altında olan regiona toxunan işğal (10).

Hər bir beynəlxalq cinayətdə olduğu kimi, təcavüz cinayəti də özünün tərkib elementlərinə malikdir. Həmin əməlin ictimai-təhlükəliliyi bir dövlətin başqa bir dövlətin ərazisini zəbt etməsi və təcavüzkar əməllərini davam etdirməsində, eləcə də dövlətlərin dinc yanaşı yaşamasına dair beynəlxalq hüququn prinsip və normalarına zərbə vurmasında ifadə olunur. Əməlin obyektini xalqlar və dövlətlər arasında sülh, dinc yanaşı yaşama, dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı, güc tətbiq etmək və ya güclə hədələmənin yolverilməzliyinə dair normalar təşkil edir. Təcavüzkar müharibəni aparma uzanan cinayətlər qrupuna aiddir. Cinayət ilk hərbi əməliyyatın həyata keçirildiyi andan başlayır və cinayəti törədən şəxsin iradəsi ilə, yaxud onun iradəsindən asılı olmadan müharibənin aparılmasını mümkünsüz edən hər hansı hadisənin baş verməsi ilə başa çatır. Cinayətin obyektiv cəhətini isə fəal hərəkətlərin (təcavüzkar müharibənin planlaşdırılması, hazırlanması, başlanması və aparılması) hər hansı birinin törədilməsi təşkil edir. Təcavüzkar müharibənin başlanması və aparılması isə bilavasitə "Təcavüzün tərifi haqqında" 1974-cü il Qətnaməsinin 3-cü maddəsində göstərilən əlamətlərin hər hansı birinin və ya hamısının baş verməsində təzahür edir. Təcavüzün subyektiv cəhətini birbaşa qəsd təşkil edir. Subyekt qismində isə müharibə aparmaq səlahiyyəti olan ali vəzifəli şəxslər çıxış edirlər.

Beynəlxalq hüquq normalarını bütövlükdə təhlil etdikdə, belə qənaətə gəlmək olar ki, güc tətbiq etmənin qadağan olunmasını xarakterizə edən elementlərin qiymətləndirilməsi kontekstində aşağıdakı əməllərin beynəlxalq sülhə və təhlükəsizliyə təhdid kimi nəzərdən keçirilməsinə əsas verir: təcavüzkar müharibə və onun təbliği; silahlı gücün digər formaları; güc tətbiq etmə ilə müşahidə olunan digər dövlətin ərazisinin hərbi işğalı və zəbt edilməsi; gücün tətbiqi və əlaqə təhdidlər (Kryuqer, 2012:138-140).

Məlum olduğu kimi, beynəlxalq cinayətlərin bir hissəsi olaraq təcavüz cinayətinin formalaşması üçün iki elementin mövcudluğu tam zəruri və əhəmiyyətlidir. Bunlar cinayətin törədilməsi üçün niyyət *(mens rea)*, habelə cinayətin faktiki tərkib elementlərini yaradan fəaliyyət və ya davranışın *(actus reus)* mövcudluğudur. Şübhəsiz ki, cinayətkar niyyət təcavüzün törədilməsi üçün əsas ideoloji və ya təbliğat vasitəsi qismində çıxış edir. Bunun bariz nümunəsini Uzaq Şərq üzrə Tokio Beynəlxalq Hərbi Tribunalının hökmünün publisist Haşimoto ilə bağlı müddəasında görmək mümkündür. Belə ki, Tribunal Haşimotonu Çin əleyhinə müharibənin təcavüzkar olduğu barədə onun tam şəkildə

məlumatlandırılmasına baxmayaraq, bu müharibənin uğurlu alınması üçün bütün cəhdləri həyata keçirməkdə təqsirli hesab etmişdir (12). Ermənistanın Azərbaycana qarşı təcavüzünə gəldikdə isə bu məsələ ilə bağlı cinayətkar niyyətə dair çoxsaylı nümunələr göstərmək olar. Belə ki, 1984-cü ildə Zori Balayanın Azərbaycan xalqının əleyhinə və erməni millətçiliyi ruhunda yazılmış və Yerevanda "Sovetakan qrox" nəşriyyatında 100 min tirajla çap olunaraq, SSRİ məkanında geniş yayılan "Oçaq" (Yurd) kitabı Ermənistanda Dağlıq Qarabağı ələ keçirmək üçün aparılan təbliğat işini daha da gücləndirdi. 1985-ci ilin dekabr ayında Yunanıstan Respublikasının Afina şəhərində keçirilən "Daşnaksütyun" partiyasının XXII qurultayında "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək haqqında qərar qəbul edilmişdir. 1986-cı ilin fevralında Xankəndində tarix və mədəniyyət abidələrinin qorunması pərdəsi altında, əslində real məqsədinin SSRİ və Azərbaycan SSR Konstitusiyaları ilə Azərbaycan SSR-nin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi olan "KRUNK" təşkilatı yaradılmışdır. 1987-ci ilin iyun-iyul aylarında Xankəndi küçələrində ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün təbliğat məqsədilə vərəqələr paylaması, ayrı-ayrı adamların Moskvaya yazdıqları məktublarda müxtəlif kollektivlərdən imza toplama kampaniyasının keçirilməsi, habelə həmin ilin II yarısında Yerevandan müntəzəm olaraq Xankəndinə gələn emissarların ermənilər arasında fəal iş apararaq xüsusi imzalar toplamaqla Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşmək ideyasını təbliğ etməsi cinayətkar niyyətin *(mens rea)* bariz nümunəsidir. Bundan başqa, həmin ilin oktyabrında Yerevandakı Puşkin adına parkda "Qarabağ" komitəsinin ilk mitinqinin keçirilməsi, noyabr ayının 18-də akademik A.Aqanbeqyanın Parisdə "L`Humanite" qəzetinə müsahibə verməsi, dekabrın 1-də Dağlıq Qarabağ ermənilərinin nümayəndələrinin muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış müraciətin Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinə təqdim olunması həmin niyyətin tərkib hissəsidir. Eyni zamanda, 1987-ci ildə S.Ayvazyanın tərtib etdiyi "Böyük Ermənistan" xəritəsi kiçik formatda Dağlıq Qarabağ Muxtar Vilayətində geniş yayılmağa başlamışdır ki, bu xəritənin sərhədləri 3 dənizin (Aralıq, Xəzər və Qara dənizinin) sahillərini əhatə edirdi. Bundan əlavə, 1988-ci ilin fevral ayının 12-də Dağlıq Qarabağ Muxtar Vilayətində gizli fəaliyyət göstərən millətçi "KRUNK"un təşkilatçılığı ilə ermənilərin Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndində ilk mitinqin keçirilməsi, fevralın 18-də Ermənistandan azərbaycanlıların qovulmasının artıq kütləvi hala çevrilməsi, fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyasının "Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsatət qaldırmaq barəsində" qərar qəbul olunması, fevralın 21-də Yerevanda qalmış son məscidin ermənilər tərəfindən dağıdılması və s. hərəkətlər Azərbaycan torpaqlarının təcavüzü üçün cinayətkar niyyətin ən bariz nümunələrinin bir hissəsidir (Əhmədov E, 2012:44-47). Məlum olduğu kimi, *BMT Baş Assambleyasının 1970-ci il tarixli "BMT Nizamnaməsinə uyğun olaraq, dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında" 2625 nömrəli Bəyannaməsində,* 1978-ci il tarixli 33/73 nömrəli "Sülhdə həyat naminə cəmiyyətlərin hazırlanması haqqında" Qətnaməsində, 1987-ci il tarixli 42/22 nömrəli "Beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya onun tətbiqindən imtina edilməsi prinsipinin səmərəliliyinin artırılması haqqında" Bəyannamənin 9-cu bəndində, habelə digər ayrı-ayrı beynəlxalq sənədlərdə BMT-nin məqsəd və prinsiplərinə uyğun olaraq, dövlətlərin təcavüzkar müharibənin təbliğindən çəkinmək öhdəliyi nəzərdə tutulmuşdur. Cinayətkar niyyətdən fərqli olaraq, *actus reus* beynəlxalq hüquq normalarında, xüsusilə "Təcavüzün tərifi haqqında" 1974-cü il Qətnaməsində nəzərdə tutulan əlamətlərin hamısının, bir neçəsinin və ya birinin törədilməsi ilə cinayət tərkibini yaradan konkret hərəkət və ya fəaliyyətdə özünü büruzə verir. Bunun bariz nümunəsi kimi Ermənistan tərəfindən Azərbaycanın vaxtilə Dağlıq Qarabağ regionu və ətraf rayonların, habelə yuxarıda adları qeyd edilən digər bir sıra yaşayış məntəqələrinin işğalını göstərmək olar.

Bütövlükdə, Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair *Avropa İttifaqının* normayaradıcılıq fəaliyyətini ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

– Təşkilat tərəfindən qəbul edilən sənədlərdə beynəlxalq hüququn *jus cogens* normalarına, o cümlədən mühüm prinsiplərinə (xüsusilə, güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək, dövlətlərin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, əsas insan hüquq və azadlıqlarına hörmət

edilməsi, beynəlxalq mübahisələrin dinc yolla həlli, beynəlxalq öhdəliklərin vicdanla icrası) birmənalı və qeyd-şərtsiz əməl olunmasına dair Ermənistan hökumətinə dəfələrlə çağırışlar edilmişdir. Bu çağırışlar isə öz-özlüyündə BMT Nizamnaməsinin 41-42-ci maddələrinin realizəsini zəruri hesab edən addım kimi qiymətləndirilməlidir;

– Dağlıq Qarabağ birmənalı şəkildə Azərbaycanın ərazisinin tərkib hissəsi kimi təsdiq olunmuşdur. Bu hal nəinki beynəlxalq sənədlərdə öz əksini tapmış, həm də *Avropa İttifaqının* və ona üzv-dövlətlərin siyasi iradəsinin xarici ifadə forması sayılmalıdır;

– Ermənistan tərəfindən işğalın həm Dağlıq Qarabağ, həm də ətraf rayonlara şamil edilməsi tendensiyasına önəm verilmişdir. Bu isə təkcə Dağlıq Qarabağ və ətraf 7 rayonun işğalı ilə məhdudlaşmır, həm də Naxçıvan Muxtar Respublikası, Tərtər və Qazax rayonlarının təcavüzə məruz qalan ərazilərinin nəzərə alınmasının vacibliyini şərtləndirir;

– Dağlıq Qarabağ və ətraf rayonlarda baş vermiş münaqişə faktı və bunun nəticəsində Azərbaycan torpaqlarının işğalı insan hüquqlarının əsas pozuntusu kimi qiymətləndirilmişdir;

–Baş verən işğal faktlarında təkcə Ermənistanın rəsmi və nizami silahlı qüvvələrinin deyil, həm də ermənilərdən ibarət banda və qeyri-nizami dəstələrin, habelə onlar tərəfindən cəlb edilmiş muzdlulardan ibarət qrupların iştirakı təsdiqlənmişdir. Bundan başqa, sonuncular üzərində Ermənistanın effektiv nəzarəti, onlara təsir vasitələrinə malik olması və maddi təminatının həyata keçirildiyi bu və ya digər formada vurğulanmışdır (Əliyev Ə, 2018:67-68).

Avropa Şurası da Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı bir sıra sənədlər qəbul etmişdir. Məsələn, Avropa Şurası Parlament Assambleyasının "Dağlıq Qarabağ münaqişəsinə dair" 1047 nömrəli (1994) Qətnaməsi, "Zaqafqaziyada münaqişələrə dair" 1119 nömrəli (1997) Qətnaməsi, "Dağlıq Qarabağ münaqişəsinə dair" 1251 nömrəli (1994) Tövsiyəsi, "Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair" 1263 nömrəli (1995) Tövsiyəsi, "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə haqqında" 1416 nömrəli (2005) Qətnaməsi, "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə haqqında" 1690 nömrəli (2005) Tövsiyəsi, "Azərbaycanın sərhəd rayonlarının sakinlərinin sudan qəsdən məhrum edilməsinə dair" 2085 nömrəli (2016) Qətnaməsi və s. Hətta "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə haqqında" 1416 nömrəli (2005) Qətnaməsində hərbi əməliyyatların və bundan əvvəl başlamış kütləvi etnik düşmənçiliyin qorxunc etnik təmizləmə anlayışını xatırladan genişmiqyaslı etnik qovulmaya və mono-etnik ərazilərin yaranmasına gətirib çıxarması ilə bağlı narahatlıq ifadə olunur. Daha sonra, Qətnamənin 1-ci bəndində qeyd edilir ki, Azərbaycan ərazisinin əhəmiyyətli hissələri hələ də erməni qüvvələri tərəfindən işğal altındadır və separatist qüvvələr hələ də Dağlıq Qarabağ bölgəsinə nəzarət edirlər. Eyni zamanda, Qətnamənin 3-cü bəndində Assambleya BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrini xatırladır və əlaqədar tərəflərin, xüsusilə silahlı əməliyyatlardan çəkinməklə və istənilən işğal olunmuş ərazilərdən silahlı qüvvələri çıxarmaqla, onlara riayət etməsini təkid edir. 2005-ci il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunmuş "**ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə haqqında" 1690 (2005) nömrəli Tövsiyədə də** xüsusilə hərbi əməliyyatlardan çəkinmə və Azərbaycanın bütün işğal olunmuş ərazilərindən hərbi qüvvələrin geri çəkilməsi də daxil olmaqla, əlaqədar tərəfləri BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 nömrəli qətnamələrinə əməl etməyə çağırış ifadə edilmişdir.

Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) Dövlət və Hökumət Başçılarının 2012-ci ilin mayında ABŞ-ın Çikaqo şəhərində keçirilmiş Zirvə Toplantısının Bəyannaməsinin 47-ci bəndində isə Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstək verilməsi, habelə regional münaqişələrin beynəlxalq hüququn prinsip və normaları, BMT Nizamnaməsi və Helsinki Yekun Aktı əsasında dinc yolla həllinə dair səylərin davam etdiriləcəyi nəzərdə tutulmuşdur [9].

Bundan əlavə, ABŞ Dövlət Departamentinin Azərbaycan üçün insan hüquqları praktikasına dair 2006-cı il hesabatında Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ ərazisinin və bitişik yeddi rayonun işğalını davam etdirməsi (11), habelə həmin il üzrə "Freedom House" təşkilatının hesabatında Azərbaycan hökumətinin özünü Dağlıq Qarabağ Respublikası elan edən ərazi və Ermənistan tərəfindən işğal olunmuş ətraf yeddi rayon üzərində heç bir inzibati nəzarətə malik olmadığı aydın şəkildə qeyd olunmuşdur (7).

Beləliklə, Ermənistanın Azərbaycana qarşı təcavüzü faktının mövcudluğu beynəlxalq hüququn *jus cogens* normalarını pozmaqla yanaşı, onun mühüm rəhbər başlanğıcı – güc tətbiq etməmək və güc tətbiq etməklə hədələməmək prinsipinin səmərəliliyini də zərbə altına qoyur. Məhz BMT Baş Assambleyasının "Beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya onun tətbiqindən imtina edilməsi prinsipinin səmərəliliyinin artırılması haqqında" 1987-ci il tarixli 42/22 nömrəli Bəyannaməsinə istinad etsək, bu halda Ermənistan beynəlxalq hüququn prinsiplərini pozan və güc tətbiq etməni təşviq edən, insan hüquqlarını pozan, daha sonra isə, gərginliyin qarşısının alınması və azaldılmasına yönəlmiş etimadın möhkəmləndirilməsi tədbirlərini görməkdə maraqlı olmayan dövlətdir. Bunu sübut edən digər hal işğal olunmuş Azərbaycan torpaqlarının Ermənistan təcavüzündə qalmasının davam etməsindədir, daha dəqiq ifadə etsək, Ermənistanın bu vəziyyəti davam etdirməsindədir. Yəni, təcavüzün baş verməsi və bu cinayət faktının mövcud olduğu vəziyyətin davam etməsi Ermənistanın məsuliyyətini bir daha müəyyən edən faktorlardır. Tədqiqatlarda da haqlı olaraq qeyd edildiyi kimi, gücdən istifadə uyğun nəzarət və ya insan hüquqlarına hörmətin təmin edilməsi üsulu sayıla bilməz (Merejko, 2014:54). Qeyd edilənləri nəzərə alaraq, təcavüzkar dövlət (Ermənistan) tərəfindən güc tətbiq etməklə ərazilərin (Azərbaycan ərazilərinin) işğalı, danışıqlar prosesinin süni şəkildə uzadılaraq işğal vəziyyətinin davamı, daha sonra işğala məruz qalmış dövləti (Azərbaycanı) güzəştlər getməyə məcbur etmə beynəlxalq hüququn kobud və ciddi şəkildə pozulmasıdır (Əliyev, 2018:71).

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla törətdikləri növbəti hərbi təxribat nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olduğu, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlamışdır.

Azərbaycan Respublikasının Hərbi doktrinasına əsasən, Ermənistan Respublikasının Azərbaycan Respublikası ərazisinin bir hissəsini işğal altında saxlaması və problemin siyasi yolla tənzimlənməsi çərçivəsində işğal etdiyi əraziləri azad etməkdən imtina etməsi səbəbindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla bütün lazımi vasitələrdən istifadə etmək hüququnu Azərbaycan Respublikası özündə saxlayır. Azərbaycan Respublikası xalqın və ölkənin milli maraqlarını təmin etməyə qadir müstəqil, demokratik, hüquqi, dünyəvi, unitar dövlət olaraq, öz inkişafı naminə milli təhlükəsizlik siyasətini müəyyən edir və həyata keçirir.

Belə ki, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarını ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulmuşdur.

Ümumilikdə Ermənistanın hərbi təcavüzü istiqamətində son hərəkətləri nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olmuş, 454 mülki vətəndaş yaralanmış, ümumilikdə 12292 yaşayış və qeyri yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə ziyan dəymiş, 1018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilmişdir (8).

## Ədəbiyyat


1. Əhmədov, E. (2012), Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı:"Letterpress"
2. Əliyev, Ə. (2018), Azərbaycan beynəlxalq cinayətlərin hədəfində: hüquqi təhlil. Bakı:"Nurlar"
3. İbayev, V. (2001) Beynəlxalq humanitar hüquq. Dərslik. Bakı:"Hüquq ədəbiyyatı"
4. Kryuqer, Kh. (2012), Nagorno-Karabakhski konflikt. Pravovoy analiz. Perevod s nemecskoqo izdaniya. Otv. red. perevoda A.Aliyev, T.Quseynov. Baku: Izdatelstvo «Baku Universiteti»
5. Merejko, A. (2014), Problema Naqornoqo Karabaxa i mejdunarodnoe pravo. Kiev: Izdatelskiy dom Dimitry Buraqo

6. www.au.int/sites/default/files/documents/32066-doc-african_union_non_aggression_and_common_defence_pact_eng.pdf
7. www.freedomhouse.org/report/nations-transit/2006/azerbaijan
8. https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi
9. www.nato.int/cps/en/natolive/official_texts_87593.htm
10. www.oas.org/juridico/english/treaties/b-29.html
11. www.state.gov/j/drl/rls/hrrpt/2006/78801.htm
12. Makili-Aliyev, K. (2013), Nagorno-Karabakh conflict in international legal documents and international law. Baku.

**Rəyçi: h.ü.f.d. Əlizadə Məmmədov**

Göndərilib: 11.04.2022 Qəbul edilib: 16. 05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/106-110

**Nurbəy Vahid oğlu Fərzəliyev**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının
magistr
Nurbey-f@mail.ru

# QAFQAZ ALBANIYASI DİNİ TİKİLİLƏRİNiN BƏDİİ-ORNAMENTAL TƏRTİBATININ SPESİFİK ÖZƏLLİKLƏRİ

**Xülasə**

Bu məqalədə Azərbaycan – Qafqaz Albaniyası ərazisində bizim eranın III-VII əsrlərində inşa edilmiş dini tikililərin bədii-ornamental tərtibatının spesifik xüsusiyyətləri nəzərdən keçirilir və analiz olunur. Məqalədən məlum olur ki, əhəngdaşının çatışmamazlığı səbəbindən Albaniyanın bir çox bölgələrində divarların konstruksiyasında fərqli materiallardan – müxtəlif növ daşlardan və kərpicdən eyni zamanda istifadə edilmişdir. Emala yüngül məruz qalan daşın çatışmamazlığı səbəbindən Albaniya ərazisində daş üzərində ornament həmçinin zəngin inkişaf etməmişdir. Bu səbəbdən Alban kilsələrində konstruktiv formalar fərqli texniki hörmə ilə birgə bədii tərtibatın aparıcı vasitəsi rolunda çıxış etmişdir.

***Açar sözlər**: Alban, memarlıq, kilsə, məbəd, bədii, ornament, konstruksiya, daş, kərpic, freska*

**Nurbay Vahid Farzaliyev**

## Specific features of the artistic and ornamental design of religious buildings in Caucasian Albania

**Abstract**

In this article, the specific features of the artistic and ornamental design of religious buildings built in the territory of Azerbaijan-Caucasian Albania in the III-VII centuries AD were considered and analyzed. It is obvious from the article that because of the lack of limestone in many parts of Albania, different materials were used in the construction of the walls - different types of stones and bricks as well. Due to the lack of lightly processed stone, the ornament on the stone is also not richly developed in the territory of Albania. For this reason, in Albanian churches the constructive forms with different technical braids acted as the main means of artistic design.

***Key words**: albanian, architecture, church, temple, artistic, ornament, construction, stone, brick, fresco*

## Giriş

IV-VII əsrlərdə Qafqaz Albaniyasının ərazisi Böyük Qafqaz dağlarından başlayaraq Mil və Muğan düzləri də daxil olmaqla Kür və Araz çaylarının aşağı axınına qədər uzanırdı. Nəzərdən keçirilən əsrlərdə Albaniya dövlətinin tərkibinə Paytakaran, Uti və Arsax əyalətləri, Lpina, Qardman, Çora, Şakaşen və s. vilayətlər daxil idi. Erkən orta əsr qaynaqlarına görə artıq IV əsrdə Qafqaz Albaniyası ərazisində çar və knyazlar tərəfindən idarə edilən erkən feodal dövləti mövcud idi. Albaniya dövlətinin ictimai-iqtisadi və siyasi həyatında baş vermiş mühüm dəyişikliklər dini ideologiya sahəsində də islahat həyata keçirilməsinə səbəb olur. Belə ki, IV əsrin başlanğıcında – 313-cü ildə xristianlıq bir dövlət dini kimi qəbul edilir və çar Urnayr başda olmaqla əhali ərazisində təbliğ edilir və məcburi surətdə yayılır. Yeni dini ilk növbədə cəmiyyətin yuxarı təbəqələrinin nümayəndələri qəbul edir. Xalq kütlələri arasında isə xristianlığın yayılması tədricən baş vermiş və hər bölgədə fərqli sürətlə getmişdir. Faktlar onu deməyə əsas verir ki, Qafqaz Albaniyasının bəzi vilayətlərində ərəb işğalına qədər müxtəlif səma cisimlərinə və oda sitayiş öz aparıcı mövqeyini qoruyub saxlamış, ölkənin qərbində, Dərbənd və Abşeron bölgələrində isə İran Sasaniləri tərəfindən dəstəklənən atəşpərəstlik geniş yayılmışdır. Alban çarları müxtəlif ibtidai və qədim təriqətlərə qarşı daim mübarizə apararaq bu dinlərin məbədlərini dağıtmaq və ya kilsə şəklinə salmaq, onlarda xidmət göstərənləri xristianlığa yönəltmək yolu ilə yeni dini əhali ərazisində geniş təbliğ etməyə və yaymağa çalışmışlar.

**Məzmun.** Dövrümüzə kimi gəlib çıxmış memarlıq abidələri və onların qalıqları onu deməyə əsas verir ki, Qafqaz Albaniyasının şimal bölgələrində çoxlu sayda dini tikililər – kilsələr inşa edilmişdir. Bu

dini memarlıq abidələrinin çox az hissəsi baş vermiş çoxsaylı müharibələrdən, zamanın və təbiətin dağıdıcı təsirindən keçərək zəmanəmizə kimi gəlib çıxa bilmişdir.

IV-V əsrlərdə inşa edilmiş erkən xristian Alban kilsələrinin tədqiqi göstərir ki, onlar təkcə tikinti sənəti ənənələri baxımından deyil, eyni zamanda memarlıq-planlaşdırma baxımından antik dövr memarlıq ənənələri ilə bağlıdır. Ehtimal etmək olar ki, Albaniya ərazisində ilk xristian kilsələrinin inşa edilməsi hələ eramızın ilk əsrlərindən başlayaraq həyata keçirilmişdir.

Bəlli olduğu kimi, ilk xristian məbədləri öncə evlərdə və katakombalarda qurulmuş, eyni zamanda bütpərəst məbədlərinin xristian kilsələrinə uyğunlaşdırılması prosesi həyata keçirilmişdir. Yalnız sonradan ilk kilsələr tikilməyə başlanır.

Kult əsərləri və Memorial memarlıq, erkən və inkişaf etmiş orta əsrlər dövründə Qafqaz Albaniyasının incəsənəti həmişə xristian, zərdüşti, mitraiz və islam dinlərinin elementlərinin bir-birinə qarışmasını daşımışdır. Bu onunla izah olunur ki, IV əsrin əvvəllərində də demək olar ki, bütün xalqlar tərəfindən xristian dinini qəbul etmiş qonşu Gürcüstan və Ermənistandan fərqli olaraq, Qafqaz Albaniyası xalqları onu qismən qəbul etmişlər, lakin kral, demək olar ki, hamısı şahzadələr və tabeliyində olan insanlar xristianlığı qəbul etdilər. Xalqın başqa bir hissəsi zərdüştilik, mitraizm və bir sıra başqa yerli kultlara etiqad etməyə davam edirdi. Bu dövrdə, 8-9-cu əsrlərə qədər ölkənin memarlığı bir-birinə təsir edərək həm xristian, həm də bütpərəst elementləri və kult simvollarını ehtiva edirdi (Axundov, 1986:202).

Bütpərəst məbədin xristian kilsəsinə uyğunlaşdırma prosesi Mingəçevir məbədlərində daha yaxşı izlənir. Birinci, daha qədim (III əsr) məbədin xarakterik və səciyyəvi özəlliyi onun şərq hissəsində mehrabın olmamasıdır. Bundan başqa arxeoloji araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, giriş hissə vaxtilə məhz şərq divarda yerləşirdi. Bu fakt onu deməyə əsas verir ki, bu xristian kilsəsi öncə əvvəlki inanclarla bağlı olan məbəd olmuşdur. Ümumiyyətlə, Mingəçevir kilsələri bütpərəst zal məbədləri əsasında bir neftli xristian bazilikalarının formalaşma prosesini və bu memarlıq tipində bir neçə əsrlər boyu baş vermiş təkamülü izləmək və tədqiq etmək imkanı verir.

Xristianlığın erkən mərhələsində kiçik ölçülü tağbənd-zal tipli kilsələr tikilirdi Bu baxımdan Oğuz rayonunda yerləşən, V əsrdə inşa edilmiş Calut kilsəsi böyük diqqət doğurur. Şəki, Qax rayonlarında və Qarabağda həmçinin kiçik tağbəndli zal məbədlərinin xarabalıqları aşkarlanıb.

Alban dini tikililər özlərinin memarlıq-konstruktiv quruluşu ilə yanaşı həmçinin öz bədii-ornamental tərtibatları ilə də diqqət doğururlar. Dini tikililərin memarlığında dekorativ bəzəklər olduqca orijinaldır ( Məmmədov, 2004 : 64 ).

Dövrümüzə kimi gəlib çıxmış müxtəlif dekor-ornament fraqmentləri Qafqaz Albaniyası ərazisində daş üzərində oyma sənətinin yüksək inkişaf etdiyini təsdiqləyir.

İlk orta əsrlərə aid edilən daş bəzəklərindən danışarkən 1948-ci ildə Mingəçevirdə aparılan qazıntı işləri zamanı bir dini məbədin qalıqları arasında əldə edilmiş, elm aləmində alban kapiteli adını almış abidəni xüsusi qeyd etməliyik. Arxeoloqlarımız tərəfindən V-VI əsrlərə aid edilən bu abidə bizim üçün xüsusilə maraqlıdır, çünki onun üzərində olan ornamental kompozisiyaya sonralar el sənətimizin bir çox növlərində rast gəlirik. Qabartma səpgisində yonulmuş bu abidənin yan üz tərəfində dik uzanan bir bitki ətrafında simmetrik səpkidə qurulmuş iki tovuz quşu fiquru təsvir olunmuşdur. Tovuz quşlarının hər ikisinin boyunlarından elə bil havada yellənən uzun baftalar asılmışdır. Bu detala xüsusi fikir vermək lazımdır, çünki alimlərin fikrincə, ilk orta əsrlərdə bu baftalar simvolik məna kəsb edərək, onu daşıyan quş və heyvanın müqəddəs olduğunu bildirirdi (Əfəndi, 2001 :39-40).

Daş üzərində oymalara əsasən profilləmə şəklində təsadüf olunur. Belə ki, karnizlər, pəncərələrin kənarları, karnizlərin impostu profillərlə dekorasiya olunurdu. Daş dekorun sadəliyi və azlığı erkən orta əsrlərdə Qafqaz Albaniyası ərazisində inşa edilmiş xristian dini tikililərinin həmin dövrdə qonşu ölkələrdə inşa edilmiş memarlıq abidələrindən fərqləndirən əsas özəlliklərdən biridir.

Alban memarlığında e.ə. III əsrdən başlayaraq kirəmitdən istifadə edilmişdir. Kirəmit istehsalı yunan mədəniyyətinin təsiri altında meydana gəlmişdir. Alban sənətkarları rəngarəng naxışlarla bəzədilmiş zərif gil və metal qablar istehsal etmişlər. Quş və heyvan fiüqurları formasında düzəldilmiş gil qablar gözəl sənət nümunələridir (Nuriyeva , 2015 :35).

Dağ relyefi daş resurslarını karxanadan çatdırılması prosesini çətinləşdirməsi səbəbindən Alban memarları və ustaları tikintidə və dekorativ tərtibatda əsasən inşaat işləri aparılan ərazi yaxınlığında olan

daşlardan istifadə etməyə vadar edirdi. Bir çox yerdə bu məqsədlə əsasən bərk süxurlu kötür və çay daşından istifadə olunmuşdu. Bunun nəticəsi olaraq daş üzərində oyma sənəti geniş yayılmamış və inkişaf etməmişdir.

Qafqaz Albaniyasının şimal-qərb əraziləri yüksək keyfiyyətli tikinti daşından məhrum idi və ya bu daşa lazımi qədər malik deyildi. Bu bölgələrdə memarlıq abidələrinin inşasında başlıca tikinti materialı qismində çay daşı və səhra daşı çıxış etmişdi. Bu daşların dekorativ tərtibata çətin məruz qalması səbəbindən inşa olunmuş tikililərdə onların sifarişçilərinin nə adlarını, kilsələrin epiqrafikasında isə onların inşaat tarixini göstərmək mümkün olmamışdır. Bunu erkən orta əsrlər dövründə Albaniya ərazisində inşa edilmiş kilsələrin tikinti tarixindən məhrum olmasının əsas səbəblərində biri kimi nəzərdən keçirmək olar. Lakin vurğulamaq lazımdır ki, əhəngdaşından üzlük çəkilmiş memarlıq abidələrində də zəngin dekorativ tərtibata və epiqrafikaya təsadüf olunmur. Bu hal digər səbəblərində mövcud olmasına işarə edir. Belə ki, Alban ruhaniləri təkcə bütpərəstlik, həmçinin zərdüştlüklə deyil, eyni zamanda qriqorian kilsəsinin assimilyasiya siyasətinə qarşı aramsız mübarizə aparmışdı. Bu aramsız mübarizə o dövrün dini memarlıq abidələrində öz əksini tapmaya bilməzdi. Bu səbəbdən xristianlığın yayıldığı erkən mərhələdə digər xristian ölkələrin dini memarlığına xas və səciyyəvi olan asketizm və sadəlik Albaniya ərazisində bütün erkən orta əsrlər boyu qorunub saxlanılmışdır. Yalnız VII əsrdə, memarlıqda konstruktiv və kompozisiya məsələləri həll edildikdən sonra dini memarlıq üçün əlverişli şərait yaranır və bu tikililərin tərtibatında dekorativ elementlərə və daş üzərində oyma işlərinə geniş yer ayrılmağa başlanır.

Erkən orta əsrlərdə Alban məbədlərinin bədii ifadəliyinin vurğulanmasında proporsiyalar, memarlıq formaları, tikilinin ayrı-ayrı hissələrinin vurğulanması, həmçinin divarların hörgüsü və konstruktiv quruluşu mühüm rol oynamışdı.

Faktlar onu deməyə əsas verir ki, Alban dini memarlıq abidələrinin bədii-ornamental həllinin özünə məxsus üsullarından biri də müxtəlif işlənmə keyfiyyətinə və rəngə malik materialların – hamar və ya kobud yonulmuş əhəng və ya qum daşlarının kərpic və ya çaydaşı ilə birgə işlədilməsidir. Hesab edilir ki, bizim eranın erkən əsrlərində Qafqaz Albaniyası ərazisində memarlıqda kombinasiya olunmuş hörmə üsulunun geniş yayılmasına əsas səbəb bu ölkənin bir çox bölgələrində əsas tikinti materiallarından biri olan daşa az təsadüf olunması olmuşdur.

Dövrümüzə kimi gəlib çıxmış dini tikililərin və onların qalıqlarına istinad edərək onu deyə bilərik ki, Qafqaz Albaniyasının daha mühüm və dəyərli abidələrinin inşasında eyni zamanda müxtəlif növ daşlardan və kərpicdən eyni zamanda istifadə edilmişdir. Belə ki, Kilsədağ məbədinin inşasında əhəngdaşı və kərpicdən, Ləkit, Mamrux Yeddikilsə bazilikasında çaydaşı, əhəngdaşı və kərpicdən, müqəddəs Yelisey, Təzəkənd, Qum kilsələrinin bazilikaları kərpic və çaydaşından istifadə olunmuşdur. Bu fakt onu deməyə əsas verir ki, digər Qafqaz dövlətlərinin memarlığından fərqli olaraq IV-VII əsrlər Albaniya memarlığı ən müxtəlif tikinti materialından geniş istifadə ilə xarakterizə olunur. Əhəng və çaydaşı ilə yanaşı bişmiş kərpic aparıcı və başlıca tikinti materialları idi.

Çaydaşı və kötürdaşdan divar hörgüsündə, əhəngdaşından – üzlükdə, qapı və pəncərələrin açırımlarını çərçivəyə alınmasında və dekorativlik baxımından məsul sahələrdə - taxtabəndlərin, dayaqların, tağların və s. hörgüsündə kərpicdən istifadə olunurdu. Bir çox halda məhz kobud işlənmiş cod daşlardan istifadə edilirdi. Əyrivəng, Calut və Mohrəniş məbədlərinin divarları, həmçinin Xudavəng bazilikası belə materialdan hörülüb. Onlardan fərqli olaraq Qum bazilikasındakı daşlar yaxşı yonulub və dəqiq ölçüyə malikdir.

Əhəngdaşı yataqları yerləşən ərazilərdə hörgü çaydaşı ilə aparılırdı. Üz tərəfdən belə divarlar yaxşı yonulmuş əhəngdaşı plitələrlə üzlənirdi. Buna misal olaraq Ləkit, Mamrux, Yeddikilsə monastır komplekslərinin məbədlərini göstərmək olar. Nadir hallarda əhəngdaşından əsas tikinti materialı kimi də istifadə olunurdu.

Kombinasiya olunmuş hörmənin tədqiq olunmasında dairəvi Ləkit kilsəsi böyük əhəmiyyət və dəyər kəsb edir. Bu memarlıq abidəsi öz gözəl və orijinal bədii obrazı ilə diqqət doğurur. Belə ki, bu kilsəsinin divarları çay daşından hörülmüş, qapı aşırımları açıq rəngli əhəngdaşından yonulmuş plitələrlə üzlənmiş, interyerin həllində həmçinin qırmızı kərpicdən istifadə edilmişdir. Bu cür kombinasiya olunmuş həll Ləkit kilsəsinə xüsusi və orijinal bədii-ornamental gözəllik verir.

Erkən orta əsrlərdə Albaniya ərazisində inşa edilən dini tikililərdə - 3 nefli bazilikalarda və mərkəzi günbəzli məbədlərdə dayaqlardan geniş istifadə edilirdi. Tikililərin əksərində sütunlar düzbucaqlı formaya və ya mürəkkəb kəsimə malikdir. Bayırı üzlükdən və daxili doldurmadan ibarət olan dayaqların konstruksiyası çox vaxt divarların konstruksiyasına uyğundur.

Təəssüflə vurğulamaq lazımdır ki, dövrümüzə kimi IV-VII ə.ə. ucaldılmış heç bir günbəz dövrümüzə kimi salamat şəkildə gəlib çıxmayıb. Kilsələrin içərisindəki qalıqlar, aşkarlanmış materialların təhlili göstərir ki, Alban ustaları kvadrat, səkkiz vəchli, dairəvi əsas üzərində, divarlara və dayaqlara dirənən günbəzlər ucaltmağı bacarırdılar. Kilsədağ dairəvi əsaslı günbəzə, Mohrənizə kilsəsi isə səkkiz vəchli əsaslı günbəzlə təchiz olunub. Erkən orta əsr Alban kilsələrinin günbəzlərinin diametri çox böyük deyil. Belə ki, maksimal ölçülərə Kilsədağ (diametri – 6,4 m) və Ləkit (diametri – 7 m) məbədlərinin günbəzlərində nail olunub. Dördbucaqlı plana malik kilsələrdə diametrləri 2-3 m çatan minimal ölçülü günbəzlərə rast gəlinir. Bünövrənin kvadratından dairəvi boyuna keçid üçün həm sferik, həm də tromp şəkilli yelkənlərə müraciət edilmişdi.

İlkin abidələrdə hörük tipli həndəsi ornamentə rast gəlinmir. Xristian memarlığında bu ornamentdən istifadə yalnız VI əsrin son rübündən sonra başlayır. Və 7-ci əsrin əvvəllərindən. Zaqafqaziyada ən məşhurlardan birinə çevrilir və inkişaf etmiş orta əsrlər dövründə mövcud olmaqda davam edir. Belə ornamentə bir sıra müsəlman abidələrində də rast gəlinir. Ümumiyyətlə, xristian kilsələrinin memarlıq bəzəyində xristianlığa qədərki dini simvollardan istifadə adi haldır (Göyüşov, 1984:37).

Qafqaz Albaniyasının tarixi ilə bağlı abidələr xüsusi önəm kəsb edir. Çünki Qafqaz Albaniyasının tarixi, mədəni irsi illərdən bəri Azərbaycan torpaqlarına göz dikən bədnam qonşularımızın əsassız iddialarına ən tutarlı cavabdır. Alban abidələri Qafqaz Albaniyasının paytaxtı olmuş qədim Qəbələ ilə yanaşı, ətraf bölgələrdə - Qax, Şəki, Zaqatala və digər rayonlarda da geniş yayılma arealına malikdir.(7)

Albaniya monumental memarlığında tağbənd örtmələrdən istifadə olunmuşdu. Nəzərdən keçirdiyimiz dövr tağbəndlərinin tədqiqi üçün faktiki material qismində tam və ya qismən qorunub saxlanılmış, tarixi dəqiq müəyyən edilmiş dini memarlıq abidələri (Qum, , Mamrux, Yeddi kilsə və s.) çıxış edir. Erkən orta əsr Alban tağbəndləri çaydaşından, əhəngdaşından və kərpicdən inşa olunurdu. Belə ki, Laçın bazilikası, Yeddikilsə, Qazançı və s. məbədlərdə tağbəndlərin daxili səthi üfüqi sıralarla hamar yonulmuş əhəngdaşı plitələrlə üzlənmişdi. Gədəbəy və Mamrux məbədlərində, həmçinin Qum bazilikasında bu məqsədlə kiçik ölçülü çaydaşından istifadə edilmişdi. Calut və Mamrux məbədlərinin xarabalıqları arasından kərpic tağbənd örtmələrin qalıqları aşkarlanıb.

Forma baxımından daha çox sanduqi və azca oxvarı, yarımdairəvi, həmçinin yumurtaşəkilli əyri tağbəndlərə təsadüf olunur. Çox vaxt bu tağbəndlərin aşırımı ölçü baxımından böyük deyildir. Bir çox halda tağbəndləri gücləndirmək məqsədi ilə, tapdığı tağlardan istifadə edilirdi, hansıların ki forması bir qayda olaraq tağbənd əyrisinə müvafiq və uyğun idi. Alban memarlığında tağbəndlər 2 sıra sütunlar və onların üstlərindən atılmış tağların, divarların, eləcə də bir tərəfdən divar və digər tərəfdən sütunların üzərində dayanırdı.

Araşdırmalar onu deməyə əsas verir ki, Qafqaz Albaniyasının memarlıq tarixində tağlar olduqca böyük və mühüm rol oynamışlar. Belə ki, onlar əsas daşıyıcı konstruksiyalardan biri və eyni zamanda dekorun mühüm elementi olmuşlar. Tağların bəzi növlərindən mədəni inkişafın yalnız müəyyən mərhələsində istifadə edilmişdir. Lakin bütün dövrlər üçün ən səciyyəvi olan və geniş yayılmış tağ yarımdairəvi tağdır. Yarımdairəvi tağdan tağbəndin dayaq tağı kimi istifadə olunurdu. Mehrab apsidası üzərindəki zəfər tağı, pəncərə və qapı üzərindəki atma tağlar böyük dekorativ rol oynamışlar.

Bütün Güney Qafqazda olduğu kimi, Qafqaz Albaniyası memarlığında danalşəkilli tağa yalnız erkən orta əsrlərdə təsadüf olunur. Nalın daha aydın ifadə edilmiş formasına Qum bazilikasının (V əsr), Ağoğlan-çay məbədinin (VI əsr) dayaqlarını birləşdirən tağlarda görmək olar. Nalşəkilli tağın özünəməxsus variantından həmçinin Möhrənis kilsəsinin məbədində də istifadə edilib. Memarlığın digər monumental konstruksiyaları kimi, tağların forma seçimində də antiseysmik faktor az rol oynamamışdı. Bu səbəbdən tağlarda daha seysmik nalşəkilli formadan yalnız erkən orta əsrlərdə tətbiq edilmişdi. Bu tip tağlardan istifadənin sərhədləri IX əsr hüdudlarını aşmır. Tədricən nalşəkilli tağın yerini yarımqövs, onun ardınca isə zəlzələyə daha davamlı olan çatma tağ tutur.

Tikinti materialının xüsusiyyətləri və onun işlənmə texnikası Qafqaz Albaniyasında memarlığında daha bir özəlliyin yaranmasına və özünə möhkəm yer və mövqe tutmasına səbəb olmuşdu. Cod daşdan

və kərpicdən inşa edilmiş divarların və dayaqların kələ-kötür səthi suvaq təbəqə ilə örtülürdü (Məmmədova, 2013 : 46).

Dağ çaylarının axdığı ərazilərdə böyük miqdarda əldə edilən çaydaşı ucuz və əlverişli tikinti materialı olmuşdur. Lakin bu tikinti materialı həddindən artıq bərk olması səbəbindən o emala çox çətin məruz qalırdı. Bu səbəbdən memarlıq abidələrinin daxili divarlarının kələ-kötürlüyünü gizlətmək məqsədi ilə bu divarların səthinə suvaq çəkilirdi. Belə ki, erkən orta əsrlər mərhələsində inşa edilmiş bir çox dini tikililərin - Mamrux, Ağoğlan-çay, Gədəbəy, Mingəçevir və s.kilsələrin divarlarına məhz suvaq təbəqə çəkilmişdir. Suvaq çəkilmiş divar adətən freska nümunələri ilə bəzədilirdi.

Dövrümüzə kimi gəlib çıxmış yazılı qaynaqlarda Qafqaz Albaniyası kilsələrinin divar rəsmləri haqda məlumatlara təsadüf olunur. M. Kalankatuklu xəbər verir ki, Albaniyanın əzəmətli knyazı Cavanşir öz kilsəsini bəzəyərək, günbəzdən kandara kimi naxış vurmuş və hər yeri ipək parçalarla örtmüşdür (Kalankatuklu ,1861:158).

Təəssüflə vurğulamaq lazımdır ki, Qafqaz Albaniyası ərazisində yaradılmış heç bir freska nümunəsi müasir dövrə kimi gəlib çıxmayıb. Bunun nəticəsi olaraq Qafqaz Albaniyası ərazisində yaradılmış freskaların nə tematikası nə də onların texnikası haqda məlumatımız yoxdur.

## Nəticə

Aparılmış tədqiqatdan belə qənaətə və nəticəyə gəlmək olar ki, Qafqaz Albaniyasının əksər bölgələrində məhz bərk çaydaşı və süxurlu kötür əsas tikinti materialı olması səbəbindən ölkə ərazisində oyma sənəti inkişaf etməmiş və bu səbəbdən oyma dekoru geniş yayılmamışdı. Daş üzərində oymalara əsasən profilәmə şəklində (pəncərə kənarlıqları, karnizlər, tağların impostu profilənirdi) təsadüf olunur. Ümumiyyətlə daş dekorunun azlığını və sadəliyini Alban memarları məhz konstruktiv elementlərin bədii-estetik əhəmiyyətini daha çox vurğulamaq yolu ilə kompensasiya etməyə çalışmışlar. Bunun nəticəsi olaraq divar səthinin monolit bölünməzliyi, müxtəlif formalı tağbəndlər və tağlar əsas ifadəlik vasitələri olmuşlar. Məbədlərin bədii ifadəliyi memarlıq formaları, binanın ayrı-ayrı hissələrinin vurğulanması ilə yanaşı həmçinin proporsiyalar, divarların hörgüsü və konstruksiyaların quruluşu ilə əldə olunurdu. Bundan başqa mühüm bədii-memarlıq üsullarından biridə müxtəlif bərkliyə, keyfiyyətə və rəngə malik olan materialların – çaydaşının, əhəngdaşının və kərpicin birgə işlədilməsi olmuşdur. Bu cür kombinasiya olunmuş hörgüdən istifadə memarlıq abidələrinin eksteryer və interyer həllinə xüsusi bir özünəməxsus gözəllik vermiş və ornament qıtlığını bir növ kompensasiya etmişdir. Belə ki, uzaqdan belə məbədlərə nəzər saldıqda elə təəssürat yaranırdı ki, sanki məbədin divarları həndəsi tipli oyma, cızma və ya çəkilmə naxışlarla bəzədilib.

## Ədəbiyyat

1. Axundov, D.(1986) , Qədim və erkən orta əsrlər Azərbaycan memarlığı, Bakı. Azərbaycan Dövlət Nəşriyyatı.
2. Əfəndi , R. (2001) , Azərbaycan incəsənəti, Bakı: Çaşıoğlu .
3. Göyüşov, R.(1984) ,Qafqaz Albaniyasında xristianlıq :Qarağac
4. Kalankatuklu, M .(1861) , Albaniya tarixi, K.Patkanovun tərcüməsi, Sankt-Peterburq.
5. Məmmədova, G.Hacıyeva,S.(2013) ,Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı, Bakı: Şərq-Qərb.
6. Məmmədov, G. (2004) , Qafqaz Albaniyasının memarlığı, Bakı:Çaşıoğlu.
7. https://medeniyyet.az/page/news/12767/Minillik-tarixin-medeni-irsi--Azerbaycanda-alban-abideleri.html
8. Nuriyeva, İ. (2015) Azərbaycan tarixi, Bakı : Mütərcim

**Rəyçi: s.ü.f.d. Kübraxanım Əliyeva**

Göndərilib: 12.04.2022 Qəbul edilib: 17.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/111-115

**Vasif Vüqar oğlu Hüseynov**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistr
h.vasif@mail.ru

# SƏNAYE MÜƏSSİSƏNİN İSTEHSAL POTENSİALININ MÜASİR VƏZİYYƏNİNİN TƏHLİLİ

**Xülasə**

Hazırda dövlətimiz tərəfindən işğaldan azad olmuş bölgələrin bərpası və inkişafı vasitəsilə bağlı konsepsiya hazırlanmışdır ki, onun da həyata keçirilməsinin mühüm istiqaməti kimi həmin bölgələrin iqtisadi potensialı, o cümlədən meşə, su və torpaq ehtiyatları nəzərə alınmaqla burda kənd təsərrüfatının, sənayenin, turizmin və digərlərinin dirçəldilməsi və inkişafı çıxış edir. Məlumdur ki, hazırda işğaldan azad olmuş ərazilər zəngin yeraltı və yerüstü sərvətlərə: filiz, əlvan metallar, qızıl, civə, xromit, əhəng, mərmər, əqiq, mineral sular və s. kimi mineral ehtiyatlara və geniş kurort rekreasiya potensialına malikdir. Bu ərazilərdə inşaat sektoru üçün zəruri olan bir çox tikinti materialları: mişar daşı, kərpic, çınqıl, sement, əhəng daşı istehsal, üçün zəruri xammallar, tikinti qumu və s. vardır.

İşğaladək bu ərazilərdə fəaliyyət göstərən sənaye sahələri respublika iqtisadiyyatında mühüm rola malik idi. Burda əsasən yeyinti, yüngül, tikinti materialları kimi sənaye sahələri güclü inkişaf tapmışdır. İşğaladək bu ərazilərin sənaye sahələri arasında daha güclü inkişaf edənləri yerli əhalinin ərzaqla təminatında mühüm əhəmiyyət daşıyırdı.

***Açar sözlər:*** *Mühasibat uçotu, konsepsiyalar, idarə etmə qərarları, market iqtisadiyyatı*

**Vasif Vugar Huseynov**

## Analysis of the current status of industrial enterprise's production potential

**Abstract**

At present, our state has developed a concept for the rehabilitation and development of the unemployed, which is an important direction of its implementation. performs. It is known that the area now free from occupation is rich in minerals and surface resources: ore, methane, gold, mercury, chromite, lime, marble, agate, mineral water, etc. such as mineral reserves and has the potential for extensive resort recreation. There are many construction materials necessary for the construction sector in this area: sawdust, brick, gravel, cement, limestone, raw materials for construction, construction sand, etc. There are.

As a result of the economic and political reforms carried out in Azerbaijan, the nature and functions of the MU have changed and its role in the enterprise has changed. In connection with the transition to a market economy, the state has moved from strict regulation of the MU to a multi-option approach. At present, in many places, the enterprise chooses the individual parameters of the accounting system, the accounting system. A number of changes in the field of accounting have become necessary due to the influence of internal and external factors of economic and legal nature.

***Keywords:*** *Accounting, concept, management decision, market economy*

## Giriş

İstehsal potensialının mahiyyəti və məzmunu ilə bağlı fikirləri nəzərə alaraq qeyd edirik ki, klassik iqtisadi məktəbin nümayəndələri işçi qüvvəsini istehsal amillərinə aid edirdilər. Sonralar neoklassik məktəb öz tərkibində əmək, torpaq və kapitalı müəyyən etdi. Müasir iqtisadçılar indi istehsal amillərinə " əmək, torpaq, kapital və sahibkarlıq qabiliyyətlərini" aid etməyə başlamışlar, sonradan onlara informasiyalaşdırma da əlavə edilmişdir.

İstehsal potensialının elementləri kimi fond potensialını, əmək potensialını, maliyyə sabitliyi potensialını, iqtisadi və dövriyyəni ayırmaq lazımdır.

İstehsal potensialının elementləri təkcə sıx qarşılıqlı əlaqədə deyil -müəyyən dərəcədə onlar bir-birini əvəz edir.

İstehsal potensialının elementlərinin bir-birini əvəz etməsinin bütün formaları əsasən onun ən mühüm iqtisadi xarakteristikası kimi qəbul edilməlidir. Bu yanaşma yeni texnikanın, qabaqcıl texnologiyaların, istehsalın idarə edilməsinin təşkilinin yeni üsullarının tətbiqi nəticəsində son nəticədə istehsal resurslarına qənaəti təmin etməyə imkan verir.

Bazarda öz yerini qazanmaq asandır, həm də onu saxlamaq, əsas resurslardan biri və aparıcı rəqabət üstünlüyü müəssisənin yığılmış istehsal potensialıdır.

Sənaye müəssisəsi, hər hansı bir mürəkkəb sistem kimi, müəyyən funksiyaları yerinə yetirən alt sistemlər kompleksindən ibarətdir. Funksiyalarını həyata keçirmək üçün hər bir alt sistemin sərəncamında lazımi resurslar dəsti olmalıdır. Resursları "potensial" anlayışı ilə müəyyən etməklə, ayırmaq olar-əmək, texniki, istehsal, təşkilati, əmlak, maliyyə və digər potensialları göstərmək lazımdır.

İstehsal potensialının iki tərəfi var:

obyektiv - sənaye müəssisəsinin istehsal fəaliyyətinə cəlb edilmiş və heç bir səbəbdən cəlb olunmayan və orada iştirak etmək üçün real imkana malik olan maddi, qeyri-maddi, əmək və təbii ehtiyatların məcmusu;

2) subyektiv - müəssisənin və bütövlükdə kollektivin konkret işçilərinin istehsal prosesini həyata keçirmək və mövcud texnologiya və texnologiya səviyyəsi ilə məqsədlərə çatmaq və səmərəli istifadə şəraitində maksimum miqdarda maddi sərvət və xidmətlər yaratmaq bacarığı. mövcud resurslardan.

Müasir iqtisad elmində sənaye müəssisəsinin istehsal potensialının mahiyyətini və strukturunu açmaq üçün bir neçə yanaşma mövcuddur (Hüseynov, 2005:67).

Ən çox yayılmışı resurs yanaşmasıdır ki, ona görə istehsal potensialı müəssisənin sərəncamında olan və onun istehsal fəaliyyəti zamanı istifadə olunan resursların məcmusudur.

Müəssisənin istehsal potensialını müəssisənin təsərrüfat fəaliyyətini təmin edən maliyyə, maddi, qeyri-maddi, intellektual, informasiya, texnoloji, innovativ və digər resursların məcmusu kimi müəyyən edir. Müəssisənin istehsal potensialının məzmununu yalnız əmək ehtiyatları ilə məhdudlaşdırır, istehsal potensialını təqvim vaxtının müəyyən bir intervalı üçün müəssisənin əsas istehsal heyətinin səmərəli iş vaxtının texniki, iqtisadi və təşkilati cəhətdən əsaslandırılmış norması kimi müəyyən edir..

Bu yanaşmanın mənfi cəhəti ondan ibarətdir ki, onun tərəfdarları resursların qarşılıqlı əlaqəsini, onlardan istifadəni və müəssisənin istehsal-təsərrüfat fəaliyyətinə cəlb olunmasının səmərəliliyini adekvat şəkildə nəzərə almırlar (Həsənov, 1998:78).

**Effektiv yanaşma**

Başqa bir yanaşmada istehsal potensialı istehsal ehtiyatlarından istifadə edərkən istehsal sisteminin müəyyən miqdarda maddi sərvət yaratmaq qabiliyyəti kimi nəzərdən keçirilir - bu, effektiv yanaşma adlanır.

**Üç yanaşma**

Yuxarıda göstərilənləri nəzərə alaraq, sənaye müəssisəsinin istehsal potensialı altında biz müəssisədə mövcud olan texniki, əmək və maddi və enerji resurslarının məcmusundan səmərəli istifadə etməklə səmərəli istehsal fəaliyyətini təmin etmək potensialını başa düşəcəyik. Termin təklif olunan şərhi"istehsal potensialı" istehsal potensialının resurs komponentini nəzərə alır (Məmmədova, 2020:78).

İstehsal potensialının strukturunun qiymətləndirilməsinə mövcud yanaşmaların təhlili göstərdi ki, ümumiyyətlə, konsepsiyanın özünün şərhinə yanaşmalara uyğun olaraq, onları üç əsas sahəyə bölmək olar.

"istehsal potensialı":

1) bəzi tədqiqatçılar (resurs yanaşması çərçivəsində) müəssisənin istehsal potensialının strukturuna yalnız müxtəlif birləşmələrdə olan resursları daxil edirlər;

2) başqa bir qrup alim (nəticə yanaşması çərçivəsində) istehsal potensialının strukturuna müəssisə resursları və bu resurslardan istifadənin nəticələri tərəfindən yanaşmaya riayət edir;

3) üçüncü qrup müəlliflər istehsal potensialının strukturuna ehtiyatlardan və onlardan istifadənin nəticələrindən əlavə, istehsal proseslərində nisbətən kiçik amillər olan bir çox əlavə komponentləri daxil edir və onların məqsədlərə tabe olmasını nəzərə alır.

İstehsal potensialının mürəkkəb struktur və komponent tərkibi və onun elementlərinin qarşılıqlı əlaqəsinin nəzərə alınmasının xüsusi əhəmiyyəti struktur elementlərinin istənilən nisbəti üçün onların nəticə dəyərini təyin etmək üçün keyfiyyətcə heterojen resursların qiymətləndirilməsi və uçotu üsullarının işlənib hazırlanmasını tələb edir ( resurslar).

İstehsal potensialının qiymətləndirilməsi üsullarının öyrənilməsi əsas sahələri, onların üstünlüklərini və çatışmazlıqlarını müəyyən etməyə imkan verdi (Hüseynov, 2009:167).

Təhlillərin nəticələri belə qənaətə gəlməyə əsas verir ki, hazırda kəmiyyət və keyfiyyət istiqamətlərini nəzərə alan universal metodologiya mövcud deyil. Metodologiya çərçivəsində yalnız bir istiqamətin digərini nəzərə almadan istifadəsi istehsal potensialının həm keyfiyyət, həm də kəmiyyət xüsusiyyətlərinin mövcudluğuna görə etibarlı qiymət verməyəcəkdir. Beləliklə, məsələn, istehsal işçilərinin sayı, onların ixtisasları nəzərə alınmadan, əməyin intensivləşdirilməsi və məhsuldarlığın artırılması imkanları haqqında təsəvvür yaratmayacaqdır.

İstehsal potensialının kəmiyyət qiymətləndirməsi əsasında öyrənilməsinə iki yanaşma mövcuddur: resurs və nəticə.

Effektiv yanaşma ilə istehsal potensialının mahiyyəti potensial iqtisadi nəticələr (istehsal məhsulu, mənfəət, istehsal ehtiyatlarından istifadənin səmərəliliyi göstəriciləri, iş vaxtı və s.) kimi müəyyən edilir.

Bu formaların hər birinin öz metodologiyası var, əsas metodoloji yanaşmanın həyata keçirilməsinə uyğun işlənib, forma adında əks olunub; müəyyən üstünlükləri və mənfi cəhətləri var; öz rasional istifadə sahəsinə və inkişaf tarixinə malikdir.

Resurs yanaşmasının konseptual ideyasının əsası, təşkilatın potensial məhsuldarlığının onun sərəncamında olan resursların kəmiyyət və keyfiyyəti ilə müəyyən edildiyini və təşkilatın "girişini" müəyyən edən ədalətli təsdiqidir. istehsal sistemidir.

Beləliklə, resurs yanaşmasının həyata keçirilməsində təşkilatın potensialının qiymətləndirilməsi resurs komponentlərinin bütün çeşidini müqayisəli formaya gətirməklə "giriş"dən (resurslardan) "çıxışa" (məhsulun reallaşdırılması) istiqamətində həyata keçirilir..

Bazar şəraitində təşkilatın istehsal potensialının qiymətləndirilməsi üçün resurs yanaşmasının əsasını istehsal aktivlərinin və əmək resurslarının bazar dəyərinin hesablanması təşkil edir. Bu halda müəssisənin hər hansı əmlakı aktiv hesab olunur:

- əsas kapital (daşınmaz əmlak - binalar, tikililər və kommunikasiyalar, maşın və avadanlıqlar);
- dövriyyə vəsaitləri (pul vəsaitləri, qiymətli kağızlar, debitor borcları, xammal, yarımfabrikatlar və sexlərarası ehtiyatlar);
– qeyri-maddi aktivlər (patentlər, reputasiya, ticarət nişanı, məlumat və s.).

Özündə resurs yanaşması sosial-iqtisadi proseslərin öyrənilməsində tanınmış klassik yanaşmalardan başqa bir şey deyildir (Sərxanlı, 2020:87).

"bahalı". Xərc yanaşmasından istifadə etməklə gəlir gətirən daşınmaz əmlakın dəyərinin qiymətləndirilməsinin əsas üsullarından biri işlənib hazırlanmışdır. Bu texnika, həmçinin gəlir gətirən sənaye daşınmaz əmlakı kimi bir təşkilatın istehsal potensialını qiymətləndirmək üçün istifadə edilə bilər, bir şərtlə ki, aktivlərin bazar dəyəri ilə yanaşı, əmək resurslarının potensialı da nəzərə alınsın. onun xüsusiyyətlərini nəzərə almır, onları əməliyyat xərclərinə istinad edir. .

Resurs yanaşmasının əsas çatışmazlığı ondan ibarətdir ki, təşkilatın bu şəkildə hesablanmış potensialının dəyəri daha çox onun daxili mühitini xarakterizə edir və daha az dərəcədə bazar şəraitinin təsirini əks etdirir. Bu, xüsusən də çox qiymətləndirir, potensialın real dəyəri ilə müqayisədə nəticədə hesablanmış dəyəri, onun xüsusi prosedur vasitəsilə sonradan tənzimlənməsini zəruri edir.

Beləliklə, resurs yanaşmasından istifadə edərkən təşkilatın istehsal potensialı mahiyyətcə hesablanır ki, bu da onun daxili mühitinin inteqrasiya xarakteristikasıdır. Resurs yanaşmasının metodologiyası təşkilatın resurs potensialını iki komponentə ayıraraq xüsusi metodoloji texnika vasitəsilə xarici (bazar) amillərin təsirini nəzərə alır: planlı və ehtiyat hissələr.

Bir təşkilatın istehsal potensialının planlaşdırılmış dəyəri mövcud bazar şərtlərinə əsaslanaraq müəyyən bir müddət ərzində onun imkanlarını xarakterizə edir. Təşkilatın istehsal potensialının ehtiyat hissəsi əlverişli bazar şəraitində istifadə edilə bilən ehtiyat ehtiyatlarını və onlardan səmərəli istifadəni xarakterizə edir.

Bazar şəraitində bir təşkilatın potensialının diaqnostikası üçün sərfəli və birləşmiş yanaşmalar bəzən elmi ədəbiyyatda effektiv adlanır. Bu yanaşmaların metodologiyası resurs yanaşmasından fərqli olaraq ilkin olaraq biznesin fəaliyyət göstərməsi üçün xarici şərtlərə diqqət yetirir.

Bu və ya digər effektiv yanaşmanın həyata keçirilməsində təşkilatın potensialının qiymətləndirilməsi istehsal sisteminin "çıxışından" onun "girişinə" qədər, yəni bu məhsula bazarda tələb və təklifin dəyişməsi istiqamətində aparılırvə ilkin olaraq qiymətləndirilir, məhsulun həyat dövrünün mərhələsi müəyyən edilir və onun əsas rəqiblərinə münasibətdə təşkilatın mövqeyi, sənayedə kapitallaşma prosesini xarakterizə edən göstəricilər və s. hesablanır və yalnız bundan sonra aktivlərin mümkün gəlirliliyi hesablanır. təşkilatın sahib olduğu təxmin edilir.

Təşkilatın potensialının qiymətləndirilməsində fəaliyyət-gəlir yanaşmasının başqa bir xüsusiyyəti ondan ibarətdir ki, onun həyata keçirilməsində əsasən müəssisənin kapitalının formalaşması və bölüşdürülməsini, habelə ondan istifadənin səmərəliliyini və intensivliyini xarakterizə edən marjinal göstəricilərdən istifadə olunur (Sarıyeva, 2021:89).

Beləliklə, fəaliyyət göstərdiyi bazar şəraitində bir təşkilatın istehsal potensialının diaqnostikası üçün performans-gəlir yanaşmasını həyata keçirərkən, əsas resurs kimi kapitalın mümkün gəlirliliyi onun ölçüsünə və istifadəsinin effektivliyinin hazırda müəyyən edilmiş qiymətləndirilməsinə əsasən qiymətləndirilir. Eyni zamanda, təşkilatın həm daxili, həm də xarici mühitinin digər eyni dərəcədə vacib komponentlərinin təsiri dolayı yolla - daxili gəlir dərəcəsini və ya təxmin edilən kapitallaşma dərəcəsini tənzimləməklə nəzərə alınır. Sonuncu, gəlir gətirən sənaye daşınmaz əmlakı bazarının formalaşması şəraitində çox problemli olan xüsusi metodoloji tənzimləmə aparatının və geniş məlumat bankının istifadəsini tələb edir.

Nəticə-gəlir yanaşması maliyyə və investisiyaların idarə edilməsi, strateji idarəetmə və planlaşdırma nəzəriyyəsi və praktikasında, habelə gəlir gətirən sənaye mülkiyyəti kimi müəssisənin dəyərinin qiymətləndirilməsində geniş istifadə olunur.

Məlum bazar üsulları (məsələn, matris, göstərici və s.) resurs və nəticə yanaşmalarının metodlarını birləşdirməklə hazırlanır.

İnkişaf etmiş iqtisadiyyatı olan ölkələrdə kompleks yanaşmanın inkişaf etdirilməsi zərurəti sahibkarlıq subyektləri arasında rəqabətin artması, Azərbaaycanda isə bazar iqtisadi şəraitə keçid dövründə təşkilatın fəaliyyəti zamanı xarici mühitin dinamikliyinin artması ilə əlaqədar idi.

Xarici və yerli biznes mühiti arasındakı bu əsas fərq, birləşmiş yanaşma əsasında hazırlanmış məşhur və beynəlxalq təcrübədə geniş istifadə olunan model və metodların Azərbaycan nşərtlərinə uyğunlaşdırılması ehtiyacını əvvəlcədən müəyyənləşdirdi.

Müasir Azərbaycan şəraitində xarici modellərin birbaşa (mexaniki) surətinin çıxarılması və istifadəsi nəinki qəbuledilməzdir, həm də daxili bazarın xüsusiyyətləri, mühasibat uçotu, hesabat, vergitutma və s.

Dinamik bir mühitdə sənaye müəssisəsinin vəziyyətinin qiymətləndirilməsinə və istehsal potensialının diaqnostikasına inteqral yanaşma konsepsiyası eyni vaxtda təhlilin iki əks istiqamətini inkişaf etdirməyə imkan verir: "giriş"dən (resurslardan) "çıxışa" (satış). məhsullar) və əksinə.

Sənaye müəssisəsinin istehsal potensialının təhlili və qiymətləndirilməsində iki əks yanaşmanın - resurs və məhsuldarlığın birləşməsi özlüyündə bir sıra ziddiyyətlərin qeyri-ənənəvi üsullarla aradan qaldırılmasını tələb edir ki, bu da istər-istəməz həyata keçirilərkən irəli sürülən fərziyyələr səbəbindən yaranır (Arkhipov, 2019:87).

Resurs yanaşması onunla həyata keçirilir ki, rəqabət potensialının hesablanması modelində istehsalda istifadə olunan resursları əks etdirən göstəricilər var.

Effektiv yanaşma müəssisənin fəaliyyətinin potensial nəticəsinin faktiki istifadə olunan resurslarına əlavə olaraq ifadə olunur - tədqiqat dövrü üçün rayon üzrə orta sənaye göstəricisinə bərabər müəssisədə kapitalın gəlirliliyi dərəcəsi ilə hesablanan xalis mənfəət.

## Nəticə

Beləliklə, iddia etmək olar ki, istehsal potensialı sənaye müəssisəsinin resurslarının məcmusudur və onların istehsal prosesi zamanı müəyyən nəticələrə çevrilmək qabiliyyəti qarşıya qoyulmuş iqtisadi məqsədlərə nail olmaqdır.

Sənaye müəssisəsinin istehsal potensialı müəyyən daxili quruluşa və müəssisənin məqsədə çatmaq prosesində müəyyən edilmiş funksiyaları yerinə yetirməyə hazırlığını və qabiliyyətini təmin edən tərkib

elementlərinin sistemli birliyinə malik olan mürəkkəb sistemdir. İstehsal potensialı istehsal prosesinin bütün əsas elementlərinin üzvi birliyi kimi çıxış edir. İstehsal potensialının strukturu müəssisənin tipini səciyyələndirən və onun xüsusiyyətlərini əks etdirən, cari fəaliyyətində iz buraxan, həmçinin onun inkişaf strategiyasının formalaşmasına təsir göstərən əsas amildir.

Qeyd etmək lazımdır ki, tədqiqatçılar arasında konsepsiyanın məzmununun müəyyənləşdirilməsinə vahid yanaşmanın olmaması "istehsal potensialı" yanaşmaların çoxluğunda özünü göstərir. Görünür, yuxarıdakı müəllifin bütün mövqelərinin rasional əsası və mövcud olmaq hüququ var. Bu baxımdan, müəyyən bir müəssisənin istehsal potensialını müəyyən edərkən, bu konsepsiyanın müəyyən şərhinə riayət etmək və onun fəaliyyət göstərdiyi sənayenin xüsusiyyətlərini nəzərə almaq lazımdır.

## Ədəbiyyat


1. Həsənov, R. (1998), Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin yaradılmasının konseptual əsasları, Bakı, Elm, 343 s.
2. Hüseynov, T. (2000), Sənayenin iqtisadiyyatı. Bakı: Azərnəşr, 667 s.
3. Hüseynov, T. (2005), Müəssisənin iqtisadiyyatı. Bakı: "Səda" nəşriyyatı, 560 s.
4. Hüseynov, T. (2009), Firmanın iqtisadiyyatı. Bakı, 586 s.
5. "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikası qanunu, 15 yanvar 1992-ci il.
6. Mehtiyev, A., Nuriyev, M. və İbadoğlu Q. (2005), "Azərbaycanda korporativ idarəetmə" mövzusunda beynəlxalq konfransda məruzə. "Ekspert" iqtisad jurnalı (xüsusi buraxılış), № 4 (32), səh. 7-31
7. Daşsalahlı, R. (2021). Qarabağ -inkişaf, tərəqqi meydanı, Azərbaycan müəllimi 5 mart.
8. Məmmədova, P. (2020), Azərbaycanda sənayə müəsiisələrinin investisiya potensiyalının formalaşması və qiymətləndirilməsi, Kooperasiya/elmi-praktiki jurnal. №3.
9. Sarıyeva, İ. (2021), Qarabağ turizmi - bölgələrin sosial-iqtisadi inkişaf mənbələrindən biri. Bakı, Xəbər. 28 dekabr.S.10.
10. Sərxanlı, S., (2020), Sənayenin İnvestisiya Cəlbediciliyinə Təsir Edən Amillər. In İqtısadi Təhlükəsizlik: Mövcud vəziyyət və perspektivlər.
11. Avdeenko, V., Kotlov, V.A. (2015), The production potential of an industrial enterprise. - M.: Economics.
12. Arkhipov, V.M., (2019), Designing the production potential of associations (theoretical aspects). L.: Ed. LGU.
13. Donets, Yu.Yu. (2012), Efficiency of use of production potential. - Kyiv: knowledge.


**Rəyçi: i.e.n. Sevinc Abbasova**

Göndərilib: 10.04.2022 Qəbul edilib: 20.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/116-118

**Aysel Qardaşəli qızı Əliyeva**
Qərbi Kaspi Universiteti
magistr
İsel.aliyeva@gmail.com

# AVROPA MONARXİK DÖVLƏTLƏRİNDƏ DEMOKRATİKLƏŞMƏ

**Xülasə**

Məqalənin məzmunu monarxiya ilə demokratiya anlayışlarının bir-birinə zidd hesab olunmasına baxmayaraq, monarxiyanın quruluşuna demokratiyanın necə təsir etməsi kimi xüsusiyyətləri ön plana çəkilir. Bundan başqa, müasir demokratik monarxiyalı dövlətlərdə monarxın gücünün hazırda mövcud olub-olmaması, monarxın hansı həcmdə muxtariyyətdən istifadə edə bilməsi, kral ailəsinin ölçüsünün, varisliyinin və maliyyəsinin tənzimlənmə qaydası, 150 ildən sonra rəsmi səlahiyyətlərinin çox azaldılmasına baxmayaraq bu qədim irsi institutun mövcudluğunu qoruyub saxlaması və müasir monarxın rolu ilə əlaqədar məsələlərə münasibət bildirilmişdir.

***Açar sözlər:*** *monarxiya, demokratiya, demokratiyaya inteqrasiya, monarxik demokratiya, monarxın gücüs*

**Aysel Gardashali Aliyeva**

## Democratization in European Monarchic States

**Abstract**

Although the notions of monarchy and democracy are considered to be incompatible, the article's content emphasizes the aspects such as how democracy impacts the monarchy's structure. In addition, the monarchy's existence in modern democracies, the monarch's autonomy, the regulation of the royal family's size, inheritance, and finances, the preservation of this ancient legacy institution despite the reduction of official powers after 150 years, and contemporary issues related to the monarch's role were addressed.

***Key words:*** *Monarchy, democracy, incorporation into democracy, monarchical democracies*

## Giriş

Monarxiya ən qədim dövlət idarəetmə formalarından biridir. Bu dövlət idarəetmə formasının başında monarx (kral, imperator, hersoq, əmir və s.) durur və taxt irsən ötürülür. XIX əsrin əvvəllərinə qədər monarxiya idarəetmə forması bütün dövlətlərdə hökmranlıq edirdi. Monarxik idarəetmə formasının keçdiyi inkişaf yolunu belə qeyd etmək olar:

- ilk feodal monarxiya;
- silki-nümayəndəli monarxiya;
- mütləq monarxiya;
- konstitusiyalı monarxiya (məhdud);

Konstitusiyalı monarxiya özü iki hissədən ibarətdir: dualist və parlamentli. Parlamentli monarxiya bu dövlər idarəetməsinin ən son mərhələsi hesab olunur. Onu da qeyd etmək lazımdır ki, bir sıra Asiya ölkələrində mütləq monarxiya hələ də mövcuddur.

Müasir dövrümüzdə 44 monarxiya mövcuddur və müvafiq idarəetmə sisteminə malik olan dövlətlərin bir çoxu Avropa ərazisində yerləşir və monarxik ənənələrin hələ də qorunub saxlanıldığı dövlətlər hal-hazırda demokratiyanın inkişaf etdiyi bölgələrin siyahısında, 2022-ci ilin demokratiya indeksində ən yüksək yerləri tutur (8). Sual ortaya çıxır: monarxik demokratiya nədir? Konstitusiyalı monarxiya parlamentli demokratiya hesab olunur, dövləti idarəetmə səlahiyyətləri baş nazir və parlament tərəfindən həyata keçirilir, monarxın hakimiyyəti konstitusiya ilə məhdudlaşdırılır. Konstitusiyalı monarxiyada monarxın əsas vəzifəsi qanuni konstitusiya hakimiyyətini təcəssüm və təmsil etmək, təntənəli və rəsmi görüşlərdə iştirak edib, hakimiyyətin deyil də dövlətin kimliyi və səlahiyyətlərini vurğulamaqdır. Demokratik monarxiyaya əsasən monarx və onun ailə üzvləri siyasi mövzularda neyrat mövqe nümayiş etdirməli, həm daxili, həm də xarici siyasətdə xalqın imicini əsas

tutmalıdırlar. Müasir dövrümüzdə Böyük Britaniya, Novreç, İsveç, Danimarka, Lüksenburq, Niderland, İspaniya və Belçika demokratik monarxiya idarəetməsidir (8). Burjua inqilablarından sonra bır sıra Avropa monarxik idarəetmə formalı dövlətlərdə konstitusiyanın qəbul edilməsi monarxik formanın demokratikləşməsinə gətirdi. Konstitusiyaya əsasən monarx dövlətin qanuni konstitusıyla hakimiyyətini təcəssüm və təmsil edir, təntənəli və rəsmi görüşlərdə iştirak edib, hakimiyyətin deyil də dövlətin kimliyi və səlahiyyətlərini qeyd edir.İlkin baxışda dünyanın ən demokratik ölkələrindən bəzilərinin monarxik idarəetmə sisteminə məxsus olması çaşqınlıq yaradır. Dövlət başçısının vərəsəlik əsasında təyin olunması və dövlət başçısının təyin olunmasında seçki sisteminin olmaması dövlətdə demokratiyanın mövcud olunmadığı kimi görsənir. B. Robert qeyd edirdi: “Müasir dünyada konstitusiya monarxisyası və demokratiya bir-birinə zidd olan anlayışlar deyil, tam əksinə bir-birini tamamlayırlar” (Robert,və b., 2020:60). İlk növbədə müasir monarxik Avropa dövlətlərinin konstitusiya sisteminə nəzər salaq: Böyük Britaniya da konstitusiyanın qəbulu XVII əsrə təsadüf edir, bununla birlikdə konstitusiyalı monarxiyanın parlanmentli idarəetmə forması yaranır və parlament iki palataya ayrılır: Lordlar və İcmalar palatası. Konstitusiyaya əsasən monarx dövlət başçısı və icra, məhkəmə və qanunverici hakimiyyətin əsasıdır. Baş Nazir hökumətə rəhbərlik edir, bir sıra icraedici funksiyalara nəzarət edir. İsveç Krallığı Avropa ərazisində mərkəzi yerlərdən birinə sahibdir və burada parlamentli idarəetmə formasına malik konstitusiyalı monarxiya mövcuddur. İlk konstitusiya 1975-ci ildə qəbul edilmiş, kralın və onun ailə üzvlərinin səlahiyyətləri məhdudlaşdırılmışdır. Siyasi hakimiyyət hökumətin əlindədir və kral dövlət başçısı funksiyası yerinə yetirir. Danimarka Krallığında isə ilk konstitusiya 1953-cü ildə qəbul edilmişdir. Burada da qanunverici hakimiyyət krala və folkentinqə (parlament) aiddir və əsas dövlət məsələləri baş nazir tərəfindən yerinə yetirilir. Niderlandın konstitusiyalı monarxiya idarəetmə formasına keçidi 1815-ci il konstitusiyasının qəbul edilməsilə baş tutdu. Ölkədə parlament sisteminin olması demokratiyanın mövcudluğuna işarədir, parlament hökümətin qurulması və buraxılması kimi məsələlərə nəzarət edir (Hacızadə, 2011: 44). Belçika federal parlamentli konstitusiyalı monarxiyaya malikdir, ilk konstitusiya Belçika müstəqilliyi əldə etdiyi zaman 1830-cu ildə yarandı. Onu da qeyd etmək lazımdır ki, Belçika krallığı digər monarxik ölkələrdən fərqli olaraq heç bir zaman mütləq monarxiya idarəetmə formasına malik olmamışdır. Digər ölkələrdə olduğu kimi burada da siyasi məsələrlərə baş nazir nəzarət edir. Norveç də isə ilk konstitusiya 1814-cü ildə qəbul edildi, bununla da burada parlamentli monarxiya idarəetmə forması mövcud oldu. Konstitusiyaya əsasən əsas hakimiyyət parlament və hökumətə məxsusdur, kral Novreç irsinin simvolu və dövlət başçısı hesab olunur, hər bir monarxik dövlətdə olduğu kimi burada da konstitusiyaya əsasən onun səlahiyyətləri məhdudlaşdırılmışdır. 1868-ci il konstitusiyasına əsasən Lüksemburq Böyük Hersoqluğu elan olundu və dövlət başçısı monarxa böyük hersoq titulu verildi. Konstitusiyanın ilkin illərində monarxın səlahiyyətləri geniş idi, amma 1919-cu ildə konstitusiyada edilən əlavələr və düzəlişlərlə böyük hersoq səlahiyyətləri məhdudlaşdırıldı. Digər dövlətlərdə olduğu kimi burada da bpyük hersoq dövlət başçısı hesab olunur, amma dövləti maraqlandıran əsas mövzular nazirlər kabineti və baş nazir tərəfindən həyata keçirilir.Yuxarıda da qeyd olunduğu kimi, bütün monarxiyalar qanunla tənzimlənir. Tənzimlənmələrə əsasən monarxiyanın mövcudluğu saxlanılır, həm də idarə edilir. Konstitusiyada təsbit olunmuş qaydalar və parlamentlər tərəfindən qəbul edilən qanunlar monarxik quruma legitimlik verir və dövlətin maliyyə dəstəyinin sərhədlərini müəyyən edir. Bütün ölkələrdə tənzimlənən məsələlərin ümumi bir nüvəsi vardır: varislik qanunları, kral nikahları, kral maliyyəsi. Lakin kral ailəsinin ölçüsünü müəyyən edən və kral titullarının verilməsi qaydaları kimi məsələlər hər bir monarxik ölkədə özünə məxsus ehtiva olunur (Hacızadə, H. 2011: 44).

Hökumətin monarxiyanın dəstəkləməsinin əsas səbəbi onun xalq dəstəyinə sahib olmasıdır. Lakin yuxarıda da vurğuladığımız kimi, monarxın səlahiyyətlərini azaldaraq bu prosesi həyata keçiri.Hər bir konstitusiyalı monarxiyada Baş Nazir- Nazirlər Kabineti ilə müntəzəm olaraq görüşlər təşkil edir. Bundan başqa Baş nazir dövlət başçısı ilə də hər həftə görüşlər təşkil edir, onu siyasi və ictimadi məsələlərlə bağlı məlumatlandırır. Qeyd etdiyimiz kimi monarx siyasi məsələlərə qarışmır, lakin vurğulamaq lazımdır ki, baş nazirlə keçirilən qeyd-rəsmi görüşlərdə monarx siyasi məsələlərlə bağlı öz fikirini birdirməkdə tam şəkildə azaddır. Bir çox monarxik dövlətlərdə bu proses “məsləhətləşmə” adlanır. Misal olaraq, Böyük Britaniyanı göstərə bilərik Baş Nazir müntəzəm olaraq kraliça ilə görüşlər təşkil edir və bəzi mövzulara olan münasibətini öyrənir (Robert və b., 2020: 19).

Yuxarıda qeyd olunduğu kimi konstitusiya sisteminin yaranması monarx və onun ailə üzvlərinin səlahiyyətlərini məhdudlaşdırır, demokratikləşmə prosesini özündə ehtiva edir. Burada əsas yerdə xalq

və xalqın maraqları durur. Siyasətçilər xalq tərəfindən referendium vasitəsilə təyin edilir , hər bir fərq 18 yaşı tamam olduğu halda seçkilərdə iştirak etmə hüququ qazanır. Bütün səslər sayılır və eyni dərəcəyə malikdir.

Müasir monarxiyanın demokratikləşmə proseslərinə mətbuat, söz, təhsil azadlıqlarını misal göstərə bilərik. Mətbuat bu dövlətlərdə tam şəkildə azaddır, yəni xəbərlərin məzmunu heç bir şəkildə fərdlər və siyasətçilər tərəfində yoxlanıla bilməz. Sadəcə olaraq yalan məlumat dərc edildiyi zaman, onlar öz fikirlərini mətbuat vasitəsilə bildirə və yaxud məhkəməyə müraciət edə bilərlər. Səhiyyə sistemindən də bütün vətəndaşlar maiddi durumundan asılı olmayaraq özlərinin və ailə üzvlərinin rifahı üçün istifadə edə bilər. Onların xərcləri dövlər vegi sistemi tərəfindən tənzimlənir. Yuxarıda qeyd olunan dövlətlərin hər birində vətəndaşların təhsil alma hüquqları vardır. Dövlətlər hər vətəndaşın təhsil alması üçün lazımı prosesləri həyata keçirir, ibtidai və orta sinif təhsilini qarşılayır (Robert və b., 2020: 212). Bu dövlətlərin ən əsas xüsusiyyətlərindən biri burada insan hüquqlarının qorunmasıdır. İrqindən, dinindən, millətindən asılı olmayaraq hər bir şəxs qanun qarşısında bərabərdir.

## Nəticə

Müasir dövrümüzdə Avropa monarxiyalarının populyarlığına nəzər salsaq bu sistemin sağ qalması təbii hadisə olaraq qəbul edilməməlidir. Hələlik monarxiyanın acizliyi hökumətlər və siyasətçilər üçün məqbul qalmağa imkan verir; həmçinin onların simvolik funksiyaları vətəndaşlar tərəfindən müsbət qarşılanır və populyarlıqlarının artırır. Müaisr monarxlar xüsusi olmalıdır mifi və qlamur obrazların mənbəyi olmalıdır. İctimaiyyət onların maraqlı, əyləncəli, xeyriyyəçi, müasir həyatla adaptasiya etməsini gözləyir. Hər bir moarxik idarəetmə formalı dövlətlərdə monarxlara qoyulan tələblər müxtəlifdir və xalq tərəfindən təyin olunur. Onlar özlərini sadə vətəndaşlar kimi aparmalı, xalq ilə daha çox təmasa girməlidirlər. Onlardan ailə dəyərlərinə və ənənələrə bağlılıqlarının nümayiş etdirmələri gözlənirilir.

Nəticə olaraq vurğulamaq lazımdır ki, monarxiya qədim ola bilər, amma böyük sosial və siyasi dəyişikliklərə baxmayaraq dünya nizamına uyğunlaşa bilmişdir. Belə bir sual yaranır: hakimiyyət baş nazir və parlament tərəfindən idarə edilirsə, bu dövlətlərə monarxiya niyə ehtiyac duyur və necə olur ki, monarxiya izlərinə baxmayaraq, bir sıra respublikalardan daha demokratik hüquqlara malik vətəndaş cəmiyyəti burada formalaşmışdır? Unutmamaq lazımdır ki, haqqında yazılan sistem monarxik ənənə və qaydaların bir sıra siyasi və ictimai proseslərdən dəyişilmiş və konstitusional monarxiyaya çevrilmişdir. Bu sistem, daha sonra demokratiya ilə kəsişərək yeni bir üsul formalaşdırır.

## Ədəbiyyat

1. Hacızadə, H. (2011) Demokratiya: gediləsi uzun bir yol, Bakı: İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi, 445 səh.
2. Bogdanor, V., (2003) Let's be radical and not change the monarchy, The Times, 301p.
3. Bogdanor, V. (1997). The monarchy and the constitution. Clarendon Press.
4. Brownlee, J. (2007). Hereditary succession in modern autocracies. World Politics, 59, 595–628.
5. Congleton, R. D. (2011). Perfecting parliament: Constitutional reform and the origins of western democracy. University Press
6. Robert H., Bob M., (2020) The role of monarchy in modern democracy, Great Britain: HART PUBLISHING, 301 p.
7. Tridimas, G. (2011). The political economy of power-sharing. European Journal of Political Economy, 27 p, 328–342 p.
8. https://www.economist.com/graphic-detail/2022/02/09/a-new-low-for-global-democracy (istinad tarixi: 28.05.2022)
9. https://www.idea.int/sites/default/files/publications/constitutional-monarchs-in-parliamentary-democracies-primer.pdf (istinad tarixi: 27.05.2022)

**Rəyçi: f.ü.f.d. Hüseynqulu Bağırov**

Göndərilib: 12.04.2022 Qəbul edilib: 17.05.2022

ELMİ TƏDQİQAT Beynəlxalq online elmi jurnal. İmpakt Faktor: 0.543. 2022/ Cild: 2 Sayı: 5
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 0.543. 2022 / Volume: 2 Issue: 5 e-ISSN: 2789-6919

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/119-122

**Ülkər Yaşar qızı Allahverdiyeva**
Azərbaycan Dövlət İqtisad Universiteti
müəllim
ulkar-allahverdiyeva@unec.edu.az

# LÜĞƏT EHTİYATININ ZƏNGİNLƏŞMƏSİNDƏ ATALAR SÖZLƏRİNİN YERİ VƏ ƏHƏMİYYƏTİ

**Xülasə**

Xarici dillərin tədrisində lüğət bazasını inkişaf etdirmək çox vacibdir. Bədii mətnlər ingilis dilinin öyrənilməsində, xüsusilə ünsiyyət bacarıqlarının artırılmasında, mədəni şüurun artırılmasında və tələbələr arasında motivasiyanın yaradılmasında mühüm rol oynayır. Aparılan tədqiqatlar orijinal materialların istifadə olunduğu EFL siniflərində ədəbi mətnlərdən istifadənin potensial üstünlüklərini göstərir. Bu tədqiqatlar geniş şəkildə göstərir ki, bədii mətn dil bacarıqlarını artırmağa kömək edə bilər və linqvistik bilikləri genişləndirə bilər. Bu tədqiqatın məqsədi atalar sözlərinin lüğətin tədrisində nümunə mətn kimi istifadə imkanlarını göstərməkdir. Dil tədrisində hər bir xalqın mədəni kimliyini əks etdirən atalar sözləri uzun müddət istifadə olunur. Bu araşdırmada atalar sözlərinin dil tədrisindəki yeri və əhəmiyyəti izah edilmişdir. Bütün fikirlər güclü arqumentlərlə əsaslandırılmışdır.

***Açar sözlər:*** *lüğət, söz ehtiyyatı, atalar sözü, xalq yaradıcılığı , dil, kontekst*

**Ulker Yashar Allahverdiyeva**

## The place and importance of proverbs in the enrichment of vocabulary

**Abstract**

Developing vocabulary database is very important in teaching foreign languages. Literary texts play an important role in learning English language, especially enhancing communication competence, raising cultural awareness, and generating motivation among students. Research studies have shown the potential advantages of using literary texts in the EFL classrooms, which promote authentic materials. It broadly indicates that literary text can help to increase language skills, and extends linguistic knowledge. The aim of this study is to show the usability of the proverbs as sample text in teaching vocabulary. The proverbs reflecting the cultural identity of any nation is used in the language teaching for a long time. In this study has been explained the place and importance of proverbs in language teaching. All thoughts have been substantiated through strong arguments.

***Key words:*** *vocabulary, word stock, proverb, folklore, language, context*

## Giriş

Milli təhsil konsepsiyasına əsasən xarici dili fənninin əsas məqsədi bu tərzdə şərh edilir “Şifahi nitqin inkişafı əsas tələb kimi götürülməklə tələbələrin ünsiyyət bacarıqlarının formalaşdırılmaq, lüğət ehtiyatının zənginləşdirilmək, ən zəruri qrammatik anlayışların və dil konstruksiyalarının mənimsənilməsini, oxu, yazı texnikası və yazılı nitq, dinləyib-anlama vərdişlərinin inkişaf etdirilməsi təmin etmək.”

Xarici dilin tədrisində lüğət ehtiyyatının zənginləşdirilməsi müstəsna əhəmiyət kəsb etməkdədir.Çünki öyrənənin xarici dildə nitqinin səlisliyi həmin dildə malik olduğu söz bazası ilə müəyyən olunur. İkinci dildə oxuyan zaman şəxsin malik olduğu zəif lüğət fondu mətni anlamaqda onun üçün böyük maneələr yaradır.

Leksikanın tədrisi mürəkkəb bir prossesdir. Bu prosesi lazımi şəkildə yerinə yetirmək üçün üsullar axtarılmalıdır (McKay, 2001:22). Metodistlər tərəfindən bu sahədə bəzi işlər görülməsinə baxmayaraq, onların fikrində müxtəliflik vardır. Bir qrup metodist sübut etməyə çalışır ki , yalnız şifahi danışıq nitqi öyrədilməlidir. Digər metodistlərin fikrincə şifahi nitqin inkişafı üçün söz ehtiyatı lazımdır. Yəni xarici dildə nitqin səlisliyi, axıcılığı şəxsin həmin dildə nə qədər söz bildiyinə bağlıdır (David Birch,1995: 23).

Elmi və metodiki ədəbiyyatda göstərilir ki, tələbələrin lüğət ehtiyatını zənginləşdirmək üçün söz və sözün mənası üzərində iş aparmaq lazımdır. Yəni öyrənənlərə leksik məfhuma şüurlu münasibət bəsləməyi öyrətmək lazımdır. Sözün leksik mənası dedikdə, onun əşya və hadisələri ifadə etmək qabiliyyəti, başqa sözlə maddi mənası, obyektiv varlığın müxtəlif hadisələri ilə (əşya, əlamət, hərəkət və s.) münasibəti nəzərdə tutulur. Qrammatik məna isə hər cür konkretlikdən məhrum olan ümumiləşmiş mənadır (isim, sifət, say, əvəzlik, fel və s.).

Akademik V.V.Vinoqradov sözün leksik mənasının müxtəlif faktlarla müəyyən olunmasından bəhs edərək yazır ki, söz bir çox hallarda ifadə etdiyi anlayışa uyğun gəlir. Leksik məna sözün aid olduğu nitq hissəsinin, qrammatik kateqoriyanın xassəsindən,ictimai məna daşıyan kontekstdən, başqa sözlərlə konkret əlaqələrindən, sinonimlərlə semantik münasibətindən, ekspressiv üslubi rəngindən asılı olur (Vinoqradov, 1953:6).

Buradan da belə nəticəyə gəlirik ki, hər bir sözün mənası başqa sözlərdən təcrid olunmuş halda deyil, kontekst daxilində izah olunmalıdır. Belə olarsa, öyrənənlərin lüğət ehtiyatı sözlərin mənasının dərk edilməsi yolu ilə zənginləşər. Müəyyən olunmuşdur ki, sözlərin mənimsənilməsi mücərrəd mühitdə deyil, daha çox kontekstual mühitdə davam etdikdə insanlar sözləri daha yaxşı öyrənirlər. Bundan irəli gələrək dil mühiti nə qədər zəngin olarsa, kontekstdə qavranılan leksik vahidləri çatdırmaq və onların əhəmiyyətini anlamaq da bir o qədər asan olar.

Tarixən lüğət fondunu zənginləşdirilməsində bir çox metod, strategiya və üsullardan istifadə edilmişdir. Bu gün cəmiyyətin inkişafı və dövrümüzün reallığı olan qloballaşma xarici dillərin tədrisinin metodikası və metodologiyasında da yeniliklərin meydana gəlməsinə birbaşa təsir göstərməkdədir.

Məsələyə məhz bu prizmadan yanaşıldığında xarici dildə lüğət fondunun zənginləşdirilməsi üçün şifahi xalq yaradıcılıq nümunələrinin bir növü olan atalar sözlərindən istifadə etməyin əhəmiyyəti inkar edilə bilməz.

Ümumiyyətlə xalq yaradıcılığı nümunələri özündə müəyyən dil strukturlarını ehtiva edir. Bugün ədəbiyyat və dil arasında olan əlaqə inkar edilə bilməz. Brumfit və Karter ədəbiyyatın rolunu " dil mütəffiqi " kimi vurğulayırlar (Brumfit and Carter, 1986:21). Xarici dili öyrənməyin ən effektli yolu o dildə mövcud olan ədəbi əsərləri təhlil etməkdən keçir. Çünki bu ədəbi əsərlərin hər biri dilin strukturunu, onun lüğət fondunu özündə qoruyub saxlayan dəyərli nümunlərdir.

Bu cür materiallar tələbəni zəngin dil konteksti ilə təmin etməklə yanaşı, onda mövcud dilin mədəniyyəti haqqda şüurlu münasibət yaradılmasına şərait yaradır.

Dərs prosesində atalar sözlərindən istifadə edən zaman bir sıra nüanslara diqqət yetirilməlidir. Belə ki, atalar sözlərini təşkil edən ayrı-ayrı leksik vahidlər öz lüğəvi mənalarındandan uzaqlaşaraq bütövlükdə bir məna, bir anlayış bildirir. Atalar sözlərinin bu təbiətini bilməyən tələbələrlər məhz buna görə tez-tez səhvlər edir və atalar sözlərini başa düşə bilmirlər (Vinoqradov, 1953:6).

Məhz buna görə də ilk öncə ədəbi növün malik olduğu bu xüsusiyyət şagirdlərə izah edilməlidir. Bundan sonra sabit söz birləşmələri olan belə xalq yaradıcılığı nümunələrindən istifadə etməklə tələbənin söz ehtiyatını, lüğət fondunu zənginləşdirmək olar.

Bildiyimiz kimi dili öyrənmək həmin dilin malik olduğu mədəniyyəti mənimsəməyi də tələb edir. Bu amilə diqqət yetirdikdə də atalar sözlərinin təlim prosesində əhəmiyyətlilik dərəcəsi aydın olur. Yəni atalar sözləri dildə mövcud olan leksik frazaları özündə ehtiva etməklə yanaşı hədəf dilin mədəniyyətinə dair fikir formalaşmasına da xidmət göstərir.

Fikrimizcə, xarici dilin tədrisində atalar sözlərindən istifadə imkanları bu tərzdə qruplaşdırıla bilər:

1) Atalar sözləri lüğətin tədrisində sinonim və antonimlərin öyrədilməsinə zəmin yaradır- Bu ədəbi növ daxilində çox zaman bir sözün sinonimi və antonimi eyni anda göstərilir. Bu isə hədəf dildə mövcud olan leksik vahidin sinonim və antonimlərinin öyrədilməsində çox böyük rol oynayır.

2) Bu nümunələrdən istifadə etməklə abstrakt sözləri öyrətmək mümkündür. Xarici dilin tədrində abstrakt sözlərin öyrədilməsi müəllim üçün əsl problemə çevrilə bilər. Bu ədəbi janrlar isə tələbənin bu cür məfhumları kontekst daxilində başa düşməsinə şərait yaradır.

3) Dilin malik olduğu zəngin ifadə tərzini şəxsə mənimsətməyə kömək olur. Atalar sözləri fikrin daha gözəl ifadə edilməsində, nitqdə ifadə edilən fikrin əsaslandırılmasında əhəmiyyətli mövqeyə malikdir. Bu xalq ədəbi nümunələri vasitəsilə tələbənin nitqi, onlarda sözün malik olduğu dərin məna yükünü situasiyalarda düzgün istifadə etmək bacarığı formalaşdırılır.

4) Hədəf dilin mədəniyətini öyrədən zaman müəllimə kömək edir. Atalar sözləri hədəf dilin mədəniyyəti ilə bağlı informasiyanı vermək istədikdə ESL tədrisində faydalı vasitə hesab edilir. Çünki atalar sözü mədəniyyətin sahib olduğu dəyərləri özündə ehtiva edir. Xalqın düşüncə tərzi, fikirləri bu ədəbi növ vasitəsilə öyrənənlərə çatdırılır.

5) Dil tədrisində şəxsin yazılı və şifahi dil arasında olan fərqliliyi başa düşməsinə kömək olur.

Tələbələr ingilis dilini müəyyən səviyyədə öyrəndikdən sonra atalar sözlərindən istifadə edərək, onların lüğət fondunu zənginləşdirmək və şifahi nitqini inkişaf etdirmək olar.

Əgər bir xalqın mentalitetini (düşüncə tərzini) öyrənmək istəyirsənsə, həmin dildə mövcud olan atalar sözlərinə müraciət et (Lazar, 1993:20). Bu fikirlərə əsaslanaraq, hər bir müəllim çalışmalıdır ki, dərs prossində atalar sözlərindən istifadə imkanlarından yararlana bilsin. Onun üçün müəllim əvvəlcədən hazırlıq görməli və atalar sözlərini düzgün şəkildə seçməlidir. Həmçinin bu prosesdə tələbənin hədəf dildə olan mövcud lüğət ehtiyatı, yaş səviyyəsi və onların xarici dildə ehtiyyacları nəzərə alınmalıdır.

Seçilən atalar sözlərini ya lövhədən asmaq, ya da proyektorla lövhəyə salmaq olar. Sonra isə həmin atalar sözlərinin lüğət tərkibi müzakirə edilə bilər. Bu ədəbi nümunələr içərində olan sözlər müəllimin köməyi ilə tərcümə edilməlidir. Müəllimin tələbələrə tapşıra bilər ki, lövhədəki atalar sözlərinin azərbaycanca ekvivalentini tapsınlar.

Atalar sözlərini azərbaycan dilinə hərfi tərcümə etmək olmur. Öyrənənlər bu cür tərcümədə çətinlik çəkirlər. Ona görə də müəllim, təxminən, aşağıdakı atalar sözlərinin azərbaycan dilində ekvivalentini imkan dairəsində verməyə çalışmalıdır ki, öyrənənlər onların mənasını asan başa düşsünlər və uzun müddət yadlarında saxlaya bilsinlər.

Əvvəl düşün, sonra danış- First thing, then speak.
Hər işin öz vaxtı var- There is a time for all things.
Nə əkərsən, onu da biçərsən- As you sow, you shall mow.
Dəmiri isti-isti döyərlər- Strike while the iron is hot.
Ağıl ağıldan üstündür- Two heads are better than one.
Sən saydığını say, gör fələk nə sayır- Man proposes, God disposes
Ot kökü üstə bitər- Like father, like son
İşləməyən dişləməz- No bees, no honey, no work no money.
Çox oxuyan çox bilməz, çox gəzən çox bilər- He that travels much know`s much.
Hər üzə gülənə dost deməzlər- All are not friends that speak us fair (Wilson, 1970: 25).

Atalar sözlərindən istifadə etməklə didaktik oyunlar da keçirtmək olar. Bu məqsədl müəllim sinifi 2 komandaya bölür. Birinci komandadan olan tələbə atalar sözünün birinci yarısını şəkillər vasitəsilə təsvir edir, ikinci komandadan olan şagird isə rəsmə əsasən sözü tapıb atalar sözünü tamamlamalıdır. Atalar sözünü tapan komanda 1 xal qazanır. Axırda xallar hesablanır və buna əsasən qalib komanda seçilir.

## Nəticə

Atalar sözlərindən istifadə edərək keçirilən bu cür fəaliyyət yeni sözlərin yaddaşda şüurlu mənimsənilməsini təmin etməklə yanaşı tələbənin təfəkkürünü inkişaf etdirərək sinifdə motivasiyaedici mühit yardılmasında əhəmiyyətli rol oynayır (Taylor, 2000:30).

Rovland Xarici dil tədris edilən siniflərdə atalar sözlərinin əhəmiyətini və yerini bu tərzdə dəyərləndirir (Rowland, Durbin 19 26: 89).

1) Atalar sözləri dili kontekstdə öyrətməyə şərait yaradır;
2) Leksik bazanın şüurlu inkişafını təmin edir;
3) Tələbəni hədəf dillə bağlı zəngin ifadə tərzləri ilə silahlandırır;
4) Öyrənmək üçün motivasiyaedici mühit yaradır;
5) Tələbəyə öyrədilən xarici dilin mədəniyyəti ilə tanış olmaq imkan verir;
6) Folklor nümunələrinə şagirdin dərsə marağını artırdığı kimi, onun mənəvi tərbiyəsinə də öz müsbət təsirini göstərir.
7) Anlayışların mənasını təxmin etmək qabiliyyətini qazandırır
8) Öyrənənlərdə estetik zövqü formalaşdırır

Bütün bu fikirlər ikinci dilin tədrisində atalar sözünün tutduğu mövqeyi və onların tədris prosesində oynadığı rolu göstərir. Təkcə mövcud ədəbiyyatda səsləndirilən fikirlərə nəzər salmaqla kifayətlənmək olmaz. Daha əvvəl qeyd etdiyimiz kimi atalar sözlərini təşkil edən ayrı-ayrı leksik vahidlər öz lüğəvi mənalarından uzaqlaşaraq bütövlükdə bir məna, bir anlayış bildirir. Ədəbi nümunələrin bu xüsusiyyətinə bələd olmayan tələbələrin tez-tez səhvlər etməsi qaçınılmaz olur. Məhz buna görə də ilk öncə ədəbi növün malik olduğu bu xüsusiyyət onlara izah edilməlidir. Bu isə müəllimdən xüsusi bilik və müstəsna pedaqoji ustalıq tələb edir. Məsələnin pedaqoji və metodloji cəhətini bilmədən atalar sözülərindən ikinci dilin tədrisində, lüğət ehtiyatının və nitqin inkişaf etdirilməsi mərhələsində prosesində istifadə etmək mümkünsüz görünür.

**Ədəbiyyat**

1. Brumfit, C.J. and R.A. (1986 ) , Carter. English literature and English language, Oxford: Oxford University Press, p21.
2. David Birch. ( 1995), Context and Language: A Functional Linguistic Theory of Register London, New York: Pinter.
3. E.P.Wilson.(1970), The Oxford dictionary of English proverbs, Oxford: Oxford University Press, 3 edition .
4. Lazar, G. (1993), Literature and Language Teaching: A Guide for Teachers and Trainers. Cambridge: Cambridge University Press.
5. McKay S.L. (2001), Literature as content for ESL/EFL. New York: Heinle and Heinle
6. Rowland, Durbin. (1926), The use of proverbs in beginners' classes in the modern languages. Modern Language Journal № 11.
7. Vinoqradov V.V. (1953), Leksikologiya və leksikoqrafiya, № 5.
8. Taylor, E. K. (2000), Using folktales. Cambridge: Cambridge University Press.

**Rəyçi: fil.e.d. Qəzənfər Kazımov**

Göndərilib: 12.04.2022 Qəbul edilib: 18.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/123-126

**Ruslan Şahin oğlu Həsənzadə**
Bakı Mühəndislik Universiteti
magistrant
hesenzade1498@gmail.com

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ SOSİAL MEDİADAN İSTİFADƏ İMKANLARI

**Xülasə**

Tədqiqat sosial media anlayışını, müasir sosial quruluşun və sosial medianın mümkün təsirlərini, bu sahədə elm adamlarının nəzəri və konseptual yanaşmalarını, sosial medianın geniş təsirini, sosial medianın əsas alətləri və istifadə nümunələrini əhatə edir. Tədqiqat obyekti kimi ənənəvi dövlət idarəçiliyində sosial medianın rolu araşdırılıb. Tədqiqatın mövzusu bir çox ölkələrin siyasi idarəçiliyində, o cümlədən Azərbaycan dövlətinin inzibati strukturunda sosial medianın rolu olmuşdur. Bundan əlavə, sosial media vasitəsilə sosial transformasiya təhlil edilib və sosial media anlayışına müqayisəli yanaşmalar aparılıb. Bütün dövlət qurumlarını əhatə edən təhlil metodundan istifadə etmək mümkün olmadığı üçün təhlil yalnız prezidentlik və baş nazir kimi dövlətin ən yüksək səviyyələrində istifadə edilən sosial media hesablarının müəyyən edilməsi kontekstində aparılıb. Tədqiqat zamanı yerli təcrübə ilə yanaşı, dövlət idarəçiliyi sahəsində beynəlxalq təcrübədən də istifadə olunub. Ölkəmizin yerli təcrübəsi dövlət idarəçiliyində sosial mediadan istifadə nümunələri verilmişdir.

***Açar sözlər:*** *ictimai münasibət, sosyal medya, idarəçilik, dövlət, transformasiya*

**Ruslan Shahin Hasanzade**

## Opportunities to use social media in public administration

**Abstract**

The research covers the concept of social media, the possible effects of modern social structure and social media, the theoretical and conceptual approaches of scientists in the field, the broad impact of social media, the main tools of social media, and examples of their use. The role of social media in traditional public administration as an object of research has been investigated. The subject of the study was the role of social media in the political governance of many countries, including the governing structure of the Azerbaijani state. In addition, the social transformation was analyzed by social media, and comparative approaches to the concept of social media were conducted. As it is not possible to use the analysis method to cover all government agencies, the analysis was conducted only in the context of identifying social media accounts used by the highest levels of government, such as the presidency and the prime minister. The study used international experience in public administration and local expertise. The local expertise of our country provides examples of the use of social media in public administration.

***Key words:*** *public relations, social media, governance, state, transformation*

## Giriş

Hazırda Azərbaycan vətəndaşları internetdən və smartfonlardan fəal istifadə edirlər. Texnologiyanın gələcəyə istiqamət vermək gücünə malik olduğundan, illər ərzində informasiya və kommunikasiya texnologiyasındakı inkişaflar nəticəsində siyasi kommunikasiyanın inqilabi dəyişikliklərə məruz qalması təəccüblü deyildi (Cahangirli,2015:207). Nəticə etibarilə, sosial medianın siyasi kampaniyaya daxil edilməsi siyasi kommunikasiyanı tamamilə fərqli bir vəziyyətə gətirdi. 2016-cı il ABŞ prezident seçkiləri haqqında necə məlumat əldə etdiyini ortaya qoyan araşdırma göstərir ki, ABŞ vətəndaşlarının 44%-i 2016-cı il prezident seçkiləri ilə bağlı məlumatları izləmək üçün sosial mediadan istifadə edib. Eyni araşdırmanın başqa bir tapıntısı isə 18-29 yaşlı insanların ən çox kabel televiziyası xəbərlərinə üstünlük verən digər yaş qruplarından fərqli olaraq məlumat mənbəyi kimi sosial mediaya üstünlük verdiyini təsdiqləyir, deməli, siyasətçilərin siyasi kampaniyalarını aparmaq üçün internetə girməkdən başqa variantları yoxdur. Növbəti seçkilərdə siyasi namizədlərin qarşıdakı illərdə öz iştiraklarını artırmaq üçün tədricən onlayn vasitələrdən istifadə edəcəyi proqnozlaşdırılır və son seçkilər bu

proqnozun doğruluğunu nümayiş etdirir. Bütün bunlar onlayn məkanda sosial medianın seçki kampaniyaları üçün nə qədər vacib olduğunu göstərir.

Sosial media marketinqi (SMM) şirkətin öz maraqlı tərəflərinə dəyərlər təklif edən sosial media platformalarında onlayn marketinqlə bağlı fəaliyyətlərin yaradılması və təşviqi prosesi kimi təsvir edilə bilər (Pham, Gammoh , 2015: 325). Bundan başqa şirkətlərin sosial media platformaları vasitəsilə onlayn marketinq təklifləri yaratması, ünsiyyət qurması və təqdim etməsi prosesi, maraqlı tərəflər arasında qarşılıqlı əlaqəni, məlumat mübadiləsini asanlaşdırmaq, fərdiləşdirilmiş satınalma tövsiyələri təklif etmək və şifahi söz yaratmaqla maraqlı tərəflərin dəyərini artıran maraqlı tərəflərlə əlaqələr qurmaq və saxlamaqdır. İstehlakçılar sosial mediada məlumat axtarmağa meylli olduqlarından məhsulların və ya xidmətlərin təbliğinin ənənəvi yolu sosial media marketinqi (SMM) ilə müqayisədə daha az təsirli olacaq, buna görə də sosial media platformaları brendlər haqqında məlumatı təbliğ etmək üçün çox istifadə olunur (Khan, 2017:239). Məlum olub ki, istehlakçıların satın alma niyyəti və marka seçiminə reklam səyləri təsir edir, çünki o, brend kapitalını artırmaq potensialına malikdir. Bundan əlavə, sosial media marketinq səylərinin əsas nəticələrinin müştərilərlə əlaqə yaratmaq və saxlamaq və müştərilərin marka imicini necə qəbul etdiyini formalaşdırmaq olduğu qeyd etmək olar.

Ənənəvi media hələ də siyasət haqqında məlumat almaq üçün əsas platforma olsa belə yeni media müxtəlif növ kampaniyalar üçün alternativ tanıtım platforması kimi intensiv şəkildə istifadə edilmişdir və bütün dünyada namizədlər öz siyasi fəaliyyətlərinin bir hissəsi kimi sosial mediadan intensiv şəkildə istifadə edirlər. Siyasətçilər texnoloji zərurətlərə görə bu platformaları öz planlarına daxil etmiş kimi görünsələr də, sosial media fəaliyyətinin xəbərləri səbəbindən buna meyllidirlər. İlk növbədə, sosial mediadan siyasi təşviqat vasitəsi kimi istifadə etməklə, siyasi namizədlər nəinki birbaşa vədlərini və seçildikləri zaman həyata keçirəcəkləri siyasəti izah etmir, həm də seçicilərin qavrayışını formalaşdırmaq istədikləri kimi seçki hekayələrini tərtib edə bilərlər. Seçicilərin seçimlərində namizəd imicinin əhəmiyyətini nəzərə alaraq, sosial medianın siyasi kampaniya planlarına inteqrasiyası siyasətçilərə ən uyğun namizəd şəkillərini çəkməklə kampaniya məqsədlərinə çatmağa kömək edir. Sosial medianın siyasi namizədlər üçün başqa bir faydası seçicilərin siyasi iştirakını artırmaqdır. Bundan əlavə, sosial media həm də ünvanlı ünsiyyətə imkan verir ki, bu da eyni mövzunun müxtəlif seçici seqmentlərinə müxtəlif reklamlarla çatdırıla bilməsi deməkdir ki, bu da seçicilərlə əlaqə saxlamağın daha təsirli yolu kimi görülür. Üstəlik, sosial mediadakı siyasi məzmun siyasi namizədlər üçün imkanlar yaradır, çünki xəbərlər məzmundan çox, insanların hisslərini və mülahizələrini namizədlərin ümumi münasibəti ilə çatdırmaq üçün alətlərdir. Bundan əlavə, sosial media platformalarında eyni məsələ ilə bağlı müxtəlif fikir və tövsiyələrə məruz qalma ehtimalı olduğundan, sosial mediadan istifadə edən insanların fərqli məlumat və ya dünyagörüşləri haqqında daha açıq fikirli olduqları aşkar edilmişdir.

Bundan əlavə, hər yerdən 7/24 onlayn ünsiyyət imkanları, interaktiv quruluş, dezinformasiyaya qarşı ani müdaxilə və qapıçıların mərhəmətinə qalmamaq sosial medianın siyasi namizədlərə təqdim etdiyi imkanlardır. Üstəlik, sosial mediadan siyasi kampaniyaya xərcləmək üçün kifayət qədər büdcəsi olmayan və ya bir neçə səbəbə görə ənənəvi mediada işıqlandırılma şansı az olan namizəd istifadə edə bilər, buna görə də siyasi ünsiyyətdə sosial media bir çox siyasətçilərə potensial olaraq səlahiyyət verən "siyasi ekvalayzer" (Huijgh, 2016:456) kimi görünə bilər ki, bu da sosial media dövründən əvvəl mümkün deyil. Nəhayət, sosial medianın köməyi ilə siyasətçilərin indi ianə istəmək, siyasi mesajlarını göndərmək və insanları seçkilər zamanı onlar üçün işləməyə inandırmaq üçün işə götürüləcək yeni alətlər var. Eyni zamanda, seçicilər mümkün olan ən aşağı qiymətə siyasi namizədlərə məruz qalırlar.

İdarəetmə prosesi bütün ictimaiyyətlə müntəzəm məlumat axını tələb etdiyi üçün korporativ idarəetmə ictimai münasibətlərlə paralel həyata keçirilməlidir. Korporativ idarəetmə anlayışı insanların problemlərinə həll yolları təklif edən və bu həll yollarını dəyərləndirərək ictimaiyyət tərəfindən seçilən siyasi partiyalar baxımından daha çox ön plana çıxır (Güləliyeva S., 2019: 12). Bu gün sosial media ictimaiyyətlə münasibətlərdə və korporativ idarəetmə təcrübələrində Facebook və Twitter-dən istifadə vacibdir, çünki onlar ictimaiyyətin məlumat əldə etməsini təmin edən çox mühüm kanaldır.

Korporativ idarəetmə təkcə böyük şirkətlər üçün deyil, həm də kiçik bizneslər və hətta qeyri-kommersiya təşkilatları üçün də vacib elementdir. Çünki korporativ idarəetmə həm idarəetmə baxımından, həm də resurslara çıxışda davamlılığın təmin edilməsi baxımından mühüm hesab edilir. Bundan əlavə, qurumun nüfuzunu və dəyərini artırır, qurumların öz maraqlı tərəfləri ilə etibarlı əlaqələr

qurmasına dəstək olur və maraqlı tərəflərin quruma sədaqətinin təmin edilməsində mühüm rol oynayır. Bu səbəbdən korporativ idarəetmə anlayışı üzərində vurğulanması lazım olan bir anlayışdır. Maraqlı tərəflərlə münasibətlərin və korporativ etibarlılığın vacib hesab edildiyi müasir şəraitdə korporativ idarəetmənin qəbul edilməsi və həyata keçirilməsi lazımdır (Allagui, Breslow, 2016: 24).

Dövlət idarəçiliyində texnoloji determinist yanaşma dövlətin fərdlər üzərində öz gücünü təmsil etmək və qanuniləşdirmək üçün texnologiyadan istifadə etdiyi bir üsuldur. Dövlət özünün istehsal etdiyi qaydalar və qanunlar sistemi vasitəsilə fəaliyyət göstərir. Əhali tərəfindən tələblərin yerinə yetirilməsini təmin etməyin ən ümumi yolu cəza və ya mükafatlardan istifadə etməkdir. Texnoloji determinist yanaşma texnologiyaya dövlətin fərdləri idarə edə bildiyi bir sistemin qurulması kimi baxır. Texnoloji deterministik yanaşma nümayiş etdirir ki, dövlət bunun üçün zəruri olan institusional güc yaratmaq üçün texnologiyadan istifadə edərək öz vətəndaşlarını idarə edə bilir. Texnologiyanın bu hərəkətverici qüvvə kimi çıxış etdiyini nəzərə alsaq, onu Karl Marks və digər nəzəriyyəçilər müasir cəmiyyətlərin müəyyənedici xüsusiyyəti hesab edirlər. Texnoloji determinizm texnologiya ilə cəmiyyətin təbiəti arasında səbəb əlaqəsini təmin etməyi hədəfləyən reduksionist nəzəriyyədir. Texnoloji determinizm texnologiyanı cəmiyyətdə inkişafın hərəkətverici qüvvəsi kimi göstərən reduksionist bir nəzəriyyədir (Həbibova, 2018: 49).

Əgər dövlət xidmətlərin hamı üçün əlçatan olmasını təmin etmək iqtidarındadırsa, insanlar bu resurslardan istifadə edəcəklər. Texnoloji deterministik yanaşma dövlətə fərdlər üzərində hakimiyyətinin qorunub saxlanıla biləcəyinə əmin ola biləcəyi şərait yaratmağa imkan verir. Texnoloji determenist yanaşma bir cəmiyyətin texnologiyasının onun mədəni dəyərlərini, sosial quruluşunu və tarixini təyin edən nəzəriyyədir.

Aydındır ki, bu gün diplomatiyaya təsir edən əsas amil kommunikasiya və informasiya texnologiyalarının dəyişməsidir. Rabitə və informasiya texnologiyaları insanların ünsiyyət və məlumat mübadiləsi üsullarında inqilab etdi və qlobal siyasəti, sosial və iqtisadi mənzərəni dəyişdi. Texnoloji innovasiya ölkələrin imtina edə bilməyəcəyi beynəlxalq əlaqələr yaratmaqla qloballaşmaya töhfə verir. İnternet, xüsusən də "informasiyanın yayılması, mübadiləsi və saxlanmasına imkan verən kommunikasiya vasitəsi" anlayışı ilə ictimai və özəl ünsiyyətdə mərkəzi yer tutmuşdur. Sosial media internet ətrafında formalaşan yeni siyasət sahələrində iştirak etmək istəyən dövlətlər, beynəlxalq təşkilatlar və fərdlər üçün böyük imkanlar və mübarizələr ehtiva etsə də, daha əlaqəli və vahid bir baxışa sahib olmaq üçün müxtəliflik təklif edir.

Dövlət xidmətlərinin səmərəli şəkildə təmin edilməsi səyləri yeni dövlət idarəçiliyi yanaşmasının biznes prinsipləri və texnikalarından istifadəni gündəmə gətirmişdir. Bu gün bir çox ölkələrin dövlət sektoru rəqabətədavamlı bazar mexanizmlərindən və özəl sektorun idarəetmə üsullarından istifadə etməklə əhəmiyyətli dəyişikliklər edir. İstər mərkəzi hökumət, istərsə də yerli hökumətlər səviyyəsində dövlət-özəl tərəfdaşlıq və əməkdaşlıqlar, yerli xidmətlərin göstərilməsində özəlləşdirmə üsullarından istifadə, mərkəzi hökumətdən yerli idarələrə ötürülən xidmətlər mərkəzsizləşdirmənin ölçülərini ortaya qoyur.

Dövlət idarəçiliyində ictimai transformasiyanın əhəmiyyətini artırılmasında sosyal medianın rolu getdikcə artırılmalıdır. Bu kontekstdə biz fərdi rəqəmsal cihazlardan və onlayn sosial şəbəkələrdən istifadənin dövlət idarəetmə şöbələri tərəfindən necə istifadə oluna biləcəyinə baxmalıyıq. Eyni zamanda, rəqəmsal kanalların ictimai həyat və xidmətlər üçün siyasətçilər və dövlət rəsmiləri ilə koordinasiyalı şəkildə, sosial media mühitindən istifadəsinə dəstək vermək lazımdır.

Ənənəvi dövlət idarəçiliyində sosial şəbəkə saytları və seçkilər arasındakı əlaqəyə diqqət yetirən bir araşdırma getdikcə populyarlaşır. Yeni Zelandiyada aparılan bir araşdırma sosial şəbəkələrin ölçüsü ilə seçki nəticələri arasında kiçik, lakin müsbət əlaqəni ortaya qoyur (Cameron, Barrett, Stewardson, 2016:419). Buna görə də namizədlərin diqqətinin sosial media strategiyalarında cəmlənməsi təklif edilir (Cameron, Barrett, Stewardson, 2016: 420). Siyasətdə sosial media dalğası olsa belə, bəzi araşdırmalar rəqəmsal medianın artan iştirak baxımından gözlənilən nəticələri vermədiyini iddia edir. Məsələn, Groshek və Dimitrova sosial medianın 2008-ci il ABŞ prezident seçkiləri zamanı istifadəçilərin səsvermə niyyətinə təsir etmədiyini iddia edirlər (Groshek, Dimitrova, 2011: 359).

## Nəticə

Tədqiqat nəticəsində sosial media mühiti və onun dövlət idarəçiliyində rolu araşdırılmışdır. Bu sistemə proqram təminatının əlavə edilməsi ilə fərqli bir forma alır və arxa planda əsas istifadəçinin kim olduğu aydın olmayan sosial media kanalında avtomatlaşdırma əsaslı struktura meyl var. Bu kontekstdə gələcəkdə süni intellekt texnologiyaları və sosial bot və s. kimi ağıllı proqram tətbiqlərinin artacağı və sistemi daha da mürəkkəbləşdirəcəyi proqnozlaşdırılır və planlara daxil olmayan sosial media idarəçiliyinin uğurlu nəticə verməyəcəyi qənaətinə gəlinib.

Sosial mediada yazılan yazının rəsmi yazışmalarda olduğu kimi qurumu rəsmi təmsil etməsi anlayışı ümumi qəbul olunsa da, bu, natamam yanaşma kimi qiymətləndirilir və heç də həmişə mümkün görünmür. Sosial mediada edilən paylaşımların çox qısa müddətdə silinə və ya dəyişdirilə bilməsi nəticəsində bəzən hər hansı bir mövzuda institusional baxışın nə olduğu ilə bağlı dəqiq mövqe ortaya qoyula bilmir. Qurumun yüksək səviyyəli rəhbərləri tərəfindən edilən paylaşımlar da oxşar vəziyyətlə üzləşə bilər və qurumun sosial mediada təmsil olunması mübahisəli olmaqda davam edir. Bununla belə, korporativ sosial media əməliyyatı ilə təyin edilmiş personal tərəfindən edilən hər bir yazı üçün qurumu təmsil etmək anlayışı və məsuliyyətində olmaq tövsiyə olunan bir yanaşmadır.

Dövlət qurumlarında sosial media hesablarının fəaliyyətinə cavabdeh olan personalın hədəf kütlələri ilə ünsiyyətinə mənfi təsir göstərən mühüm məsələ trol hesablarıdır. Dövlət qurumları ilə ünsiyyətdə olan şəxslərin trollük məqsədi ilə etdikləri postların digər normal postlardan fərqlənmədiyi hallarda işçi qüvvəsində vaxt itkisi baş verə, mövzu və keyfiyyətdən asılı olaraq müvafiq dövlət qurumuna mənfi təsir göstərə bilər.

## Ədəbiyyat

1. Allagui, I., & Breslow, H. (2016), Social media for public relations: Lessons from four effective cases". Public relations review, , vol 1, №42, p.20-30.
2. Cahangirli, C. (2015), Dövlət idarəçiliyi Mahiyyəti və müasir formaları, Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, , №50, s.205-212.
3. Cameron, M. P., Barrett P., & Stewardson B. (2016),Can social media predict election results? Evidence from New Zealand. Journal of Political Marketing, №15, p.416-432.
4. Groshek J., & Dimitrova D. (2011), A cross-section of voter learning, campaign interest and intention to vote in the 2008 American election: Did Web 2.0 matter, Communication Studies Journal, №9, p.355-375
5. Güləliyeva, S. (2019), Dövlət idarəçiliyi və islahatlar, Kredo, s.12.
6. Həbibova, Z.Z. (2018), Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi dərsliyi, Azərb. Resp. Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı, 231 s.
7. Huijgh, E. (2016). Public diplomacy. The SAGE Handbook of Diplomacy. London: Sage, p. 437-450.
8. Khan, M. L. (2017). "Social media engagement: What motivates user participation and consumption on YouTube?", Computers in human behavior, №66, p.236-247.
9. Pham, P. H., & Gammoh B. S. (2015), Characteristics of social-media marketing strategy and customer-based brand equity outcomes: a conceptual model, International Journal of Internet Marketing and Advertising, №9, p.321-337.

**Rəyçi: s.e.ü.f.d. Manaf Bağırzadə**

Göndərilib: 15.04.2022 Qəbul edilib: 20.05.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/127-131

**Şamil Asil oğlu Əhmədov**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
shamilahmadov@mail.ru

# ERMƏNİ İŞĞALI NƏTİCƏSİNDƏ EMAL MÜƏSSİSƏLƏRİNDƏ YARANMIŞ İTKİLƏRİN İQTİSADİ MAHİYYƏTİ

## Xülasə

Ərazilərimizin işğalı nəticəsində emal müəssisələrindəki itkilərdən söz açmazdan əvvəl, itkilərin ümumi təsnifatını aparmaq məqsədəuyğundur.

İtkilər əməliyyata töhfə verməyən hər hansı bir hərəkətdir - gözləmə, yarımfabrikat hissələrin yığılması, yenidən yükləmə, materialın bir əldən digərinə keçirilməsi və s.

İki növ əməliyyat var: əlavə dəyər yaradan və əlavə dəyər yaratmayan əməliyyatlar. Sonuncu itkilər hesab edilə bilər - bu, hissələrin anbarına getməsi, çatdırılan hissələrin və birləşmələrin qablaşdırılması, avadanlıqların qurulmasıdır. Lakin işi təkmilləşdirmədən onları tamamilə istisna etmək olmaz. Dəyər artıran əməliyyatlar əslində forma və ya keyfiyyətini dəyişdirərək materialları dəyişdirir. Bu transformativ hərəkətlər işlənir. Bu hərəkətlər xammalı hissələrə və ya məhsullara çevirir və hissələrin yığılması, xammalın döyülməsi, polad lövhələrin ştamplanması, qaynaq, istilik müalicəsi və ya gövdənin rənglənməsi kimi yollarla dəyər əlavə edir. Əlavə dəyər nə qədər çox olarsa, əməliyyat səmərəliliyi bir o qədər yüksək olar.

***Açar sözlər:*** *audit, mühasibat, uçot, vergi, emal müəssisələri*

**Shamil Asil Ahmadov**

# The economic significance of losses in processing enterprises as a result of the armenian occupation

## Abstract

Before talking about the losses in processing enterprises as a result of the occupation of our territories, it is expedient to conduct a general classification of losses.

Losses are any actions that do not contribute to the operation - waiting, assembly of semi-finished parts, reloading, transfer of material from one hand to another, etc.

There are two types of transactions: value-added and non-value-added. The latter losses can be considered - this is the going to the warehouse of parts, packaging of delivered parts and assemblies, installation of equipment. However, they cannot be completely ruled out without improving the work. Value-added operations actually change materials by changing shape or quality. These transformative actions are processed. These actions convert raw materials into parts or products and add value in ways such as assembling parts, forging raw materials, stamping steel plates, welding, heat treatment, or body painting. The higher the added value, the higher the operational efficiency.

***Keywords:*** *audit, accounting, bookkeeping, tax, processing enterprises*

## Giriş

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində itki və itkilərin qiymətləndirilməsi üzrə işçi qrupu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin materialları əsasında kitab nəşr edib. Kitabda ölkəmizin 22 il ərzində ermənilərin işğalı altında olan torpaqlarında itirdiyi və vurduğu zərərin miqdarı açıqlanıb.

Beynəlxalq standartlara uyğun metodoloji əsaslara istinadən ərsəyə gələn hesabatın hazırlanmasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri, İşçi Qrupun üzvləri ilə birgə qiymətləndirmə və konsaltinq üzrə ekspertlər də iştirak edib. Hesabatda bilavasitə Ekologiya

və Təbii Sərvətlər Nazirliyinin "İşğalda olan ərazilərdə ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsiri müəyyənləşdirən Operativ Mərkəzi"nin bir neçə il ərzində topladığı araşdırma materiallarından istifadə olunub (Abbasov, 2018:109). ETSN ilə İşçi Qrupun 2014-cü ilin əvvəlindən başladığı birgə fəaliyyətin nəticəsi olaraq hazırlanan kitab, ermənilərin işğal etdiyi ərazilərimizdə canlı təbiətə və bütövlükdə bəşəriyyətə qarşı törətdiyi ekoloji cinayətlərin arqumentli ifadəsi, həmçinin ölkəmizə dəyən maddi-mənəvi ziyanın dünya ictimaiyyəti və beynəlxalq təşkilatlara çatdırmaq üçün faktoloji sübutudur (11).

Hesabatda ətraf mühit, təbii sərvətlər, onların qiymətləndirilməsi üsulları, beynəlxalq hüquqda vurulmuş zərərlərin ödənilməsinin hüquqi şərtləri, zərər və itkilərin iqtisadi qiymətləndirilməsinin metodoloji əsasları haqqında aparılan araşdırmalar dəyən zərərin obyektiv, elmi əsaslarla qiymətləndirilməsinə dəlalət edir. Yəni 6 əsas sahə-faydalı qazıntı yataqlarının talanı, biomüxtəlifliyin, meşələrin məhv edilməsi, torpaqların sıradan çıxarılması, istifadədən məhrum olunması, su, su anbarları və ətraf mühitin çirkləndirilməsi üzrə ekoloji zərərlər, o cümlədən əhaliyə dəymiş mənəvi-ekoloji zərərlər qiymətləndirilib, 22 illik işğal dövrünü əhatə edib və ümumilikdə Azərbaycana dəyən ziyan 265 milyard 281 milyon 198 min 203 dollar civarında hesablanıb.

Xatırladaq ki, "Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrup" Nazirlər Kabinetinin 26 fevral 2014-cü il tarixli sərəncamı ilə yaradılıb.

Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 06 noyabr tarixli "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"na əsasən ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə Dövlət Komissiyası yaradıldı.

Sərəncamdan irəli gələn vəzifələri yerinə yetirilməsi məqsədilə Dövlət Komissiyasının noyabrın 09-da ilk iclası keçirildi.

Noyabrın 12-də Azərbaycan Respublikasının Baş Naziri Prezidentin tapşırıqlarının həyata keçirilməsini təmin etmək üçün müvafiq Sərəncam imzalayıb.

Sərəncama əsasən 3 qrup yaradılıb:

- NK Aparatı üzrə Koordinasiya qrupu;
- Aidiyyəti dövlət orqanlarının rəhbərlərinin müavinlərindən ibarət tərkibdə müvafiq sahələrə rəhbərlik üzrə İşçi qrupu. Buraya daxildir: İqtisadiyyat nazirinin müavini, Fövqəladə Hallar nazirninin müavini, Baş Prokurorun müavini, Kənd təsərrüfatı nazirliyinin, ASAN xidmətin nümayəndələri, D Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini və Maliyyə Nazirliyi Aparatının rəhbəri;
- Aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət tərkibdə işçi qruplar.

Bütövlükdə, Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Tərtər, Füzuli və Cəbrayıl, Goranboy və Naftalan, Gəncə, Mingəçevir rayon və şəhərləri üzrə 11 işçi qrupu yaradılıb. Tərtər rayonu üzrə dəymiş ziyanın miqyasını nəzərə alaraq 3 işçi qrupu formalaşdırılıb.

Koordinasiya qrupuna tapşırılıb ki, dövlət orqanlarının (qurumlarının) işlərinin əlaqələndirilməsi təşkil və təmin edilsin, həyata keçirilən tədbirlər üzrə analitik təhlillər aparılsın, statistik hesabatlar hazırlansın, görülən işlər barədə mütəmadi olaraq Komissiyaya məlumat verilsin.

İşçi qruplar mülki əhaliyə, dövlət əmlakına, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini təmin edərək və dəymiş ziyanın aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini 2020-ci il dekabrın 10-dək Komissiyaya təqdim edəcəklər (Elkington, 2004:78).

Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə, "Azərişıq" Qapalı Səhmdar Cəmiyyətinə və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırılıb ki, infrastruktur obyektlərinə dəymiş ziyanın

qiymətləndirilməsini təmin etsinlər və aradan qaldırılması üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini 2020-ci il dekabrın 1-dək Komissiyaya təqdim etsinlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb ki, dəymiş ziyana və onun aradan qaldırılmasına, o cümlədən zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin aparılmasına çəkilmiş xərclərə dair vahid məlumat bazasının formalaşdırılmasını 2020-ci il dekabrın 10-dək təmin etsin.

Xatırladırıq ki, 27 sentyabrdan sonra Ermənistanın təcavüzü nəticəsində təqribən 3 700 obyektə müxtəlif dərəcəli ziyan dəyib.

Evində yaşayışın mümkün olmadığı vətəndaşlar müvafiq mənzillərdə yerləşdiriliblər.

Qiymətləndirməni həyata keçirmək məqsədilə yerli özəl qiymətləndirmə şirkətlərinin də prosesə cəlb olunacaq.

Eyni zamanda dəymiş ziyanın qiymətləndirilməsi üçün xarici şirkətlərin də cəlb olunması istiqamətində XİN tərəfindən iş aparılır.

Xarici işlər Nazirliyi Prezidentin Sərəncamından irəli gələn tapşırığa əsasən vurulmuş "ziyana və onun aradan qaldırılmasına, o cümlədən zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin aparılmasına çəkilmiş xərclərə dair məlumatlarla beynəlxalq institutları təmin edəcək və bu istiqamətdə iş aparılır (Barbier, 1987:89).

Zaydan olan itkilər məhsulun maya dəyərinin formalaşması zamanı sair xərclər kimi uçota alınır.

Məhsulların istehsalı zamanı zay olmuş məhsullarla bağlı istehsal sahəsinin məsul şəxsi (sex rəisi (müavini) və s.) tərəfindən "Zay məhsullara dair akt" (Forma N ZMDA-1) tərtib edilir.

Düzəldilməsi mümkün olan və ya material ehtiyatı kimi istifadə edilə bilən zay məhsullar "Zay məhsulların təhvil-qəbul aktı" (Forma № ZMTQA-1) ilə anbarın məsul şəxsinə verilir.

Hazır məhsulların zay olması "İtmiş, əskik gəlmiş, xarab və ya zay olmuş və oğurlanmış mallar barədə akt"la (Forma N İƏM-1) sənədləşdirilir. Həmin akt vergi ödəyicisinin (və ya onun səlahiyyətli nümayəndəsinin), məsul şəxsin və malları anbara təhvil verən şəxsin imzaları ilə təsdiqlənir.

Malların zay olması fövqəladə hallar nəticəsində baş verdikdə, aidiyyəti dövlət orqanlarının verdikləri arayışlar əsasında həmin mallar məsul şəxslərin hesabından silinə bilər. Bu zaman "Fövqəladə hallarda malların itməsi, əskik gəlməsi və xarab və ya zay olması barədə akt" (Forma N FİƏM-1) tərtib olunur.

İstehsalat həcmi böyükdürsə və proseslər qəlizdirsə bu zay məhsulun ümumi istehsala olan faiz nisbəti daha çox olur. İstehsal rəhbərləri və HR menecerlər daima bu zay məhsul miqdarının azaldılması üçün müxtəlif planlar hazırlayır və tədbirlər görürlər. Məhsulun zay olmasının aşağıdakı səbəbləri ola bilər (Əliyev, 2016:230).

- İstehsalatda istifadə olunan xammadə və materialın zay olması və bu şəkildə istehsalata buraxılması. Bu halda, məsuliyyəti təchizat, logistika, anbar, keyfiyyət funksiyaları daşımalıdır. Ən böyük məsuliyyət isə keyfiyyətin üzərinə düşür. Belə ki, istehsalata girən və istehsalatdan çıxan bütün malların keyfiyyətinə bu bölmə tərəfindən ciddi nəzarət aparılmalıdır.
- Avadanlıqların səbəb olduğu zay məhsular. Avadanlığın xarab olması səbəbi ilə, məhsulların istehsalatında, qablaşdırılmasında müxtəlif fiziki vəya kimyəvi təxribatlar və defektlər yarana bilər. Bu halda məsuliyyət ən çox texniki heyətin üzərinə düşür. Təbii ki, avadanlığı istifadə edən işçi də problemlə bağlı vaxtında lazımi şəxslərə məlumat verməli və lazımi tədbirləri görməlidir.
- Avadanlığı istifadə edən işçinin səbəb olduğu zay məhsullar. Ümumiyyətlə, bu cür problemlərə daha çox rast gəlinir. İşçinin yorğunluğu, təcrübəsizliyi, həvəssizliyi, bacarıqsızlığı vəya pis niyyəti məhsulların zay olmasına gətirib çıxarda bilər. Bu mövzu üzərində ciddi dayanılmalı və bacarıldığı qədər zay məhsul nisbətinin azaldılmasına səy göstərilməlidir.

İstehsalatda zay məhsulların uçotu üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydalarında xüsusi hesab nəzərdə tutulmasada, hesablar planında olan 207 "Digər ehtiyatlar" hesabına 207.1 "İstehsalatda zay" subhesab açmaq ilə istifadə etmək olar.

- Hesabın debeti üzrə müəyyən edilən daxili və kənar zay üzrə məsrəflər toplanır. Hesabda həm düzəldilməsi mümkün olmayan zay məhsulların dəyəri, həm də düzəldilməsi mümkün olan zay məhsulların düzəldilməsi üçün çəkilən məsrəflər qeyd edilir.
- Hesabın krediti üzrə zay məhsullardan yaranan itkiləri azaldan məbləğlər əks olunacaq: sonradan istifadə edilə bilən zay məhsulun dəyəri, zay məhsulun səbəbkarlarının əmək haqqlarından tutulan məbləğlər, zay məhsuldan yaranan itkilərin əks olunması (Süleymanov, 2012: 230).

**Vergi uçotu**

İstehsal zamanı zay məhsullardan yaranan zərər mühasibat uçotunda müəssisənin məsrəflərinə aid edilə bilər, lakin, vergi uçotunda bu tip məsrəflər əsaslandırılmalıdır.

Belə ki, AR Vergi Məcəlləsinin 108-cü maddəsinə əsasən gəlirdən çıxılmayan xərclərdən başqa, gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər, həmçinin qanunla nəzərdə tutulmuş icbari ödənişlər gəlirdən çıxılır. Nəticədə zay məhsula çəkilən xərlcər istehsal edilən məhsula çəkilən xərclər olmadığından onu vergi uçotunda xərclərə aid etmək olmaz. Və bu cür zərər müəssisənin xalis mənfəəti hesabına, və ya təqsirkar şəxslərin hesabına silinməlidir.

Eyni zamanda, İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydasının 7.3-cü bəndinə görə istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyicisi tərəfindən təqdim edilmiş hazır məhsulların satışı üzrə məsrəflər, o cümlədən yerinə yetirilən iş və göstərilən xidmətlərlə əlaqədar birbaşa məsrəflər, köməkçi istehsalatların xərcləri, əsas istehsala xidmət və onun idarə edilməsi ilə bağlı dolayı xərclər, zayolmadan əmələgələn itkilər və s. bu fəaliyyəti həyata keçirən şəxsin xərclərinə aid edilir. Ola bilsin ki, istehsalın xüsusiyyətlərindən asılı olaraq, orada daim müyyən faiz zay məhsul yarana bilər.

Qeyd etmək lazımdır ki, istehsal prosesi zamanı təbii itki normalarının müəyyən edilməsi xüsusi bilik və bacarıq tələb edir, və zay məhsulun yaranması texnoliji olaraq əsaslandırılmalıdır ki, onu xərclərə aid etmək mümkün olsun.

Bundan başqa, ƏDV ödəyicisi olan isehsalçı zay məhsullara çəkilən material məsrəflərinin dəyərini ƏDV-nə cəlb etməlidir. Belə ki, AR Vergi Məcəlləsinin 159.5-ci maddəsinə əsasən:

**AR Vergi Məcəlləsi, Maddə 159.5**

Vergi ödəyicisi malları (işləri, xidmətləri) ƏDV-ni ödəməklə əldə edirsə və müvafiq əvəzləşdirmə alırsa və ya almaq hüququna malikdirsə, belə mallardan (işlərdən, xidmətlərdən) qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi, fövqəladə hallardan başqa, malların itməsi, əskik gəlməsi, xarab olması, tam amortizasiya olunmadan uçotdan silinməsi və ya oğurlanması vergi tutulan əməliyyat sayılır.

Beləliklə, maddədən də göründüyü kimi, istehsalatda yaranan zay məhsul və ya hər-hansı xarab olan məhsul yalnız fövqəladə hallar (yanğın, sel və s.) olduğu zaman yaranıbsa ƏDV cəlb edilmir, digər hallarda isə cəlb edilməlidir.

Müəssisə mühasibat uçotunun və hesabatının düzgünlüyünü və tamlığını yoxlamaq üçün vaxtaşırı öz aktivlərini, öhdəliklərini, hesablamalarını, kapitalını və s. maddi sərvətlərin və ümumilikdə balansın bütün aktiv və passivlərinin inventarını aparmaq.

2. İnventarizasiyanın məcburi olduğu hallar istisna olmaqla, hesabat ilində inventarların sayı, onların inventarlaşdırılması müddətləri, bu inventarların hər birində yoxlanılmalı olan əmlak və öhdəliklərin siyahısı müəssisə tərəfindən müəyyən edilir.

3. İnventarlaşdırma aşağıdakı hallarda tələb olunur:

- müəssisə əmlakı icarəyə verdikdə, aldıqda, satdıqda, habelə dövlət və ya bələdiyyə müəssisəsinə, səhmdar cəmiyyətinə və ya başqa müəssisəyə yenidən təşkil edildikdə;
- illik maliyyə hesabatlarının tərtib edilməsinə qədər oktyabrın 1-dən gec olmayaraq əmlakın və öhdəliklərin cari vəziyyətini hərtərəfli yoxlamaq məqsədilə inventarizasiya aparılarkən;
- müəssisə ləğvetmə balansı tərtib edilənə qədər ləğv edildikdə və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda (Williams, Millington, 2004: 230).

4. Əsas vəsaitlərin inventarizasiyası üç ildən bir, kitabxana fondu isə beş ildən bir aparıla bilər.

5. Müəssisə inventarlaşdırmanın başlanması və başa çatması dövründə yeni yaradılmış maddi ehtiyatların hərəkətinə nəzarət edir.

6. İnventarlaşdırma və digər yoxlamalar zamanı faktiki əmlakın uçot məlumatlarından kənara çıxan məbləğlər aşağıdakı qaydada tənzimlənir:

Əsas vəsaitlərdən, maddi ehtiyatlardan, pul vəsaitlərindən və digər əmlakdan daxilolmalar, onların səbəbləri və təqsirkarları müəyyən edilərək təsərrüfat fəaliyyətinin həyata keçirildiyi yer üzrə maddi məsul şəxsin hesabına köçürülür və onların məbləğləri təsərrüfat fəaliyyətinin nəticələrinin (mənfəətinin) artırılmasına yönəldilir. müəssisələrdə və idarələrdə maliyyə (fondlar).

## Nəticə

Ermənistanın mənfur işğalçılıq hərəkətlərinin nəticələri müxtəlif mənbələrdən götürülmüş məlumatlar əsasında tədqiq olunmuş və insan sağlamlığının itirilməsi nəticəsində əhaliyə dəymiş humanitar-mənəvi zərərlər sarsıntılar keçirərək ömür müddətinin qısaldılması da diqqətə alınaraq ilkin olaraq hesablama aparılmışdır. Həmçinin, Ağdərə, Ağdam, Gədəbəy, Tovuz, Qazax, Göygöl, Tərtər, Ağcabədi, Füzuli, Qubadlı, Xocalı, Xocavənd, Kəlbəcər, Cəbrayıl, Xankəndi, Laçın, Zəngilan, Şuşa rayonlarından və Qərbi Azərbaycandan bir milyondan artıq qaçqın və məcburi köçkün əhali üzrə mülki vətəndaşlara, dövlət və qeyri-dövlət təşkilatlara dəymiş zərər haqqında məlumatları əhatə edən (ərizə, arayış, mal-materialların varlığı barədə külli miqdarda sənədlər toplanmış və həmin ərazilər üzrə hesablamalar davam etdirilərək, əhalinin uğradığı zərərə görə ilkin rəqəmlər müəyyən olunmuşdur.

## Ədəbiyyat

1. Abbasov, Q.Ə. ( 2018), Erməni təcavüü və Qarabağ.Nurlar, 219 s.
2. Süleymanov, E., Süleymanov, V. (2012), Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı, Elm, 318 s.
3. Əliyev, Q. (2016), Azərbaycanın iqtisadi vəziyyəti təhlil konseptində. Bakı, Elm, 219 s.
4. Barbier, E. (1987), The Concept of Sustainable Economic Development // Environmental Conservation. July Vol.14. Issue 2. 101-110.
5. Costanza, R., d'Arge, R, de Groot, R, Farber, St. (2007), The Value of the World's Ecosystem Services and Natural Capital // Nature. Vol. 387. 253-260.
6. Costanza, R., Daly, H.E. (2002), Natural Capital and Sustainable Development // Conservation Biology. Mar., Vol. 6. No. 1. 37-46.
7. Dyllick, T., Hockerts, K. (2002), Beyond the Business Case for Corporate Sustainability // Business Strategy and the Environment. № 11. 130-141.
8. Elkington, J. (2004), The Triple Bottom Line: Does it All Add Up? Assessing the Sustainability of Business and CSR // Edited by Adrian Henriques and Julie Richardson. Earthscan Publications. London. 1-16.
9. Jeffrey, D. Sachs. (2015), The Age of Sustainable Development / Columbia University Press. 544.
10. Williams, C.C., Millington, A.C. (2004), The Diverse and Contested Meaning of Sustainable Development / The Geographical Journal. Vol. 170. № 2. 99-104
11. https://nk.gov.az/az/article/1219/
12. www.muhasib.az/article.php?cat=2&n=541

**Rəyçi: i.ü.f.d. Ənvər Salahov**

Göndərilib: 09.04.2022 Qəbul edilib: 20.05.2022

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/132-137

**Zeynəb Əsgər qızı Hüseynova**
Heyvandarlıq Elmi - Tədqiqat İnstitutu
böyük elmi işçi
zeynebhuseyova1967@mail.ru
**Yusif Hilal oğlu Əbdüləzimov**
Heyvandarlıq Elmi - Tədqiqat İnstitutu
elmi işçi
yusif_ebdulezimov@mail.ru
**Sevinc Fərrux qızı Ağayeva**
Heyvandarlıq Elmi - Tədqiqat İnstitutu
sevincaqayeva1973@mail.ru

# CAMIŞLARIN MƏHSULDARLIĞININ YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTİNDƏ APARILAN DAMAZLIQ-SELEKSİYA İŞİ VƏ ALINAN MƏLƏZLƏRİN MÜQAYİSƏLİ ÖYRƏNİLMƏSİ

**Xülasə**

Camışçılıq heyvandarlığın gəlirli sahələrindən biridir. Odur ki, həmin sahənin inkişaf etdirilməsi və onun məhsuldarlıq göstəricilərinin artırılmasının zəruriliyi günün aktual problemlərindən biridir. Onların yetişdirilməsi üçün əlverişli şəraitin olması vacibdir. Belə ki, onlara əsasən subtropik, subekvatorial və ekvatorial iqlimin hakim olduğu ərazilərdə arealı daha yüksəkdir. Buna misal kimi onu göstərmək olar ki, inəklər-200 C şaxtaya dözdükləri halda, camışlar artıq-1° C-də çətinlik çəkir. Səbəb isə onun piy qatının olduqca az olmasıdır. Camışdan alınan süd məhsulları keyfiyyət baxımından inək südünü üstələyir.

Azərbaycan camışının təkmilləşdirilməsi və bu əsasda böyük kütlə təşkil edən həmin qiymətli növün cinslərə ayrılması problemi üzərində dərin tədqiqat aparan prof. A.Ə.Ağabəyli camış növünün konstitusiyasını və eksteryerini əsaslı surətdə işləmişdir.

Camışların ən çox hissəsi Aran, Şəki-Zaqatala, Gəncə-Qazax, Lənkəran, Dağlıq Şirvan və Quba-Xaçmaz iqtisadi rayonlarında cəmləşmişdir.

Apardığımız tədqiqat işləri nəticəsində müəyyən olunmuşdir ki, yüksək süd məhsuldarlığına malik olan camışlar yetişdirmək üçün onların hələ körpəlikdən zootexniki qaydalara uyğun yetişdirilməsi ilə bərabər, saxlama rejimi də böyük təsir göstərir.

***Açar sözlər:*** *camışçılıq, cins, canlı kütlə, yemləmə, mələz, damazlıq, süni mayalanma*

**Zeynab Asgar Huseynova**
**Yusif Hilal Abdulazimov**
**Sevinj Farrukh Agayeva**

# Breeding and selection work carried out to increase the productivity of buffaloes and a comparative study of the obtained breeds

**Abstract**

Buffalo breeding is one of the most profitable areas of animal husbandry. Therefore, the need to develop this area and increase its productivity is one of the current problems of the day. It is important to have favorable conditions for their growth. Thus, according to them, the area is higher in areas dominated by subtropical, subequatorial and equatorial climates. An example of this is that while cows can withstand temperatures of-20° C, buffaloes have difficulty with temperatures of -1° C. The reason is that it has a very low fat content. Dairy products from buffaloes are superior to cow's milk in terms of quality.

Prof.A.A. Agabeyli conducted in-depth research on the improvement of the Azerbaijani buffalo, and on this basis has worked extensively on the constitution and exterior of the buffalo species with the problem of generalization of this valuable species which forms a large mass.

Most of the buffaloes are concentrated in Aran, Sheki-Zagatala, Ganja-Gazakh, Lankaran, Mountainous Shirvan and Guba-Khachmaz economic regions.

As a result of our research, it was found that in order to raise buffaloes with high milk yield, along with their breeding from infancy in accordance with zootechnical rules, the keeping also has a great impact.

***Key words:*** *buffalo breeding, breed, live mass, feeding, hybrid, breeding, artificial insemination*

## Giriş

Camışçılıq, Respublikamızda heyvandarlığın əsas və gəlirli sahələrindən biridir. Camışlar Azərbaycanın aran bölgələrində geniş yayılmşdır. Ümumi heyvandarlıq məhsulları istehsalında camış əti və südünün xüsusi çəkisi daha yüksəkdir.

Yaxşı yemləmə və qulluq şəraitində camışların süd və ət məhsuldarlığı heçdə ixtisaslaşdırılmış mədəni qaramal cinslərindən geri qalmır. Üstəlik yaxşı, şəraitdə camışlar özlərinin, maksimum potensial imkanlarını daha qabarıq şəkildə biruzə verirlər. Respublikda son illərdə aparılan aqrar islahatlar nəticəsində yeni təşkil edilmiş kəndli-fermer təsərrüfatları camışçılığın inkişaf etdirilməsində mühüm nailiyyətlərə sahib olmuşdur. Məhz buna görə də camışların mövcud yemləmə-saxlama şəraitinin təkmilləşdirilməsini daha səmərəli metodunun işlənib hazırlanması və geniş tətbiqinə nail olmaq vəzifəsi qarşıya qoyulmuşdur (11).

Belə ki, mələzləşdirmə işini genişləndirərək daha da inkişaf etdirilməsi məqsədi ilə bir sıra damazlıq işlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. "Azərbaycan" camışı cinsinin məhsuldarlıq və damazlıq keyfiyyətlərində olan bəzi nöqsanların aradan qaldırılması lazımdır. Burada məqsəd yerli camışların genetik ehtiyatlarından istifadə etməklə irsi əlamətlərini gələcək nəsilə daha davamlı keçirən yüksək məhsuldar, yaxşı törəmə qabiliyyətinə malik olan camış naxırları yaratmaqdır.

Ümumi heyvandarlıq məhsulları istehsalında camış əti və südünün xüsusi çəkisi daha yüksəkdir. A.M.Quluyev göstərir ki, camışların süd məhsuldarlığı ilə yağ faizi arasında olan qarşılıqlı əlaqəyə görə 4 cins daxili tiplər mövcuddur. Tiplər üzrə sağımla yağ faizi arasında korrelyativ əmsal mütləq səviyyədə (r=+0,45-0,25) olmuşdur (Quluyev, 2011: 11). R.Ə.Nağıyevin, A.A.Abadovun və M.B.Həziyevin yazdıqlarına görə, camışların yemləmə və bəsləmə şəraitini yaxşılaşdırmaqla həmin sahənin iqtisadi səmərəliliyini artırmaq mümkündür. (Nağıyev R, Abadov A və Həziyev M. 2004, s.153).

R.Ə.Nağıyev və M.B.Həziyev qeyd etmişlər, ki camışlardan ildə bir bala almaq və normal sağılması üçün süddən qurutma dövrünün 50-60-%-nin, servis müddətinin 40-50 gün olması kifayətdir. Bunları heyvanların düzgün yemləmə və bəsləmə şəraitində saxlanması yolu ilə nizama salmaq, eyni zamanda intensiv bəsləmə ilə kəlçələrin tezyetişkənliyini əldə etmək mümkündür ki, buda camışların gələcəkdə ət və süd məhsuldarlığının daha da çoxalmasına və fermerlərin iqtisadi gəlirlərinin artmasına səbəb olur.

Bütün ətlik və südlük camışlarda gələcək süd məhsuldarliğin formalaşması onların balalarının hələ ana bətnindən başlayaraq, sonralar isə istiqamətli bəslənməsindən, yemlənməsindən və saxlanmasından bilavasitə asılıdır. Cavanların bu dövrdə boy və inkişafın həmcinin eksteryer ölcülərinin və diri cəkisinin fərqli olması, xarakteri onların qələcək məhsuldarlığı üçün əsas meyar sayılır (Nağıyev, 2004:121).

Camışların məhsuldarlığını daha da yüksəltmək istiqamətində təkmilləşdirilməsi vacibdir.

Damazlıq nöqteyi nəzərdən ən yaxşı yüksək məhsuldar camışların balaları seçilir. Damazlıq qrupuna mənsub camışlardan alınan balalar döllük istiqamətində yetişdsirilir, onlar təsərrüfatın ön naxırının təmiri və daha da təkmilləşdirilməsi üçün istifadə edilir. Aparılan elmi tədqiqatlar nəticəsində camışçılığı daha da inkişaf etdirmək məqsədilə yüksək məhsuldar "Murrah" camışı cinsli kəllərin toxumu ilə "Azərbaycan" camışının süni mayalndırılmasını həyata keçirilməklə, alınmış mələzlərin süd məhsuldarlığı 20-30 %, canlı kütləsi isə 10-15 % yerli camışlara nisbətən çox olmuşdur.

Mələzləşdirmə işini genişləndirərək daha da inkişaf etdirilməsi məqsədi ilə bir sıra damazlıq işlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Odur ki, "Azərbaycan camışı" cinsinin məhsuldarlıq və damazlıq keyfiyyətlərində olan bəzi nöqsanların aradan qaldırılması lazımdır. Burada məqsəd yerli

camışların genetik ehtiyatlarından istifadə etməklə irsi əlamətlərini gələcək nəsilə daha davamlı keçirən yüksək məhsuldar, yaxşı törəmə qabiliyyətinə malik olan camış naxırları yaratmaqdır.

Qeyd etmək lazımdır ki, süni mayalandırma yolu ilə alınmış mələzlərdən ancaq normal yemləmə və bəslənmə şəraitində lazımı səmərə əldə etmək mümkündür. Təcrübələr göstərmişdir ki, hər hansı bir cinsi digər cinsin köməyi ilə qısa müddətdə yaxşılaşdırmaqla bu üsul yaxşı nəticə verir. Mələz heyvanlar isə yüksək məhsuldarlığa və yaşama qabiliyyətinə malikdirlər. Süni mayalandırma yolu ilə yaradılmış mələz camışlar isə yüksək məhsuldarlığa malik olurlar (Bəşirov, 2011:28).

## Elmi tədqiqat işinin materialı və metodikası

Elmi-tədqiqat işi Yevlax rayonunun "Məmmədli" fermer təsərrüfatında aparılmışdır. İşin metodikasına əsasən aşağıdakı tədqiqat işləri yerinə yetirilmişdir.

Doğulan kəlçələr 3, 6, 9, 12 və 18 aylıqda onların inkişaf dinamikaları müqayisəli öyrənilmişdir.

Camışların laktasiya müddətində süd məhsuldarlığı öyrənilən zaman aşağıdakı faktorlar nəzərə alınmışdır.

1. Camışların süd məhsuldarlığının öyrənilməsi
2. Canlı kütlə və bədən ölçüləri
3. Laktasiyanın davamı (günlə)
4. Servis dövrü (günlə)
5. Qurutma və doğum arası dövr (günlə)

Süd məhsuldarlığı və süddə yağ faizi ayda bir dəfə nəzarət (səhər və axşam) sağımında götürülən orta süd nümunəsindən təyin edilmişdir.

"Azərbaycan" camışı və yeni alınmış "Mələz" camışın məhsuldarlığının müqayisəli öyrənilməsi, heyvanların süd məhsuldarlığının 305 günlük və yaxud laktasiya müddətində, onun canlı kütlə ilə əlaqədarlığı, süddə yağ faizinin təyini aparılmışdır.

## Aparılmış tədqiqat işinin təhlili və alınan nəticələr

**Tədqiqatın məqsədi:** Camışların məhsuldarlığının yüksəldilməsi istiqamətində aparılan damazlıq-seleksiya işlərinin təkmilləşdirilməsi və genofondun qorunması, yeni mələzlərin yaradılmasına nail olmaq.

Camış cinsinin genofondunun qorunub saxlanması məqsədilə, cinsin xüsusiyyətlərini özündə daşıyan ana camışlar seçilərək, respublikaya gətirilmiş yüksək məhsuldar camış cinsləri törədicilərinin toxumları ilə süni mayalandırma yolu ilə alınan yeni mələz balaların məhsuldarlıq göstəricilərinin müqayisəli şəkildə öyrənməklə yeni rəqabət qabiliyyətli məhsuldar camış naxırının yaradılması.

Dişi kəlçələrin 18 aylığında həvəsə gəlməsini təmin edən yeni texnoloji üsullardan istifadə etmək.

İstehsal olunan məhsulun keyfiyyətinin yaxşılaşdırılması, fermerlərin gəlirinin artması ilə təsərrüfatın rentabelli iqtisadi inkişafını təmin etmək işin əsas məqsədlərindən biridir.

Azərbaycanda camışçılığın inkişafında yetişdirmənin 2 üsulundan istifadə olunur:

1. Təmizlikdə yetişdirməsi-"Azərbaycan" camışı cinsinə mənsub olan ölkə fərdlərinin çarpazlaşdırılması.
2. Bu üsulla məqsəd cinsin genetik xüsusiyyətlərindən əldə olunmuş məhsuldarlıq və damazlıq göstəricilərinin yeni nəsildə möhkəmləndirilməsi və təkmilləşdirilməsidir.
3. Cinsarası çarpazlaşdırma-"Azərbaycan" camışı cinsinin xarici ölkələrdən gətirilmiş məhsuldar camış cinsinin toxumu ilə mayalandırılması.

Camışların damazlıq və məhsuldarlıq keyfiyyətlərinin artırılması məqsədilə genetik-seleksiya işinin yüksəldilməsi, yeni mələzlərin alınması və təkmilləşdirilməsi ilə "Azərbaycan" camışı və yeni alınmış mələz camışların məhsuldarlıq göstəricilərinin müqayisəli öyrənilməsi.

## Nəticə

Metodikaya əsasən Yevlax rayonu, Qoyunbinəsi kəndində yerləşən "Məmmədli" kəndli fermer təsərrüfatında, təcrübə qrupu üçün 10 baş "Azərbaycan camışı", nəzarət qrupu üçün 10 baş "Murah camışı" seçilmişdir. Həm təcrübə, həm də nəzarət qruplarına seçilən camışların diri çəkiləri, süd məhsuldarlığı, doğum tarixləri bir-birinə uyğun götürülmüşdür və hər iki qrupda yeni doğulan kəlçələrin canlı kütlələri ayrı-ayrı yaşlar üzrə öyrənilmişdir. Doğulduqda kəlçələrin canlı kütlələri 26-28 kq

arasında olmuşdur. Təcrübəyə qoyulmuş kəlçələrin diri çəkisi, eksteryeri, bədən ölçüləri (doğulduqda, 3, 6, 9, 12 və 18 aylıqda) öyrənilmişdir.

*Cədvəl 1*

**Kəlçələrin yaş və qruplar üzrə canlı kütləsinin öyrənilməsi**

| Yaşı ayla | I qrup Təcrübə | II qrup Nəzarət |
|---|---|---|
| | Canlı kütlə, kq | Canlı kütlə, kq |
| Doğulanda | 28 | 26 |
| 3 aylıqda | 94 | 90 |
| 6 aylıqda | 164 | 153 |
| 9 aylıqda | 187 | 172 |
| 12 aylıqda | 230 | 222 |
| 18 aylıqda | 280 | 270 |

1-ci cədvəldən göründüyü kimi kəlçələrin qruplar üzrə orta hesabla canlı kütləsi doğulduqdan başlayaraq müxtəlif olmuşdur. Belə ki, I qrup təcrübə heyvanlar, II qrup nəzarət heyvanlara nisbətən daha intensiv inkişaf etmişdir. Apardığımız elmi tədqiqat işlərinin nəticələri göstərmişdir ki, yüksək məhsuldar camış cinslərin toxumlarından istifadə etməklə yüksək məhsuldar mələzlər əldə etmək mümkündür.

Təcrübə üçün müqayisəli olaraq 2 baş kəlçənin bədən ölçüləri götürülmüşdür.



*Cədvəl 2*

**Kəlçələrin bədən ölçülərinin aylar üzrə öyrənilməsi, təcrübədə**

| Ölçülər sm-lə | n | 6 aylıqda | n | 12 aylıqda |
|---|---|---|---|---|
| Cidov hündürlüyü | 5 | 90 | 5 | 107 |
| Sağrının hündürlüyü | 5 | 94 | 5 | 109 |
| Döşün eni | 5 | 23 | 5 | 27 |
| Döşün qucumu | 5 | 115 | 5 | 136 |
| Alının eni | 5 | 15 | 5 | 19 |
| Başın uzunu | 5 | 25 | 5 | 35 |

*Cədvəl 3*

**Kəlçələrin bədən ölçülərinin aylar üzrə öyrənilməsi, nəzarətdə**

| Ölçülər sm-lə | n | 6 aylıqda | n | 12 aylıqda |
|---|---|---|---|---|
| Cidov hündürlüyü | 5 | 85 | 5 | 100 |
| Sağrının hündürlüyü | 5 | 89 | 5 | 104 |
| Döşün eni | 5 | 19 | 5 | 23 |
| Döşün qucumu | 5 | 111 | 5 | 122 |
| Alının eni | 5 | 13 | 5 | 17 |
| Başın uzunu | 5 | 23 | 5 | 31 |

*Cədvəl 4*

**Heyvanların gündəlik yem norması**

| S/S | Yemlər | Təcrübə | | Nəzarət | |
|---|---|---|---|---|---|
| | | kq | Enerji dəyəri(kcal) | kq | Enerji dəyər(kcal) |
| 1 | Arpa yarması | 2,5 | 3 | 2,5 | 3 |
| 2 | Buğda yarması | 2 | 2,5 | 2 | 2,5 |
| 3 | Yonca otu | 4 | 2 | 4 | 2 |
| 4 | Küləş | 3 | 1 | 3 | 1 |
| 5 | Yalama duzu | 0,1 | - | 0,1 | - |
| Cəmi | | 11,6 | 8,5 | 11,6 | 8,5 |

Cədvəl 3-dən görünür ki, kəlçələrin gündəlik yem norması, eyni olmasına baxmayaraq onların inkişaf dinamikası müxtəlif olmuşdur.

*Cədvəl 5*

**Süd məhsuldarlığının müqayisəli öyrənilməsi**

| Göstərici | 1 laktasiya | |
|---|---|---|
| | Azərbaycan camışı | Mələz camış |
| Canlı kütlə, kq | 350 | 370 |
| Hər camışdan sağılan süd, orta hesabla, kq | 1115 | 1350 |
| Süddə yağ % orta hesabla | 7 | 8,5 |

Elmi tədqiqat işinin təcrübələrinin ilkin nəticələri (5 cədvəl) göstərir ki, mələz heyvanların laktasiya üzrə süd sağımı 1115-1350 kq və yaxud 18 % yerli heyvanlara nisbətən artıq olmuşdur.

## Ədəbiyyat

1. Aghabayli, A. (1980), The book of Azerbaijani buffaloes, Baku: Azerneshr.
2. Babayev, A. (1986), The importance of buffalo breeding, Baku: Azerneshr.
3. Bashirov, E. (2011), Scientific bases of animal husbandry development in Azerbaijan, Baku
4. Ziya. Naghiyev, R. (2004), Influence of intensive feeding on the growth and development of calves, Collection of scientific Works of AZ SRIAH Baku:Azerneshr.
5. Naghiyev, R, Haziyev M. (2004), Effect of buffalo birth season on milk yield and some derivative features, Collection of scientific Works of Az.SRİAH, Baku: Azerneshr.

6. Naghiyev, R, Abadov A, Haziyev M. (2004), Application of technology to increase the productivity of buffaloes by improving their storage conditions, Agrarian Scientific Journal, Baku: Taraqqi.
7. Naghiyev, R., Haziyev, M. (2009), Relation between milk yield and live weight of Murrah buffalo. Az.agrarian Scientific Journal, Baku: Azerneshr.
8. Naghiyev, R. (2011), Ecological features of buffaloes Journal of Ecological Agriculture. Baku: Azerneshr.
9. Turabov, T, Huseynov İ. (1993), Development of buffalo breeding, Agrarian Scientific Journal, Publishing House, Baku: Taraqqi.
10. Kuluyev, A. (2011), The formation of buffalo selection for fat-milk types and the results of the evaluation of offspring by generational qualities. Ganja: Aytaj.
11. www.aqro.gov.az 2022

**Rəyçi: a.e.f.d. Qafar Məmmədov**

Göndərilib: 12.04.2022 Qəbul edilib: 17.05.2022

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

DOI: https://www.doi.org/10.36719/2789-6919/09/138-142

**Elcan Fikrət oğlu Qurbanov**
Milli Aviasiya Akademiyası
magistrant
elcanqurbanovatgti@gmail.com

# DƏYİŞƏN CƏRƏYAN ŞƏBƏKƏLƏRİNDƏ REAKTİV GÜC KOMPENSASİYALI ELEKTRİK TƏCHİZATI SİSTEMİNİN ENERJİ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI

**Xülasə**

Dəyişən cərəyan şəbəkələrində reaktiv güc kompensasiyası elektrik təchizatı sisteminin enerji səmərəliliyini artırmağa imkan verir ki, bu da dəmir yolu hissəsinin çıxıntı və daşıma qabiliyyətinin artmasına gətirib çıxarır. Dartı yarımstansiyasında reaktiv güc şaquli kompensasiya cihazının keçid mərhələsinin seçilməsi dartıcının yükünün simmetrikləşdirilməsi zərurəti ilə müəyyən edilir. Reaktiv güc şaquli kompensasiya qurğularını dartı yarımstansiyasında faza geri qalma mərhələsinə daxil etmək tövsiyə olunur. Qeyd edək ki, RGK-nın quraşdırılması zamanı dartı güc təchizatı şəbəkəsinin kontakt şəbəkəsində gərginlik artımı 29 kV-a bərabər maksimum icazə verilən qiymətdən çox olmamalıdır. Müqavimət seçimi halında digər yarımstansiyalardan olan yüklərin minimal qiymətini nəzərə almaq zəruridir.
***Açar sözlər:*** *kontakt şəbəkəsi, dartı elektrik təchizatı sistemi, reaktiv güc kompensasiyası, dartı şəbəkəsi, şaquli kompensasiya, reaktiv gücün şaquli kompensasiyası*

**Eljan Fikret Gurbanov**

# Improving the energy efficiency of reactive power compensated power supply systems in alternating current networks

**Abstract**

Reactive power compensation in alternating current networks allows to increase the energy efficiency of the power supply system, which leads to an increase in the protrusion and carrying capacity of the railway section. The selection of the transition phase of the reactive power vertical compensation device at the traction substation is determined by the need to symmetrize the traction load. It is recommended that reactive power vertical compensation devices be included in the phase lag phase at the traction substation. It should be noted that during the installation of the RGK, the voltage increase in the contact network of the traction power supply network should not exceed the maximum allowable value of 29 kV. In the case of resistance selection, it is necessary to take into account the minimum cost of cargo from other substations.
***Key words:*** *contact network, traction power supply system, reactive power compensation, traction network, vertical compensation, vertical reactive power compensation*

## Giriş

Dartı şəbəkəsində elektrik enerjisinin keyfiyyəti dəmir yolunun etibarlılığının əsas göstəricilərindən biridir. Hazırda dəmir yolunun qeyri qənaətbəxş gərgilik çatışmazlığı var. Bunun səbəbi dartı istifadəçiləri -xətti yük rejiminə, müxtəlif əməliyyat rejimlərinə, elektrik qəbuledicinin yüksək gücə malik olmasıdır. Həmçinin, dartı şəbəkəsi olduqca uzundur və asimmetrik yükə malikdir.

Kontakt şəbəkəsi dartı elektrik şəbəkələrinin əsas vahidlərindən biridir. Onun böyük uzunluğu var ki, bu da dartı komplektinnin yüksək quraşdırma elektrik gücü ilə birlikdə şəbəkədə əhəmiyyətli gərginlik itkilərinə gətirib çıxarır. Bu baxımdan tələb olunan səviyyədə gərginliyin saxlanması problemi aktuallaşır.

Dartı elektrik təchizatı sistemində sistemin müqavimətlərinin elektromaqnit təsiri ilə bağlı bir neçə çatışmazlıqlar vardır. Diger çatışmazlıq isə yük cərəyanın asimmetriyasıdır. Assimetriya kontakt şəbəkəsinin özünün 3 fazal olması, elektromotlu kompozisiya şəklində şəbəkənin yüklənməsi isə tək fazalı olmasıdır (Bessonov, 2010: 321-323). Növbəti problem selvari gərginlik prosesinin təhlükəsidir.

## Material və metod

Yuxarıda göstərilən bütün çatışmazlıqların təsiri reaktiv güc kompensasiya edən qurğuların şəbəkəyə daxil edilməsi ilə kompensasiya oluna bilər. Dəyişən cərəyan şəbəkələrində reaktiv güc kompensasiyası elektrik təchizatı sisteminin enerji səmərəliliyini artırmağa imkan verir ki, bu da dəmir yolu hissəsinin çıxıntı və daşıma qabiliyyətinin artmasına gətirib çıxarır.

Əgər inkişaf etmiş fazanın yükü geri qalma mərhələsinin yükünü əhəmiyyətli dərəcədə üstələyirsə, onda həm geri qalan, həm də aparıcı mərhələlərdə reaktiv qüvvənin şaquli kompensasiyası üçün qurğunun quraşdırılması variantını nəzərdən keçirmək zəruridir.

Dartı yükündə əhəmiyyətli dalğalanma olan dəmir yollarının bölmələrində reaktiv gücün şaquli kompensasiyası üçün sazlayıcı qurğulardan istifadə etmək məsləhət görülür. Bu, sərf olunan reaktiv güc qüvvəsini addım-addım (tək və ya çox bağlı qurğular) və ya hamar (statik tiristor kompensatorları) dəyişməyə imkan verir (Chernykh, 2008: 124-126).

Reaktiv gücün şaquli kompensasiyasında (RGŞK) reaktiv gücün kompensasiyası qurğusu yükə ardıcıl qoşulur.Bu kompensasiya cihazı vasitəsi ilə sistem müqavimətinin induktiv komponenti azalır, həmçinin güc əmsalı yaxşılaşır. Bu təkmilləşmənin səbəbi cərəyan və gərginlik arasındakı faza sürüşmə bucağının azalmasıdır. Reaktiv gücün kompensasiyasının həll etdiyi əsas vəzifələri sadalayaq:

Dartı yarımstansiyası və elektrik təchizatı sisteminin elektrik enerjisi itkilərinin azaldılması;

1. Dartı yarımstansiyası və rekuperativ tormozlama rejimlərində reaktiv güc sərfiyyatının səviyyəsinin azaldılması;
2. Dartı şəbəkəsində gərginlik itkilərinin azalması və dəmir yolu hissəsinin buraxılış və daşıma qabiliyyətinin artırılması;
3. Dartı şəbəkəsində gərginliyin qeyri-sinusoidallıq səviyyəsinin azalması.

Problemlərin həlli daha yüksək harmoniklərin səviyyəsini azaltmaq məqsədi ilə reaktiv güc kompensasiyası qurğularının quraşdırılması və filtr-kompensasya qurğularının istifadəsi, yəni, gərginliyin qeyri-sinusoidallığı ilə olur.

Eninə kompensasiya cihazının quraşdırma zamanı aşağıdakı şərtlər yerinə yetirilməlidir (Gakhramanov, 2016: 33).

1. Dartı yarımstansiyasında reaktiv güc şaquli kompensasiya cihazının keçid mərhələsinin seçilməsi dartıcının yükünün simmetrikləşdirilməsi zərurəti ilə müəyyən edilir. Reaktiv güc şaquli kompensasiya qurğularını dartı yarımstansiyasında faza geri qalma mərhələsinə daxil etmək tövsiyə olunur.

2. Əgər inkişaf etmiş fazanın yükü geri qalma mərhələsinin yükünü əhəmiyyətli dərəcədə üstələyirsə, onda həm geri qalan, həm də aparıcı mərhələlərdə reaktiv qüvvənin şaquli kompensasiyası üçün qurğunun quraşdırılması variantını nəzərdən keçirmək zəruridir.

3. Dartı yükündə əhəmiyyətli dalğalanma olan dəmir yollarının bölmələrində reaktiv gücün şaquli kompensasiyası üçün sazlayıcı qurğulardan istifadə etmək məsləhət görülür. Bu, sərf olunan reaktiv güc qüvvəsini addım-addım (tək və ya çox bağlı qurğular) və ya hamar (statik tiristor kompensatorları) dəyişməyə imkan verir.

4. Əgər dartı şəbəkəsində gərginliyin daha yüksək harmonik (qeyri-sinusoidallıq) səviyyəsini azaltmaq zəruridirsə,seksiyalı postda və ya Dartı yarımstansiyasında yerləşən filtr-kompensasion qurğular şaquli kompensasiya cihazları kimi istifadə olunur (German-Kalkin, 2001: 156-158).

İstehlakçılarının işlətdiyi cərəyanla ərazidə gərginlik düşgüsü arasındakı asılılıq aşağıdakı xüsusiyyətləri vardır.

1. Əgər RGŞK -nin quraşdırıldığı bu sahənin istehlakçısının cərəyanı RGŞK olan yerdən axırsa, onda gərginlik sıçrayışları istehlakçısının özündən asılıdır.
2. Əgər cərəyanlar RGŞK qurğusu vasitəsilə həm RGŞK nin quraşdırıldığı bu sahənin istehlakçısından, həm də ona bitişik sahələrin istehlakçılarının qarışıq dövrəsindən axırsa, o zaman gərginlik sıçrayışları RGŞK qurğusuna təsir edən istehlakçıların bütün cərəyanlarından asılıdır.

Qeyd edək ki, RGK-nın quraşdırılması zamanı dartı güc təchizatı şəbəkəsinin kontakt şəbəkəsində gərginlik artımı 29 kV-a bərabər maksimum icazə verilən qiymətdən çox olmamalıdır. Lakin əgər dartı şəbəkəsində RGK-nın gücünü seçərkən və EPS-in cari cərəyanqəbuledicidə minimal gərginlik səviyyəsinin qorunmasını təmin etmək üçün yoxlamanı yerinə yetirərkən, EPS-in cari cərəyan qəbuledicilərində minimal gərginlik səviyyəsinin artırılmasına ehtiyac varsa, onda reaktiv gücün kompensasiya qurğuları əlavə olaraq TP-yə yerləşdirilir (Grishchenko,2016: 42-45).

Elektrik lokomotivlərinin cari kollektorundakı gərginlik səviyyəsi, müqavimətləri əsas olan induktiv komponent olan dartı yarımstansiyalarının və dartı şəbəkələrinin transformatorlarında sistemdəki gərginlik itkisi səbəbindən daim dəyişir. Uzununa tutum kompensasiyası (UTK) fikri, bu elementlərin müqavimətinin induktiv komponentinin kondansatoru onlarla birlikdə bağlayaraq elektrik lokomotivlərinin cari kollektorundakı gərginliyə təsirini azaltmaqdır. UTK qurğuları elektrik xətlərindən başlayaraq elektrik lokomotivi ilə bitən elektrikləşdirilmiş bir dəmir yolunun enerji təchizatı sisteminin istənilən nöqtəsinə qoşula bilər, amma praktikada UTK qurğuları 27,5 kV tərəfdəki dartı yarımstansiyalarına quraşdırılır (German-Kalkin,2001: 48-49).

Dartı yarımstansiyanın sorma xəttinə daxil olan uzununa tutum kompensasiya quraşdırılması, yarımstansiyanın təchizat xəttinə qoşulduqda iş şəraitindən bir qədər fərqli şərtlərdə işləyir. Əsas fərq, cərəyanın yarımstansiyanın bir enerji təchizatı qolundan deyil, hər ikisindən axmasıdır. Bu, gərginlik itkisinə və buna görə də dartıcı yarımstansiya təchizatının hər iki qolundakı səviyyəsinə təsir göstərəcəyi deməkdir (Grishchenko,2016: 42-45).

Müqavimət seçimi halında digər yarımstansiyalardan olan yüklərin minimal qiymətini nəzərə almaq zəruridir. Bir fazalı transformatorların açıq üçbucaq sxeminə uyğun quraşdırılması təmin edildiyi üçün RGŞK-nin kompensasiyaedici qurğusu fiderə keçir. Bu qoşullma transformatorun özündə itkilərin olmasına yönəlib. Əgər transformatorda dolaq gərginlikləri "ulduz-üçbucaq" sxeminə əsasən bağlanırsa, o zaman gərginlik itkisini yalnız transformator dolaqlarının özündə kompensasiya etmək olar.

Transformator dolaqlarında gərginlik itkilərinə səbəb üfiqi kompensasiya qurğusunun qoşulduğu fiderdən axan cərəyanlardır.Qarışıq fider zonalarında gərginlik itkisi kompensasiya olunmayacaq. Belə zonalar müsbət o halda olur ki, qidalanma fazadan, mənfi isə, qabaqlayıcı fazadan qidalanma zaman yaranır. Əgər kompensasiya qurğuları kontakt şəbəkəsinin qidalanan zonası boyunca bərabər paylanarsa, gərginlik əyriləri sinusoidal formasından düz xətt formasına meyl edəcək, bu şərtlə ki, RGŞK qurğularının sayı artsın. (Kartashev,2000: 63-65).

Elektrik hərəkətli heyyət kompozisiyası kontakt şəbəkəsində RGŞK qurğusunun quraşdırılma yerindən keçdikdə, EPS-də gərginlik kompensasiya qurğusunun tutum müqavimətindən birbaşa asılı olaraq qəflətən dəyişir, yəni tutummüqaviməti nə qədər çox olarsa,elektrik lokomotivində gərginlik sıçrayışı bir o qədər çox olur. Bu səbəbdən, kompensasiyaedici qurğunun müqaviməti EPS-də gərginlik sıçrayışı ilə məhduddur.

Kontakt şəbəkəsində kompensasiya qurğularının olması 25 kV-luq şəbəkədə gərginliyin rezonansına səbəb olur. Gərginliyin sinusoidallığı təhrif olunur və kontakt şəbəkəsində ən yüksək harmonikanı süzməyə ehtiyac yaranır.

Tək harmonikalar kontakt şəbəkəsinin elektrik avadanlıqlarında əlavə itkilərə səbəb olur, avadanlığın izolyasiyasının həddən artıq aşınmasına və nəticədə qəzaya gətirib çıxarır. Reaktiv gücün kompensasiyası çətindir, elektrik enerjisində sərfiyyatının pozulması baş verir. Avtomatlaşdırma və rele mühafizə qurğularının fəaliyyəti uğursuzluğa qədər pisləşir (Khoroshilov, 2016: 18,125).

Uzununa tutum kompensasiyası (UTK) fikri, bu elementlərin müqavimətinin induktiv komponentinin kondansatoru onlarla birlikdə bağlayaraq elektrik lokomotivlərinin cari kollektorundakı gərginliyə təsirini azaltmaqdır. UTK qurğuları elektrik xətlərindən başlayaraq elektrik lokomotivi ilə bitən elektrikləşdirilmiş bir dəmir yolunun enerji təchizatı sisteminin istənilən nöqtəsinə qoşula bilər, amma praktikada UTK qurğuları 27,5 kV tərəfdəki dartı yarımstansiyalarına quraşdırılır (Markardt, 2006: 193-194).

Dartı yarımstansiyanın sorma xəttinə daxil olan uzununa tutum kompensasiya quraşdırılması, yarımstansiyanın təchizat xəttinə qoşulduqda iş şəraitindən bir qədər fərqli şərtlərdə işləyir. Əsas fərq, cərəyanın yarımstansiyanın bir enerji təchizatı qolundan deyil, hər ikisindən axmasıdır. Bu, gərginlik

itkisinə və buna görə də dartıcı yarımstansiya təchizatının hər iki qolundakı səviyyəsinə təsir göstərəcəyi deməkdir.

Belə zonalar müsbət o halda olur ki, qidalanma fazadan, mənfi isə, qabaqlayıcı fazadan qidalanma zaman yaranır. Əgər kompensasiya qurğuları kontakt şəbəkəsinin qidalanan zonası boyunca bərabər paylanarsa, gərginlik əyriləri sinusoidal formasından düz xətt formasına meyl edəcək, bu şərtlə ki, RGŞK qurğularının sayı artsın.

Tək harmonikalar kontakt şəbəkəsinin elektrik avadanlıqlarında əlavə itkilərə səbəb olur, avadanlığın izolyasiyasının həddən artıq aşınmasına və nəticədə qəzaya gətirib çıxarır. Reaktiv gücün kompensasiyası çətindir, elektrik enerjisində sərfiyyatının pozulması baş verir. Avtomatlaşdırma və rele mühafizə qurğularının fəaliyyəti uğursuzluğa qədər pisləşir (Meshceryakov, 2008: 18-20).

Tutum RGK-nın 27.5 kV-luq Dartı Yarımstansiyanın şinlərinin daxil edilməsi gərginlik rezonansının baş verməsi üçün şərait yaradacaq. Daha sonra rəqs konturu iki paralel budaq təşkil edir: birinci büdaq TP-nin sistemin induktiv müqavimətlərindən və transformatorlarından, ikinci budaq isə Dartı Yarımstansiyanın şəbəkəsinin və EPS-in induktiv müqavimətlərindən əmələ gəlir. EPS Ventillərinin komutasiyasının sonunda gərginlik sıçrayışı artır (bu dövr ərzində iki dəfə baş verir).

Şaquli kompensasiyası şəbəkəsinin istənilən yerində, güc mənbəyindən EHİH -ə qədər olan hissədə yerləşə bilər. Hər dəfə Şaquli kompensasiyası cihazının yerləşməsindən asılıolaraq EK qurğularının təsir və işləmə rejimləri dartı istehlakçıları üçün fərqli olacaq (10).

Əgər MPC qurğuları dartı yarımstansiyasının girişlərinə quraşdırılarsa, o zaman qida mənbəyindən yarımstansiyasının özünə qədər xəttdəki gəginlik itkisi kompensasiya olunacaq. Lakin digər yarımstansiyaların yüklərindən ona qədər olan xətt üzrə gəginlik itkilərini kompensasiya etmək mümkün olmayacaq, həmçinin bu yarımstansiyaların yükündən digər yarımstansiyalara olan itkiləri kompensasiya etmək mümkün olmayacaq (Pantelev, 2006: 148-150).

Transformator dolaqlarında gərginlik itkilərinə səbəb üfiqi kompensasiya qurğusunun qoşulduğu fiderdən axan cərəyanlardır.Qarışıq fider zonalarında gərginlik itkisi kompensasiya olunmayacaq. Belə zonalar müsbət o halda olur ki, qidalanma fazadan, mənfi isə, qabaqlayıcı fazadan qidalanma zaman yaranır (Yezhelenko, 1984: 52-53).

RGŞK -nin kompensasiya qurğusu gərginlik əyrilərinə mənfi təsir edir - orada cərəyanların qeyri-sinusoidal təbiəti vardır ki, o da yüksək harmonikanın hər bir tezliyə müvafiq gərginlik itkilərinə səbəb olur.

## Nəticə

Dartı yükündə əhəmiyyətli dalğalanma olan dəmir yollarının bölmələrində reaktiv gücün şaquli kompensasiyası üçün sazlayıcı qurğulardan istifadə etmək məsləhət görülür. Bu, sərf olunan reaktiv güc qüvvəsini addım-addım (tək və ya çox bağlı qurğular) və ya hamar (statik tiristor kompensatorları) dəyişməyə imkan verir. RGŞK qurğusunun danılmaz üstünlükləri var.Bunlara gərginlik itkilərinin reaktiv komponentləri üzərində hərəkətin avtomatikliyi və ətalətliliyi aiddir. RGŞK nin bu cür xüsusiyyətləri dartı şəbəkəsinin fəaliyyət şərtlərində çox üstünlük təşkil edir, çünki üzərində olan yük qəflətən və qeyri-sabitdir.

## Ədəbiyyat

1. Bessonov, L. (2010), Teoreticheskiye osnovy elektrotekhniki. Elektricheskiye skhemy uchebnik. Moskva, Vysshaya shkola.
2. Chernykh, I. (2008), Modelirovaniye elektricheskikh ustroystv v programmakh Matlab, SimPowerSystems i Simulink –Moskva, DMK Press; SPb: Piters.
3. Gakhramanov, N. (2016), Sistemy elektrosnabzheniya i elektricheskiye seti uchebnik / Khoroshilov N.V, Pilyugin A.V., Khoroshilova L.V., Biryulin V.I., Larin O.M. - 3-ye izdaniye, pererab. i lava. - Staryy Oskol: TNT.
4. 4.German-Kalkin, S. (2001), Kompyuternoye modelirovaniye poluprovodnikovy sistem v MATLAB 6.0 uchebnik / nemetskiy yazyk - Galkin S.G. - SPb: KORONA print
5. Grishchenko, A. (2016), Modelirovaniye vliyaniya tyagovoy elektricheskoy podstantsii na sistemu elektrosnabzheniya Materialy IV Praktika. nauchno-prakticheskaya konf., 2 tom. - Praga: Tipografiya "Maestro".

6. Kartashev, I. (2000), Kachestvo elektroenergii v sistemakh elektrosnabzheniya. Metody kontrolya i obespecheniye yego / pod red. Massachusets Kalukina. Moskva, Izdatelstvo MEI.
7. Khoroshilov, N. (2016), Sistemy elektrosnabzheniya i elektricheskiye seti uchebnik / Khoroshilov N.V., Pilyugin, A.V., Khoroshilova L.V., Biryulin V.I., Larin O.M.– Staryy Oskol: TNT.
8. Markvardt, K.(2006), Rukovodstvo po elektrosnabzheniyu zheleznykh dorog. Tom 1. ucheb. razresheniye. / Gerasimenko A.A., Fedin V.T. - Rostov n/D: Feniks.
9. Meshcheryakov, V. (2008), Ustroystva aktivnoy filtratsii-kompensatsii dlya sistem peredachi elektroenergii s postoyannym tokom. Monografiya. Koval. – Lipetsk.
10. Komitet OSZHD, (2015), Obshchiye metody vybora parametrov i otsenki effektivnosti primeneniya ustroystv kompensatsii reaktivnoy moshchnosti v tyagovoy seti peremennogo toka. g. Varshava.
11. Pantelev,V. (2006), Uchebnoye posobiye sostoit iz 3-kh chastey: EMS tekhnicheskikh sistem, elektricheskikh setey, sistem elektrosnabzheniya zheleznodorozhnogo transporta, podzemnykh kommunikatsiy. CH.1. Elektromagnitnyy effect. Krasnoyarsk: CHPI KarGTU.
12. Yezhelenko, I. (1984),Vysshiye garmoniki v sistemakh elektrosnabzheniya promyshlennykh predpriyatiy. Moskva. Energoatomizdat.

**Rəyçi: t.ü.f.d. Rəhim Rəhimov**

Göndərilib: 06.04.2022 Qəbul edilib: 15.05.2022

**İÇİNDƏKİLƏR**

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Ülkər Yaşar qızı Allahverdiyeva**
Tələbələrdə söz ehtiyatının zənginləşdirilməsi üçün şifahi
xalq yaradıcılığı nümunələrindən istifadənin əhəmiyyəti ..... 7
**Arzu Tofiq qızı İsgəndərzadə**
"Həqiqət" qəzetinin Azərbaycan mətbuatındakı yeri ..... 11
**Vəfa Həsən qızı Məmmədova**
Azərbaycanın sərhədyanı bölgələrində məşğulluğun və regional inkişafın təmin
edilməsində dağ turizminin rolu (Şəki-Zaqatala turizm bölgəsində) ..... 17
**Kənan Sadiq oğlu Orucov**
Azərbaycanın regionlarında turizm infrastrukturunun formalaşması və inkişafı ..... 22
**Nigar Arif Qurbanova**
İnzibati icraatda maraqlı şəxslərin iştirakı və işin hallarının obyektiv araşdırılması ..... 27
**Aytaj Mazahir Gurbanzadeh**
International sources and trademark rights ..... 31
**Leyla Murshud Zarbaliyeva**
International treaties on trademark ..... 35
**Emin Bayram Musayev**
What protects the legal regulation of trademarks ..... 40
**Şəhla Balakişi qızı Məmmədova**
Lənkəran iqtisadi-coğrafi rayonunda tarixi-mədəni turizmin inkişaf perspektivləri və
turizm obyektlərindən səmərəli istifadənin yolları ..... 44
**Gulandam Gunduz Guliyeva**
Legal liability and losses arising from pollution resulting from the activities of coastal
facilities: in Turkey sample ..... 48
**Rahid Vahid oğlu Bağırzadə**
Otelçilik fəaliyyətində göstərilən xidmətlər ..... 53
**Hüseyn İlqar oğlu Hüseynli**
İnkişaf etməkdə olan ölkələrdə valyuta məzənnəsi rejimi üstünlüyünün makroiqtisadi
performanslara təsirləri ..... 57
**Gulana Elchin Muradzade-Abdullayeva**
İnsan resursunun strateji idarəedilməsinin əhəmiyyəti ..... 62
**Mələkxanım Niyazi qızı Səfərli**
Rusiya-Ukrayna müharibəsində Rusiya-ABŞ rəqabəti ..... 68
**Fuad Azar Osmanov**
Concept of arbitration agreement and doctrine of separability ..... 72
**Müsəlləf Aydın oğlu Səməndərov**
Beynəlxalq idman oyunlarının beynəlxalq turizmə təsirləri ..... 78
**Fidan Hidayat Valiyeva**
Regional cooperation initiatives in the south Caucasus after the Second Karabakh war ..... 82
**Cəlil Eldar oğlu Kərimov**
Dövlət idarəçiliyində siyasi partiyaların rolunun müqayisəli təhlili ..... 86
**Nusrat Fikrat Ismayilzada**
Resilience-building approach in the context of european union foreign policy ..... 90
**Nazrin Namiq Taghiyeva**
Investigation of the design of vertical circulation elements in buildings within the context of
COVID-19 contaminatıon and determination of new design principles ..... 94

**Semral Bilal oğlu İbadov**
Beynəlxalq hüquqda və dövlətdaxili qanunvericiliklə təcavüz cinayətinin tövsifi problemi ........... 100
**Nurbəy Vahid oğlu Fərzəliyev**
Qafqaz Albaniyası dini tikililərinin bədii-ornamental tərtibatının spesifik özəllikləri ....................... 106
**Vasif Vüqar oğlu Hüseynov**
Sənaye müəssisənin istehsal potensialının müasir vəziyyəninin təhlili ....................................... 111
**Aysel Qardaşəli qızı Əliyeva**
Avropa monarxik dövlətlərində demokratikləşmə ............................................................................ 116
**Ülkər Yaşar qızı Allahverdiyeva**
Lüğət ehtiyatının zənginləşməsində atalar sözlərinin yeri və əhəmiyyəti ........................................ 119
**Ruslan Şahin oğlu Həsənzadə**
Dövlət idarəçiliyində sosial mediadan istifadə imkanları .................................................................. 123
**Şamil Asil oğlu Əhmədov**
Erməni işğali nəticəsində emal müəssisələrində yaranmış itkilərin iqtisadi mahiyyəti ............... 127

**TƏBİƏT ELMLƏRİ**
**NATURAL SCIENCES**

**Zeynəb Əsgər qızı Hüseynova, Yusif Hilal oğlu Əbdüləzimov,**
**Sevinc Fərrux qızı Ağayeva**
Camışların məhsuldarlığının yüksəldilməsi istiqamətində aparılan damazlıq-seleksiya işi
və alınan mələzlərin müqayisəli öyrənilməsi ........................................................................... 132

**TEXNİKA ELMLƏRİ**
**TECHNICAL SCIENCES**

**Elcan Fikrət oğlu Qurbanov**
Dəyişən cərəyan şəbəkələrində reaktiv güc kompensasiyalı elektrik təchizatı sisteminin
enerji səmərəliliyinin artırılması .................................................................................................... 138

İmzalandı: 27.05.2022
Formatı: 60/84, 1/8
H/n həcmi: 16,50 ç.v.
Sifariş: 529

https://aem.az saytında çap olunub
**Ünvan:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru